KİTABIN SAHİBİ: ______________________________

BAŞLADIĞI TARİX: ______________________________

BİTİRDİYİ TARİX: ______________________________

TƏƏSSÜRATLARINI BİZİMLƏ BÖLÜŞ:

ŞƏMİL SADİQ

# QORQUD ATANIN PIÇILTISI

MƏQALƏLƏR

Xan Nəşriyyatı

**Naşir** | Səbuhi Şahmursoy
**Redaktor** | Cavid Qədir
**Korrektorlar** | Arzu İsmayıl | Esmira İlyas
**Texniki redaktor** | Aytən Paşayeva
**Üz qabığının dizayneri** | Zülfiyyə Abbasova

**Bütün hüquqlar qorunur.**

**Biz seriyası** | Çağdaş yerli ədəbiyyat | **55**

**© Şəmil Sadiq** | **Qorqud Atanın pıçıltısı** | **məqalələr**
**© XAN Nəşriyyatı | Bakı | 2024 | 268 səh.**

**ISBN** | 9-7899-525-5747-3

**Telefon | (+994 77) 330 01 34**
**Sayt | www.xannesrleri.az**
**İmeyl | info@xannesrleri.az**

**facebook.com/xannesriyyati**
**instagram.com/xannesriyyati**
**twitter.com/xannesriyyati**

Şəmil Sadiqin bu kitabı Qorqud Atanın qopuzundan süzülüb gələn təranələrdən tutmuş ədəbi, mədəni və sosial mövzulara qədər müxtəlif aspektli məsələlərə işıq tutur.

Oxucu mütaliə etdikcə əmin olur ki, kitabdakı hər yazının özünəməxsus harmoniyası, ritmi, ruhu var. Bu harmoniya, bu ritm, bu ruh topluya doğmalıq, səmimiyyət qatır, müəlliflə oxucu arasındakı buzu əridir.

İnanırıq ki, təhsilin, ədəbiyyatın problemlərindən tutmuş türk yurdunun, türk ulusunun fəlsəfəsinə qədər bir çox məsələlərə işıq salan, genişmiqyaslı tədqiqat əsəri təsiri bağışlayan "Qorqud Atanın pıçıltısı" oxucular tərəfindən də seviləcək.

# İLHAM ƏLİYEV VƏ ORTAQ TÜRK DİLİ

Yüz ildən çoxdur, türk ziyalıları türk xalqları arasında ortaq dil məsələsini həll etmək üçün səy göstərir, təklif irəli sürür, elmi məqalələr yazır, konfranslar keçirirlər. Görülən işlərə rəğmən, təəssüf ki, problem hələ də qalmaqdadır. Etiraf edək ki, ortaq türk dili məsələsində Azərbaycan həmişə daha maraqlı olub, aparıcı rol oynayıb. Bunun da əsas səbəbi Azərbaycanın geostrateji əhəmiyyətə malik olmasıdır. Uzun müddət çar Rusiyasının, Sovet imperiyasının işğalı altında olan türk xalqları Türkiyədən uzaq düşüb; həm dil, həm mədəniyyət baxımından daha fərqli inkişaf prosesi keçib, amma azərbaycanca ilə türkcə türk dilləri Oğuz qrupuna aid edildiyi, digər tərəfdən qonşu dövlətlər olduğu üçün bu dil birliyi günü-gündən inkişaf edir. Çar Rusiyası, eləcə də Sovet imperiyasının asılılığında olduğumuz zaman Mərkəzi Asiya və digər türk xalqları ilə dərin əlaqələrimiz yaranıb. Bunlar birmənalı şəkildə göstərir ki, Azərbaycan körpüdür

və bu birliyin yaradılmasında əsas rol sahibidir. Son illərin siyasi proseslərinə diqqət yetirsək, bunu daha aydın görə bilərik.

Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaət türk xalqları arasındakı münasibətlərin güclənməsini bir daha şərtləndirdi. Düzdür, bu zəfərə qədər türk dövlətləri birlik, ortaq dil məsələsində xeyli yol qət etmişdi. Buna misal olaraq Türk Akademiyasının, Türk Kənəşinin yaradılması, ortaq türk ədəbiyyatı, tarixi və coğrafiyası dərsliklərinin hazırlanması kimi faktları göstərə bilərik. Lakin bu faza 44 günlük zəfərdən sonra daha da gücləndi.

Möhtəşəm qələbənin ardınca Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla birgə Mərkəzi Asiyada yerləşən türk dövlətlərinə səfərləri, sonradan türk dövlətlərinin müdafiə, iqtisadiyyat və təhlükəsizlik nazirlərinin birgə görüşləri, ortaq qərarlar verilməsi bunu bir daha sübut edir.

Bunların fonunda ortaq türk dili məsələsi bir daha gündəmə gəlir və tədqiqatçıların, alimlərin, institutların əməli və ciddi təkliflər verməsini şərtləndirmiş olur. Artıq əlifba mövzusu çözülməkdədir, çünki əksər türk dövlətləri latın əlifbasından istifadə qərarı alıb. Hələ ki xırda problemlər olsa da, deyə bilərik ki, əsas iş görülüb. Qanı bir, dili bir, ruhu bir türk xalqlarının birinciləri bir araya gələrkən hamımızı düşündürən əsas sual onların öz aralarında hansı dildə danışmaları olur; yəqin ki, rus və ya

ingiliscə. Düzdür, burada Azərbaycan və Türkiyənin problemi yoxdur, lakin Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkəmənistan dövlət başçıları ilə rahat ünsiyyətdə çətinlik yaranır. Qırğız və qazaxların da bir-birini rahat anlaması mümkündür. Türkmənistan da Türkiyə və Azərbaycanla ortaq türkcədə danışa bilir. Amma hamısının bir-birini daha rahat anlaması bu gün üçün mümkün deyil. Ortaq türkcə mövzusunda biz birmənalı olaraq Türkiyə türkcəsinin seçilməsi tərəfindəyik. Sonrakı dövrdə təbii yolla ortaq türkcə yaranacaq. Bunun üçün ilk olaraq digər türk dövlətlərinin Türkiyə türkcəsini ikinci dil səviyyəsində rəsmiləşdirməsi, məktəblərdə tədris edilməsi vacibdir. Bu gün defakto olaraq, onsuz da, bu proses gedir və xalqlar öz arasında ortaq ünsiyyət dili kimi Türkiyə türkcəsini qəbul etmişdir. Çünki Türkiyə türkcəsinin buna haqqı çatır. Bu dil hazırda türk xalqları içində ən çox danışılandır. Türkiyə iqtisadi, siyasi, mədəni, hərbi baxımından digər türk dövlətlərindən çox inkişaf edib dünyada daha çox qəbul edilir.

Bu məqalədə məqsədimiz ortaq türkcənin təbii yolla yaranacağını sübut etmək üçün Azərbaycan Respublikası Prezidentinin Türkiyə türkcəsinə dərindən hakim olmasını, nitqində ortaq türkcədən rahat şəkildə istifadə etməsini faktlarla göstərməkdir.

İlham Əliyevin ingilis, rus dillərini yüksək səviyyədə bilməsini hamımız bilirdik, amma türkcəni bu qədər dərindən bildiyini, açığı, bilmirdik. Bəzən bizə elə gəlir ki, söz sonlarına [yor] əlavə etməklə,

[ə] səsini [e], [q] səsini [k], [x] səsini [h] kimi tələffüz etməklə türkcə danışırıq. Sözsüz ki, bu türkcəni mükəmməl bilənlərə, mütəxəssislərə aid deyil. Lakin Vətən müharibəsi zamanı Cənab Ali Baş Komandanın Türkiyə mətbuatına verdiyi müsahibələri izlədikcə bir daha şahid olduq ki, İlham Əliyev nəinki Türkiyə türkcəsini çox yüksək səviyyədə bilir, hətta təfəkküründə, bir növ, nitqində ortaq türkcəni formalaşdırıb da.

Vətən müharibəsi ərəfəsində Azərbaycan Respublikasının Prezidenti müxtəlif ölkələrin mətbuatına dörd dildə müsahibələr verdi. Bu müsahibələrin əksəriyyəti canlı idi və İlham Əliyevin danışa-danışa sürətli və müdrik düşünmə qabiliyyətini bir daha sübut etdi. Türkiyə kanallarından gələn müxbirlərin suallarına verilən cavablar məzmunca zəngin idi, həmçinin prezidentimiz azərbaycanca danışmasına baxmayaraq, Türkiyə türkcəsindəki kəlmələri ustalıqla elə istifadə edirdi ki, nə Azərbaycan dilinə xələl gəlirdi, nə türkiyəli qardaşlar anlamaqda əziyyət çəkirdi.

Aşağıda verəcəyimiz nümunələrdən görünür ki, İlham Əliyev məhz o kəlmələri, ifadələri türkcə işlədir ki, həmin sözlər Türkiyə türkcəsində ya heç yoxdur, ya da çoxdandır ki, istifadə edilmir. Bu həm də çevik zəkanın göstəricisidir. Çünki insan hansı dildə düşünürsə, o dildə daha rahat danışır, amma müsahibələrdəki bu incə məqamlara fikir verdikdə bir daha görürük ki, cənab prezident hər iki dildə çox rahat düşünə bilir. Nitqi, əsasən, Azərbaycan

dilində olsa da, bəzi sözlərin qarşılığını Türkiyə türkcəsində istifadə edir.

Məqaləmizdə üç televiziya kanalına (12 oktyabr 2020, İlham Əliyevin Türkiyənin "Haber Global" televiziya kanalına verdiyi müsahibə; 13 oktyabr 2020, İlham Əliyevin Türkiyənin "Habertürk" televiziya kanalına verdiyi müsahibə; 16 oktyabr 2020, İlham Əliyevin Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibə) verilən müsahibələrdən bəzi faktları sizinlə bölüşürük.

13 oktyabr 2020, İlham Əliyevin Türkiyənin "Habertürk" televiziya kanalına verdiyi müsahibə:

"Sivillərə qarşı, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şey. Bu dəfə də bütün cəbhə boyu Azərbaycan ordusu uğurlu əməliyyat keçirərək bir kaç şəhər və köyümüzü işğaldan azad etmişdir".

"Ermənistanın bu xain saldırısının səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək istəyirlər. Üyə olduğu kollektiv güvənlik müqavilə təşkilatını bu münaqişəyə cəlb etmək istəyirlər".

"200-dən çox tank imha edildi, 2 S-300 hava hücumuna qarşı qurğu imha edildi. Tank, 33 tank qənimət kimi götürülmüşdür".

“... o ki qaldı, uluslararası təşkilatların və beynəlxalq ictimaiyyətin buna reaksiyası...”

“Əziz qardaşım R.T.Ərdoğanın açıqlamaları, digər üstdüzey yetkililərinin açıqlamaları bir daha qardaşlıq mövqeyinin təzahürü idi”.

“Yəni ilk növbədə, bayaq qeyd etdiyim məsələlər çözülməlidir: topraqların boşaldılması, mültəcilərin qaytarılması, ulaşdırma məsələlərinin, sınırların açılması, ondan sonra ticarət. Ondan sonra barış güclərinin gətirilməsi də istisna deyil”.

“Mən artıq bir kaç dəfə demişəm ki, Minsk qrupu 92-ci ildə yaradıldı və o zaman hangi əsaslar buna səbəb oldu, biz bilmirik. O qrupda elə ölkələr var ki, heç bu bölgəylə ilgilənmirlər. Bu bölgədə onların hər hangi bir çıkarları da yox, təsiri də yox”.

“O ki qaldı yabancı insanlara, o da yalandır, o bizə atılan çamurdur, o, iftiradır, böhtandır”.

“İndi basında kim yazırsa, yazsın. O bizi ilgiləndirməz”.

“Azərbaycan ərazisində kifayət qədər bizim gəlişmiş savunma sistemimiz var”.

“Habertürk” kanalına verilən bu müsahibədə işarələnmiş sözlərə diqqət edək: həmin sözlər

məhz Azərbaycan türkcəsində ifadə edilsə idi, qarşı tərəf bunu anlamazdı. Digər tərəfdən onu da görürük ki, İlham Əliyev heç bir halda yersiz fonetik uyğunlaşdırmalara nitqində yer ayırmayıb. Çünki eyni dili istifadə edən hər iki xalqın nitqindəki fərqlər "farkdakı" qədərdir və ləhcə əlaməti olaraq sadəcə çox kiçik leksik fərqlərdən ibarətdir. Gəlin işarələnmiş sözlərin Azərbaycan dilindəki qarşılığına diqqət edək:

- sivillərə – sakinlərə;
- bir kaç – bir neçə;
- saldırısının – hücumunun;
- üyə – üzv;
- imha edildi – məhv edildi;
- uluslararası – beynəlxalq;
- üstdüzey yetkililərinin – yüksək vəzifəlilərin;
- mültəcilərin – qaçqınların;
- ulaşdırma – çatdırma;
- barış güclərinin – sülhməramlıların;
- ilgilənmirlər – maraqlanmırlar;
- çıkarları – xeyirləri;
- yabancı – xarici;
- çamurdur – iftiradır;
- basında – mətbuatda;
- gəlişmiş savunma – inkişaf etmiş müdafiə.

Gördüyümüz kimi, Azərbaycan dilində qarşılığı verilmiş bu sözlər ya türkcədə işlədilmir, ya da tam mənasını ifadə etmir. Bütün cümlə Azərbaycan

dilində olduğu halda "bir kaç", "çamur", "ilgilənmək" kimi sözlər ustalıqla əlavə edilir. Çünki bu sözləri qarşı tərəf anlamayacaq, bu zaman fikir qırıqlığı yaranacaq. Digər bütün sözlər də eyni formada istifadə edilmişdir.

12 oktyabr 2020, İlham Əliyevin Türkiyənin "Haber Global" televiziya kanalına verdiyi müsahibə:

"Çünki hesab edirdik ki, hərbi mərhələ artıq başa çatıb, təcavüzkar döyüş meydanında dərsini alıb və bundan sonra reallıqlarla hesablaşıb diplomatik müstəvidə olumlu tavır göstərəcək".

"Ancaq malesef, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulmuşdur, ihlal edilmişdir".

"Dünən hadisə yerində düzənlənən basın açıqlamaları və bu gün oraya gedəcək xarici səfirliklərin nümayəndəlikləri öz gözləri ilə hər şeyi görürlər, görəcəklər".

"Burada, ilk növbədə, Ermənistanın terror mahiyyətini nəzərə almaq lazımdır, çünki onlar döyüş meydanında kayb edirlər, uduzurlar".

"Zatən, Xocalı soyqırımını törədənlər məhz bu Gəncə saldırısını törətmişdir".

“Dünya basınında onlara daim dəstək veriləcək, dünya erməniliyi, onların havadarları, islamafob dairələr, malesef dünyada kifayət qədər güclü mövqelərə malikdir”.

“Onlar hər zaman Ermənistanı və onların bizə qarşı təcavüzkar siyasətini dəstəkləyirdilər, onları savunurdular”.

“Erməni əsgəri bizim torpağımızdan çıxarsa, bu münaqişə də son bulacaq”.

“Qalıcı atəşkəsin sağlanması üçün ilk növbədə Ermənistan anlamalıdır ki, ...

Bu gün Türkiyə tam bağımsız siyasət aparır və dünya çapında gücə çevrilibdir”.

“Onu savunmak çok kolay”.

- olumlu tavır göstərəcək – müsbət yanaşma sərgiləyəcək;
- ihlal edilmişdir – pozulmuşdur;
- düzənlənən basın açıqlamaları – təşkil olunan mətbuat konfransları;
- kayb edirlər – uduzurlar;
- zatən – onsuz da;
- saldırısını – hücumunu;
- dünya basınında – dünya mətbuatında;
- malesef – təəssüf ki;
- son bulacaq – bitəcək;

- sağlanması – təmin olunması;
- bağımsız – müstəqil;
- dünya çapında – dünya üzrə;
- savunmak – müdafiə etmək;
- çok kolay – çox asan.

Bu müsahibədə də əsas məqamlara diqqət edək. Belə ki, İlham Əliyev yenə səlis Azərbaycan dilində danışır, lakin "uduzurlar" əvəzinə "kayb edirlər" deyir, ardınca da "uduzmaq" kəlməsini işlədir. Bu həmçinin bir müəllim yanaşmasıdır. Nəzərə alsaq ki, həmin dövrlər çox gərgin idi, əsasən, fikrini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün dünya mətbuatı ilə bir növ təkbaşına döyüşürdü. Buna baxmayaraq İlham Əliyev fikrini daha dəqiq, daha düzgün, daha sadə, daha anlaşıqlı ifadə etmək üçün dilin imkanlarından maksimum yararlanırdı. Çünki "uduzmaq" kəlməsi türkcədə işlənilmir, lakin Azərbaycan xalqının bir qismi "kayb etmək" kəlməsini də tam başa düşə bilməyə bilərdi. Yaxud "savunmaq" sözünü götürsək, yenə də görərik ki, "müdafiə etmək" türkcədə istifadə edilmir və onun qarşılığı olan "savunmaq" kəlməsini seçir. Bu qeydləri bütün cümlələrə və fikirlərə aid etmək olar. Yenə də hansısa fonetik dəyişikliyə yol verilmir və fikirlər hər iki xalqın, bir millətin anlayacağı formada çatdırılır.

16 oktyabr 2020-ci il, İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibə:

"Ondan sonra digər bizim şəhərlərimizi vurmağa başladılar və faktiki olaraq bu atəşkəsi kobudcasına ihlal etdilər".

"Gürcüstan ərazisindən, bizdə olan məlumata görə, kaçak silah göndərilir. Sivil uçaklarla, eyni zamanda, karqo uçaklarla".

"Bu uçağı alan Rusiyada yaşayan zəngin erməni iş adamlarıdır".

"Azad edilmiş topraqları hesablamaq elə də zor məsələ deyil. Dünən mən yeni 6 köyün azad edilməsi xəbərini Azərbaycan xalqına çatdırdım".

"Nərədən bu parayı buldular? Təbii ki, bunlarda bu qədər para yox. Deməli, bunu bedava aldılar".

"Bu gün Azərbaycanın sürətli və uğurlu gəlişməsi, inkişafı, uluslarası müstəvidə böyük hörmətə malik olması, ölkə daxilində sosial, iqtisadi, digər problemlərin həlli, böyük projelerin gerçəkləşməsi, əlbəttə ki, Heydər Əliyev yolunun davamıdır".

“Mənə verilən bilgilərə görə bəzi gəlişmiş ölkələrin hərbi mütəxəssisləri də artıq bizim təcrübəmizi öyrənirlər”.

“Bəzi yerlərdə onların dörd savunma xətti var”.

“Çox mutluyuq ki, qardaş Türkiyənin gəlişmiş hərbi sənaye kompleksi gözəl SİHA-ları, İHA-ları üretmeye başlamışdır”.

“Çünki bilirsiniz, Dağlıq Qarabağ kontrolsüz bir ərazi. Hər hangi bir uluslararası kontrol mexanizması orda yox idi”.

- ihlal etdilər – pozdular;
- kaçak – gizli, qanunsuz;
- sivil – mülki;
- uçaklarla – təyyarələrlə;
- karqo uçaklarla – yük təyyarələri ilə;
- zəngin – varlı;
- zor – çətin;
- köyün – kəndin;
- parayı buldular – pulu tapdılar;
- bədava – pulsuz;
- gəlişməsi – inkişafı;
- projelerin gerçəkləşməsi – layihələrin reallaşması;
- bilgilərə – məlumatlara;
- savunma – müdafiə;
- mutluyuq – xoşbəxtik;

- gəlişmiş – inkişaf etmiş;
- üretmeye – istehsala;
- kontrolsüz – nəzarətsiz.

Bu müsahibədə də diqqət yetirilməli və örnək götürülməli məqamlar çoxdur. Çünki biz qonaqpərvər millət olduğumuzdan, daim böyük qardaş sevdamız olduğundan qarşı tərəfi məmnun etmək üçün məhz onun tam anlayacağı formada danışırıq. Ağır olsa da, deyim ki, bu bizim milli özgüvən əskikliyimizdir. Amma cənab Prezidentin çıxışlarının heç birində bunu görə bilmirik. Bu özünə güvənən, inanan, liderliyinin fərqində olan cəsarətin hesabınadır. Digər tərəfdən də hər iki dövlətin bir millətinin nümayəndələrinin rahat anlaması üçün verilən dəyər və zəhmətdir. Məsələn, aşağıdakı cümləyə diqqət edəndə görürük ki, cümlədəki bütün sözlər tam səlis, düzgün, rəvan azərbaycancadır, amma son kəlmə Türkiyə türkcəsindədir: "... ondan sonra digər bizim şəhərlərimizi vurmağa başladılar və faktiki olaraq bu atəşkəsi kobudcasına ihlal etdilər". 14 sözdən ibarət olan cümlədə sadəcə son söz "ihlal etdilər" uyğunlaşdırılıb. Məhz ona görə ki, burada "pozdular" kəlməsi olsaydı, qarşı tərəf anlamaqda çətinlik çəkəcəkdi. Amma qalan sözlər Türkiyə türkcəsində rahat anlaşılır. Və digər cümlədə olan: "Çünki bilirsiniz, Dağlıq Qarabağ kontrolsüz bir ərazi. Hər hangi bir uluslararası kontrol mexanizması orda yox idi". "Kontrolsüz" kəlməsi "nəzarətsiz" kimi deyilsə idi, biz həmin problemin

yaşandığının şahidi olacaqdıq. Biz bu dil ustalığını başqa məqamda da görürük: "Bu uçağı alan Rusiyada yaşayan zəngin erməni iş adamlarıdır". Bu cümlədə də "təyyarə" sözü "uçak"la əvəz edilib, amma diqqətimi daha çox çəkən "zəngin" sözüdür. Bu söz dilimizdə var, amma bunun digər qarşılığı olan "varlı" sözü də var. Bizim türkcədə "varlı" sözü "zəngin" sözünə nisbətdə daha çox işlənir, buna baxmayaraq İlham Əliyev "zəngin" sözünü seçir. Çünki Türkiyə türkcəsində "varlı" sözü yoxdur.

Bəlkə də, bütün bu sadaladıqlarımız, gətirdiyimiz nümunələr usta bir natiq üçün olmalı olanlardır. Bütün müsahibələrində diqqətimizi çəkən bir söz var: "Topraq". İlham Əliyev bütün müsahibələrində "torpaq" yox, "topraq" kimi ifadə edir. Mənə görə bu kəlməni məhz o adamlar leksikonunda istifadə edir ki, onun ruhunda bir türk sevgisi, sayğısı var.

Bu üç müsahibə əsasında apardığımız araşdırma və qeyd etdiyimiz faktlar onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev, ilk növbədə, Azərbaycan dilinə böyük hörmət bəsləyir, onu dilçi qədər yaxşı bilir, "iki dövlət və bir millət" prinsipini qoruyur və nitqində əməli şəkildə buna dəstək verir, 300 ildən sonra ilk dəfə atalarımızın cəsarətini öz iradəsi ilə sübut edir, milli kimliyimizi, gücümüzü ortaya qoyur, Türkiyə ilə qardaşlığımızı heç zaman unutmur, hakim olduğu hər iki türkcəni doğru, düzgün, elmi əsaslarla istifadə edir, intellektual ziyalı kimi qarşı tərəfə qonaqpərvərliyini açıq-aydın

və səmimi şəkildə çatdırır, Türk Dövlətləri Birliyinin gerçəkləşməsi naminə cəsarətli addımlar atır, öz kimliyinə xələl gətirmədən ortaq türk mədəniyyətinə sahib çıxır.

# YEDDİ TÜRK DÖVLƏTİNİN BEŞLİK MESAJI

Başa vurduğumuz keçən ilin son aylarında Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirildi.

Bu görüşdə danışılan, müzakirə edilən çox ciddi mətləblər var ki, hər birimizin ürəyincədir. Uzun illərdir, ürəklərdə gizlincə közərən bu arzunun gerçəkləşdiyini görmək gözəl duyğudur.

Düzdür, məsələyə nə qədər ümumtürk – Turan sevdası ilə yanaşsaq da, həmişə bu arzunun gerçəkləşməsində Azərbaycanın Turana gedən yolda açar olduğunu dəqiq bilirik. Yaddaşlara həkk edilən bir məsələ var: XXI əsr türk əsridir! Nə qədər idealist səslənsə də, günümüzün reallıqları onu göstərir ki, addım-addım buna doğru gedirik. Bir əsrin bir qərinəsinin yarısını keçmişik hələ ki. Amma bu qısa zaman kəsiyində yaşananlar onu göstərir ki, böyük işlərin təməli atılmaqdadır. Artıq türk dövlətləri heç kimdən, heç nədən qorxmadan, çəkinmədən bu birliyi ifadə edə bilirlər.

Əvvəlki illərə nəzər salsaq, görərik ki, bu arzu qəlblərdə yaşasa da, siyasi təhlükələr ucbatından açıq-aşkar dilə gətirilmirdi. Xüsusən də Mərkəzi Asiyada yerləşən türk dövlətləri tərəfindən. Özbəkistan, Türkmənistan, Qırğızıstan bu mövzuda daha ehtiyatlı davranırdı. Amma son zamanlar bu proses ciddi şəkil alır. Təkcə 2022-ci ildə Özbəkistanda keçirilən türk dövlət başçılarının intensiv görüşləri, müzakirələrə, əməkdaşlıqlara açıq şəkildə qoşulması doğan günəşin parıltısıdır. Bu proses gözümüzün önündə gedir və bu məsələdə Azərbaycanın missiyasını daha aydın görürük.

Sözsüz ki, burada Azərbaycanın 2020-ci ildəki böyük zəfəri əsas rol oynayıb. 44 günlük Vətən müharibəsi Azərbaycanın güclü dövlət olmasını göstərməklə yanaşı Türkiyə – Azərbaycan dostluğunun sarsılmazlığını dünyaya bir daha sübut etdi. Məhz zəfər qazanılandan sonra türk dövlətləri arasındakı münasibətlər bir daha gündəmə gəldi; Azərbaycan və Türkiyənin səyi nəticəsində bu münasibətlərə bütün sahələrdə yenidən baxılmağa başlanıldı.

Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" ifadəsi türk dövlətlərinin, türk xalqlarının bütün sahələrdə birlik nümayiş etdirməsinin şərt olduğunu bir daha sübut edir. Bunun daha bir əsas səbəbi də Türkiyə dövlət başçısı Rəcəb Tayyip Erdoğanla Azərbaycan Prezidentinin sarsılmaz qardaşlığıdır; bu da Türk Dövlətləri Təşkilatını hər gün bir addım da irəli aparır.

Macarıstan kimi Avropa ölkəsinin, Şimali Kipr Türk Respublikasının bu birliyə üzv olmaq arzusu və müşahidəçi qəbul edilməsi tarixi kökləri bir olan dövlətlərin bəşəriyyət üçün böyük önəm daşıyan elm, mədəniyyət sahəsində də ortaq köklərə sahib çıxmağın vacibliyini göstərir.

Son Zirvə toplantısında bütün dövlət başçılarının cənab İlham Əliyevi zəfər münasibəti ilə təbrik etməsi, Ali Baş Komandanın isə daha cəsarətli çıxışı gələcək üçün böyük mətləblərdən xəbər verdi bir daha:

*"Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatıb".*

Azərbaycanın böyük zəfəri təkcə Ermənistan üzərində deyildi. Uzun illərdir, ona dəstək verən Rusiya, İran kimi dövlətlərə də zərbə idi. Dəmir Yumruq digər türk dövlətlərinin də üzərindən Rusiya xofunu götürdü və yeni türk erasının başlanğıcı oldu!

Amma bu açıq mesajlarla yanaşı diqqətimi çəkən prezidentlərin Səmərqənddə əlləri açıq şəkildə çəkdirdikləri rəsm oldu. Açıq beş barmaq və

əlin içi. Düzü tam olaraq bu şəklin hansı siyasi mesajı verdiyini bilmirəm, araşdırsam da, tapa bilmədim. Amma mənim üçün mesaj bəlli idi. Sevinclə və qürurla həmin rəsmi böyütdürüb otağımda ən gözəl yerdən asmışam.

Niyə doğma idi, onu deyim, sonra öz yozumuma keçərəm.

Müəllifi olduğum "Hədəf Konsepti"ndə məhz bu əl işarəsini özümüzə simvol seçmişik. Balabilgələrimizin rəsmlərini görənlər hökmən bu beşlik prinsipi ilə tanış olarlar.

Bizim konseptdə beşliyin öz anlamı var:

Birinci kimlik – hər bir insanın bilməli olduğu öz kimliyidir.

İkinci sağlamlıqdır – hər insan həm mənəvi, həm də cismani sağlamlığının qeydinə qalmalıdır.

Üçüncü bacarıqdır – bacarıqlı olmaq istənilən insan üçün vacib dəyərdir.

Dördüncü yaradıcılıqdır – yaradıcı insan günümüzün ən önəmli insanıdır.

Beşinci isə bilikdir – bu beş dəyərin ən vacibi.

Şagirdlərə aşıladığımız ana fikir odur ki, bu beş dəyərə sahib şəxs BİLGƏ İNSANdır; bu gün ölkəmizə, millətimizə məhz beləlері gərəkdir. Hər dəfə bu "beş"i tutub: "Bilgə insan olmaq bizim amalımızdır!" – deyirik.

Məhz buna görə türk dövlətləri Bilgələrinin Böyük Teymurun yurdundan dünyaya belə mesaj verməsi bizim üçün bir başqa gözəllik idi.

Amma maraqlıdır, türk dövlətləri başçılarının bu açıq əl mesajı nə deməkdir? Niyə səmaya yönəlmiş açıq əl?

Niyə beşlik?

Niyə məhz Səmərqənddə?

Doğrusu çox maraqlıdır. Əminəm ki, şəkli görüb diqqət edən hamı üçün də elədir.

Mənim üçün beş rəqəminin yeri bir başqadır. Niyəsini bilməsəm də, beşə xüsusi sevgi var. Hələ on il öncə yazdığım "OdƏrlər" romanında da Dədə Əfəndinin fəlsəfi söhbətlərindən ikincisi məhz beş rəqəminə həsr olunub. Məncə, elə həmin hissədən bəzi məqamları qeyd etsəm, demək istədiklərim daha aydın olar:

*"... Bu kimi həqiqətlər və deyimlər xalqın mifoloji anlayışı ilə bağlıdır. Türk dövlətlərindən birinin paytaxtının adı Beşbalıqdır, "Bişkek" sözü də bununla bağlıdır. Türk dünyasında Beşalma adında bir çox yer adı var. Koroğlu da deyir:*

*Göydən uçan beş durnalar*
*Bizim ellər yerindəmi?*
*Bir-birindən xoş durnalar*
*Bizim ellər yerindəmi,*
*Çənlibellər yerindəmi?*

*Niyə üç, dörd, on yox, "beş" durnalar sözü işlədilib? Bu sualın cavabı mifin özündədir. Xalqın müqəddəs inamlarına bağlı olduğunu göstərir.*

*Hamısı əsərlərə edilən düzəlişlərdən sonra ortada qalan sözlərdir. Bu beş rəqəminin altında çox sirr gizlənir.*

*Beş, həmçinin Çin və fars dünyagörüşündə, xristianlıqda, islamda, yəhudilikdə, manixeizmdə[1], hinduizmdə, şamanizmdə, Pifaqor məktəbində, Babildə, Misirdə, Mayya və Şimali Amerika hindularında müqəddəs sayılır. Bunlara təsadüf demək olarmı, oğul?!*

*Bilirsənmi, kimyaya görə insan dörd elementdən meydana gəlib? Alimlər müqəddəs beşə çatmaq üçün sirli beşinci ünsür əlavə edirdilər. Bu beşinci ünsürün həyatın gerçək elementi olduğu düşünülürdi; onun əldə edilməsi isə orta əsr kimyagərlərinin başlıca hədəfi idi.*

*Buddizmdə ürəyin dörd istiqaməti var, beşinci olaraqsa bir mərkəzə malikdir. Bu ümumbəşəriliyin təmsil edilməsidir.*

*Çin dünyagörüşündə bu, beş element, beş atmosfer, beş şərt, beş planet, beş müqəddəs dağ, beş taxıl, beş rəng, beş dad və beş zəhər olaraq özünü göstərir. Bu dünyada həyat beş rəqəminin üzərində qurulub.*

*Şimali Amerika hinduları arasında da beş rəqəminin rolu digər xalqlarda olduğu kimidir.*

*Xristianlıqda da beş rəqəmi xüsusi önəm daşıyır. Xaçın beş ucu, İsanın beş yarası, Musanın beş kitabı var.*

---

[1] Manixeizm – qnostik dini təlim

*Misirdə Nilin beş timsahı var. Hind ənənəsində isə dünyanın beşlik qrupları, Şivanın beş üzü, Vişnunun ikimərtəbəli beş inkarnasiyası*[2] *var.*

*Qədim Hindistanda beş qoruyucu bir say kimi böyük əhəmiyyətə malik idi.*

*Asteklərdə dörd ucunda və ortasında günəş olan beşgünəşli xaç simvolu var – bu, ulduz pentaqramdır.*

*Avropa ənənələrində beş mükəmməlliklə, sirləri çözən açarla və ruhu maddədən asılılıqdan xilas edən mələklə əlaqələndirilir.*

*Şaman türklərdə isə beş sayının dəmir – paya ulduzunu təmsil etdiyi məlumdur.*

*Mayya və Şimali Amerika hindularının ənənəsində də bənzər şəkildə müqəddəs ulduzu təmsil etdiyi qeyd edilir.*

*Beş Mayyalar üçün də açar ədəddir və bu ənənədə beşinci günün yağış yağdıran spiral formalı Tanrının günü olduğuna inanılır. Onlarda beş rəqəmi balıq formalı əllə təmsil edilirdi.*

*Beş sayı manixeizmdə də əhəmiyyətli rol oynayır; ilk insanın (Bağ Atanın) beş oğlu var, işığın beş elementi (ruh, külək, su, işıq və atəş) qaranlığın beş mənası ilə qarşılaşdırılır. Manixeistlər yaşayan Tanrının beş köməkçisinin və ruhları toplayan beş mələyin olduğundan da söz açıblar.*

*Beş yəhudi ənənələrində gücün və sərtliyin, radikal zəkanın rəmzidir.*

---

[2] İnkarnasiya – ruhun maddi vücudda təzahürü

*Beş sayı, eyni zamanda, kosmik insana işarədir. İnsan qolları açıq vəziyyətdə bir dairə içinə yerləşdiriləndə sinəsinin ortasına eninə və dikinə çəkilən ox xaç meydana gətirir. Dünya insan üçün xaçdır, yəni bu dünya kosmik insana dar gəlir. Bu insan fiquru astrologiyanın da simvoludur. Kabbaladakı[3] qarşılığı Adam Kadmondur. Yəni insanın aşan istiqamətini və bu planeti aşma bacarığını təyin kimi Tanrıya tam mənası ilə təslimiyyəti də ifadə edir. Beş, ümumiyyətlə, canlı təbiətdə ortaya çıxan ədəddir. Bu səbəbdən də onun qalib gəlməsi təbiətdəki tumurcuqlanmaya, bahara ekvivalentdir. Bu bizim qədim Novruz bayramımızda da özünü göstərir. Dörd çərşənbədən sonra gələn yeni il, yeni doğuş, bayram günü, təbiətin oyanışı beşinci ünsürdür.*

*Beş sayının qolları və ayaqları açıq haldakı insan forması nəzərə alınmaqla mikrokosmos olan insanın simvolu qəbul ediləndə bədənin beşbucaqlını təmsil etdiyi də deyilə bilər.*

*Ellinizm[4] dövründə Bəəlbək[5] şəhərindəki Venera məbədi beşbucaqlı formada idi. Xristianlıq meydana çıxanda Məryəm beşbucaqlı simvolun, İştarın, Veneranın sifətlərini də boynuna götürmüşdü.*

---

[3] Kabbala – mistik yəhudi təlimi

[4] Ellinizm – Aralıq dənizinin şərq sahili ölkələri tarixində mərhələ

[5] Bəəlbək – Livanda qədim şəhər

*İşıq tanrısı Apollon beş xüsusiyyətə malikdir: hər şeyə gücü çatma, hər yerdə var olabilmə, hər şeyi bilmə, əbədilik və birlik.*

*İslam ənənəsində dinin beş dirəyi, beş ilahi varlıq, imanın beş şərti var. Gündə beş vaxt namaz imanın və islamın beş şərtində yer tapar. İslamda beş "Allah" sözünün beşinci və əsas hərfi "h"nin ədədi dəyəridir.*

*Beşuclu ulduz bütünü təşkil edəndə və eyni zamanda, yuxarı yönəlmiş olanda ruhi həsrəti və təhsili simvollaşdıra bilər. Eynilə dairə kimi beşbucaqlı ulduz da bütünə işarə edir. Bundan başqa, dörd küncə və beşinci olaraq mərkəzə sahib olan kvadrat mərkəzin, səma ilə yer üzünün birləşmə nöqtəsinin simvoludur. O, eyni zamanda, Allahın simvoludur, çünki dörd böyük gücün mərkəzindəki onları yaradana işarədir.*

*Beşbucaqlı ulduz uclarından biri yuxarıda olanda müsbət, əksinə olanda isə mənfi qəbul edilməkdədir.*

*Pentaqram İştarın insanları pis ruhlardan qoruduğuna inanılan Qədim Şərqdə gözmuncuğu kimi istifadə edilərdi. Zaman-zaman Tanrının evini iblisdən, yaxud bədənsiz bəzi varlıqlardan qorumaq üçün orta əsr kilsələrinin divarlarına çəkilərdi.*

*Bir görüşə görə pentaqram ruhun elementlər üzərindəki suverenliyini göstərir, üstəlik, hava və su ruhları və torpaqla bağlı bədənsiz varlıqları idarə edə bilmək üçündür".*

Ən əsası Türkiyə bayrağındakı beşguşəli ulduzdur. Bunun mənası isə mənbələrə görə insanı və türklüyü ifadə edir.

Bütün qeydlərimizi ümumiləşdirsək, deyə bilərik ki, beş guşə bütünü təmsil edir ki, məncə, türk dövlət başçılarının verməli olduğu bu mesaj bir biləyin bir əli və beş guşəsi də məhz bir kökü ifadə edir. Bu: "Biz bütünük, biz birik, biz bir ideyaya, törəyə bağlıyıq", – deməkdir. Bu beş barmaq büküləndə isə dəmir yumruq olur! Amma türk törəsi, Dəmir Yumruğa qədər: "İlahi mesajı, insanlığı, sevgini ifadə edən açıq əllə qarşınızdayıq", – deyir. Psixologiya, bədən dili də ifadə edir ki, qarşınızdakı insanın əlləri açıq vəziyyətdədirsə, yəni ovuclarının içi görünürsə, olduğu kimi görünməkdən xoşu gələn, heç nəyi gizlətməyəndir. Üstəlik, ovuclarının içi görünərkən barmaqları da açıqdırsa, yəni barmaqlar arasında açıqlıq varsa, bu insan son dərəcə mərddir!

Bəli, türk dövlətlərinin məhz ali mədəniyyəti, irfanı və ən əsası gücü simvolizə edən Səmərqənd şəhərindən verilən mesaj: "Biz birlikdə güclüyük, biz insanlığın tərəfindəyik, biz bütünük! Bir atanın oğullarıyıq, bir qanın, bir ruhun təmsilçisi və qoruyucusuyuq!" – deməkdir!

# NAĞILLAR DİYARI TÜRKMƏNİSTAN

Dünyanın bu qarışıq zamanında hər şeydən uzaq, bitərəf bir ölkə var, adı da Türkmənistandır. Bu ölkənin xalqı rahat, firavan güzəran keçirir. Xalqın nə İŞİD deyilən zaddan xəbəri var, nə də Məkkədəki hadisədən. Yeganə qayğıları səhər işə gedib axşam qayıtmaları və həmişə sevimli prezidentlərini göstərən televizorlarına baxmaqdır. Xalqın heç bir dərd-səri yoxdur. Su, qaz, işıq, duz, un kimi vacib nemətlər pulsuzdur. Bu xalqın padşahı elan edib ki, bitərəf və bəxtiyar dövlət olaraq kimsənin toyuğuna "kış" demirik, kimsə də bizim toyuğumuza "kiş" deməsin. Padşah öz xalqını çox sevirdi.

Güzəranın yaxşı olması üçün çox vacib qərarlar vermişdi: siqaret çəkmək, axşam saat 11-dən sonra əyləncə mərkəzlərinin işləməsi, mövhümat, təriqətçilik, sosial şəbəkələrdən istifadə kimi zadlar birmənalı qadağan edilmişdi. Xalqın bu qadağalardan əvvəllər çox xoşu gəlməsə də, sonralar alışmışdı.

Prezidentin yaxşı əməllərindən biri də o idi ki, ölkəyə xaricilərin tez-tez gəlib-getməsinə o qədər də münbit şərait yaradılmırdı. Amma israrla gəlmək istəyənlərə "yox" deyilmirdi. Dünyanın çox az ölkələrindən biri idi ki, hər yana viza tətbiq edilirdi. Ölkəyə gələn xaricilər isə vətəndaşlardan daha çox pul xərcləməli idilər. Məsələn, avtobusa minmək ölkə vətəndaşına bir manat idisə, xaricilərə beş manat idi. Ölkənin vətəndaşları bir-biri ilə evlənsə, başlıq pulu beş min manat idisə, xarici bir oğlan bu ölkədən qız alsa, dövlətə iyirmi min manat başlıq pulu ödəməli idi. Qızın ailəsinə də əlavə başlıq ödəməsi nəzərdə tutulurdu.

Padşah ölkəsini sanki cənnətə bənzətmək istəyirdi, hər yeri ağappaq bəzətdirmiş, gül-çiçəyini əskik etməmişdi. Xalqının keçmişini onlara unutdurmamaq üçün bütün tarixi qəhrəmanların heykəllərini şəhərlərin gözəgəlimli yerlərində ucaltdırmışdı. Padşah bir padşah idi, gəl görəsən. Haqsızlıq edən məmuru bağışlamaz, haram yeyənlərin günahından keçməz, ah-vayına, gözünün yaşına baxmazdı.

Prezident deyirdi ki, bu illər bərqərar dövlətin bəxtiyarlıq çağlarıdır. Doğrudan da, firavan vaxtları idi. Axı onlar hər gün televiziyalarında şit, əttökən şou verilişlərə baxmır, yol keçəndə belə gözlərini sosial şəbəkədən ayırmamaq məcburiyyətdə qalmır, hər gün xəbərlərdə dünyanın hansısa ucunda bir itin quyuya düşüb çıxa bilmədiyinə, kiminsə intihar xəbərinə, bir-birilərinin başını kəsən

insanlara baxıb ürəkağrısı çəkmirdilər. Gündə yüz dəfə şəhərdəki tıxacdan, səs-küydən baş götürüb qaçmaq üçün özlərinə söz vermirdilər axı.

Amma onların da dərdi vardı. Bəlkə, dərdləri özlərinə dəvə idi. Bu dərd ondan ibarət idi ki, bu cür şərait yaradan, tez-tez onlara sədəqə paylayan prezidentlərini dillərindən salmamalı, bu səxavətinə qarşı şükürlərini əskik etməməli idilər. Necə ki Tanrı insana deyir: "Sənə verdiklərimə görə, mənə şükür və ibadət et!" – onlar da prezidentlərinə şükür və dua etməli idilər. Bu xoşbəxt insanlar hərdənbir təkcə bundan narazılıq edirdilər. Bəziləri isə deyirdi ki, təki ac qalaq, bu şükranlığı etməyək. Amma bunu danışanlar ölkəsinin siyasi proseslərə qarışıb yerlə yeksan olmağının, bir-birilərinin başını kəsən müsəlmanların, xarici qüvvələrin quluna çevrilmiş biznesmenlərin onların qanını sormağının dadını bilmirdilər.

Və dünyadan xəbərsiz 2017-ci ilin Asiya Oyunlarına evsahibliyi etməyə hazırlaşırdılar.

Günümüzün dünyasından qismən təcrid olunub öz həyatlarını yaşayan bu nağıllar diyarına səyahət mənə də nəsib oldu. Beləcə, nağılımı yazmağa başladım...

Orta Asiyaya gəlmək çoxdankı arzum idi; səyahət planlaşdırdığım ilk ölkə də Qırğızıstan. "OdƏrlər" romanının ikinci hissəsini yazmaq üçün hökmən Tanrı dağlarının ətəyinə getməliyəm", – inancı əl çəkmirdi məndən. Sanki "Ulularınn söhbəti" hissəsini orada yazmasam, heç bir mənası olmayacaqdı.

Qismət isə Türkmənistana imiş. X Beynəlxalq Kitab Sərgisində iştirak üçün qəfil dəvət sevindirici xəbər oldu. "Hədəf" və XAN Nəşriyyatları olaraq dörd nəfərlik heyətlə yola çıxmağı planlaşdırdıq. Açığı, bura məhz kitab sərgisi üçün yox, qardaşları görmək eşqi ilə gəldik. Ona görə "Hədəf"də işləməyən iki vətənpərvər dostumu da heyətə qoşdum: Amil Həsənov, Samir Turan. "Hədəf"dən isə Elvin Əliyev bizimlə idi.

Türkmənistanın siyasi kursu barədə azdan-çoxdan eşitmişdik. Hətta viza məsələsinin böyük problem olduğunu da demişdilər. Dostlardan biri məsələni o qədər şişirtmişdi ki, ağıl, məntiq qəbul etmirdi. Deyirdi ki, Türkmənistana vizaların hamısına prezident şəxsən qol çəkir. Yəqin, ölkə haqqında yaradılan imicin təsirindən idi. Amma Türkmənistanın Azərbaycandakı konsulu bizi elə sevgi, sayğı ilə qarşıladı ki, yaradılmış mifin əsassız olduğunun fərqinə vardıq.

Türkmənistanla aramızda cəmi bir saatlıq hava yolu olsa da, bizdə bu ölkə barədə, demək olar, məlumat yoxdur. Heç onlarda da bizim haqqımızda yetərincə bilmirlər. Düzdür, orta və yaşlı nəsil Sovet dövründən qalan məlumatlara sahibdirlər, amma hər iki ölkənin gəncliyi bir-birindən uzaq düşüb.

Dörd dost gəlişimizi Türk dənizi Xəzər üzərindən gəmi ilə planlaşdırsaq da, gəmilərin qrafiki dəqiq məlum olmadığı üçün təyyarə ilə gəldik. Amma məlumatınız olsun ki, birbaşa təyyarə reysi

də yoxdur. İstanbul vasitəsilə gəlmək lazım idi. Bəxtimizdən axtarışlarımız nəticə verdi və Almaniyadan Bakıya eniş edən bir təyyarəyə bilet tapdıq. Bunlar Türkmənistanla əlaqələrimizin necə olduğunun bariz nümunəsidir. Sözsüz ki, bu, təkcə bizdən asılı deyil; Türkmənistanın siyasətinin nəticəsidir. Hələ biz yaxşıyıq. Özbəkistanla həmsərhəd olsa da, özbəklər Dubaya gedib oradan gəlmişdilər. Türkmənistan qapalı ölkə olduğu üçün azsaylı dövlətlərdəndir ki, dünyanın bütün ölkələrinə viza var. Viza alınması da, az qala, Şengen vizası qədər çətin prosedurdur.

Bunları eşitdikcə, bildikcə ölkəni qınayırdıq. Amma bunun fəlsəfəsindən agah olandan sonra tamamilə doğru qərar olduğunu qəbul etdik. Məhz buna görə də təəssüratlarımı yazmağı düşündüm. Bura gəlməmişdən bir neçə gün öncə İtaliyada idim. Ora haqqında da xatirələrimi yazmağı planlaşdırırdım. Amma sonra düşündüm ki, bu gün Azərbaycanımızda İtaliya haqqında yetərincə məlumatı olan var və istənilən şəxs istənilən məlumatı almaq imkanına malikdir. Amma eyni qanı daşıyan qardaşımız haqqında bilgimiz, bəlkə də, bir neçə söz ilə yekunlaşır: Türkmənistan, türkmənbaşı, Məhtumqulu, neft-qaz, Aşqabad və s.

İmkan daxilində heç nəyi gözdən qaçırmadan gündəlik yaşadıqlarımızı yazmağa çalışacağam ki, bəlkə, azacıq da olsa, maraq yarada bildim sizdə...

Aşqabad hava limanı ilk baxışdan Naxçıvan hava limanını xatırlatdı. Kiçik və xudmani. "Luft-

hansa" şirkətinin təyyarəsində elə yüksək səviyyədə xidmət göstərilmişdi ki, bir az havalı idik. Amma aeroportda bunu görə bilmədik. Bizimlə bərabər Urumçudan gələn sərnişinlər pasport qeydiyyatına durmuşdular. Əksəriyyət alverçi olduğu üçün birdən dalğalanma yarandı aeroportda. Hamı tələsirdi; hamının əlində yekə-yekə alver çantaları; hamı qabağa düşmək üçün vurnuxur, növbə anlayışını məhv edirdi. Bunu görəndə isə 90-cı illərdəki hava limanımızın ab-havasını xatırlamamaq olmurdu.

Bu hay-küyün içində gözümə tablodakı sözlər sataşdı: "Hoş gəldınız". Bu sözü oxuyanda qürur hissi keçirdim. Düşündüm ki, deyəsən, ortaq türkcə formalaşır. Dostlara tez dedim ki, baxın, Türkiyə türkcəsində yazılıb. Deməli, proses başlayıb. Sonra bir az məyus olsam da, sevinc həmin sevinc idi. Bu ifadə məhz türkməncə idi. Bu, əlbəttə, daha xoş təəssürat yaratdı. Yazını oxuyanlar bu dil hadisəsinə təəccübləndiyim üçün məni qınaya: "Axı sən dilçisən, ədəbiyyatçısan, burada nə var ki? Məgər bilmirsən ki, türkmənlər Oğuz dil qrupuna daxildir?" – deyə bilərlər. Bilirəm, haqlı irad olacağını da qəbul edirəm. Amma Türkiyədən sonra ikinci ölkə idi ki, məni öz dilimdə qarşılayırdı. Və bunu sadəcə nəzəri şəkildə bilirdim, praktikada görməmişdim. Ona görə də belə məqamlarda anlayışla yanaşmağınızı xahiş edirəm.

Aeroportdakı puldəyişmə məntəqəsinə yaxınlaşdıq. Məntəqədə oturan qadınlar sanki bizi

görmürdülər. Dolları uzadırdıq ki, yandan bir türkmən dedi: “Mən dəyişə bilərəm”. Məntəqədə dəyişməyə cəhd etsək də, əməkdaşlar sanki özlərini görməzliyə vurub bizi qara bazara yönləndirdilər. Onda anladım ki, məntəqələr dövlətə məxsusdur və Şərqin düşüncə tərzində dəyişilməsi vacib məqamlar daha çoxdur. Digər tərəfdən isə bütün MDB ölkələrindəki problem burada da var.

Bizi qarşılayan turizm şirkətinin nümayəndəsini tapdıq. Ata Yurdumuzun havasını ciyərlərimizə çəkmək üçün çölə çıxmağa tələsirdik. Çıxan kimi taksi sürücüləri üstümüzə tökülüşdülər. Etinasız keçdiyimizi gördükləri zaman: “Qardaş, arvad da var”, – deyib marağımızı cəlb etməyə çalışdılar. Nəysə... Bir kənara keçib təmiz havanı siqaretlə çirkləndirmək istəyirdik ki, bayaqkı taksi sürücüsü daha mərhəmətli addım atıb bizə izah etdi ki: “Burada siqaret çəkmək olmaz, polis sizi cərimələyər”. Bu mözuya bir də qayıtmayacağım üçün deyim ki, Türkmənistanda küçədə siqaret çəkmək qadağandır. Sadəcə bəzi yerlərdə ola bilər. Avropadakı kimi hər yerdə siqaret də satılmır. Müşahidəmdən belə məlum oldu ki, burada çox az adam siqaret çəkir. Deyilənə görə, 2017-ci ildən bütün türkmənlərə siqaret çəkmək qadağan ediləcək.

Gecə saatlarında Ağ şəhəri – Aşqabadı seyr edib heyrətlənə-heyrətlənə hotelə gedirik. Hər yer ağ gəlin kimi bəzənib. Çox unikal şəhərdir. Şərq üslubunda, tarixi bir yer gözləyirdim. Amma tamamilə başqa mənzərə ilə qarşılaşdıq. Əvvəl inan-

madıq ki, bu görünən ağ mənzərə mərmərdəndir. Təcrübəmiz bizə bunların "alkopan" olduğunu deyirdi. Soruşduq və öyrəndik ki, təbii ağ mərmər imiş. Hətta yön işıqları (işıqfor) da ağappaq görünürdü. Gümüşü rəngdə idi. Ümumiyyətlə, şəhərdə üç rəng görmək olardı, ağ fonun üzərində gümüşü və qızılı rəng. Yaşıllıq isə sanki bu rənglər arasında keçid rolunu oynayırdı. Bizi prezidentin şüarları müşayiət edirdi hər yerdə: "Dövlət adam üçündür" və "Bərqarar dövlətimizin bəxtiyarlıq dövrü". Bu cümlələr, demək olar, bütün çıxışlarda, televiziya proqramlarında – bir sözlə, bütün tədbirlərdə səslənirdi.

Sürətlə şütüyən maşının pəncərələrindən görürük: Sevda mərkəzi (Alış-veriş mərkəzləri), Dərmanhana Yovşan, Matahlar dükanı (gəlin paltarları satılan dükan), Türkmən Halısının muzeyi və s... Söz o qədər doğma, o qədər şirin gəlir, az qala, uşaq kimi sevinirik. Amil müəllimin "İnşallah, bir gün Turan elləri bir olub dünyaya səs salar", – alqışı isə təbəssüm yaradır.

Beləcə, "Ağ Altun" hotelinə gəldik. Sadə, milli ornamentlərlə bəzədilmiş bina idi. Bizdə belə fikir formalaşmışdı ki, türkməncə danışan çox azdır. Amma qarşılama zamanı biz: "Zdrastvuyte", – deyəndə cavabında: "Salam", – dedilər. Ruscam çox zəifdir. Özümü əziyyətə salıb rusca əlaqə qurmaqdansa, öz ana dilimizdə danışmağa üstünlük verdim. Qısa müddətdə bir-birimizlə çox rahat əlaqə qurmağa, bir-birimizi anlamağa başladıq.

Səhəri gün, yəni 20-si bələdçimiz bizi sərgi mərkəzinə aparmağa gəldi. "Sərgi mərkəzi" – elə türkməncədə də belə idi. Arxamızca gələn qadının türkmən olmadığının anlayıb hansı millətdən olduğunu soruşduq. Əvvəl: "Rusam", – dedi. Ədaları, baxışları, rəftarı bir balaca şübhə doğursa da, maksimum gülərüz olması, əlindən gələn qədər qayğımıza qalmaq cəhdi hamısını ört-basdır edirdi. Sonuncu gün bizdən öncə burada olmuş bir azərbaycanlıdan öyrəndik ki, sən demə, bələdçimiz Qalina erməni imiş. Özümüzü Çində bilmədən qurbağa yemiş adam kimi hiss etdik. Dadı pis olmasa da, az qala, ürəyimiz ağzımıza gələcəkdi. Təşkilatçıların bu hərəkətini bəyənməsək də, başa düşməyə çalışdıq. Çünki o qadın təkcə bizə yox, bir neçə millətin nümayəndəsinə təhkim edilmişdi.

Gətirdiyimiz kitabları bizə ayrılan stendə düzdük. Bayraqlarla bəzədik. Bizimlə yan-yana Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının stendi və əməkdaşları Aygün və Şərafət xanımgil də vardı. Elə ilk gündən isti münasibətlər yarandı. Hətta bir-birimizə kömək də etdik.

Sərgi çox yüksək səviyyədə təşkil olunmuşdu. Deyərdim ki, MDB ölkələrində keçirilən sərgilərdən qətiyyən geri qalmırdı. Açılış günü Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakçılara müraciəti oxundu, konfransın plenar iclası keçirildi.

Sərgiyə maraq da ürəkaçan idi. Bizdəkilərdən fərqli olaraq bütün universitet tələbələrinin gəli-

şi təşkil edilmişdi. Hətta kitabxanaçılıq fakültəsinin tələbələrindən xarici ölkə stendlərinə yardım üçün bir nəfər nümayəndə ayrılmışdı. Həmişəki kimi biz daha səxavətli idik. Gətirdiyimiz kitablardan, hədiyyələrdən gənclərə verir, ölkəmiz haqqında danışırdıq. Türkmənistan Respublikasının Mədəniyyət və Təhsil nazirləri bütün stendlərə baş çəkdilər. Bizim stenddə də ayaq saxlayıb kitablarımızla maraqlandılar. Təhsil nazirinin diqqətini uşaqlar üçün hazırladığımız "Dədə Qorqud" layihəsi çəkdi. Hədiyyələri təqdim edib şəkil çəkdirdik. Bu ərəfədə Azərbaycanın Türkmənistandakı fövqəladə və səlahiyyətli səfiri Vahab Abbaszadə də gəldi.

Səfirimizin yad adamlar kimi gəlişi və sakitcə gedişi, əlbəttə ki, təəssüf doğurur. Dilimizlə: "Vaxtınız olsa, görüşünüzə gələk, səfirliyə kitab bağışlayaq", – desək də, səfirin ondan sonrakı sükutu və bir daha gözə görünməməsi, məncə, heç də yaxşı deyil. Düşünürəm ki, bu cür münasibət səfirə yaraşmaz. Könül istərdi ki, daha yaxşı münasibət görək və ağızdolusu danışaq, amma nə etmək olar...

Sərgidə Rusiyanın ağırlığı yetərincə idi. Xeyli nəşriyyat və elm adamları iştirak edirdi. Gözüm Türkiyəni axtardı. Amma Türkiyədən səs-səda yox idi. Bircə "Çıraq" adlı nəşriyyat vardı; onun da fəaliyyəti yox idi. Hətta İran da bir neçə nəşriyyatla çıxış etdiyi halda Türkiyənin bu soyuq münasibətinin səbəbini anlamaq mümkün deyildi. Azərbaycan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan öz vəziyyətinə, gücünə görə layiqincə iştirak edirdi. Bu, bir daha sübut etdi

ki, Türkiyə Orta Asiyadan üz çevirib, gözü sadəcə ərəbləri görür. Bu isə hamımızın ümidlərinin suya düşməsi deməkdir. Çünki türkmən gənclərinin xeyli hissəsi türkcəni bilir və bizimlə ünsiyyətdə sevə-sevə türkcə danışırdılar. Bu cür mədəni əlaqələr türk xalqlarının bir-birini yaxından tanımasının ən yaxşı vasitəsidir. Diqqətçəkən məqam isə başqırdların – İran ərazisində fəaliyyət göstərən türkmən nəşriyyatlarının aktiv iştirakı idi.

Açılış günü bizi Türkmənistan Müstəqillik abidəsinə gül qoymağa apardılar. Gördüyümüz mənzərə heyrət doğururdu. Böyük türk hökmdarlarının, sərkərdələrinin, övliyalarının nəhəng heykəlləri olan bu geniş meydanda Qara Yusifin, Uzun Həsənin şəninə ucaldılmış böyük abidələr adamı düşündürür. "Axı bu şəxsiyyətlərə niyə soyuq münasibət bəsləyirik?" – sualını verirsən özünə. Türkmən qardaşların bunu etməsi çox xoşdur. Onlar demiş, hamımız bir zamanlar buralardan getmişik.

Onların bizdən fərqli olaraq "ana yurd" yox, "ata yurd" demələrində də bir ayrı hikmət var. Üç-beş metr hündürlüyündə olan açıq səma altında əldə qılınc və kitabla göylərə ucalmış böyük türk qazilərinin heykəlləri adamın ruhunu coşdurur. Səkkizguşəli (Türkmənistanda bu məbədi Səkkiz ayaq adlandırırlar) möhtəşəm abidənin dörd tərəfində – hər tərəfində üç heykəl – var. Ərtoğrul Qazi, Səlcuq bəy, Dədə Qorqud, Məhtimqulu, Uzun Həsən, Qara Yusif, Sultan Səncər, Oğuz xan, Alp Arslan, Məlik

şah, Koroğlu kimi böyük türk qəhrəmanlarının göyə ucalan bu tunc abidələri türkün əzəmətini göstərir.

Bu tip heykəlləri adətən Avropa şəhərlərində görüb nəhəngliyinin xofunu yaşayırdıq.

Bunları görə-görə böyüyən uşaqlar və gənc nəsil, əlbəttə, öz keçmişini qürurla anacaq və böyüklüyünü dərk edəcək.

Bir tərəfdə şəhərin füsunkar gecəsində mirvari kimi parıldayan binalar, bir tərəfində göylərə ucalan Konstitusiya binasının işıqları sərin havada sanki adamın ürəyinə cəsarət suyu səpir.

Bu abidələrə iki dəfə baxmağa getdik. Nə gözümüz doyurdu, nə ruhumuz. Gündüz bir başqa, axşam bir başqa gözəl idi.

Ümumiyyətlə, Aşqabadı heykəllər şəhəri də adlandırmaq olar. Avropa ölkələrində gördüyümüz kimi burada da böyüklüyün rəmzi olan göylərə ucalan sərkərdə və övliya heykəlləri qürur hissi keçirmək üçün ən yaxşı nümunədir. Demək olar ki, şəhərin hər yerində at üstündə Oğuz və Səlcuq sərkərdələrini görürsən. Düzdür, Teymurləngi görə bilmədim. Bəlkə də, var idi. Səbəbini soruşmağa da uyğun bir şəxs və ya məqam olmadı. Bir heykəllər şəhərciyinə isə İlham parkı başçılıq edir. Sayını bilmədim, bəlkə də, yüzdən çox büst bütün parkboyu səni müşayiət edirdi. Nəsiminin və Füzulinin də heykəllərinin yer aldığı bu park özünü tanımaq adına böyük hadisə idi.

Üç gün keçən sərgi boyunca fərqli insanlarla tanışlıq, söhbətlər zövq verdi. Tələbələrin maraqlı

sualları, ünsiyyətə girməsi ürəyimizi açdı. Bir tələbənin: "Mən Azərbaycan musiqisini sevirəm, Üzeyiri dinləyirəm", – deməsi ona dahi şəxsiyyətimiz Üzeyir Hacıbəyov haqqında əlavə məlumat verməyimizə səbəb oldu.

Onu da deyim ki, heç bir xarici dildən istifadə etmirdik. Asta-asta danışır, müsahiblərimizin də asta danışmalarını istəyir və beləcə, hər şeyi aydın başa düşürdük. Bizi bir az dinləyən gəncin: "Onun "Mənə gəl, mən gəl" mahnısını çox sevirəm", – deməsi əhvalımızı təlx etdi. Demək, dərd hər yerdə dərd, xəstəlik hər yerdə xəstəlik imiş. Daha nə deyəsən, etika naminə yüngülcə vəziyyəti izah edib ayrıldıq.

Maraqlı məqamlardan biri də bir qadının israrla Bəxtiyar Vahabzadənin şeirlərini istəməsi oldu. Biz: "Satmırıq", – dedikcə o, israrla tələb edirdi. Danışıq rus dilində idi. Qadın da türkmən deyildi. Əvvəl azərbaycanlı olduğunu zənn etdik. Dedi: "Ərim xəstədir, ona hərdən Azərbaycanca şeirlər oxuyuram". "Azərbaycanlısan?" – sualımız havadan asılı qaldı. Dəfələrlə soruşsaq da, cavab vermir, söhbəti yayındırırdı. Birdən necə oldusa, qadın özündən xəbərsiz təmiz azərbaycanca danışdı. Əlbəttə, bu hadisə bizi daha da çılğınlaşdırdı. Onun azərbaycanlı olmağını etiraf etmədiyi idi bu çılğınlığın səbəbi. Kitabı ona vermək üçün bir az yumşalmışdıq ki, bu hərəkət sərtləşdirdi münasibəti. "Yox!" – dedik. Sonra məlum oldu ki, qadın erməni, əri azərbaycanlıdır. Bakıda yaşayıblar uzun müddət. Məlum

hadisələrdən sonra isə burada məskunlaşıblar. Bir insan taleyinin faciəsini gördüm. Kimlərinsə hərisliyinin sevgiləri həsrətə, kədərə, faciəyə çevirməsi qanımı dondurdu. Heç bir halda azərbaycanlı kişini qınamadım nədənsə. Bu, reallığın ən açıq təcəssümü idi...

Sərginin açılışı günü Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun şərəfinə sədəqə, yəni ehsan verildi. Bütün sərgi iştirakçıları dəvətli idi.

Yemək mədəniyyəti və mətbəx haqqında sonra danışacağım üçün hələlik bu barədə geniş danışmağı düşünmürəm.

Əsas odur, iştaha ilə yeyib işimizə davam etdik.

Sərginin ikinci günü bizi İlham parkına apardılar. Kiçik bir konsert oldu. Açıq havada türkmən gənclərinin ifaları, Xalq şairlərinin, qonaqların çıxışları iştirakçıları bir-birinə bir az da isinişdirdi. Xalq şairi Atacan Taqanın Səməd Vurğunun "Şair, nə tez qocaldın sən!" şeirini şövqlə səsləndirməsi, əlbəttə, bizi məmnun etdi.

Səməd Vurğunun şəxsiyyətini o qədər bəyənməsəm də, şair kimi böyük hörmətim var. Şeir də gözəl şeirdir.

Bu məqamda dostum, Səməd Vurğunun ən böyük sevdalısı Yusif Alı Afşarı xatırlayıb ifanı videoya çəkdim. Sonra isə mən kürsüyə dəvət edildim. Özbək, qazax, qırğız, başqırd dostlarımızın rusca çıxışından sonra mənim Azərbaycanca çıxışım böyük maraq doğurdu. Uzun illərdir, ürəyimdə yığılıb

qalan arzu və istəklərimin kiçik bir hissəsini dilə gətirdim.

Türkmən qızlarının gözündəki təbəssüm adamı daha da həvəsləndirirdi. Buludsuz səma, yamyaşıl park, uluların büstü, ruhunu tanıdığın və yüz illər öncə ayrıldığın doğmalarının həsrəti vüsal yağışına çevrilmişdi. İlham parkı isə ilham verirdi adama. Necə coşdumsa, "Uçasan özündən özünə doğru" şeirimi səsləndirdim. Yerimə oturanda Qırğızıstandan gələn xanım naşir: "Ən yaxşı sən danışdın", – dedi. Düzdür, hamı bu etik fikri söyləyə bilər. Amma bir az öncə rusca danışmış bir qadının dogma türkcəmizdə bu sözü deməsi məni arxayın saldı ki, deyəsən, hədəfi vura bilmişəm.

Türkmənistanın Xalq şairi Gözəl Şaqulyayevanın və Atacan Tuqanovun şeirlərini mənə verməsi və Azərbaycanda çap olunmasını xahiş etmələri də sevindirici hal idi. Atacan Tuqan, sən demə, Xalq yazıçısı Anarı, Xalq şairi Fikrət Qocanı yaxşı tanıyırmış və xeyli maraqlı günlər keçirdikləri söhbətimizdən məlum oldu. Salamlarını göndərdilər. Hətta Atacan bəy dedi ki, Fikrət Qoca həmişə mənə "Burun" deyir. Bir gün dedim: "Ay Fikrət, sənin də burnun balaca deyil ha-a".

Hazırda altı gün bizə yüksək xidmət göstərən Ağ Altun hotelinin foyesində personalın Gədəbəy ləhcəsini xatırladan söhbətini dinləyə-dinləyə yazıram xatirələrimi. Gecə saat 01:45-dir.

Sonuncu gün – 23 sentyabr. Günortaya qədər stendimizin yanında olduq. Gənclərə yenə hədiy-

yələr verdik, bəzi kitablarımızı bağışladıq. Bu ərəfədə "Dünya ədəbiyyatı" jurnalının təşkil etdiyi "Türk xalqlarının ədəbi əlaqələri" adlı konfransda çıxış etdim. Tədbir kifayət qədər maraqlı keçdi. Yeni tanışlıqlar və əməkdaşlıqlar yarandı. Çıxışımdan sonra Nizaminin, Nəsiminin, Füzulinin, Hüseyn Cavidin, İsa Muğannanın kiçik portretlərini türkmən ədiblərinə hədiyyə etdim.

Günorta bizi nahara apardılar. Qayıdanda sərgi mərkəzinin sanki yerlə yeksan olduğunu gördük. Bütün stendlər boşalmışdı. Lələ köçmüş, yurdu qalmışdı. Gətirdiyimiz kitabları, onsuz da, dövlət kitabxanasına verəcəkdik. Amma özümüzün yığıb verməyimiz bir başqa zövq olardı. Xeyli təəssüf hissi keçirdik. Nə etmək olardı... Qayda belə imiş. Bayraqlarımızdan beş-on dənəsini qutularda görüb götürdük. Bizi bağlanış mərasiminə apardılar. Böyük zal və bütün iştirakçılar. Protokolda rusiyalı naşirlər və təşkilatçılar oturmuşdu. Sərginin və konfransın dəyərləndirilməsi oldu. Əsas məqam gəlmişdi. Nominasiyaların təqdimatı. Beş kitabımızı öncədən təqdim etmişdik. Həyəcanla gözləyirdik. Sanki əmin idik ki, bizim də payımıza mükafat düşəcək.

Bir həftə əvvəl Azərbaycandakı Beynəlxalq Kitab Sərgisində "XAN Nəşriyyatı" ilin nəşriyyatı seçilmişdi. Bunun sevinci ilə gəlmişdim Türkmənistana. Mədəniyyət və Turizm Nazirliyinin (indiki Mədəniyyət Nazirliyi – red.) dəstəyi ilə hazırladığımız "Azərbaycan ədəbiyyatını dünyaya tanıdaq" layihəsinə

görə "Ən yaxşı çap məhsulu" nominasiyası ilə sərginin ikincisi olduq. Bu mükafatı xarici ölkədə almağın zövqünü ancaq zəhməti dadanlar bilər. Sonra isə "Hədəf Nəşrləri"nin adı ikinci dəfə səsləndi. "Biologiya" vəsaitimiz ikinci ən yaxşı dərs vəsaiti seçilmişdi. Elvin Əliyev özünəməxsus hərəkətlə mükafatı almağa getdi, əlində də Azərbaycan bayrağı. Zalda bayrağa görə xüsusi alqış sədaları eşitdik. "Şərq-Qərb" nəşriyyatı da iki nominasiya üzrə mükafat almışdı.

# BU MİLLƏTİ BÖLÜCÜLÜYƏ SƏSLƏMƏYİN!

*Fazil Mustafaya açıq məktub*

*“Şah İsmayıl mehribanlıqda dünyanı işıqlandıran və qəhrəmanlıqda düşməni yaxan od məcazlı bir sultan idi”.*

*(Abbasqulu ağa Bakıxanov, “Gülüstani-İrəm”)*

Hörmətli Fazil müəllim! Çox istədim ki, sizinlə bu mövzuda üz-üzə gəlməyək. Çünki aramızda sayğı var və bunu sizin də qoruduğunuzu bilməkdəyəm. Amma sizin şəxsinizə olan hörmət və izzətim, mənim milli düşüncəmə sayğımdan üstün ola bilməz. Ona görə də sizə bu açıq məktubu yazmağı düşündüm.

Hazırda bizə lazım olan sadəcə birlik, sevgi, sayğıdır. Amma buna qarşı sizdən görmək

istəmədiyim münasibəti görürəm. Əhalisinin yetmiş-səksən faizi şiə məzhəbli Azərbaycanda yaşayırıq. Məhz siz də Sabunçu rayonundan – şiələrin çoxluq təşkil etdiyi ərazidən Milli Məclisə deputat seçilmisiniz. Amma sadəcə şiə adı altında sizə etiraz edən hər kəsi cahil, "irançı" adlandırıb damğalayır, əsəbilik nümayiş etdirir, getdikcə çılğınlaşır, insanları təhqir edirsiniz. Axı onlar sizin kimi dini siyasiləşdirmədən öz saf dünyagörüşləri ilə inanclarını yaşayırlar.

Bu yazıda ilk dəfə bəyan edirəm ki, mən də sizin Şah İsmayıla, şiəliyə qarşı tez-tez adını çəkdiyiniz Mirzə Fətəli Axundov kimi bütün dinləri puç və əfsanə hesab edirəm. Yaradanın varlığını qəbul edərək yerdəki heç bir dinin bu möhtəşəmliyi yaradan Tanrıya aid olmadığı inancındayam. Ona görə də sizinlə "davamın" din, məzhəb davası olmadığına əmin olun. İranın türklərə – azərbaycanlılara qarşı düşmən mövqeyində olduğunu bilirəm və Bütov Azərbaycan sevdalısıyam! İndi düşünün ki, dinə qarşı bu cür münasibətdə olan şəxs düşüncələrinizdən, çağırışlarınızdan, radikalcasına sizdən olmayanları təhqir və tənqid etmənizdən nə qədər narahat olur. Deməli, bu, məsələlərə birtərəfli yanaşmanızdır, yalnız öz mövqeyinizi dəstəkləyən qaynaqlardan sitatlar gətirməyinizdir. Elmlə məşğul olursunuzsa, gərəkdir ki, obyektiv olasınız. Dini təəssübkeşliyi olan heç kim obyektiv ola bilməz, çünki inanc, "islam – təslim ol" fikri ondan əl çəkməz. Siz təslim olmusunuz öz inancınıza.

Hamı tərəfindən məntiqli düşüncə adamı kimi qəbul edilir, natiqliyiniz əladır deyə inandırmağı yaxşı bacaran aydın kimi tanınırsınız. Amma aqressiv yazılarınızı oxuduqca bu məntiqin belə lazımsız yerə istifadəsinin təəssüfünü yaşayıram.

Məsələn, bayaq da dediyim kimi, böyük maarifçi, fikir adamı Axundovu tez-tez misal çəkirsiniz. Əcəba, ona çox dəyər verir və fikirlərini qəbul edirsinizsə, niyə bu qədər din təəssübü çəkir, dini həyat tərzi yaşayırsınız? Axundovun düşüncələrinə bələd olduğunuza, ən azından "Kəmalüddövlə məktubları"nı oxuduğunuza əminəm və ona görə də sitat gətirmirəm. O zaman gəlin səmimi olaq – məhz onun dediyi yolla gedək. Getməzsiniz, çünki öz inancınız var və bu məqamda Axundov düşüncələri mövqeyinizi müdafiə etmir. Çünki Axundov nə şiəliyi, nə də sünniliyi qəbul edirdi. Ona görə də insanlara: "Oxumursunuz, bilmirsiniz", – deyib yuxarıdan aşağı baxmağınız yaxşı görünmür, məncə.

Şəxsi düşüncələrinizi müdafiə etmək üçün hamının birmənalı şəkildə qəbul etdiyi Məhəmməd Əmin Rəsulzadəni misal çəkirsiniz tez-tez. Oxumayan, bilməyən insanlar da sizin statuslarınıza inanıb: "Məhəmməd Əmin Rəsulzadə də belə deyibsə, deməli, düzdür", – düşünür. O zaman sizə inanan insanlar üçün çox yaxşı bələd olduğunuz Məhəmməd Əmin Rəsulzadənin fikirlərini bura yazım, sonra davam edim.

Rəsulzadə yazır: "İlərdən bəri çevrələrindəki xalq kütlələri üzərində bütün türk ellərindəki

dədələr kimi dərin nüfuz və təsir sahibi olan Ərdəbildəki Şeyx Səfi ocağından zühur edən Şah İsmayıl şiə dövlətini qurmaq üzrə hərəkətə keçir. Avropalılara görə, bir İran sülaləsi sayılan Səfəvi dövlətinin bu müəssisi isə həqiqətdə bir türk sufisi və azərbaycanlı bir şairdir. İstinad etdiyi qüvvət də tamamilə türk qüvvəti idi. Bu məzhəb türkmən qəbilələri bu qüvvətin kökünü təşkil edirdi.

Onun sadə bir türkcə ilə yazılan ilahiləri (dini nəğmələri) rəsmi hüdudların çox irəlilərində belə türk topluluqlarının ruhları üzərində müəssir olurdu. Şah İsmayılın sarayı Azəri-türk ədəbiyyatının yaradıcı ocağı və bir akademiyası idi. Bu saraya Həbibi kimi şairlər mənsubdu. Şeirdə Xətai təxəllüsündən istifadə edən İsmayıl, xalqın vurulacağı sadə bir dillə yazırdı. Səfəvi sarayının rəsmi dili də türkcə idi. Qonşu dövlətlərə göndərdiyi notalar türkcə yazılırdı. Səfəvi dövlətinin Osmanlılara göndərdiyi notalar türkcə ikən Osmanlı sarayının Səfəvilərə yazdıqları notalar farsca idi.

Rəsmi Türk dövlətlərində misali yox ikən, çevrəsindəki türkdilli şairlər Şah İsmayıla "Türki-tacdar" deyə xitab edirlərdi. Bu dövrdəki şairlər yalnız "Taclı türk"ə deyil, onun da xitab etdiyi əsl türk kütləsinə müvəffəqiyyətlə xitab edə bilmək üçün türkcə yazırlardı. İdarələrini yürütmək üçün içindən yetişdikləri mühitin zövqünə uyaraq onun ağıl və vicdanına qolay bir yol bula bilmək üçün özü ilə türkcə danışırlardı. Sonralar "İran ideolojisi" deyə bilinən şiəlik bu xüsusda onlara (Səfəvilərə) mane olmur-

du. Əksinə, bu onların türkçülüyünü gərəkləndirirdi". (Məhəmməd Əmin Rəsulzadə | "Bolşeviklərin Şərq siyasəti" | Ərəb və latın qrafikasından transliterasiya edəni və çapa hazırlayanı A.Rüstəmli | "Sabah" | Bakı | 1994 | səh. 53)

Görürsünüzmü, böyük öndər Şah İsmayıl Xətaini necə öyür? İndi gərək siz ya mütəfəkkirin sözlərinə hörmət edib onun öydüyünü öyməlisiniz, ya da etiraf etməlisiniz ki, dərdim Şah İsmayıl deyil, başqadır.

Fikir azadlığı, bundan da hamının istifadə etməyə haqqı var. Bəziləri kimi "kimlərsə toxunulmazdır" düşüncəsində deyiləm; şüurumuz və məntiqimiz imkan verir ki, Yaradanı belə müzakirə edək. "Şah İsmayıl toxunulmazdır" da demirəm. Amma başa düşə bilmirəm ki, Şah İsmayıl, Səfəvilər dövləti sizi niyə bu qədər qıcıqlandırır? Bunun nə qədər acı səbəbi ola bilər?

Millətimə qadını qul kimi görən, "dörd arvad al və ya cariyələrlə keçin" deyən, "müsəlman olmayanlarla dostluq etmə" hökmünü verən ərəb təfəkkürü belə məni bu qədər radikal etməyib, öz millətinin nümayəndəsi, bir dövlət qurmuş, tarixdə danılmaz yeri, yanlışı ilə, doğrusu ilə ulu babamız olan şəxsiyyət sizi niyə bu qədər aqressivləşdirsin ki?

Ürəyim qan ağlayaraq deməliyəm ki, bunun bir haqlı səbəbi ola bilər, sadəcə bölücülüyü qızışdırmaq, şiə-sünni davasını salmaq, bizi bir-birimizə qarşı qoymaq düşüncəsi! Axı mən sizinlə

ədəbiyyatdan danışa, yaxşı voleybol oynaya bilirəm. Niyə bu gün mən də əsəbiləşib xətrinizə dəyəcək fikir yazmalıyam?

İnana bilmirəm ki, siz də gələcək siyasi karyeranız üçün bir siyasi xətt tutub gedirsiniz. Bu milləti bölücülüyə səsləyirsiniz. O zaman sual yaranır: "Sizin İran xətti ilə şiəliyi təbliğ edib əhli-beyt, Xameneyi ağa deyib dövlətçiliyimizə qarşı çıxanlardan fərqiniz nədir? Bunları yumşaq şəkildə desəniz, nə olar ki?

Məsələn: "Şah İsmayıl türkdür, türk dövləti qurub, dövrünün tələblərinə görə dindən istifadə edib, amma sonradan əyanları, fars məmurların sarayda söz sahibi olması ilə bu xətt yolunu dəyişib, yanlış düşüncə sərgilənib, kaş olmayaydı, o dövr üçün olub. Biz bu yanlışları etməməliyik, Şah İsmayılın qızılbaş-türk fəlsəfəsini yaşatmalıyıq, türkcəyə qoyduğu hörməti qoymalıyıq millətimizə, onun davamçısı, qurduğu dövlətin sərkərdəsi olan Nadirin yolunu getməliyik, birləşdirici olmalıyıq", – desəniz, nə olar ki?..

Axı tez-tez nümunə göstərdiyiniz Nadir şah iki türk dövlətinin birliyi üçün öncə məzhəblərarası savaşa son verilməsini, eyni zamanda, mollaların dövlət işinə qarışmamasını təklif edirdi. Niyyətiniz safdırsa, niyə Nadir şah kimi birləşdiricilik yox, bölücülüklə məşğul olursunuz?

Məhz sizin üçün deyirəm, hörmətli oxuculardan xahiş edirəm, bunu sadəcə sizə bir fakt xətrinə dediyimi qəbul edib anlayışla yanaşsınlar. Hamımızın

bəh-bəhlə yüz illiyini qeyd etdiyimiz cümhuriyyətimiz var. Mənim də, sizin də böyük mütəfəkkir adlandırdığımız Hüseyn Cavid, Mirzə Cəlil bu dövlət haqqında bir cümlə də xoş söz deməyiblər, sanki onlar o dövrdə yaşamayıblar. İndi buna görə cümhuriyyəti qınayaq, ya Hüseyn Cavidi, Mirzə Cəlili? Heç cümhuriyyət də onları görməyib sanki.

Elitanın qurduğu dövlət xalqın dövləti ola bilmədi, buna zaman da imkan vermədi. İndi hansından imtina edək?!

İnciməyin, əziz dostum, millətini sevən fikir adamı sizin kimi olmur, məsələyə elə incə yanaşır ki, heç bir tərəf incimir. Maarifləndirmə başqa şeydir, sizin yanaşdığınız kimi deyil.

Gələk təklif etdiyiniz (Bizim düşündüyümüz budur ki, Azərbaycan tarixini daha çox Dədə Qorqud mədəniyyətini, Nadir vizyonunu qabardaraq müasir modelimizi gələcək üçün qurmalıyıq) "Kitabi-Dədə Qorqud" dastanındakı türk kültürünə... Mən Dədə Qorqudçuyam, amma islama bulaşmamış Qorqudçu... Deyirsiniz ki, sizə bunu təklif edirəm. "Xub", çox yaxşı, o zaman sizi bir günorta şərab içməyə dəvət edirəm, lap dastandakı kimi... Sonra dəstəmaz alıb namazımızı qılarıq.

Görürsünüz, nə qədər gülüncdür?! Hansı Dədə Qorqud kültüründən danışırsınız, gürcü təkfurunun zindanında: "Ölmüş oğlunuzu minib çapıram", – deyən Qazan xanın yaşamını, ya Dəli Domrulun ərəb təfəkküründəki əzrayılla məzələnməsini, ya iki rükət namaz qılıb, döyüşə girib, qalib gələndən

sonra yeyib-içib keflƏndiklərini, ya övladı olmayanı alçaldıb qara çadıra göndərmələrini?! Əminəm ki, başqa məqamda, başqa mövzuda kimsə "Kitabi-Dədə Qorud" dastanını öysə və təbliğ etsə, hökmən bu dediyim faktlardan birini deyib Əhməd bəy Ağaoğlu kimi solçuluq edəcəkdiniz. Ciddi adamlar üçün bu dedikləriniz keçərli deyil, sadəcə gəlişigözəl sözlərlə baş aldatmaq, təriqətçilik, məzhəbçilik missiyanıza haqq qazandırmaqdır.

Deyirsiniz ki, mən sünni deyiləm, müsəlmanam. Bu da "xub" (bilərəkdən bu fars kəlmələrindən istifadə edirəm ki, statusunuzda başa çıxarıb məni də cahil fars yanlısı adlandırasınız). Mənim bildiyim müsəlman qarşı tərəfin inancına sayğı ilə yanaşar, "Allahu-əkbər" deyib baş kəsməz.

Ən azından şiə də sizin kimi Allaha, peyğəmbərə, Qurana inanır... Heç olmasa, onlara hörmət edin. Ən azından bir yerdə birləşib ateistlərlə mübahisə edə bilərsiniz, məncə...

Bütün mövhumi məsələləri atırsınız şiəliyin və şiəliyi də Şah İsmayıl yaratdı deyib onun üstünə. Tez-tez misal çəkdiyiniz, kumiriniz Əhməd bəy Ağaoğlu "Şiə məzhəbi və qaynaqları" əsərində şiəliyin necə yarandığını, niyə yarandığını geniş şəkildə izah edir. Şiəliyin Şah İsmayıla nə dəxli?!. XIII – XV əsrlərdə türklər islamın üzərindən öz milli dinlərini yaratmağa hamilə idi. Ermənilərin xristianlıqdan qriqoriyanlıq, slavlaynların provaslavlıq, almanların protestantlıq çıxardıqları kimi... Buna Nəimi də, Nəsimi də, Ağ Şəmsəddin də, Bektaşi də, Şeyx Səfi

də çox cəhd etdi. Çünki din yaşam tərzi idisə, ərəblə gələn din ərəb yaşam tərzi və türklərə yad idi. Öz törələrinə uyğunlaşdırmağa cəhd edirdilər. Törəsindən əl çəkə bilməyən türklər öz fəlsəfələrini elə məhz islamın bayrağı altında, istədikləri kimi yaşamaq fikrində idilər və dində müəyyən reformlara cəhd edirdilər. Bütün insanlıq kimi. Çünki Quran sadəcə hansısa areal üçün idi, türkün cahan anlayışına sığmırdı. Heç sizin də bugünkü təfəkkürünüzə sığmır. Müsəlmansınızsa, məntiqi buraxıb təslim olmusunuzsa, o zaman oradakı şəriət qaydaları ilə yaşamağa cəhd edin, biz də görək. Məsələn, bu ayəyə əməl edərək: "Ey iman gətirmişlər! Yəhudiləri və xristianları öz köməkçiləriniz və dostlarınız hesab etməyin, çünki onlar ancaq bir-birilərinə kömək edirlər. Əgər sizdən kimsə onları öz köməkçiləri və dostları sayırsa, onda o özü onlardan biridir. Həqiqətən, Allah zalım insanları doğru yola yönəltmir". (5, 51)

Yaşaya bilməzsiniz, çünki cahil deyilsiniz. O dövrün ağıllı insanları da belə idi və Qızılbaş fəlsəfi fikri ilə türk törəsini yaşamağa çalışırdı. Bu yaxınlarda Roma Papasının dediyi kimi, insanlar inkişaf etdikcə onların təfəkküründəki Tanrı da inkişaf edir.

Necə ki peyğəmbərdən sonra Ömər, Osman, Əbubəkir, Əli onun kimi idarə edə bilmədilər xilafəti, necə ki aralarında nifaq düşdü, Əməvilər, Abbasilər sarayı əyyaşlıq yuvasına döndü, eləcə də Şeyx Səfi düşüncəsi Şah İsmayıldan, Şah Təhmasibdən sonra öz istiqamətini dəyişdi. Uzağa getmədən

Elçibəyin öndərliyində qurduğunuz partiya, dövlət, ondan sonra neçə başa bölündü və bir vaxtlar Elçibəyi ideal sayan Fazil bəy bu gün onun qüsurlarını deyir, tənqid edir və bildirir ki, fikrini dəyişməyən sadəcə ölülərdir. Elə o dövrdə də belə, bəy, eynən belə.

Gələk Səfəvilərin üstünə çamur kimi yaxdığınız mərasimlərə, pirçiliyə, nəzirçiliyə...

Səfəvilər dövləti imperiya idi və tərkibində onlarla xalq yaşayırdı. Hərəsinin də öz mədəniyyəti, inancı, mifik dünyagörüşündən gələn ənənəsi vardı. Bu dövlətin də birinci xalqı türklər, ikincisi böyük dövlətçilik ənənəsi, inancı olan farslar idi ki, uzun müddət ətrafındakı xalqı öz təsirində yaşatmışdı. Məzdəkiliyin də, zərdüştiliyin də, atəşpərəstliyin də, şamanizimin də Səfəvilər imperiyasının hüdudları içərisində çoxlu qalıqları vardı. Necə ki islamda sünnət yəhudilərdən, orucluq ondan öncəki onlarla xalqdan, ibadət forması büdpərəstlikdən (bütpərəstlərin ibadətinə diqqət etsəniz, namaz qılmağa nə qədər bənzədiyini görərsiniz), ayın dini simvol olması qədim türk inanclarından, hicab Şumerlərdən gəlirdisə, eləcə də Səfəvilər dövlətinin tərkibində olan xalqların inancı qızılbaşlığa, lap elə sizin dediyiniz kimi, şiəliyə qarışdı.

Sizə bir neçə fakt deyim, daha doğrusu, xatırladım. Türklər islamı ərəblər kimi yaşamadı heç vaxt. Sizin də, mənim də mövhumat hesab etdiyim sadə xalqın din bildiyi ağaca nəsə bağlamaq, qurban kəsmək, nəzir demək şiəlikdən gəlmir, əziz

dost, şamanizmdən, qədim inanclardan gəlir. Bizim yas mərasimlərinin də nəinki şiəliyə, heç islama da aidiyyəti yoxdur, xalqın təfəkküründə qalan törələrdən, tenqriçilikdən gəlir. Bilirsinizmi, musəvilik, xristianlıq olmadığı dövrdə türklərdə tenqriçiliyə əsasən insanları basdırmaq, "torpaqdan gəlmişik, torpağa dönməliyik" düşüncəsi var idi? "Torpaq Ana Kutdur" kultu var idi? Heç qəbir daşlarının da bugünkü formasının islama heç bir aidiyyəti yoxdur. Türk Balbaylarını ki bilməlisiniz, hər kəsi öz mənsəbinə, vəzifəsinə görə fərqləndirmək üçün müəyyən baş daşları qoyurdular.

Nəzir anlayışını, pirçiliyi də şiəliyə bağlamaq savadsızlıqdır, bəy. Həyat ağacları vardı, qədimdə o ağaclara müəyyən ərzaqlar asar, niyyət edərdilər, mifik düşüncə ilə bu gün dünyanın əksər xalqında yaşamaqdadır.

Anadolunu az gəzməmisiniz, bilirəm. Qədim Bizans qalıqları olan tarixi məkanlarda görmüsünüz, elə xristianlar da ağaclara cır-cındır bağlayırlar. Efesdəki Məryəm ana kilsəsini xatırlasanız, kifayətdir. Necə olur, dünyanın ən inkişaf etmiş ölkələrindən xalqlar ora ziyarətə gəlir, niyyət edir, cahillik olmur, bizimkilər Əshabi-kəhfdə bağlayanda cahillik olur?

Avropanın göbəyindəki bütün şəhərlərdə körpülərin üstünə insanlar minlərlə qıfıl bağlayır, bir ənənə yaşadır, əyləncə yaradır, psixoloji rahatlıq tapır, cahillik olmur, bizimkilər cahillik olur? Bəy, ciddi adamlar bunları ciddi qəbul etmir,

özünəməxsusluq kimi rəng hesab edir, keçir. Daha gətirib tarixi şəxsiyyətin cibinə dürtüşdürüb sonra da onu alçaltmır...

Bir neçə gündür, bir neçə tarixçinin sizə cavabını, münasibətini görürəm, əsəblərim tarıma çəkilir. Çünki onların da cavabı, əməlləri ürəyimizcə deyil. Nə vaxt tarixçi alimlərimiz Səfəvilər dövləti ilə bağlı ciddi araşdırma qoydu ortaya? Nə vaxt qardaş Türkiyəyə rəsmi nota verdi ki, dərsliklərinizdə Səfəviləri alçaldan fikirləri çıxarın?! Sadəcə məişət üslübunda atışmalar gedir.

Əhməd bəy Ağaoğlu sizə kömək edə bilməz. Bilirsiniz niyə? Mən də Hüseyn Cavid deyərəm, lap hirslənib Nitsşe deyərəm – bütün dünyanın qəbul etdiyi ateist Nitsşe... Kimsə belə deyib, mən də deyirəm, "demək zəiflik əlamətidir". Mən də deyirəm, "gəlin Mirzə Fətəli Axundovun, Hüseyn Cavidin, Mirzə Cəlilin, Üzeyir Hacıbəyovun dediyi yolla gedək". Halbuki hər biri ümumilikdə dini mövhumat hesab edirdi, nəinki şiəliyi – bütün dinləri.

Şah İsmayılı tənqid də etmək olar, təhlil də. Bəyənmək də olar, bəyənməmək də. Azdan-çoxdan üzdə olan adamsınız, onsuz da, tariximizdə aləm qarışıb, ələ gələn çox az məqam var. O yerləri də sizin kimi aydınlar məhz subyektiv pəncərələrindən baxıb ləkələyəcəksə, uçuracaqsa, sabaha ümid qalmaz. Lütfən, qırıcı olmayın!!!

Siz qəbul etsəniz də, etməsəniz də, Şah İsmayıl dövlət qurub – Şirvanşahlardan sonra ən uzun ömür sürən dövlətimizi. Şah İsmayılın türkcə rəsmi

sənədini axtarırsınızsa, akademik Ramiz Mehdiyevin orijinal nüsxələrini də çap etdirdiyi məktublara baxın; Osmanlı dövlətinə məktubları türkcə yazıb. Qurduğu dövlətin paytaxtı qədim türk şəhəri Təbriz olub.

İdeologiyasını bəyəndiyimiz Əfşarlar dövlətinin bütün ənənələri Səfəvilərin üzərində qurulub və onun varisidir. Hərdən deyirsiniz e-e, bütün tarixçilər Səfəviləri İran dövləti kimi təqdim edir. Heç Əfşarlara da birmənalı türk dövləti deyən yoxdur. Paytaxtı da Məşhəddən başlayıb.

"Xoşa gəlməyən gəlinin yerişi tap-tap gələr". Bütün tarixi şəxsiyyətlərdə bu və ya digər mənada qüsur var. Baxır onu görmək istəyənə. Məsələn, Nadirin vəzifə, mənsəb sevdasından oğlunun gözlərini kor etməsi...

Bir qardaş kimi tövsiyəm odur ki, bəlkə də, haqqım çatmır, amma hələ də səmimiliyinizə, demokratlığınıza inanaraq deyirəm, bir-iki aylıq sosial şəbəkələrdən ayrılın, narahat olmayın, xalq məhv olmaz, ölkə dağılmaz bu müddətdə çəkilin, istirahət edin, sadəcə alternativ mənbələr oxuyun, qızışdırıb əsəblərini hədəqəsindən çıxardığınız bizə cavab verməyin. İnanın, oxumasanız, əsəbiləşməyəcək, kimisə də "siğədən dönmə" deyib özünüzə qarşı çağırmayacaqsınız.

Şah İsmayıldan əlinizi üzün, onsuz da, onun heç bir ideologiyasını yaşatmırıq, arabir: "Bizim də imperator babamız olub", – deyib qürur duyuruq, vəssalam. Siz də kömək edin, məsələ qaldırın ki,

ay Tarix İnstitutu, ay tarixçilər, mənim üstümə düşməkdənsə, bu enerjinizi ayırın, heç olmasa, qardaş Türkiyəyə: "Osmanlı zehniyyətindən əl çəkib Səfəviləri türk-Azərbaycan dövləti kimi tanıyın, Topqapı sarayındakı eksponatlarda İran dövləti yazmayın..." – deyin.

Fəlsəfəsini də bəyənmirsinizsə, vaxtınızı belə qıcıq yaradan statuslara ayırmayın, gedin farscanı, ərəbcəni, osmanlıcanı öyrənib ciddi əsər qoyun ortaya ki, elm faydalansın!!!

Hə, unutmadan onu da deyim ki, bütün tənqidlər pozitiv olanda faydalı və qərəzsiz olur!

*P.S. Dinləri nağıl bilən, yetişdirəcəyi şagirdlərinin bir gün Saturna peyk uçuracağına inanan, Şah İsmayılı da, Nadir şahı da, Mirzə Fətəli Axundovu da, Məhəmməd Əmin Rəsulzadəni də, Nəriman Nərimanovu da, Əhməd bəy Ağaoğlunu da, Hüseyn Cavidi də milləti üçün yanan şəxsiyyətlər kimi qəbul edən bir müəllimin dost fikirlərini düşmənçilik kimi qəbul etməməyiniz arzusu ilə!*

# MİLLİ BREND QORXUSU

Böyük ustadın – Mirzə Ələkbər Sabirin doğum günü ərəfəsində nədənsə onun sabun bişirməyi yadıma düşmüşdü. Sözsüz ki, pandemiyanın nəticəsi idi.

Hər dəfə xatırlayanda fikirləşirəm ki, böyük mütəfəkkir o zaman şeirin daşını atıb sabun markası yaratsa, indi qürurla milli brendimizdən danışardıq. Çünki o işi görsə, özünə də, ətrafına da yaxşıca gün ağlayardı. Amma o, millətə gün ağlamağı seçmişdi və el üçün ağlayanın da taleyi atalar sözlərimizdə necə lazımdır, ifadə olunub... Buna film personajı Cəbiş müəllim də cəhd etdi, amma o da bacarmadı sona qədər. Ustadın əvəzinə xəyali olaraq markanın adını da düşündüm: "Hophop". Elə buradan da yola çıxıb Azərbaycandakı sabun istehsalını bir balaca araşdırdım və gördüm ki, istehlakın təqribən doxsan faizi idxaldır. Hətta 2017-ci ilin hesabatında göstərilir ki, sabun istehsalı ciddi şəkildə artıb, amma bir dənə də olsun, milli brend adı xatırlaya bilmədim.

Özümüzdə istehsal edilən on faiz də xarici brendlərin adı ilə bazara təqdim edilir. Yəni qablaşdırma zamanı xarici məhsulların qabına milli məhsul yerləşdirilib satılır. Bu, çox güman, milli brend qorxumuzdan irəli gəlir. Çünki yerli məhsula inamımız azdır, nəinki gavurun məhsuluna.

Yadımdadır, türkiyəli iş adamı olan ağsaqqal bir dostum demişdi ki, şirkət açanda adına diqqət et. Bir gavur ismi qoy, içində nə edirsən, et. Çünki bizim millət xarici adlara daha çox önəm verir. Buna görə də sahibkarları qınamaq istəmirəm. Bizim təhsil sahəsində də eynən bu cürdür. Filippinli, pakistanlı, əfqanıstanlı, ingilisdilli müəllimin hörməti bizim yüksək səviyyəli ingilis dili müəllimimizdən daha çoxdur valideynlərin yanında. Dəfələrlə olub ki, çox savadlı, ziyalı valideyn belə israrla deyib ki, heç olmasa, bir xarici müəllim gətirin. Fərqi yoxdur, necə dərs deyir, əsas odur, xarici və ingilisdilli olsun. Çünki özümüzə inanmırıq, inana bilmirik, inanmağı bacarmırıq. Ona görə də sabun qablarına doldurulan məhlullar burada istehsal olunsa da, xarici ad altında satılanda alıcısına daha tez yetişir.

Bu məsələ ilə bağlı yadıma bir maraqlı hadisə də düşür. Tekstil sahəsində çalışan iş adamı deyir ki, "Nike", "Adidas" markalı idman formaları hazırlayırıq. Çünki daha yaxşı satılır. Üstünə bizim adlardan birini qoyanda alınmır. Adam kifayət qədər yaradıcıdır. Deyir, bir dəfə özümüz dizayn hazırladıq və "Nike" markası ilə bazara çıxardıq, partapart satış getdi. Bir gün "Nike"nin rəsmi mağazasında həmin modeldən gördüm. Deməli, "Nike" bizim mode-

li oğurlamışdı. Öz-özümə gülümsədim ki, bunun yaradıcısı bizik, amma görüblər, yaxşı satılır, daha keyfiyyətli şəkildə hazırlayıb bazara çıxarıblar. Dostum bu hadisədən elə qürrələnirdi ki, təsəvvür edə bilməzsiniz. Mənimsə pis adamlar kimi o an ürəyimdən keçən bu idi. Yəqin, rəsmi mağaza da brend kölgəsində gizlənir, özləri daha keyfiyyətli şəkildə hazırlayıb satırlar. Axı bu işdə bizə çatan olmaz...

Deməli, brend yaratmağa cəhd edənlərin sayı çox azdır. Asan yolla və tez qazanc əldə etməyin yolunu çox yaxşı bilsək də, uzunmüddətli plan problemimiz olduğu göz qabağındadır. Bacarığımıza söz ola bilməz, amma gələcəyi düşünmədən yaşayırıq. Buna görə də millət olaraq özümüzə inamımız çox azdır. Hamımız ağızdolusu danışırıq ki, Rusiya bazarlarında meyvə-tərəvəz bizlikdir, biz idarə edirik. Amma bu qədər müddətdə həmin iş adamlarımız dünya markası yarada bilməyiblər.

Üstəlik, lavaş brendi yaradıb Moskva bazarına çıxaran erməniləri bəyənmirik.

Milli brendi yaratmaqla bərabər yaşatmaq lazımdır. Bu isə cəmiyyətin işidir. Cəmiyyət dəstək verməsə, brend sahibi keyfiyyətli xidmət göstərməsə, inkişaf etdirməsə, dünyaya çıxmağı hədəf seçib əziyyət çəkməsə, sadəcə quru ada milyonlarla vəsait ödəyəcəyik!

*P.S. Son vaxtlar Sabirin və Cəbiş müəllimin xəyallarının yox, gerçəkliyinin varisi olmaq da keçir könlümdən.*

# KİRVƏLİK ƏNƏNƏSİNİN NƏ TÜRKLƏRƏ, NƏ DƏ İSLAMA AİDİYYƏTİ VAR...

Bu günlərdə bir gəncin öz kirvəsinin qızını sevdiyini, qızın da ona vurulduğunu eşitdim. Onu da eşitdim ki, atası qızı oğlana verməyəcəyini qətiyyətlə bildirir və bunu adət-ənənəyə zidd addım kimi qiymətləndirir. Çünki ənənəmizdə belə fikir varmış ki, kirvələrin uşaqları bir-biriləri ilə evlənə bilməzlər. Səbəbi də onların arasında qan bağının olmasıdır, yəni bacı-qardaş sayılırlar.

Əslində, bu yazıda "kirvə" kultunun haradan və necə gəldiyini qaynaqların izi ilə araşdırmağı qarşıma məqsəd qoymuşam. Amma hansı nəticəyə gələcəyimdən asılı olmayaraq münasibətim oxucuya öncədən bəlli olsun deyə yazıram ki, bu çürük və gülünc ənənənin heç bir dəyərinin qalmadığı düşüncəsindəyəm. Bu, istər milli, istərsə də dini ənənə olsun, lazımsız və gərəksiz haldır.

“Kirvə” anlayışının Azərbaycanın cənub-qərb regionlarında daha geniş yayıldığını görürük. Hətta Böyük Azərbaycan prizmasından baxanda Cənubi Azərbaycanda və Anadolunun Naxçıvanla sərhəd bölgələrində aktiv ənənə təzahürlərindən biri kimi görünür.

Maraqlısı odur ki, “kirvə-kirvə oyunu” daha çox şiələrdə müşahidə olunsa da, şimala gəldikcə yoxa çıxır. Məsələn, Bakıda, Lerikdə, Masallıda, Lənkəranda kirvə anlayışı tanış olsa da, ənənə kimi mövcud deyil.

“Kirvə” sözü birbaşa sünnət mərasimi ilə bağlı olduğu üçün deməliyik ki, sünnət anlayışı İbrahim peyğəmbərdən miras qalıb. Sonradan isə yəhudilərdən müsəlmanlara keçib. Deyilənə görə, İbrahim peyğəmbər səksən yaşında Şam vilayətinin Xaddum kəndində özü-özünü sünnət edib. Bəzən bu adətə “hitan” da deyilir.

“Kirvə” sözünün bizim izahlı lüğətimizdəki mənası belədir:

1. Uşaq sünnət olunanda onu tutan adam. Uşağın kirvəsi.

2. Yaxın adama – kişiyə müraciət məqamında işlədilir.

İndi gələk bizdəki “kirvə” sözünün ifadə etdiyi və daşıdığı mənaya.

Bəli, kirvə uşaq sünnət olunanda onu qucağına oturdan kişiyə deyilir. O, əti kəsilən uşağın çığır-bağır salsa da, hərəkət etməsinin qarşısını almalıdır. İndiki uşaqlar bilməzlər, əvvəllər bu proses qarğı

və ülgüclə həyata keçirilsə də, indi dəlləyin yerini həkim, kirvənin yerini isə tibb işçisi tutur. Kirvə isə simvolik olaraq seçilir. Halbuki kirvəliyin əsas amili sünnət zamanı tökülən qandır; bu da qan qohumluğu yaradır. Uşaq sünnət ediləndən sonra dəllək su tökür, kirvə duran kişi əllərini üstdə, uşağın atası isə altda tutaraq yuyurlar.

Naxçıvanda, Qərbi Azərbaycanda, Qarabağda kirvə anlayışı sanki ştatdankənar əmi, dayı funksiyasını daşıyır. Kirvənin seçilməsi çox uzun və ağır prosesdir. Böyük önəm verildiyi üçün və gələcəkdə evin adamı olacağını nəzərə alaraq əxlaqının, mənəviyyatının yerində olmasına xüsusi diqqət yetirilir. Düzgün seçilməlidir ki, bu qohumluqda xəta olmasın. Adətən kirvəlik də sülalə formasında atadan oğula keçir.

Hamı kirvəni özünə bab seçməlidir: nə çox varlı, nə çox kasıb. Cibi cibinə, huyu huyuna tay olsun gərək. Yadıma bir lətifə düşür bu məqamda:

“Bir gün biri özünə uyğun kirvə axtarır, nə illah edir, qərara gələ bilmir. Həsən müəllimi seçmək istəyir, amma düşünür ki, çox varlıdır, deyəcəklər, yaltaqlanır, Vəlini seçmək istəyir, görür, onun da həyat tərzi bunlara yaddır. Bir sözlə, alınmır ki, alınmır. Allah görür ki, bu adam çətin vəziyyətdədir, adam cildinə düşüb qabağına çıxır. Deyir, gəl məni oğluna kirvə elə. Adam deyir, axı sən kimsən, səni tanımıram. Deyir, Allaham. Adam düşünmədən cavab verir: “Mümkün deyil, sən ikiüzlüsən, bu dünyanı sən yaradıb sən idarə edirsənsə, varlı-kasıb məsələsi

də sənin günahındır. Allah kor-peşman geri dönür. Sonra Əzrayıla deyir ki, get özünü təklif elə, görək nə deyir. Adam Əzrayılı qəbul edir. Deyir, sənə olar. Çünki sən kasıb-varlı fərqi qoymursan, hamıya eyni gözlə baxırsan".

Lətifə kirvə seçməyimizi lap olduğu kimi andırır. Çünki bu qədər məsuliyyətli və ağır məsələdir.

Kirvə seçilir, mərasim boyu kirvə, kirvədostu, kirvəcanı sünnət ediləcək uşağın yanında olur, hətta uşağın ata, ana, qardaş, bacı, nənələrinə tabaq gətirir, hədiyyələr alır. Uşaq sağalandan sonra bu ənənə olduğu kimi təkrarlanır, indi də digər ailə kirvəgili onlardan da yaxşı tabaqlar almaq şərti ilə ziyarət edirlər.

• "Kirvə" sözü haradan və necə yaranıb?
• Kirvəlik türklüklə bağlı adətdirmi?
• Kirvəlik islamla bağlı mərasimdirmi?
• Kirvə uşaqları evlənə bilərlərimi? Necə oldu ki, Azərbaycanın bir hissəsində məşhur olan bu adət digər hissəsində yox dərəcəsindədir?

Məqsədim bu dörd punkta cavab tapmaqdır. Necə oldu ki, kirvəliyə bu qədər aludə olduq?

Sözün etimologiyasına enməzdən əvvəl deyim ki, fars və ərəblərdə bu ənənə yoxdur. Deməli, islamla bağlılığı sonradan yaranıb.

Heç Mərkəzi Asiyadakı özbək, türkmən, qazax, qırğızların da "kirvə" sözündən xəbərləri yoxdur. Buradan da göründüyü kimi kirvəlik ənənəsinin heç türklüklə də əlaqəsi yoxdur. O zaman adam narahat olur, türk və islam mədəniyyətinə bu ünsür

haradan gəldi və necə oldu ki, özündə belə önəmli missiya daşımağa başladı?

Regiona nəzər salsaq, görərik ki, kirvəlik Cənubi Azərbaycanda, Naxçıvanda, Qarabağda, Qərbi Azərbaycanda, Şərqi və Cənub-Şərqi Anadoluda daha geniş yayılıb.

Türkiyədə nəşr edilən lüğətlərdə "kirvə" sözü bu cür izah edilir:

Kürdcə: "kirva / kirve çocuğu sünnet ettiren ve yaşam boyu sahip çıkan kişi"

Süryanicə: "ḳarīvā yakın kişi, akraba, vaftiz babası = Ar ḳarīb yakın kişi, akraba > kurb"

Göründüyü kimi, həm süryanicədə, həm də kürdcədəki mənalar çox yaxındır və izahlı lüğətimizdəki mənalarla eyniyyət daşıyır.

"Kirvə" sözünün etimologiyası barədə türkiyəli araşdırmaçı Orxan Türkdoğan bu kəlmənin mənşəyinin farscadakı "kirov"dan gəldiyi qənaətindədir.

Onun fikrinə görə, Güney türkcəsinə və kürdcəyə də farscadan keçib. "Kir, kiriv, kirov Farsça'da erkek tenasül organı anlamına gelir. Kürtler penise bu adı verirler. Kumera – Farsça'da tutmak, muhafaza etmek manasını taşır".

(http://turkoloji.cu.edu.tr/CUKUROVA/sempozyum/semp_2/koksal.pdf)

Sözün yayılma arealına baxsaq, kürd, yaxud süryani mənşəli olduğunu qəbul etməmək mümkün deyil.

Düzdür, farscadan bu dillərə keçməsi daha məntiqlidir. Amma dilimizə farscadan yox, kürdcə-

dən keçməsi daha düzgündür, məncə. Farslardakı "kir" sözü hazırda onlarda "kirvə" sözü ilə heç bir bağlantı daşımır. Necə keçməsi və yayılması isə, çox güman, islamla bağlıdır.

Digər məqam odur ki, kürdlərin əksəriyyəti sünnidir, süryanilər isə xristiandır. Sünnilərdə kirvə ənənəsi şiə və ələvilərdən daha az yayılıb. "Kirvə" ələvi türklərdə, kürdlərdə, yezidilərdə geniş yayılan ənənədir.

Tədqiqatçıların fikrincə, kirvəlik qeyri-müsəlmanlarla müsəlmanlar arasında, şiələrlə sünnilər arasında daha geniş yayılıb. Bunun da səbəbi kimi göstərilir ki, bir yerdə yaşamağa məcbur olan kürdlərlə ermənilər, türklərlə ermənilər, türklərlə süryanilər bir-biriləri ilə yaxınlıq etmək, münasibətlərini dərinləşdirmək məqsədilə bu addımı atırdılar. Əlbəttə, təklif müsəlmanlardan olurdu. Uşağının kirvəsini xristian etməklə onunla gediş-gəlişi rəsmiləşdirir, beləcə, bir-birilərini qorumuş olurdular. Türkiyəli tarixçi Namiq Kamal Dinc "Kürdlərin yaddaşında kirvəlik ənənəsi" adlı məqaləsində qeyd edir:

*"... Bu araştırmaya başladığımızda Diyarbakır'da Kürtler hep Ermenilerle kirve olduklarından bahsettiler.*

*... Ezidiler var, Aleviler var, bugün ismini unuttuğumuz pek çok farklı inanç ve etnik grup var. Diyarbakır'da Yahudi, Rum, Ermeni, Süryani, Alevi, Ezidi, Şemsi, pek çok grup birlikte yaşıyorlardı.*

*Bu karmaşık toplumsal yapı ülkenin doğusunda kirveliğe zemin sunan toplumsal gerçekliktir diye düşünüyorum. Batıda da elbette toplumsal farklılıklar var, ama bu kadar iç içe geçmiş topluluklar değiller".*

Bizim də qərb rayonlarımızda ermənilərlə kirvə olmaq ənənəsi hamımıza bəllidir. Zənn edirəm ki, yazının tam burasında bir sualın cavabını tapdım. "Kirvə uşaqları evlənə bilməz" fikri məhz ona görə yaranıb ki, müsəlmanla xristian övladlarının evliliyinin qarşısı alınsın. Çünki kirvəni ən yaxın adam kimi qəbul edib onun oğluna qız verməmək, oğul evləndirməmək mümkün deyildi. Digər tərəfdən, o dövrdə müsəlman və xristian övladlarının evlənməsi də mümkün deyildi. Ağıllı babalar ermənini, süryanini kirvə seçəndə onunla ailə bağlılığı olmasın deyə bu qaydanı tətbiq ediblər.

İslamda birbaşa kirvəlik anlayışı olmadığına görə Quranda da kirvə uşaqları ilə evlənmək, yaxud evlənməmək kimi ifadəyə rast gəlmədiyimizdən bu cür çürük adətin yaşadılmasının heç bir əhəmiyyəti qalmır. Quranda sadəcə aşağıdakı məqamlarda evlilik qadağan edilir: "Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi. Cinsi əlaqədə olmadığınız qadınlarınızın qızları ilə evlənmək isə sizin üçün gü-

nah deyil. Öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq da sizə haramdır. Yalnız keçmişdə (Cahiliyyət dövründə) olan bu cür işlər müstəsnadır. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!" ("Nisa" surəsi | 23).

İkinci məsələ isə kirvəliyin bu cür geniş yayılması ələvilərin müsaib adı verilən ənənəsi ilə çox bağlıdır. Diqqətlə araşdıranda eyni olduğunun da fərqinə varırıq.

"Ələvilik təriqətində vacib məsələlərdən biri də müsaib qardaşlığıdır. Müsaiblik, yəni axirət qardaşlığı ələvi inancında mühüm yerlərdən birini tutur.

Müsaib qardaşlığı necə olur?

Müsaiblik ələvilərdə yol qardaşlığı (axirət qardaşlığı) mənasında istifadə olunur. Bu qardaşlıq "qan qardaşlığı"ndan tamam kənar qohumluqdur. Qan qardaşlığına əsaslanan qohumluq məcburi olduğu halda müsaiblik qardaşlığında əlaqələr tamamilə könüllülük əsasında qurulur. Müsaiblik ənənələri geniş yayılıb. Hər cəmdə ibadətdən sonra yanaşı dayanmış icma üzvləri uyğun duanın ardınca qucaqlaşıb yanaqlarını bir-birinə vuraraq qardaşlıq əqdi edirlər. Bu hadisənin kökü hicrətin ilk illərində Məkkədən Mədinəyə köçən ilk müsəlmanlar arasında mühacir və ənsar qardaşlığı hadisəsinə söykənir. Tarixi mənbələrə görə Məhəmməd (s.ə.s) peyğəmbərin Məkkədən Mədinəyə hicrət etməsindən az sonra doxsan beş nəfərlik Məkkə sakini müsəlman da Mədinəyə (o zaman Yəsrib)

şəhərinə pənah gətirir. Məkkədən gələn mühacirləri yerləşdirmək üçün islam peyğəmbəri "mühacir və ənsar" qardaşlığı elan edir. Hər mədinəli bir məkkəlini qardaş qəbul edib ona yer verir. Ən son olaraq Həzrəti Əli (ə) tək qalır və Məhəmməd peyğəmbər onu özünə axirət qardaşı seçir.

Təbii ki, ələvilik dedikdə göz önünə gələn ilk kəlmələrdən biri də "cəm" sözüdür. Cəmlər, cəm evləri ələvi təriqətində mühüm rol oynayır. Ələvilikdə cəmsiz ibadət qəbul olunmaz. Ələvilikdə bir çox cəm evləri, o cümlədən Qurban cəmləri, Görgü cəmləri, Bayram cəmləri, Abdal Musa cəmləri və təbii ki, inancın sütunu olan "Qırxlar cəm"i var.

Müsaib qardaşlığı necə olur? İki dost yol qardaşı olmağa qərar verəndə əvvəlcə ailələrinin və həyat yoldaşlarının razılıqlarını almalıdırlar. Müsaiblik tərəflərdən biri ölmədikcə davam edir. Həyatda sadəcə bir nəfərlə edilir. Müsaiblik qardaşlığında təhsil, sosial-iqtisadi və bir çox amillərin uyğun olması mütləq şərtdir. Bu qeyd olunanlar uyğun gəlməsə, gələcəkdə böyük problemlər yaşana bilər. Əlbəttə, iki müsaibin və onların həyat yoldaşlarının bir-birinə anlayış göstərməsi mütləq şərtlərdəndir. Müsaibin həyat yoldaşları bir-birilərinin bacısı, övladları da öz övladları sayılır. Qan qohumluğu ilə olan əmi, xala, bibi uşaqları bir-biriləri ilə evlənə bildiyi halda müsaib uşaqları əsla bir-biriləri ilə evlənə bilməzlər. Onlara evlənmək qəti şəkildə olmaz. Müsaiblər arasında həm dini baxımından yol qardaşlığı, həm də cəmiyyətdə yol qardaşlığı var. Qan qohumluğu ilə yaranan qardaşlıqda ailələr ayrı evlərdə yaşa-

dıqları üçün bir-birilərindən sosial cəhətdən asılı deyillər. Yəni qardaşlar bir-birilərinin günahına, xeyir əməllərinə cavabdeh deyillər. Qazancları və xərcləri ayrıdır. Bir-birilərinə kömək edirlər. Amma müsaiblik qardaşlığında olduğu kimi deyil. Müsaiblikdə hər iki tərəf bir-birinə cavabdehlik daşıyır, onun günahına da, xeyir əməllərinə də. Ailədaxili münasibətlərdən başqa hər şeyləri eynidir. Yəni bu qardaşlıq, cəmiyyətdə birlik və bərabərlik baxımından çox üstün rola sahibdir. Qan qardaşları arasındakı münasibətlərdə büdcələr (gəlirlər) ayrı, müsaiblikdə isə birgədir. Ayrı düşünmək ən böyük xəta hesab olunur. Bunları heç bir kənar təsir olmadan könüllü qəbul edən iki müsaib qardaş babalarına – mürşidlərinə müraciət edirlər. Niyyətlərini açıq şəkildə göstərirlər. Babaları da onlara müsaib olmağın şərtlərini bir daha izah edir və onlardan buna hazır olub-olmadıqlarını soruşur. Baba müsaiblik şərtlərini uyğun görəcəyi təqdirdə onlar üçün dua oxuyur. Daha sonra da onlara müsaib olmağın çətinlikləri haqqında danışır. Xüsusilə:

1. Bir-birinizə ölənə qədər kömək edəcəksiniz.
2. Yalan danışmayacaq, haram yeməyəcəksiniz.
3. Əlinizə, dilinizə, belinizə sahib çıxacaqsınız.
4. Bir-birinizin günahına cavabdehlik daşıyacaqsınız. Buna görə də bir-birinizin günah etməyinə mane olmalısınız.

Daha sonra baba bu könüllü müsaiblərə bir il möhlət verir: "Bu qardaşlığın davam edib-etməyəcəyini həyatınızda sınayın", – söyləyir. Verilən

müddət ərzində müsaiblik qardaşlığının şərtlərini yerinə yetirdikləri təqdirdə yenidən müraciət edirlər. Bu dəfə baba bir axşam Cəm məclisi təşkil edir. Müsaib olmaq istəyən qardaşlar həyat yoldaşları ilə birgə cəmdə iştirak edirlər. Ağ, tikişsiz, bəzəksiz geyimlər geyinirlər. Həyata keçirilən ayinlə müsaib olurlar. (http://www.aleviforum.net/Konu-alevilik-te-musahiplik-nedir-yol-kardesligi-nedir.html)

Ələvilərdəki bu müsahibliyin də kökü türklərdəki "andiçmə" mərasiminin qalığıdır, yəqin ki, bir qədər dəyişkiliyə uğramaqla bu günə qədər gəlib çatıb.

*"Türk adət-ənənəsində "and içmək" anlayışı çox böyük məna ifadə edir. Bu anlayışın içərisində keçən "içmək" sözü, həqiqətən, nəyisə içmək, udmaq mənasında istifadə olunur.*

*Qədim türklərdə bir neçə nəfərin bir söz, yaxud davranış üzərində Tanrını şahid tutaraq razılaşdıqları "and içmək" ənənəsi olub. Ən azı iki türk bir şey üzərinə söz verəcəkləri zaman "and" deyilən içki qabına qımız doldurulur, and içərək söz verəcək şəxslər qılınclarını çəkib biləklərini kəsir və qabın içərisindəki qımıza bir neçə damcı qan axıdırmış. Bu müqəddəs anda daxil olan hamının qanı qabın içərisinə axdıqdan sonra bu cam qabdan hamı içir və beləliklə, geri dönülməz razılıq üzərinə and içmiş olurlar. Bu şəkildə həyata keçirilən razılaşmaya "and içmək" deyilir. And içən şəxslər "anda" adlandırılır və türk ənənəsində içilən bu anddan əsla geri dönmək olmaz". (Orkun Kutlu)*

Kiçik araşdırmadan sonra gəldiyimiz qənaət belədir ki, kirvə və kirvəliyin nə türk, nə də islam düşüncəsinə dəxli var.

"Kirvə" sözü də nə türk, nə də ərəbcədir. Mənası da çox biabırçı ifadədir.

Kirvələrin uşaqlarının evlənə bilməməsi qanunu da dövrü üçün xristian və müsəlman uşaqlarının evlənməsinin qarşısını almaq məqsədilə yaradılıb və bu düşüncəyə sahib şəxs millətinə, dininə xəyanət etmiş olur.

Gördüyümüz kimi, tarixən, bəlkə də, böyük önəmi olan bu törən hazırda puç və lazımsız hadisədir. Dünyanın tələblərindən çox geridə qalır və heç bir əhəmiyyət kəsb etmir. Olsa-olsa, özlərini köhnə zehniyyətin əlində mənasını bilmədikləri hadisənin əsirinə çevirir və qurulacaq ailələri, gənclərin sağlam sevgisini buxovlayırlar.

Ənənələr zaman-zaman dəyişir. Dəyişməsi də labüddür. Bu günün orta statistik insanının bilgisi, informasiyaya çatması min il qabaqkı alimdən qat-qat üstündür. Onun üçün də "atalar həmişə düz deyir" prinsipi də öz qüvvəsini itirməkdədir.

Kirvələrin uşaqlarının evlənməsi qadağandırsa, Adəmin övladlarının evlənməsinə nə deyək? Əlbəttə, bu gün həmin rəvayətə uyğun həyat tərzi qurmaq mümkün deyil. Elə isə bəlkə, düşünək və bu gülünc adətdən əl çəkək?!

# DETEKTİV ROMAN VƏ CİDDİ ƏDƏBİYYAT ANLAYIŞLARI

Detektiv romana verilən müxtəlif təriflər mövcuddur. Bu təriflərdən danışmazdan öncə "detektiv" və "detektiv roman" terminlərinin məna fərqini müəyyənləşdirməyimiz daha düzgün olar. Çünki detektiv roman xüsusi janr yolunda addımladığı zamanda **detektiv hekayə, detektiv film, detektiv serial** kimi ifadələr ayrıca mövzudur. Bir az dərindən düşünsək, baş vermiş hadisənin üstündən sirr pərdəsinin götürülməsi, hadisənin necə baş verdiyinin müəyyən sujetlə oxucuya çatdırılması detektivlikdirsə, bu bütün bədii əsərlərdə var. Məgər "Müsibəti Fəxrəddin" əsərində Fəxrəddinin, yaxud "Səyavuş" pyesində fitnələrlə qarşı-qarşıya qalan Səyavuşun taleyi oxucunu düşündürmürmü? Yazıçı müəyyən inkişaf xətti ilə onların xarakterinin və taleyinin açılmasına çalışmırmı? Bu, ədəbiyyatın bütün epik janrlarındakı özək hissəni təşkil edən amildir. Amma oxucunu daha da həyəcanda saxlamaqla, hadisələri bir az sirli şəkildə təqdim et-

məklə əsərə marağı artırmaq yazıçının borcudur. Bu baxımdan bəzi yazıçılar məhz detektiv əsərlər yazmasalar da, əsərlərində detektiv çalardan məharətlə istifadə ediblər. Buna dünya ədəbiyyatında Ceyms Rollinsin, Den Braunun, Umberto Ekonun bir çox əsərlərini, Azərbaycan ədəbiyyatında isə Çingiz Abdullayevin "Əclafların qanunu", Elxan Elatlının "Qan ləkəsi", "Cəhənnəmdən gələn səs", Şəmil Sadiq və Müşfiq Xanın "Ümidlərin izi ilə" kimi romanlarını misal göstərə bilərik.

Detektiv əsər üçün üç əsas amil vacibdir: qətl hadisəsi, qatil və xəfiyyə. Bu üç ifadənin açılışı üçün üç əsas sual prinsipini də götürə bilərik: kim, niyə, necə? Bu üç sualın ətrafında xəfiyyənin / detektivin quru, sinxron, xronoloji aspektdə araşdırmaları günümüzün oxucusu üçün maraqlı deyil. Bu artıq Konon Doylun, Aqata Kristinin klassik detektivçilik oyunun bitməsi və yeni dönəmin başlanmasından xəbər verir. Belə sinxron cinayət işləri prokurorluq orqanlarındakı sənədlərin rəsmi dilidir. İstənilən cinayət işini müəyyən ardıcıllıqla düzüb üslubuna və dilinə yüngülvari əl gəzdirsən, detektiv əsər adı ilə təqdim edilən bəzi əsərlərdən daha yaxşı olar. Bu isə haqlı olaraq detektivin ciddi ədəbiyyat hesab edilməməsinə gətirib çıxarır. Bir vaxtlar istər dünya, istərsə də milli ədəbiyyatımızda Çingiz Abdullayevin detektiv əsərləri böyük hörmət qazandı. Onun nümayəndəsi olduğu siyasi detektiv janrı belə artıq əvvəlki populyarlığını itirib. Siyasi-analitik araşdırmalar bu tip romanları əvəz etməkdədir.

Çağımızda yazılan romanların əksəriyyətində ədəbiyyatın və ədəbiyyatşünasların qəbul etmədiyi detektivçilik aydın şəkildə müşahidə olunur. Realistik romanlarda belə bu amildən zərif şəkildə istifadə edilir və oxucunu əsəri oxumaq üçün bu ədəbi "priyom"a salmış olur.

Detektiv roman haqqında bir çox ədəbiyyatşünaslar, yazıçılar müxtəlif fikirlər bildirsələr də, ümumi məzmun, demək olar, eynidir. Bu nəsr növünü nəinki janr, hətta ciddi ədəbiyyat kimi qəbul etməyənlərin sayı əks mövqedə duranların sayından daha artıqdır.

Cinayət insanlığın var oluşundan başlayan hadisədir. İnsanın ilk yaradılışının Adəmlə başladığını qəbul etsək, deməli, cinayətin də Adəmlə – insanla əkiz doğulduğunu görərik. Adəmin qadının qadağan olunmuş meyvəni yeməsi, övladlarının bir-birini öldürməsi bunun sübutudur. Seval Şahinin dili ilə desək, "Cinayət ədəbiyyatı janrın ən böyük çətirini yaratmaqdadır".

Çağdaş Türkiyə ədəbiyyatında detektiv əsərləri ilə məşhur olan tanınmış yazıçı Əhməd Ümid cinayətin və detektivin tarixindən bəhs edərkən yazır: "Klassik detektivin başlanğıcı olaraq XIX əsrin ortaları göstərilir. Amma cinayət haqqında mətnlərin tarixi daha əvvəllərə – tarixin başladığı günlərə uzanır. Cinayət bəşəriyyətin yaranma formasıdır. Həqiqətən, cinayəti, ya da nəticələrini nəql edən ilk mətnlər günümüzdən minlərlə il öncə yazılmışdır. Hitit saray cinayətlərinin nəticələri haqqında "Te-

lipinu fərmanı" ya da Sofoklun məhşur əsəri "Kral Edip" buna misaldır. Bu mətnlər arasında "Əhdi-Ətiq"in "Qabil və Habil" adlı hissəsində nəql edilən cinayət hekayəsi ən təsirlisidir. Üstəlik, təsirli nağıl olmaqdan çıxaraq cinayəti və günahı nəql edən müəllif üçün asanlıqla dəyişməyəcək (dəyişdirilə bilməyəcək) modelə çevrilib.

O gündən bu yana dünyanın tarixinə diqqət etsək, insanı cinayətsiz, cinayəti də insansız təsəvvür edə bilmərik. Bunu təsəvvür etmək üçün ya çox romantik olmalısan, ya da dərviş ruhlu.

Sadəcə, cinayət üstündə qurulan əsərləri, demək olar, bir çox tədqiqatçılar, ziyalılar ciddi ədəbiyyat hesab etmirlər.

Sözügedən janrda yazanlar, oxuyanlar bu cür münasibət zamanı "ciddi ədəbiyyat" sözünün özünü belə, ciddi hesab etmir və bu ədəbi janrın inkişafı üçün bir növ tər tökürlər. Bu cür münasibətlərin kökündə kampaniya xarakteri dayansa da, əslində, haqlı məqamlar var.

"Peşəkar ədəbiyyatçılar yaxşı bilirlər ki, son illərin bədii əsərlərində ictimai-sosial mahiyyətli, cəmiyyəti düşündürən problemlər, ciddi məsələlərlə bağlı cəhətlər olduqca çox zəifləyib". Heç bir bəşəri əhəmiyyəti olmayan qətlin açılması üçün süjet qurub oxucu ilə gizlənqaç oynamaq, əlbəttə, ədəbiyyat ola bilməz. Bu məqamda yadımıza xalq oyunları, tapmacalar düşür. Halbuki adını çəkdiyimiz janrları şifahi xalq ədəbiyyatı nümunəsi kimi qəbul edirik. Bu zaman sual yaranır, bəs tapmaca ədə-

biyyat deyilmi? Şifahi xalq ədəbiyyatı ciddi ədəbiyyat sayılmırsa, ədəbiyyatın varlığından, ümumiyyətlə, söhbət açmaq düzgün deyil.

Ədəbiyyat bir sənət olaraq insana xidmət edir. Ədəbiyyatın vəzifələri arasında tərbiyələndirmək, maarifləndirmək, zövqü formalaşdırmaq, həyəcanlandırmaq, həyatın çatışmayan tərəflərini nümunələrlə göstərmək var. Detektiv romanlarda da insan həyatında tez-tez rastlaşdığımız müəmmaların, əslində, üzə çıxarılma yollarını göstərmə, dərs vermə var. Digər tərəfdən məntiqi təfəkkürün inkişafına da xidməti var.

Jozef Krutç detektiv romanı nəsrin mükəmməl modern janrı hesab edir. Visten Hyu Odenə görə, detektiv roman cinayət hadisəsindən sonra bütün şübhəlilərin gözdən keçirilməsi və nəhayət, cinayətkarın ələ keçirilməsinin hekayəsidir. Hovard Heykraft isə düşünür ki, detektiv roman əsərin sonunda günahkarın üzə çıxarılmasını hədəfləyir.

Bütün ədəbi janrlar insana dərin təsir göstərməyə xidmət edə bilməz. Bəziləri ömürlük, bəziləri isə bir anlıq təsir gücünə malikdir. Ola bilsin, bəzi detektiv romanlar insana bir anlıq təsir gücünə, yaxud həyəcan vermə, adrenalin artırma gücünə malikdir. Fikrimizcə, bu cür yanaşma bir ədəbi janrın meyarı ola bilməz.

Son dövrlər müasir Azərbaycan ədəbiyyatında da müzakirə obyektinə çevrilən "Ciddi ədəbiyyat necə olmalıdır?" "Detektiv ciddi ədəbiyyat hesab edilə bilməz" kimi fikirlər Avropa ədəbiyyatşünas-

lığında XX əsrin əvvələrində başlayıb. Edmund Vilson 1945-ci ildə yazdığı "Rocer Ekroydun qatilindən kimə nə?" adlı məqaləsində detektiv romanı "ağılsızlıq və zərər baxımından tapmaca tapmaqla siqaret çəkmək arasında dəyərləndirilə biləcək axmaq vərdiş", detektiv oxucularını isə "affekt dərəcəsində bağlanan" adlandıraraq "özümüzü bu cür boş şeylərlə məşğul etməməli, detektiv oxuyaraq kağız israfına şərait yaratmamalıyıq" yazırdı.

Edmon Vilsonun fikri ilə ortaq olan peşəkar ədəbiyyatçılar bu janrı ciddi olmayan ədəbiyyat adlandıra-adlandıra, bir növ, təbliği ilə də məşğuldurlar. Ədəbi prosesdə qızışmaqda olan bu polemika tez-tez gündəmə gəlir. Amma heç bir ciddi ədəbiyyatşünasın bu mövzuda geniş araşdırma aparmaması, əsərlərində toxunmaması, hətta görməzdən gəlməsi meydanın boş qalması sadəcə həvəskar ədəbiyyatçıların, ədəbiyyatsevərlərin publikadakı kiçik, əsassız fikirləri ilə bitməsinə, daha doğrusu, bitməməsinə gətirib çıxarır. Bizə məlum heç bir ədəbiyyat nəzəriyyəsində detektiv termininə janr deyəkmi, deməyəkmi, detektiv ədəbiyyat ciddi ədəbiyyatdırmı, deyilmi suallarına nəinki cavab tapa bilmərik, hansısa bilgiyə də rast gəlmərik. "Detektiv" terminin yaşadığı bu haqsızlıq Türkiyə ədəbiyyatında da rast gəlinir. "Türk ədəbiyyatı ilə bağlı əsas əsərlərdə detektiv roman mövzusuna ya heç toxunulmayıb, ya da çox ötəri toxunulub. Məsələn, yetkin bir əsər olan Atilla Özkırımlının beş cildlik "Türk ədəbiyyatı ensiklopediyası"nda detektiv

romanlardan bəhs edilməsi bir yana, bu janr roman yox sayılır. Necə? Romanla bağlı hissədə roman janrları sadalanır. O hesab edir ki, əlli üç roman janrı var, amma bunların arasında "detektiv roman" yoxdur. Belə olan halda türk ədəbiyyatında xəfiyyə romanlarının yerini hansısa qeyri-peşəkarın doldurması qaçılmaz olur".

Hazırda Azərbaycan oxucusunu dünya ədəbiyyatı ilə tanış etməkdə böyük rol oynayan Türkiyə ədəbiyyatında da detektiv roman janrı ilə bağlı bir çox müzakirələr gedir. Suut Kamal Yetkin detektivin ədəbiyyatşünaslar tərəfindən janr kimi ədəbiyyatın qapısından içəri buraxılmamasının səbəbini məntiqi olaraq düzgün izah edir: "On beş-iyirmi il əvvələ qədər detektiv roman insan duyğularına maraq göstərmədiyi, böyük əksəriyyəti pis dillə yazıldığı üçün ədəbiyyatdan kənar hesab olunmaqda idi".

Lakin Azərbaycanda fəaliyyət göstərən nəşriyyatların, kitab mağazalarının, saytların ara-sıra təqdim etdiyi sorğulara, statistikalara diqqət etsək, bu gün ən çox oxunulan kitabların məhz detektiv əsərlər olduğunu görərik. Ciddi hesab edilməyən bu ədəbiyyat janrının psixoloji, siyasi, fantastik, elmi, mistik kimi janrlarının ortaya çıxması, hekayə, povest, roman formalarından istifadə olunmaqla klassik, modernist, postmodernist cərəyanlarda özünə müstəqillik qazanmaq uğrunda mübarizəsi artıq bu janra ciddi yanaşma tələb edir.

Dediklərimizin sübutu kimi detektiv ədəbiyyatı haqqında "Qaynar.info" saytının keçirdiyi **"Detektivi ciddi ədəbiyyat sayırsınızmı?" adlı sorğudan** bir neçə fikri təqdim etmək istərdik:

**Səfər Alışarlı:** "Yox. Detektiv əyləncə axtaranlar və evdar qadınlar üçündür".

**Qan Turalı:** "Nəinki mən, heç Nobel Komitəsi də detektivi ciddi ədəbiyyat saymır. Ümumiyyətlə, Çingiz Abdullayevdən başqa detektivi ədəbiyyat sayan adam görməmişəm".

**Zahir Əzəmət:** "Yox. Kütləvi ədəbiyyatdır. Bunu nəzəriyyə kitabları da deyir, özümüzdən uydurmuruq. Müqayisədə daha maraqlı və daha peşəkar yazılmış detektivlər var".

**Sevinc Elsevər:** "Detektiv ayrıca janr kimi ciddi ədəbiyyat deyil. Amma bu mövzudan ciddi ədəbiyyatda istifadə olunur və oxucu toplamaqda əhəmiyyətli rol oynayır".

**Azad Qaradərəli:** "Detektiv heç vaxt ciddi ədəbiyyat nümunəsi olmayıb və olmayacaq. Burada mahiyyət yox, qurama hadisəçilik var. İstənilən prokurorluq işçisinin beş faiz ədəbi istedadı olsa, yaxşı detektiv yaza bilər".

**Sayman Aruz:** "Mən o ədəbiyyatı on altı-on yeddi yaşlarımda oxumuşam. Fikrim formalaşdıqca ciddiyə almadım. Məncə, cinayət və cəza kimi şeylər ciddi ədəbiyyatın daxilində yalnız həyatın bir guşəsində olan kiçik həqiqətlər kimi göstərilə bilər. Ciddi ədəbiyyat detektiv ədəbiyyatın əksi kimi hər şeyi əhatə edir. İnsan da, ədəbiyyat da

ciddiləşdikcə, kamilləşdikcə, özü fakta və mənbəyə çevrilir, yəni mütləqləşir. Doğrusu, detektiv ədəbiyyatın bu gücdə olmasına inanmıram".

Taleh Şahsuvarlı: "Mən detektivi nə oxuyuram, nə də ədəbiyyat sayıram".

Elxan Nəcəfov: Müşfiq Xanın "Qatil üçün nekroloq" romanı haqqında yazır: "Detektiv əsərlərin ədəbi-bədii qabığı olduqca zəif olur. Oxucu belə əsərlərdən tərbiyəvi nəticə çıxara bilmir. Əksinə, mükəmməl cinayət necə törədilər, cinayəti törətdikdən sonra necə məsuliyyətdən yayınmaq olar kimi xüsusiyyətləri özündə formalaşdırması mümkündür. Elə buna görə də ciddi ədəbiyyat adamları detektiv əsərlərin tərifindən, təbliğindən qaçırlar.

Türkiyəli hüquqşünas Tacəddin Şimşəyin detektiv romana münasibətini Həbibə Cizer öz doktorluq dissertasiyasında bu cür izah edir: "Detektiv romanı "ədəbiyyatın ögey övladı" olaraq dəyərləndirən Tacəddin Şimşək dünyada bu janra aid əsərlərin sürətlə çoxalmasına rəğmən ədəbi olub-olmadığını müzakirə edildiyini bildirərkən son illərdə postmodern yanaşmanın detektivi ədəbi əsərlər arasında dəyərləndirdiyini və detektivlə bağlı ədəbiyyatdan kənar – həm psixoloji, həm sosioloji, həm də iqtisadi araşdırmaların aparıldığını, amma bunların yenə də detektiv romanın ədəbiyyat və estetik normalar çərçivəsində çox da ciddiyə alınmayan janr olduğu gerçəyini dəyişdirmədiyini vurğulayır".

Detektiv ədəbiyyat haqqında münasibət bildirən şəxslərin kimliyinə baxsaq, əksəriyyətinin ciddi

ədəbiyyatşünas olmadığını görərik. Bu şəxslər gündəmdə olan yazıçı, yaxud köşə yazarlarıdır. Bu da yuxarıda qeyd etdiyimiz kimi detektiv janrının elmi əsaslarla ciddi şəkildə araşdırılmadığından xəbər verir. Görəsən, bunun əksini düşünənlər varmı, varsa, kimlərdir və necə düşünürlər?

İngilis yazıçısı Somerst Moem "Çox yaxın gələcəkdə detektiv romanların universitetlərdə dərs kimi tədris ediləcəyini, doktorluq oxuyan tələbələrin araşdırma sahəsi olaraq detektiv hekayələri seçəcəyini" irəli sürüb.

Türkiyəli yazıçı Lalə Tunçmanın fikrincə, "detektiv roman ədalətin boşqabda qarşımıza qoyulduğu janrdır. Bunu təmin etmək üçün hüquq məhkəmələri qurmaq lazım deyil. Detektivlərdə oxucunun axtardığı ədalət, yeməkdən sonrakı desert boşqabıdır. O şirniyyat mütləq yeyilir".

Türkiyəli tanınmış detektiv yazıçı Əhməd Ümid: "Bir müddət sonra detektivin möhtəşəm intellektual fəaliyyət içində yazıla biləcəyini gördük. Umberto Ekonun çox satılan "Qızılgülün adı", yaxud Borxesin yazdığı hekayələr buna ən gözəl nümunələrdir. Avropa və ABŞ-də detektivin çox oxunmasının əsas səbəbi yaxşı oxucu kütləsinin olmasıdır. O oxucu kütləsi üçün yaxşı detektiv ziyafətdir. Bizdə oxucu kütləsi inkişaf etmədiyi üçün insanlar hələ də romanlarda həyat formulları axtarmaqdadırlar", – deyir.

Türkiyəli yazar, tərcüməçi, detektiv verilişlərinin aparıcısı Sevin Okyay: "Detektiv romanın tarixində

də, bu günündə də çox yaxşı müəlliflər var. Bəziləri, eyni zamanda, çox satılır deyə bu janra qaramı yaxaq? "Ciddi" kitab yazanların bir qisminin də kitabları çox satılır. Detektiv ədəbiyyat janrıdır. Bu səbəbdən də ədəbiyyat üçün keçərli olan şey detektiv üçün də keçərlidir. Yaxşı yazılıbsa, yaxşı kitabdır. Saf ədəbiyyat nümunəsi kimi bazara çıxan minlərlə kitabın içindən yaxşı kitabı necə maqqaşla çəkib alırıqsa, detektivin də həm yaxşısı var, həm pisi... "Dime novel" deyə tanınan "beş qəpiklik roman"-lardan heç kəs parlaq ədəbi əsər olmasını gözləyə bilməz. Amma Nik Karterlə Nat Pinkertonun bu gün də saysız-hesabsız heyranı var. Ekoya gəlincə, "Qızılgülün adı" və "Baudolino", daha öncə anlamayanlara "həqiqi" yazarların da bu janrı seçə biləcəklərini göstərdi. Onsuz da, başqa "ciddi" əsərlər, məsələn, Folknerin "Müqəddəs sığınacaq", Dostoyevskinin "Cinayət və Cəza" romanları da detektivə uzaq deyil. Ernst Mandel də "Xoş cinayət"də bu janrı yüksəklərə qaldırıb. Amma detektiv oxumağı "krossvord həll etməklə siqaret çəkmək arasında dəyərləndiriləcək pis vərdiş" sayanlar hər zaman olacaq. Tərs kimi ikisini də sevirəm".

Gördüyümüz kimi, detektivin ciddi ədəbiyyat janrı olub-olmaması ilə bağlı müxtəlif fikirlər var. Bu fikirlərin əksəriyyəti bir həqiqətə dayanır: müasirliyin tələblərindən "sənət xalq üçün" prinsipidir. Belədirsə, deməli, əksəriyyətin bəyəndiyi, oxuduğu, oxucusu olduğu müəllifin əsərlərinin yeni çapını səbirsizliklə gözlədiyi oxucu kütləsinin olduğu halda

ədəbiyyatşünaslıq elminin adından çıxış edərək bu tip əsərləri görməzdən gəlmək və ədəbiyyatdan xaric hesab etmək yanlış düşüncədir. Sevin Okyayın gəldiyi qənaət kimi, detektiv əsərlərin də pisi və yaxşısı var. Bir ədəbiyyat nümunəsi kütləviləşibsə, ona qısqanclıq kimi görünən münasibət haqsızlıqdır. Bir zamanlar Servantesin sərbəst vəzn anlayışını qəbul etməyən ədəbiyyatşünaslıq hazırda modernist düşüncənin təsiri altında bu islahı vəzn kimi qəbul etməyə bilmir. Artıq elə dövrdür ki, forma məzmununun quluna çevrilməkdədir və bu yanaşmanı haqlı hesab edirik. Çünki heç bir elm sahəsi nümunə yaratmaq iqtidarında deyil. Nümunələrin varlığı elmin onu hansı kateqoriyaya daxil etməsini məcburiyyətə çevirir və yönləndirir. Ədəbiyyatşünaslıq elmi də nümunələr vasitəsilə müəyyən nəzəri bölgü və kateqoriyalar müəyyənləşdirir. Məhəmməd Füzulinin, Hüseyn Cavidin əruz vəzninin müəyyən bəhr, yaxud bəhrlərinin variantını yaratdığı üçün Əkrəm Cəfər "Leyli və Məcnun" həzəci, "Cavid həzəci" terminini yaradıb.

Bu gün bəşər övladı heç bir tabunu qəbul etmir. Ona görə ki düşüncə tərzi formalaşıb, beyin qatları daha da genişlənib. Dünyanın dərki yolunda özünün qəbul etdiyi prinsipləri olduğu üçün hansı elmin nə deməyindən asılı olmayaraq öz həqiqətinə inanır. Onun inandığı həqiqəti isə elm qəbul etməyə və öyrənməyə məhkumdur. Bu baxımdan da hesab edirik ki, ədəbiyyatşünaslıq detektivi janr, yaxud ciddi ədəbiyyat nümunəsi kimi qəbul etməli, ciddi

və qeyri-ciddi nümunələrini bir-birindən fərqləndirmək üçün elmi tədqiqat əsərləri yazılmalı, dissertasiyalar, monoqrafiyalar işlənməli və bu ədəbi janra qiymət verilməlidir. Düşünürük ki, ədəbiyyatşünaslıq bu janra daha fundamental yanşsa, çox maraqlı məqamların ortaya çıxmasına nail olacaq.

Ədəbiyyat siyahısı

1. Seval Şahin | Banu Öztürk | Didem Ardalı Büyükarman | "Edebiyatın İzinde | Polisiye Edebiyat" | İstanbul | "Bağlam yayıncılık" | 2013

2. Ahmet Ümit | "Tanrı Yazar mı, Yazar Tanrı mı?" | "Radikal Kitap" | Nisan | 2006

3. bilikevi.com | 2014.11.16

4. Edmund Wilson | "Roger Ackroyd'un Katilinden Kime Ne?" | Çev. | Zehra Boren | Nisan | nr. 4 | Aralık | 1984 | s. 76-82'den aktaran | Orhan Kemal Koçak | Sözlü Kültürden Yazılı Kültüre Anlatı Gelenegi ve Popüler Bir Mit Olarak Polisiye Roman (Master Tezi) | Marmara Üniversitesi | İstanbul | 2003

5. Erol Üyepazarcı | "Korkmayınız Mr. Sherlock Holmes (Türkiye'de yayınlanmış çeviri ve telif polisiye romanlar üzerine bir inceleme 1881 – 1928)" | "Göçebe Yayınları" | İstanbul | 1997

6. Suut Kemal Yetkin | "Polis romanları" | Milliyet Sanat | nr. 115 | Mart | 1985

7. www.adalet.az | 2014.10.19

8. www.publika.az | 2014.10.19

9. Hasibe Gezer | "Türk edebiyatında polisiye roman ve Ahmet Ümit`in polisiye kurguları" | Yüksek lisans tez | İsparta | 2006

10. Somerset Maugham | "Give me a Murder" | "Saturday Evening Post" | Londra | 28 Aralık 1940 | s. 21'den aktaran M.Resit Küçükboyacı | "İngiliz Edebiyatında Dedektif Hikayeleri" | Ege Üniversitesi Edebiyat Fakültesi Yayınları | İzmir | 1988

11.www.ntvmsnbc.com

12. www.notosoloji.com

13. www.egoistokur.com

# DETEKTİV JANRI: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

Azərbaycan ədəbiyyatında roman janrının nüfuzu XX əsrdən etibarən artsa da, XXI əsrin əvvəllərində bu janr daha da populyarlıq qazanmağa başladı. Bu populyarlıq roman janrını daha çox önə çıxardı və bu gün yazıçıların əksəriyyəti roman yazır (Bu, romançılığımızın bütün bədii məziyyətləri ilə ədəbi tələblərə cavab verdiyi, yüksək poetik xüsusiyyətləri ilə seçildiyi mənasına gəlmir), oxucular da daha çox roman oxuyurlar. Elə buna görə də bir müddət ədəbiyyatımızda "roman bumu"nun yaşandığı ciddi müzakirə mövzusuna çevrildi. Romanın bir janr kimi sürətlə populyarlıq qazanması, kütləviləşməsi digər janrları arxa plana keçirməsə də, onun aktuallığını xeyli dərəcədə artırdı. Sanki oxucuların poema, şeir, hətta hekayə oxumağa hövsələsi çatmır. Yazıçılar da digər janrlara müraciət etməyə meyilli deyillər. Çünki şeir yazmaq istəyən romanında lirik parçalar, hekayə

janrına müraciət etmək istəyən isə öz hekayəsini, əhvalatını romanına yerləşdirir. Bu, roman janrını digər janrlardan populyar edən səbəblərdən biri olsa da, sözsüz ki, ədəbi prosesdəki bu hal dünya ədəbiyyatında gedən proseslərlə də əlaqədardır. Rus ədəbi tənqidçisi Vissarion Belinski yazırdı: "Roman və povest bizim zəmanəmizdə ədəbiyyatın bütün digər növlərini sıxışdırıb arxa plana keçirib və ədəbiyyatda hakim mövqe qazanıb. Mübaliğəsiz demək olar ki, indi ədəbiyyat dedikdə roman və povesti nəzərdə tuturlar. Romanın məzmunu müasir cəmiyyətin bədii təhlilidir. Müasir romanın vəzifəsi həyatı bütün çılpaqlığı ilə əks etdirməkdir. Cəmiyyət romanı öz güzgüsü hesab edir".

Dünya ədəbiyyatında da eyni tendensiya müşahidə olunur. Roman janrına kütləvi müraciət edilməsinin əsas səbəblərindən biri də, zənnimizcə, son dövrün romançılığı haqqında ədəbiyyatşünasların susmasıdır; sanki roman janrında gedən istər məzmun, istərsə forma dəyişiklikləri ilə ayaqlaşa bilmirlər. Hətta bugünkü roman janrının formalarına, məzmununa, tipoloji quruluşuna, üslubuna diqqət etdikdə, demək olar ki, ədəbiyyat nəzəriyyəsi termin yaratmaqda və ad verməkdə çətinlik çəkir.

Professor Əlizadə Əsgərli "Müstəqillik dövrü Azərbaycan romanının tipologiyası və ədəbi tənqidinə dair" məqaləsinin girişində yazır: "XX əsrin 60 – 80-ci illərdə Azərbaycanda və ondan kənarda (rusdilli Azərbaycan sənətkarları) mövzu-problem baxımından tiplologi romanlar meydana çıxıb,

ədəbi tənqid və ədəbiyyatşünaslıq tərəfindən dəyərləndirilib. 90-cı illər romanları isə keçid dövründə – Azərbaycanda gedən ictimai-siyasi hərəkat və Azərbaycan-Ermənistan müharibəsi fonunda meydana çıxdığından vaxtında ədəbi-tənqidçi qiymətini ala bilməyib".

Bundan başqa, roman janrının meyarları konkret olmadığından yazıçıların, xüsusən də ədəbiyyata yeni gələn gənclərin öz fikir və düşüncələrini, xatirələrini, başına gələnləri, eşitdiyi əhvalatları, hadisələri müəyyən təhkiyə ilə qələmə almalarına, bunu roman kimi təqdim etmələrinə şərait yarandı. Əslində, bu bir qədər də Şərqin forma köynəyini cırıb atması və sərbəst düşüncəsini çılpaq şəkildə təqdim etməsidir. Çünki nəzmdə olan bütün janrlar qələm adamından böyük istedad tələb etdiyi kimi böyük istedadları buxovlayıb çərçivəyə də salır və beləcə, məzmun formaya qurban gedir. Lakin qloballaşan dünya göstərir ki, Aristotelin "forma və məzmun vəhdətdə olmalıdır" ideallıq prinsipi özünü doğrultmur. Professor Məmməd Əliyevin "Yeni məzmun ənənəvi formalara, qəliblərə uyğun gəlmir, yeni forma yaradılması zərurəti yaradır" (Məmməd Əliyev | "Ədəbiyyat nəzəriyyəsi" | Bakı | "Elm və təhsil" | 2012) fikrinə əsaslansaq, "istənilən mükəmməl məzmun özü bir formadır" qənaətinə gələ bilərik. Deməli, forma məzmundan irəli gələn məsələdir. Cəfər Cəfərov Mizə Fətəli Axundovun məzmun və formaya münasibətindən danışanda qeyd edirdi: "O başa düşürdü ki, həyat ədəbiyya-

ta nəinki ideya və məzmun verir, yeni həyati məzmun özünəmüvafiq forma da doğurur". Hegelin "məzmun və formaya əksikliklər arasında qarşılıqlı münasibət kimi baxması" forma anlayışının sadəcə məzmundan doğduğunu göstərir. Bu gün cəmiyyətin istənilən sahəsində formanın haradan, necə yarandığını araşdırsaq, mükəmməl məzmunun ya formaya ehtiyacı olmadığını, ya da mükəmməl məzmunun elə forma olduğunu görərik. Forma islahının yaranmasına səbəb isə məzmun əskikliyidir. Məzmunda əskiklik və qüsur varsa, hamı onda forma axtarmağa başlayır. Kafkanın "Çevrilmə"sindəki Qreqor Zamzanın insan formasında olmaması, amma məzmun etibarilə insan duyğularını daşıması, yaşaması oxucunu forma axtarışından xilas edir. O, əsər boyu məzmunu izləyir. Amma yaradılmış yeni məzmun özlüyündə forma ortaya çıxarmış olur.

Bütün bəşəriyyətdə "forma və məzmun vəhdəti" özünü doğrultmadığı halda "həyatı bədii lövhələr və surətlər vasitəsilə, ümumiləşmiş və fərdiləşmiş şəkildə əks etdirən, estetik-tərbiyəvi əhəmiyyətə malik olan söz sənəti – ədəbiyyat" necə doğrulda bilər?

**Fransız alimi Bartelemi Derblonun fikrincə, nəsrlə romanlar sonralar yazılıb. Bu da onu göstərir ki, roman deyərkən forma yox, məzmun nəzərdə tutulur.**

Bu baxımdan dəbdə olan ədəbiyyata gənclərin marağının artması və bu marağın təmin

olunmasında, demək olar ki, roman janrının cavab verməsi birbaşa yuxarıda qeyd etdiyimiz səbəbdən doğur: romanın konkret formaya sığmaması, konkret forma meyarlarının müəyyənləşdirilə bilməməsi. Bu yanaşma bir çox yazıçılar və tədqiqatçılar tərəfindən də təsdiqlənir. Filip Stevikin fikrincə, "Ənənə olaraq roman öz forması içində uğrusuz janrdır". Mark Tven öz yazdıqlarına haqq qazandırmaq üçün: "Bu romanda gerçək motiv axtaranlar təqibə uğrayacaq, əxlaq dərsi arayanlar ölkədən qovulacaq, hekayə tapmağa çalışanlar isə vurulacaq", – deyirdi.

Bu da onu göstərir ki, yaradıcılığa yeni gələnlər birbaşa romandan başlayıb: "Mən bir həyat hekayəsini qələmə almışam, yaşadıqlarımdır", – deyərək yazdıqlarını ədəbiyyat və roman adlandırırlar. Bu yanaşma sanki roman termininin mənşəyindən də irəli gəlir. Bildiyimiz kimi, bəzi mənbələrdə "roman" sözü "Roma imperatorluğunda yaşayan xalqların istifadə etdiyi pozulmuş və naqis latıncaya verilən addır. Bu naqis latınca ilə yazılan dastan və xalq öykülərinə roman deyilib". İndi də yarımçıq və qüsurlu yazılanlar qədim dövrdəki kimi roman adlandırılaraq məsələnin ciddiliyindən boyun qaçırılır. Digər tərəfdən roman janrının konkret sərhədlərinin olmaması onun daim yenilənməsinə, təkmilləşməsinə, genişlənməsinə, digər janrlarla inteqrasiyasına imkan verir. Bu baxımdan, hazırda roman, bir növ, ədəbiyyat anlayışını əvəz etmiş olur. Beliniskinin dili ilə desək: "İndi ədəbiyyat dedikdə roman və

povesti nəzərdə tuturlar". Romanın janr kimi geniş imkanlara malik olması və inkişafa meyilliliyi ona gətirib çıxarıb ki, bu janrdan artıq yeni janrlar yaranmağa başlayır. Bir zamanlar romanın növləri kimi qeyd edilən tarixi, sosioloji, psixoloji, fantastik, detektiv, müharibə kimi terminlərdən bəziləri artıq yeni janr hüququ qazanmaqdadır.

Əvvəllər sadəcə detektiv roman deyilirdisə, indi artıq "detektiv janr" ifadəsi nəinki bizdə, dünya ədəbiyyatşünaslığında da öz müstəqilliyini təsdiqləməkdədir. Maraqlıdır ki, belə yanaşmanı adətən tədqiqatçılar yaradır və elmə gətirir. Lakin bu məsələdə sanki oxucular ədəbiyyat nəzəriyyəsinə müdaxilə edir və bu ifadəni kütləviləşdirərək təzyiqi artırır. Dəfələrlə ədəbiyyatdan sadəcə oxucu kimi yararlanan qeyri-peşə sahibləri: "Detektivə niyə janr demirsiniz ki?" – sualını ünvanlayıb. Bu fikri işlətməkdə oxucunu qətiyyən qeyri-peşəkar adlandırmaq və alçaltmaq niyyətində deyilik. Sadəcə, romanın növləri içində oxucu kütləsinin çoxluğu ilə seçilən detektiv əsərlərdir. Tarixi, psixoloji, sosioloji romanlara nisbətən detektiv və kriminal romanlar daha kütləvidir.

"Ədəbi janrlar dəyişməyən yazı qəlibləri deyil. Cəmiyyətdə zamanla meydana gələn dəyişikliklər ədəbiyyatda da öz əksini tapır. Ədəbi janrlar da dəyişən zamanın ehtiyaclarına cavab verəcək dəyişikliyə uğrayır. Yeni çağın təhkiyə formalarından olan roman janrı da zamanla dəyişikliyə uğrayıb, mövzuları və kompozisiyası dəyişib və yeni roman

janrları ortaya çıxarıb. Bunlardan biri də detektiv roman janrıdır".

Detektiv roman janrından və onun tarixindən danışarkən, ilk növbədə, bu terminin haradan gəldiyinə diqqət edək. Azərbaycan ədəbiyyatşünaslığına rus ədəbiyyatşünaslığından keçən bu termin latıncadan götürülüb mənası "ifşa etmək, açığa çıxarmaq"dır. Türk ədəbiyyatşünaslığında isə "detektiv" termininin qarşılığı olaraq "polisiye" sözü işlənir.

Ədəbiyyatımızda "kriminal roman, xəfiyyə ədəbiyyatı, cinayət romanı" kimi tanınan bu nəsr janrı ilk dəfə Qərbdə meydana gəlib. Əvvəllər "mystery literature" (sirli ədəbiyyat) sərlövhəsi ilə toplanan janrlar arasında göstərilirdi. Daha sonralar isə "supsense" (şübhə, həyəcan) və "crime", "criminal" (cinayət) kimi adlarla ifadə edilməyə başlanıb.

"Criminal" sözünün ingiliscədən təcüməsi "cinayət", "cani", qatil", "cinayət törədən" mənasını verir. Türk ədəbiyyatında da detektiv termininin qarşılığı kimi işlənən "polisiye" sözü fransızcada "policer", almancada "polizeilich", ingiliscədə "detective" olaraq işlədilir. Türkiyə türkcəsinə məhz "polisiye" termininin keçməsi 1930-cu illərdəki məlum dil islahatları sayəsində olub . Tarık Dursun Kakınç "polisiyə roman" ifadəsi ilə bağlı qeyd edir ki, bu roman janrı əvvəllər "cinai roman", daha sonra isə qərbləşməmizi göstərsin deyə "polisiyə roman"a çevrilib.

Dilimizə ruscadan keçdiyi məlum olan bu ifadə böyük ehtimalla ruscaya da ingilis dilindən keçib.

Bu gün Azərbaycan ədəbiyyatşünaslığında daha çox "xəfiyyə ədəbiyyatı" və ya "detektiv" kimi istifadə edilir. Bəzi mənbələrdə kriminal və detektiv ifadələri eyni mənada işlənilsə də, istər Azərbaycan ədəbiyyatında, istərsə də dünya ədəbiyyatında artıq kriminal termini ilə detektiv termininin sərhədləri müəyyənləşməkdədir. Kriminal roman anlayışı ilə detektiv roman anlayışı ciddi şəkildə ayrı xətlər üzrə inkişaf edir. Kriminal romanlarda daha çox ölüm, qan nəzərə çarpırsa, detektiv romanlarda baş verən qətlin, oğurluğun, ümumilikdə cinayətin məntiqə söykənərək araşdırılıb ortalığa çıxarılması motivi əsas təşkil edir. Detektiv romanlarda, hekayələrdə, povestlərdə birbaşa qətlin yox, hansısa qeyri-qanuni hadisəni törədənin ortalığa çıxarılması vacib məsələ kimi qoyulur. Əlbəttə, itən tarixi önəmi böyük əşya, sənəd, kitab, xəzinə, ya da bənzər şeyin izinin axtarılması mövzusunda da yazılanlar bu sahəyə aid edilir. Xüsusən haqqında bəhs etdiyimiz şəkildə ortaya qoyulan əsərlər daha çox olduğu üçün bu janr ədəbiyyatımızda "cinai" roman şəklində adlandırılıb. Əhməd Mithat əfəndinin bu sahədə yazdığı bir əsərə "Esrarı-Cinayat" adını verməsi bu mövzudakı qənaətimizin doğru olduğunu göstərir.

Bu baxımdan, müxtəlif dillərdə müxtəlif cür ifadə edilən "detektiv" ifadəsinin dilimizdə daşıdığı məna daha düzgündür. Digər bir tərəfdən də "polis romanı" adının verilməsi də bu janrın tələblərinə cavab vermir. Çünki çağımızda baş vermiş cinayət

hadisəsinin araşdırılması ilə yalnız polis sistemi, yox müxtəlif təhlükəsizlik orqanları, müstəqil xəfiyyələr və b. qurumlar, şəxslər məşğul olduğundan "ifşa etmək", açığa çıxarmaq" kimi mənaları ifadə edən "detektiv" terminini daha məqsədəuyğun hesab edirik.

Detektiv romançılığın roman janrının xüsusi növü kimi formalaşmasının tarixi təxminən XIX əsrə gedib çıxır.

Yazıçı Cəlil Cavanşir detektiv romanın yaranması haqqında qeyd edir: "Detektiv janrının yaranmasını bəziləri Leru Qastonun "Sarı otağın sirri", bəziləri isə Amerika yazıçısı Edqar Allan Ponun "Morq küçəsində qətl" romanı ilə bağlayır. Amma dünya ədəbiyyatı tarixində ilk detektiv roman Çarlz Feliks ləqəbli müəllifin "Nottinq Hillin sirri" romanı hesab olunur. Bu roman ilk dəfə 1862 – 1863-cü illərdə hissə-hissə "Once a Week" jurnalında çap olunub. 1863-cü ildə isə "Bradbury & Evans" nəşriyyatı ayrıca kitab şəklində yayımlayıb.

Dostoyevskinin məşhur "Cinayət və cəza" romanını klassik detektiv hesab edən tənqidçilər də var. Amma həm Dostoyevskidə, həm də dünya ədəbiyyatının digər məşhur yazıçılarında detektiv macəraçılıqdan o tərəfə keçə bilmir. Edqar Allan Ponun əsərləri isə detektiv janrının bütün xüsusiyyətlərinə cavab verir".

Detektiv janrı müəyyən tarixi inkişaf yolu keçib. Bu inkişaf yolunda çox ciddi maneələr olsa da, onu ədəbiyyat janrı kimi qeyd etməsək də, istər dün-

ya ədəbiyyatında, istərsə də Azərbaycan ədəbiyyatında XX əsrin sonlarından başlayaraq detektiv ədəbiyyat geniş oxucu və yazıçı kütlələrini əhatə etməyə başlayıb. Bəlkə də, bunun səbəblərindən biri dünyada gedən ictimai-siyasi, mədəni, iqtisadi proseslərin nəticəsində insanların macəraçılığa meylinin artmasıdır. Çünki bu günün insanı istənilən sahədə macəra axtarır. Bu macərada həyəcan, öncəgörmə arzusu, daima axtarışda olma istəyi, bir növ, ədəbiyyatda detektiv çaların üzərində qurulub. Bu çalar isə böyüdükcə və genişləndikcə zaman-zaman bir janrın yaranması zərurətini ortaya qoyur.

Ciddi ədəbiyyat adamı kimi tanınan yazıçıların belə bu çalardan istifadə etməsi detektiv haqqında düşüncələrə təsirsiz ötüşməyib. Diqqət etsək, görərik ki, detektiv janrının özündə də yeni növlər meydana gəlir: tarixi detektiv, intellektual-kulturoloji detektiv, siyasi detektiv, fantastik detektiv, tibbi detektiv, ironik detektiv, magik detektiv, elmi detektiv və s. "Umberto Ekonu, Orxan Pamuku, Haruki Murakamini bu sahənin öncülləri hesab etmək mümkündür. Amma sadaladığımız yazıçılar detektiv ədəbiyyatı nümayəndəsi hesab olunmurlar. Onların romanlarında detektiv xətt sadəcə romanın strukturunun və süjetinin rəngarəngliyinə xidmət edir, postmodern roman xüsusiyyətlərinə isə tam cavab verir.

Detektivi bir janr hesab etməyən, ciddi ədəbiyyat nümunəsi kimi yaxına buraxmayan yazıçılar

da oxucusunu həyəcanlandırmaq üçünmü, kitablarının yaxşı satılması üçünmü detektivçilikdən yan keçmir. Detektiv termininin janr olaraq ortaya çıxması üçün, əlbəttə, vaxt lazımdır. Bu ədəbi proses zamanı nələrin ortaya çıxacağı isə gözlənilən olduğu qədər, həm də gözlənilməzdir. İyirmi-otuz il əvvəl "ədəbiyyatın ögey övladı" adı ilə tanınan bu roman növü artıq haqqında ən çox danışılan terminə çevrilib. İnsanı daimi düşündürən kim? nə zaman? niyə? suallarına cavab axtarma çılğınlığı detektiv ədəbiyyatın aktuallığını artırır.

Ədəbiyyat siyahısı

1. http://www.kaspi.az/enews.php?id=714

2. Məmməd Əliyev | "Ədəbiyyat nəzəriyyəsi" | Bakı | "Elm və təhsil" | 2012

3. C.Cəfərov | Əsərləri | İki cilddə | İkinci cild | Bakı | 1968 | səh. 308

4. İsa Həbibəyli | "Ədəbi-tarixi yaddaş və müasirlik" | "Nurlan" | 2007 | səh. 471

5. http://kulis.az/news/9640

6. "Roman Teorisi" | Philip Stevick | Tərcümə | Sevim Kantaroğlu | Akçağ | 2004

7. http://www.edebiyatogretmeni.org/roman/

8. http://eprints.sdu.edu.tr/328/1/TS00492.pdf | Hebibe Cizer | "Türk edebiyyatında polisiye roman ve Ahmet Ümitin polisiye roman kurguları"

9. Tarık Dursun Kakınç | “100 Filmde Başlangıcından Günümüze Gerili Polisiye Filmleri” | “Bilgi Yayınevi” | İstanbul | 1995 | s. 18-19

10. http://edebiyatufku.blogcu.com/polisiye-roman-uzerine-bir-inceleme-i/6832418

11. http://kulis.az/news/4012

# ÜÇ GÜNLÜK ƏDƏBİYYAT, YOXSA BÖYÜK BAŞLANĞIC?

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə üç gün davam edən "Azərbaycan dili və ədəbiyyatı" forumu öz işinə yekun vurdu. Ümummilli lider Heydər Əliyevin yüz illik yubileyi çərçivəsində keçirilən bu forum bir növ Ulu öndərin ideyalarının, Azərbaycan dilinə həmişə verdiyi böyük dəyərin davamı idi.

İndiyə qədər öyrəşmiş, vərdiş etmişdik ki, Azərbaycan dili məsələsini həmişə təhsil, elm, ictimai hadisə kimi təqdim və qəbul edək. Mənə görə, forumun özəlliyi ondan ibarət idi ki, bu dəfə Azərbaycan dili məsələsinə mədəniyyət pəncərəsindən baxmağa çalışıldı. Mötəbər tədbir idi – mövzu Azərbaycan dilidirsə, əlbəttə, mötəbərdir: tədbirdə iştirak və çıxış edən yüksəkvəzifəli məmurlar, ölkəmizin tanınmış alimləri, yazıçıları, ümumilikdə bu sahədə az-çox adı keçən, üzdə olan gənc, yaşlı insanlarının iştirakı foruma əlavə rəng qatırdı.

Uzun illər idi, Mədəniyyət Nazirliyinin fəaliyyətində mədəniyyətimizə ciddi, konseptual yanaşma hiss etmirdik. Daha çox adların verilməsi, bir-iki konsert tədbiri ilə yadda qalan mədəni hadisələri izləyirdik.

Uzunmüddətli mədəniyyət strategiyasına, konseptinə ciddi ehtiyac var və bunun üçün də elmi, nəzəri, praktik addımlar atılmalıdır. Məhz Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən bu kimi elmi-kütləvi forumlar adamda ümid yaradır, yenə həvəslənirsən. Sevinirsən ki, bu dəfə nəsə olacaq. Bundan öncə kino və teatr forumlarının keçirilməsi də bu qəbildən vacib addımlardır. "Azərbaycan dili və ədəbiyyatı" forumu isə dil mövzusunda yığılıb qalmış, ürəkləri narahat edən mətləbləri bir daha yüksək kürsüdən yada saldı, görülməli işlərin varlığından xəbər verdi.

Üç gün davam edən forum ümumilikdə beş paneldə, beş əsas başlıqda müzakirə və çıxışlarla yadda qaldı:

1. "Qloballaşmanın Azərbaycan dilinə təsiri və ana dilimizin saflığının qorunması mexanizmləri"
2. "Azərbaycan dili və ədəbiyyatı zaman kontekstində: klassik ənənələr və müasir trendlər"
3. "Teatr və kinonun inkişafında ədəbiyyat faktoru: əsərdən səhnəyə, səhnədən ekrana"
4. "Uşaq və yeniyetmələr arasında mütaliənin təbliği. Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti"
5. "Dəyərlər və etik davranış kodeksləri: kitabın fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları"

Bu, demək olar, dilin vacib olduğu əsas sahələri, toxunduğu məqamları əhatə edirdi. Çünki Azərbaycan dili bu xalqın, millətin ana və dövlət dili olduğu üçün taleyüklü məsələdir. Hər vətəndaş öz növbəsində borcunu, məsuliyyətini dərk etməlidir. Görünən o oldu ki, hələ toxunulmamış, danışılmamış məsələlər də qalır və bu üç gün kifayət etmir. Çünki "mətbuatda dil", "rəsmi-işgüzar dil", dərsliklərdə dil" kimi mövzular ayrıca forum və ya müzakirə istəyir.

Bu forum çox lazım idi, ümumilikdə məqsədinə də çatdı. Yığılıb qalan problemlər mütəxəssislərin dilindən səsləndirildi, danışıldı, həlli yolları tövsiyə edildi, diqqətə çatıdırıldı.

Açığı, məndə ümid yaranır ki, Mədəniyyət Nazirliyi qarşıda görəcəyi ciddi layihələr üçün baza hazırlayır, bu cür forumlardan çıxan məsələlərin sistemli həllinə hazırlaşır. Çünki Azərbaycan dilinin saflığı, inkişafı və güclənməsi üçün konseptual layihələrlə işləməyin vacib olduğunu bilir. Ümummilli məsələ olduğundan dilimizin mənafeyini hər yerdə, hər addımda diqqətdə saxlanılmalı olduğunu anlayır. Axı minilliklərlə tarixi olan, müxtəlif zamanlarda fərqli siyasi rejimlərin repressiyasına məruz qalsa da, yaşayan, türk dilləri içərisində öz güclü mövqeyini qoruya bilən dildən söhbət gedir.

Forum ümumrespublika əhəmiyyətli olsa da, təəssüf ki, şəxsi eqolara, replikalara, arzulara, istəklərə, yorğan davalarına qədər də enə bildi. Bəlkə

də, bu, təbiidir. Lakin bu cür mötəbər tədbirdə kimsə şeirinin dərsliyə salınmamasından qaynaqlanan etirazını, kimsə kitabının niyə çap edilməməsindən, kimsə "dovşan" sözünün yazılışından, kimsə öz mötəbər yaradıcılığından danışırsa, deməli, yenə mətləbi anlamır, səhv istiqamətə yönəlirik.

Hər dəfə etiraz edilir ki, məmurlar bizi dinləmir, eşitmir, fikrimizə önəm vermirlər. Forumun ekspert şurasında yer alan, tədbir başlamamışdan əvvəl də prosesin içində olan insan kimi arada ürəyimdən keçirdi ki, vallah, bizi dinləməsələr, yaxşıdır. Gənc mədəniyyət naziri həvəslə ümumi məsələlərdən danışır, tezislər təqdim edir, dilin inkişafına təsir göstərən mexanizmlərin hansılar olduğunu, bunu inkişaf etdirməyin yollarını axtarır, mütəxəssislərdən fikir gözləyir... Amma biz...

Mədəniyyət Nazirliyini həm də ona görə təbrik edirəm ki, bu tədbirdə gənclərlə yaşlı nəslin nümayəndələrinə eyni tribunanı verə bildi. Bu çox cəsarətli və yenilikçi addım idi. Etiraf edək ki, elə maraqlı müzakirələr, debatlar da bu iki qüvvə arasında oldu. Hə, yığılıb qalan problemləri daha çox gənclərin dilə gətirdiyini, yaşlı nəslin isə müdafiəyə keçdiyini də gördük. Əslində, bu da atalar və oğullar problemi baxımından tarixi zərurətdir. Amma düşünürəm ki, ağsaqqal alim və ədiblərimiz məhz müdafiə xarakterli mövqedə olmamalı idi. Çünki heç bir gənc çıxışçı durub açıq-aşkar: "Bu qədər problem varsa, günahkarı sizsiniz, uzun illər söz

sahibi siz olmusunuz!" – demədi. Belə deyilmədi, əvəzində ehtiyatla, incə toxunuşlarla yenilik arzularını dilə gətirib təkliflər verdilər.

Hər şeyə rəğmən prosesdən zövq aldım. Dilçilik və ədəbiyyat cameəsinin bir arada üç gün keçirməsi, həm rəsmi, həm də qeyri-rəsmi söhbətlərdə sadəcə dilimizin vəziyyətindən danışılması ürəkaçan hadisə idi. İndi qalır, bunun əməli nəticələrini gözləmək və görmək.

Forumdan aldığım ilhamla sonrakı proseslərdə həyata keçirilməli məsələləri öz düşüncəmlə dilə gətirsəm, ümumi işə azacıq da olsa, xeyrim dəyər.

Düzdür, mən də çıxışçılar arasında idim, müəyyən mətləbləri səsləndirə bildim, amma vaxt məhdudiyyəti və şifahi nitq istəklərimizi, arzularımızı çatdırmağa tam imkan vermədi. Onun üçün də bir neçə təklifi yazılı qeyd etməyi düşündüm. Çıxışım məhz nəşriyyat sektorunun problemlərinə kökləndiyi üçün təkliflərimi də bu askpektdən yazmağa qərara aldım.

Yaxşı bilirik ki, dilin inkişafı, zənginləşməsi birbaşa ədəbiyyatla bağlıdır. Bu gün isə ədəbiyyat daha çox yazılı şəkildə mövcuddur; şifahi ədəbiyyatın gücü yazılı ədəbiyyatdan qat-qat aşağıdır. Ədəbiyyatın təqdimatı kitab sənayesi ilə ayrılmazdır. Geniş oxucu kütləsinə çata, mütaliə edənlərin sayını və keyfiyyətini yüksəldə bilsək, deməli, dilimizin də inkişafına xidmət göstərmiş olarıq. İstər musiqi, istər rəssamlıq, istər radio-televiziya, istər teatr, istər kino, istərsə də mədəniyyətin digər sahələri

həmişə ədəbiyyatla eyni yolu gedir. Amma bu gün ölkəmizdə kitab sənayesinin vəziyyətinin ürəkaçan olmaması acı həqiqətdir. Oxucu azlığı ədiblərimizin motivasiyasına ciddi təsir edir. Bu da ədəbi mühitin ölməsinə və dilimizə xoşagəlməz təsirə gətirib çıxarır. Bəs nə etməliyik?

1. Gənc ədiblərin yaradıcılığını stimullaşdırmaq üçün dəstəyin verilməsi

Onları yaradıcılığa, nəşriyyatları isə gənc müəllifləri nəşr etməyə təşviq üçün nazirlik tərəfindən gənc müəlliflərin nəşr xərclərinin bir hissəsini qarşılamağı hədəf götürən dəstək planı hazırlana bilər. Bu təklifi qrant layihəsi kimi işləmək mümkündür. Belə ki, müəyyən büdcə ayrıla, nəşriyyatlar qrant üçün layihə təqdim edə bilər. Layihədə müəyyən tələblərin olması isə işin düzgün təşkilinə yardım edəcək. Hər layihədə çap olunacaq kitabın min tirajının xərci və müəllifin qonararı üçün büdcə müəyyənləşə, redaktə, korrektə, dizayn xərclərini də nəşriyyatlar özləri qarşılaya bilər. Çapdan sonra nəşriyyatın öhdəliyi o ola bilər ki, nəşrin iki yüz tirajını dövlət kitabxanalarına təqdim etsin. Beləcə, həm müəlliflərə normal qonorar verilə, həm nəşriyyatlar gənclərin əsərlərini çap etmək üçün maliyyə yardımı ala, həm də yeni nəşrlər dövlət kitabxanalarına göndərilə bilər. Bu da hər üç tərəf üçün böyük stimul yaradar. Bu həm də milli ədəbiyyatın inkişafına ciddi dəstək olar.

2. Kitab sənayesinin vergidən azad edilməsi

Kitab sənayesinin inkişafı üçün müəyyən müddətdə nəşriyyatların vergidən azad edilməsi proqramı hazırlana bilər. Bu, dünyanın bir çox ölkəsində var. Kitab yalnız biznes deyil, həm strateji, həm də ideoloji məsələdir. Bunun üçün də tədris kitablarına edilən vergi güzəşti eynilə bədii ədəbiyyata və digər motivli əsərlərə şamil olunsa, ciddi irəliləyiş mümkündür.

3. Azərbaycan ədəbiyyatının dünyada tanıdılması

Azərbaycan ədəbiyyatının dünya dillərində nəşri və tanıdılması üçün dəstək fondunun yaradılması, bu fondun fəaliyyətinin şəffaflığının təmini, bütün xarici nəşriyyatlara bu fondun tenderində iştirak üçün demokratik şəraitin yaradılması ədəbiyyatımızın inkişafı üçün çox vacibdir. Dünyanın əksər ölkələrində bu cür şəffaf qurumlar var; öz ədəbiyyatlarını təbliğ edir, tanıdırlar. Azərbaycan bir çox sahədə, xüsusən də idmanda buna ciddi şəkildə nail olub, lakin hazırda elə Azərbaycan yazıçısı yoxdur ki, təbii yolla hansısa xarici nəşriyyatla müqavilə bağlayıb qonorar alsın, kitabı çap edilsin. Bu da yazıçılarımızın motivasiyasını aşağı salır.

Sözügedən layihənin həyata keçirilməsi ona gətirib çıxarar ki, xarici naşirlər azərbaycanlı müəlliflərin əsərlərini çap etmək arzusuna düşər və Azərbaycan ədibi dünyaya çıxar, stimul alar, eyni zamanda, yaradıcılıq mühiti genişlənər.

4. Tərcümə ədəbiyyatının stimullaşdırılması

Dünyanın tanınmış ədib və alimlərinin əsərlərinin dilimizə kütləvi nəşrini nəzərdə tutan geniş layihəyə ehtiyac var. Naşirlər öz imkanları hesabına nələrsə edir, amma oxucu azlığı, satışın normal olmaması bu işi xeyli ləngidir.

Tərcümə ədəbiyyatı ilə bağlı qrant layihəsi olsa, müəyyən meyarlarla naşirlər bu işə təşviq edilsə, daha çox ədəbi nümunə dilimizə tərcümə olunar. Bu proses, eyni zamanda, tərcümələrin keyfiyyətinə müsbət təsir edər. Amma bunu bir nəşriyyatla deyil, öncədən elan olunan meyarlar əsasında müxtəlif nəşriyyatların bu prosesdə ədalətli iştirakının təmini ilə həyata keçirmək olar. Bir nəşriyyat bilsə ki, tərcümə etdiyi kitab ölkənin mindən çox kitabxanasına qəbul olunacaq, o zaman qoyulan tələblərə cavab vermək üçün rəqabətə girər. Bu, müstəqil bazarda həmin kitabın satış qiymətinə də böyük təsir göstərər.

Etiraf edək ki, onsuz da, Azərbaycan bu vəsaiti itirir; hazırda xarici ədəbiyyat ölkəmizdə daha çox türk və rus dillərində satılır. Həmin pullar Azərbaycan vətəndaşının, dövlətinin büdcəsindən gedir.

Üç yüz-beş yüz tirajla dünya bestsellerini çap etməklə dünya bazarına həmişə uduzacağıq.

5. Milli mükafatın təsis edilməsi

Hazırda bütün ədəbi ictimaiyyət tərəfindən səbirsizliklə gözlənilən milli mükafatımız hələ də yoxdur. Dövlət səviyyəsində kitabçılığın müxtəlif istiqamətlərini əhatə edən belə mükafata ehtiyac

var. Sadəcə hansısa romana yox, "Ən yaxşı uşaq ədəbiyyatı", "Ən yaxşı elmi-kütləvi əsər", "Ən yaxşı dramaturji əsər" və sairə nominasiyaları özündə birləşdirən uğurlu mükafat təsis etmək çox vacibdir.

Mükafat fondu ciddi məbləğ olsa, həm böyük rezonans doğurar, həm də ədiblərimizin maliyyə baxımından stimullaşdırılmasına xidmət göstərər.

Bu məsələdə yalnız dövlətin yox, böyük şirkətlərin sponsorluğundan da yararlanmaq mümkündür. Sadəcə mexanizm qurulmalıdır.

6. Bölgələrdə kitab sərgilərinin intensivləşdirilməsi

Bakı Beynəlxalq Kitab Sərgisi hər il inkişaf edir, formatı genişlənir; bunun fonunda bölgələrimizdəki kitab sərgiləri, festivalları, yarmarkaları da geniş vüsət almalı və mütəmadi keçirilməlidir. Bu prosesə yerli icra orqanları, iş adamları cəlb edilməli, həm maddi, həm də siyasi dəstək formalaşmalıdır.

Bu gün hansısa rayonda sərgi keçirmək istəsək, maliyyə məsələsi həll edilsə də, icra strukturlarının bu prosesə bürokratik əngəllər yaratması, əlini daşın altına qoymaması işi xeyli ləngidər və maneələrdən yorulan özəl sektor həvəsdən düşər.

7. Kitabların reklam-tanıtım işinə dəstək verilməsi

Bildiyiniz kimi ölkəmizdə kitab az gəlirli sahə hesab olunur. Bunun bir səbəbi də reklam strategiyasının düzgün qurulmamasıdır. Kitab sektoru reklam bazarında digər sahələrlə ayaqlaşa bilmir. Nəzərə alsaq ki, kitabçılıq biznes sektorundan əlavə həm

də strateji, o cümlədən ideoloji məsələdir, deməli, ədəbiyyatın təbliği ilə bağlı telekanallarda, radiolarda silsilə verilişlərin, sosial reklamların verilməsi dövlət üçün də vacib olmalıdır. Kitabların reklamı Azərbaycan Dövlət Reklam Agentliyində sosial reklam kimi qəbul edilsə, AzTV, İTV kimi telekanallarda kitabla bağlı verilişlər, sosial çarxlar yayımlansa, bu işə təkan vermiş olarıq.

Azərbaycan Nəşriyyatları Assosiasiyası olaraq dövlətimizin və millətimizin mədəni-sosial həyatına müsbət təsir edəcək hər işdə varıq, əlimizi könüllü şəkildə daşın altına qoymağa hazırıq. Artıq üç ildir, fəaliyyət göstərən ANAİB “Bölgələrə kitabla gedək” layihəsi ilə Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Abşeron kimi şəhərlərimizdə ənənəvi sərgilər keçirir, kitab marafonları təşkil edir.

“Azərbaycan dili və ədəbiyyatı” forumunun keçirilməsi, bir panelinin bütövlükdə kitab sənayesinə ayrılması alqışlanılası haldır. Üzvümüz olan iyirmi altı naşir adından deyə bilərəm ki, bu tarixi hadisə hər naşirdə, müəllifdə ümid işığı yandırıb və bu işığın tezliklə gənclərimizə, oxucularımıza yaxşı mənada ciddi təsir göstərəcəyinə ümidliyik.

# “KİTAB YÜKLÜ EŞŞƏK” ROMANI KİMİNDİR?

Cəmiyyətimizdəki naqislikləri, insanların nəfs və qürurun əsiri olduğunu gördükcə yadıma “Kitab yüklü eşşək” əsərinin qəhrəmanı Çoşşanın nəsihətləri düşür; bu heyvanın insana münasibətini tez-tez xatırlayıram. Bəlkə, kimsə düşünər ki, bu qədər peyğəmbər, üləma ola-ola niyə məhz eşşəyin – Çoşşanın nəsihətləri? Təsəvvür edirsiniz, insana bir dahi yol göstərir, öyüd-nəsihət edir, amma buna o qədər əhəmiyyət vermir, yaxud dəyərləndirə bilmirik. Çünki nəsihət edən birmənalı şəkildə hamıdan üstün mövqedədir və onun dedikləri qəbul ediləndir; bu da təbiidir.

Amma mədəni səviyyəsinə, savadına görə özündən qat-qat aşağıda olduğunu qəbul etdiyin kimsə səni tənqid etsə, yol göstərsə, üstəlik, bu tənqid və iradlar həqiqəti əks etdirsə, o zaman atalar demiş, “Adamın yeddi qatından keçər”.

Bir insan oğlu olaraq həmcinsimin heyvan tərəfindən haqlı tənqidi adama çox ağrı verir. Bəşəriyyət bineyi-qədimdən bu günə didaktik materiallarla tərbiyələnməyə, həyatı dərk etməyə vadar edilsə də, dünyanın virtuallaşdığı dövrdə bir ovuc torpaq üçün yenə qan tökür, hərisliyinin qurbanı olur, hər gün bir addım əxlaqsızlığa doğru sürüklənir, mövhumat və cəhalətin içində çırpınır. Şəxsi mənafelər bəşəri idealları tapdayır və bəşər övladı bu eybəcərlikləri özünün uydurduğu şeytanın boynuna atır. Hərdən cəmiyyətimizi bu cür görəndə Tanrının indi niyə peyğəmbər göndərmədiyini də düşünür adam. Axı insanların düzgün yola qayıtmaları üçün müdrik sözünə bu gün daha çox ehtiyac duyulur. Sonra da düşünürsən ki, bəlkə, cəmiyyətin pozulmasına peyğəmbər kimi tanıdığımız Adəm və onun həyat yoldaşı Həvva səbəb olub? Kini də, xəyanəti də, qardaş qanı tökməyi də, oğurluğu da, etdiklərini ört-basdır etməyi də əcdadımız sayılan Adəmdən, onun ailəsindən öyrəndik. Bəlkə də, bu əfsanə insanın mayasında nələrin olduğunu, nə ilə yoğrulduğunu göstərmək üçün yaranıb. "Sən daxilən bu cürsən", – deyə Yaradanın bizə mesajıdır?!

Əsərin ən maraqlı tərəfi isə insanın eşşəklə müqayisəsidir. Niyə it, at, yaxud meymun yox, məhz "Kitab yüklü eşşək"? Çünki Şərq-türk mədəniyyətində bütün insanlar ən qaba, mədəniyyətsiz, avam, dünyadan bixəbər, tənbəl, özündənrazı adamları eşşəyə bənzədirlər. Hətta bu işgüzar və insanın bütün əmrlərinə boyun əyən heyvanın adını

çəkəndə qarşı tərəfdən üzr də istəyirik. Bəlkə də, bu üzrü kimi isə eşşəyə bənzətdiyimiz üçün eşşəkdən istəməliyik? Eşşək azsaylı məxluqlardandır ki, insanla dostluğunun tarixi bilinmir.

Həmişə, hər yerdə insana gərəkli olan bu heyvan sadəliyinə, təvazösünə görə daim tənqid və təhqirə düçar olub. Ədib eşşəyi bu səbəbdən seçmiş olmasın?

Digər tərəfdən, əsərin adındakı ironiya çox maraqlıdır. Bəlkə də, bu adı seçməkdə müəllif elm, dünyagörüşü və şüurla əhatə olunmuş insanı leksikonumuzda xüsusi məna daşıyan eşşəklə müqayisə edir. "Nə qədər məlumatlı və ağıl sahibi olsa da, insanın şüursuz, savadsız, gördüklərini dərk etməyən, yaxşılıqla pisliyi dəyərləndirməyi bacarmayan eşşəkdən fərqi yoxdur", – demək istəyir. İndi də insan olmağı bacarmayan, dəblə ayaqlaşmaq üçün kitab oxuyan, oxuduqlarına görə özünə ən yüksək dəyəri verib ən ali varlıq kimi təqdim edən, öyrəndiyi bilik və bacarıqları təbiətin məhvinə yönləndirən, vəhşi təbiətin ən vəhşi varlığına çevrilən, şəhvətin, şöhrətin əsiri olan yüzlərlə kəs görə bilərik. Boğazında qalstuk, gözündə ziyalılığın simvolu hesab etdiyi eynək, əynində kostyum olan kor əbləhlər kitabla yüklənmiş eşşəyi xatırladır. Xisləti isə İblisə xidmət etməkdir.

Düzdür, bu əsərə qədər istər bizim, istər şərq, istərsə də dünya ədəbiyyatında alleqorik yolla insanları tərbiyə etmək arzusunda olan böyük müdriklər olub. Lakin Əbdürrəhim bəy Talıbovun "Kitab

yüklü eşşək" romanı əvvəlki əsərlərdən fərqli olaraq mövzuya yanaşma və heyvanın müşahidəsi ilə insanların tənqidi, məktub vasitəsilə əvvəlki sahibinə müraciəti, sondakı sual-cavabı insanı daha çox düşünməyə vadar edir.

Bu baxımdan böyük şəxsiyyət Əbdürrəhim bəy Talıbov cəmiyyətin eybəcərliklərini, insanın ən vəhşi "heyvan" olduğunu kiçik bir romanda ustalıqla əks etdirib.

Bu qədər ali ideyanı özündə cəmləşdirən Əbdürrəhim bəy Talıbovun "Kitab yüklü eşşək" əsərini sovet dövrünün tədqiqatçıları Azərbaycan ədəbiyyatında yazılan ilk romanlardan biri kimi dəyərləndirirdilər. Lakin müstəqillik qazanandan sonra tədqiqat imkanlarının genişlənməsi nəticəsində dünya ədəbiyyatı, ədəbiyyatşünaslığı haqqında geniş informasiya əldə edildi. Bu məlumatlara yiyələnəndən sonra bəzi əsərlərin tədqiqatı ilə bağlı fərqli məqamlar ortaya çıxdı. Bunlardan biri də Əbdürrəhim bəy Talıbovun "Kitab yüklü eşşək" əsəri ilə bağlıdır. Tədqiqatçı Tahirə Həsənzadənin araşdırmalarında təqdim etdiyi dəlillər maraqlıdır. Onun fikrincə, "Kitab yüklü eşşək" əsərinin əsli fransız yazıçısı Pol de Koka məxsusdur. Cənubi Azərbaycanda və İranda bu əsəri farscaya tərcümə və təbdil edən isə Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənədir.

Böyük alim Xeyrulla Məmmədov bu barədə özünün məşhur "Cənablar, börklərinizi qaldırın, əlahəzrət fakt gəlir" məqaləsində qeyd etmişdi:

"Əbdürrəhim Talıbov kimi böyük alim və ədibin "Kitab yüklü eşşək" əsəri ilə məşhurlaşmağa ehtiyacı yox idi".

Paris cəmiyyətinin qüsurlarını yeri gələndə açıq lövhələrlə təsvir edən, istər Fransa, istərsə də Avropa ictimaiyyətinin sevimlisi olan Pol de Kok Məhəmmədhəsən xanın diqqətindən yayınmamışdı.

Tədqiqatçılardan Yəhya Ariyanpur, Məhəmməd Şahid Nurayi, Mirhaşim Mühəddis, Xan Məlik Sasani də "Müstəqil vəhş, ya əlhimar yəhmilül-əşfəran" əsərini Məhəmmədhəsən xanın əsərləri siyahısında veriblər. Tahirə Həsənzadəyə görə, İranın görkəmli alimi Səid Nəfisi bu əsəri Məhəmmədhəsən xanın fransız dilindən tərcümə, yaxud təbdil etdiyini, əsərin qəhrəmanlarına fars adları qoyduğunu bildirir. İran alimləri Firudin Adəmiyyət, Yəhya Ariyanpur, Mahdi Bamdad Əbdürrəhim Talıbov haqqında tədqiqatlarında "Əlhimar..." – "Kitab yüklü eşşək" romanını onun əsərləri siyahısına daxil etməyiblər".

Salidə Şərifovaya görə isə bəzi tədqiqatçılar bunun adını Apulleyin "Qızıl eşşək" əsəri, bəziləri isə Kontes de Sequr adlı fransız yazıçısının əsəri kimi də qələmə verirlər.

Fikrimizcə, "Kitab yüklü eşşək" əsərinin fransız yazıçısına aid olduğu iddiasını qəbul etmək mümkün deyil. Çünki əsərin ön sözündə yazılan qeydlərdə də müəllifin özü bu mövzuya ondan öncə çox mütəfəkkirlərin toxunduğunu deyir: "Mən bu hekayətin ilk təşəbbüskarı və mündəricəsinin müəllifi

deyiləm". Bu onu göstərir ki, əsərin müəllifi mövzu haqqında geniş bilgiyə sahibdir. Elə buna görə də istər Avropa, istərsə də dünya ədəbiyyatındakı təmsil və alleqorik əsərlərə işarə edir. Bu da yazıçının təvazökarlığından xəbər verir. Doğrudan da, məhz bu əsər xarici əsərdən tərcümə olunsa, müəllif bunu qeyd etməkdən zərrə qədər də çəkinməzdi. Ən yaxşı halda buna təbdil demək olar; bu da təbdilin sərhədlərini aşaraq müəllif qələmi ilə ən gözəl şəkildə aşılanıb.

Təbdil, iqtibas ədəbiyyatımızda XIX əsrdən geniş istifadə edilən janrlardandır. Bu terminin meydana çıxmasına qədər Nizaminin "Leyli və Məcnun"undan bəhrələnən onlarla əsər yazılıb. Bu romanın hansısa Avropa mənşəli yazıçının əsərindən təbdil, yaxud iqtibas edildiyini desək də, plagiat kimi qəbul edilməsi mümkün deyil və bu cür qələmə vermək istəyənlər böyük yanlışa yol verirlər. "Təbdil" termini ilə "plagiat" termininə eyni mənanı versək, onda ən böyük plagiatçı Məhəmməd Füzuli olmalıdır. Çünki o da Nizami kimi "Leyli və Məcnun" poemasını yazıb. Lakin ədəbiyyat nəzəriyyəsi nəzirəni, təbdili, iqtibası qəbul edib, şair və yazıçılar bundan istifadə etdikləri üçün fəxr hissi də duyublar.

Adıçəkilən romanı oxuduqca, Şərq müdriklərindən çəkilən misallarla, nümunələrlə və Şərq fəlsəfəsini əks etdirən əhvalatlarla tanış olduqca müəllifin əsərə nə qədər doğma yanaşdığını görürük.

Sədi Şirazinin, Mövlanə Cəlaləddin Ruminin əsərdə istifadə edilən ibrətamiz fikirləri dediklərimizə sübutdur.

Tədqiqatçı Salidə Şərifovanın dili ilə desək, burada M.Ə.Talıbovun qələmi, düşüncələri duyulur, ürəyi döyünür.

Əsər fars dilində yazılsa da, Çoşşanın məktublarındakı bəzi dialoqlar Azərbaycan dilində verilib. Əsəri tərcümə edən Mirəli Mənafi də sözügedən məqamları diqqətdən qaçırmayıb; bununla bağlı xüsusi qeyd verib: "Bu dialoq əsərin orijinalında da Azərbaycancadır. Bundan sonrakı bəzi, xüsusilə ləhcə xüsusiyyəti ilə fərqlənən dialoqlar əsərin orijinalında olduğu kimi (azərbaycanca) saxlanılıb. Həmin dialoqlardan biri belədir:

"– Hay canım, hey babam, hey, tap, hey! Budur, eşşək ləpiri buradan keçib. Orada yatağı məlumdur. Hay axtar, tap hay, odur ha! – deyə o, itləri məni axtarmağa qızışdırırdı".

Bu sözlər qədim Azərbaycan torpağı olan Zəncanın Şərəfabad şəhərində eşşəyi axtarmağa çıxan Səfərqulunun dilindən verilib.

Bu məqamlar əsərin azərbaycanlı müəllifə aid olduğunun sübutudur. Bəli, əsərdə: "Hamı sərraf Horş (Avropalı bankir) və Rotşild, ya da yeni top ixtiraçısı "Krup" (Almaniyada metallurgiya şirkəti) deyil ki, yüz kürurdan artıq sərmayəsi olsun. Bu cür sərmayədarlıq və varlılıq da bizim əsrimizin hadisələrindəndir. Tarixçilərin dediklərinə görə, dörd yüz il bundan əvvəl inkişaf və mədəniyyət həddi-kama-

la çatmamışdı. Bir nəfər də bu dərəcədə təkamül etməmişdi", – kimi ifadələrə də rast gəlirik. Lakin bu fikirlərin XIX əsr rus və türk ədəbiyyatı vasitəsilə Avropa ilə tanış olan azərbaycanlı mütəfəkkirlərin əsərlərində rast gəlinməsi təbii haldır.

Digər tərəfdənsə neft Bakısı dünyanın diqqətində idi. Avropalı iş adamlarının Odlar diyarına gəlişi mədəniyyətlərini də gətirmişdi. Həm bu cür misalları, həm də Şərq fəlsəfi fikri ilə cilalanmış əsəri sadəcə Şərq və Qərb fəlsəfəsini dərindən bilən şəxs yaza bilərdi. Bu parametrlərin hamısı da Əbdürrəhim bəy Talıbovda vardı.

Nəzərə alsaq ki, Əbdürrəhim bəy Talıbov ərəb, fars, rus, ingilis və fransız dillərini yaxşı bilib, deməli, azərbaycanlı ədibin bu əsəri yazması, yaxud təbdil etməsi mümkün idi.

"Kitab yüklü eşşək" romanı bütün ruhu ilə Şərq-Azərbaycan mədəniyyətinin məhsuludur. İstər Məhəmmədhəsən Xan Etimadüssəltənə, istər Əbdürrəhim bəy Talıbov yazsın, fərqi yoxdur. Lakin heç bir halda əsəri tərcümə məhsulu kimi qəbul etmək olmaz.

Fransız yazıçısı Pol De Kukun bu mövzuda yazdığı əsər ola bilər (amma nə qədər araşdırsaq da, bu mövzuda xüsusi bir əsəri olduğunu görmədik. Bəlkə də, hansısa əsərində kiçik bir haşiyə çıxıb; bu da sözügedən əsərə və müəllifinə xələl gətirə bilməz), lakin bəzi şəxslərin yeni – nəsə qeyri-adi şey tapıblarmış kimi konkret elmi fakt olmadan: "Sən demə, bu əsər fransız yazıçısı Pol de Kukun imiş /

Apulleyin imiş / Kontes de Sequr adlı bir fransızın imiş", – deməsi o qədər ciddi görünmür.

Tahirə Həsənzadənin fikri ilə razılaşsaq, əsərin müəllifi Məhəmmədhəsən Xan Etimadüssəltənədir. Bu məqam isə əsərin ciddi tədqiqata ehtiyac duyduğunu göstərir.

Məhəmmədhəsən Xan Etimadüssəltənənin Qacarlar dövlətinin tanınmış simalarından olduğunu, Nəsrəddin şah Qacarın (1831 – 1896) şəxsi mütərcimi, tərcümə və nəşriyyat naziri işlədiyini nəzərə alsaq, heç bir vəzifə tutmayan ədibin onun əsərini öz adı ilə təqdim etməsi mümkün deyil. Əbdürrəhim bəy Talıbovun İranın Birinci Milli Məclisinə deputat seçilməsi (Deputat seçilsə də, bundan imtina edib) göstərir ki, Əbdürrəhim bəyin İran dövləti ilə də əlaqələri güclü imiş. Bu bir daha sübut edir ki, ədibin Məhəmmədhəsən Xan Etimadüssəltənəyə aid əsərə sahib çıxmaq kimi nə imkanı, nə də arzusu olub. Xeyrulla Məmmədovun dili ilə desək: "Əbdürrəhim Talıbov kimi böyük alim və ədibin "Kitab yüklü eşşək" əsəri ilə məşhurlaşmağa ehtiyacı yox idi".

"XAN Nəşriyyatı"nın 2014-cü ildə çap etdiyi romanın yeni nəşrində də Əbdürrəhim bəy Talıbovun adı verilib. Əsərin yeni və daha tutarlı faktlar meydana çıxana qədər Əbdürrəhim bəy Talıbova məxsusluğu qənaətində olacağıq. Ümid edirik, bu məqalə ilə tədqiqatçıların diqqətini bir daha sözügedən əsərə cəlb etmiş olarıq.

# BÖLGƏLƏRƏ KİTABLA GƏLİRİK!

Biz yazıçılar, naşirlər tez-tez oxucuları günahlandırır, çox az kitab oxuduqlarını deyirik. Əslində, düz deyirik, bütün statistikalar bunu açıq-aydın göstərir; Azərbaycanda mütaliə mədəniyyəti çox aşağıdır, kitabxanalar yeni kitablarla vaxtında təmin edilmir, bölgələrimizin heç birində doğru-düzgün kitab mağazası yoxdur, məktəblərdə ədəbiyyat vərdişləri istənilən səviyyədə deyil, çağdaş Azərbaycan yazıçıları ədəbi mühitdə aparıcı rol oynaya bilmir, ədəbi tənqidçilik əsərləri təqdim və təbliğ etmir, televiziyalar reytinq gətirmədiyi üçün kitaba efir vaxtı ayırmır, ciddi iş adamları, şirkətlər bu sahəyə sistemli sərmayə yatırmır...

Problem ciddi və həddən artıqdır. Azlıq təşkil edən oxucu kütləsi isə: "Yaxşı əsərlər yazılmır, tərcümə edilmir, kitablar bahadır", – deyib əks tərəfi günahlandırır. Əslində, onlar da haqlıdırlar.

Oxucu məktəbi yox dərəcəsindədir. Səbəblər müxtəlifdir və bu məsələ ciddi araşdırma tələb edir.

Vəziyyətin düzəlməsi üçün hansı addım(lar)ı atmışıq ki, oxucu da bunu dəyərləndirsin?

Bu sualları heç vaxt özümüzə verməmişdik. Məhz bu səbəbdən biz də ulularımızın yolu ilə getməyə başladıq: "Sən gəlməsən, özüm gəlləm", – deyib əlimizdə kitab oxuculara doğru addımladıq. Sözsüz, kiminsə kitabı görüb qaçmayacağını əvvəlcədən yaxşı bilirdik, amma bu qədər sevgi ilə qucaqlayacaqlarını da gözləmirdik.

Düz bir il əvvəl bu boşluqdan narahat olan yeddi-səkkiz nəşriyyat təşkilatlanmağın vacibliyini nəzərə alıb yeni birliyin yaranması ideyasını irəli sürdü. Xeyli müzakirə və mübahisədən sonra sözü bir yerə qoyub "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyini (ANAİB) qura bildik!

Artıq bir ildir, varıq və bu müddət ərzində hər aya iki iclas keçirmişik.

Bu arzumuzu Mədəniyyət Nazirliyi də müsbət qarşıladı. Nazirliyin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Mariflinin məsələ ilə şəxsən maraqlanması, gücü çatan köməyi etməsi də prosesə stimul oldu.

Toplantılarımızda fəaliyyət planlarını, görüləcək işləri, gənc naşirlərin düşüncələrini, ürəkdolusu arzularını yığıb-yığışdırmaq olmurdu. Sonda verdiyimiz qərar bu oldu ki, "Bölgələrə kitabla gəlirik" şüarı ilə yola çıxmalı, kitabdan uzaq düşən bölgələrdə kitabın varlığını xatırlatmalıyıq. Birliyin üzvü olan on-on iki nəşriyyat direktoru əlini daşın altına qoyub bütün işləri üzərinə götürdü.

ANAİB-in bu günə qədər cəmi bir nəfər maaşlı işçisi var, bunu da naşirlərin üzvlük haqqı ilə qarşılayırıq. Başqa hansısa maliyyə qaynağımız yoxdur.

Ona görə də sərgilərin təşkilində masaların daşınmasından tutmuş, afişaların yapışdırılmasına qədər hər şeyi məhz bu gənc naşirlər etdi. Elə həvəslə iş görüldü ki, sanki hamı ən əziz qohumunun toyuna hazırlaşır. Eynilə kənd toylarımızdakı kimi – sevgi və doğmalıqla, təmənnasız...

Əvvəlcə "I Sumqayıt Kitab Sərgisi" təşkil etdik və bu sərgi iki gün müddətində gözləntilərdən dəfələrlə yüksək formada reallaşdı. Bu artıq özünütəsdiq idi.

Yeni qurulan birliyə istər-istəməz o qədər də inam olmur. Bəziləri necə nəticələnəcəyini görmək üçün prosesi kənardan izləyir, digərləri də, ümumiyyətlə, birlik haqda düşüncələrini bölüşmür.

Həmişə inanmışam ki, sevgi ilə başlanılan iş heç vaxt yarımçıq qalmır, hamını məmnun edə bilir. Sumqayıtda baş tutan möhtəşəm kitab bayramında da məhz bunun şahidi olduq. Bəzi kitab mağazalarından da sərgidə iştirak etmək istəyi gəldi, sevə-sevə razılaşdıq. Hətta sərgi zalında onlara ən yaxşı yeri təqdim etdik.

"I Sumqayıt Kitab Sərgisi"ni elan edəndə daha sonra Gəncəyə kitabla gedəcəyimizə qərar vermişdik. "Sözümüz imzamızdır!" – deyib Gəncəyə doğru yola çıxdıq. Sumqayıt sərgisindən sonra artıq ANİB-in üzv sayı on səkkiz olmuş, Gəncəyə gedəcək naşir və kitabçıların sayı artmışdı. Bu həm də

kitab çeşidinin də çoxalması demək idi. Sumqayıtda otuza yaxın nəşriyyat və mağaza iştirak etmişdisə, Gəncədə iyirmi doqquz nəşriyyat, on bir kitab mağazası vardı. Böyümüş, işi daha da sistemləşdirmişdik. Bu üç gün dolu keçməli idi. Daha çox birlik üzvləri ilə müzakirələrdə olsaq da, şəxsən kimsədən bir dəfə də eşitmədim ki, görəsən, xərcimiz borcumuzu ödəyəcək, ya yox? Yəni çəkilən xərclə satış ən azından bərabər olacaqdımı? Bəli, bu sual olmadı, çünki bu işə maarifçilik və ideoloji hərəkat kimi baxmağı bacardıq.

"I Gəncə Kitab Sərgisi" barədə təəssüratlarımız bitib-tükənməzdir. İlk dəfə idi ki, Azərbaycan naşirlərinin bu qədər möhtəşəm birliyini, təşkilatlanmasını görürdük. Bu təşkilatlanma Gəncə sərgisini necə təşkil etdi?

• Gəncədə keçiriləcək sərgi üçün işçi qrupu formalaşdırıldı.

• "I Gəncə Kitab Sərgisi"nin xüsusi brendinqi hazırlandı.

• Xüsusi qeydiyyat linki yaradılıb iştirakçılara göndərildi.

• İştirakçıların gediş-gəlişi üçün xüsusi avtobus ayrıldı (Bakı – Gəncə – Bakı).

• Prosesə qırxa yaxın könüllü cəlb edildi.

• Bütün təşkilatçılara yaxa kartları, o cümlədən nəşriyyat və kitab evlərinə brend-pankartlar hazırlandı.

- Yüklərin daşınması üçün on altı metrlik yük maşını ayrıldı.
- Stendlərə ümumilikdə yüz min çeşiddən çox kitab yerləşdirildi.
- Sərginin rəsmi açılışında Gəncə İcra Hakimiyyətinin başçısının iştirakı təmin edildi.
- Açılışdan sonra bütün naşirlərin iştirakı ilə qala gecəsi keçirildi.
- Gəncə şəhər turu təşkil olundu, Şəhidlər Xiyabanı ziyarət edildi.
- Nəşriyyat və kitab mağazası rəhbərləri, eləcə də qonaqlar üçün hotellərdə qonaqlama təşkil edildi.
- Yüzə yaxın şəhid övladı üçün ayrıca tədbir hazırlandı və naşirlərin iştirakı ilə bu uşaqlara kitab hədiyyələri verildi.
- Üç gün müddətində otuz səkkiz ədib, eləcə də ziyalı ilə görüş, imza mərasimi və nağıl saatı təşkil edildi.
- Bütün iştirakçı və könüllülərə sertifikat, təşəkkürnamələr təqdim olundu.
- Sonuncu gün isə bütün iştirakçıların Göygölə səfəri baş tutdu.

Bəlkə də, bunları sadalamağa ehtiyac yox idi, amma demək istədiyim odur ki, bir-birinə rəqib olan, amma eyni amala xidmət edən naşirlərin birləşdiyini görmək, dərdləşmək, tanış olmaq, ünsiyyət qurmaq imkanının olması Azərbaycan tarixində böyük hadisədir, çünki belə şey heç vaxt olmayıb! Yerli ziyalılar, oxucularla paytaxt naşirlərinin,

ədiblərinin tanışlığı, eləcə də əməkdaşlıqların qurulması isə bu məsələnin necə əhəmiyyətli olduğunu ortaya çıxardı.

Nizami yurdu, Cavad xan oylağı Gəncə bu möhtəşəm birliyə şahidlik etdi, şərəfli bir imza atdı. İlk gündən Mədəniyyət Nazirliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, ilk partnyor təşkilatımız olan Gəncə İctimai İştirakçılıq Məclisindən çox ciddi – həm maddi, həm də mənəvi dəstək aldıq. Ən önəmlisi isə bu müqəddəs işə gəncəlilərin böyük ruh yüksəkliyi və sevgi ilə qucaq açmasıdır. Heç kim heç nədən qaçmadı. El birliyi ilə Gəncə oxucularını sevindirə bildik və özümüz də sevindik. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun iki dəfə sərgiyə gəlməsi, sıxlığı görərək sadəlik nümayiş etdirib ayaq üstə tanınmış yazıçı Elxan Elatlı ilə oxucuların görüşünü izləməsi, onu nahara xüsusi dəvət etməsi, Gəncə İctimai İştirakçılıq Məclisinin sədri Müzadil Həsənovun Gəncədən çıxana qədər hər addımda yanımızda olması, hər şeyi öz əlaqələri hesabına həll etməsi, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətovun hər gün iki dəfə sərgiyə gəlişi, naşirlərin problemləri ilə maraqlanması, bölgə rəsmilərini sərgiyə dəvət edib gəzdirməsi kitaba olan dəstəyin ən bariz nümunəsi, Gəncə qonaqpərvərliyinin tərənnümü idi.

Sadə bir oxucunun Gəncənin rəmzi olan Nizami məqbərəsinin simvolu kimi maqnitli süveniri mənə verib təşəkkür etməsi, könüllülərin dostlarına mesaj atıb: "Gəlin Gəncə kitab sərgisində iştirak

edin!” – cəhdləri, ziyalıların: “Üç aydan sonra bir də gəlin”, – kimi səmimi təklifi, gəncəli yazıçı və şairləri bizə təqdim etmələri, birinci günün sönük keçdiyini görüb israrla: “Gəncədə oxucu, ziyalı çoxdur, yəqin, xəbər tutmayıblar”, – deyə inandırmağa çalışmaları qürurverici idi.

Bunlar göstərir ki, bölgələrimiz (gəncəlilər Gəncəyə “bölgə” deyilməsini xoşlamırlar) kitaba acdır, çünki bu ənənələr qırılıb, yox dərəcəsindədir. Buna naşirlər də acdır; öz fəaliyyətlərini formalaşdırmaq üçün bölgələrimizlə tanış olmaq, durumu bilmək çox vacibdir.

Olduqca şadam ki, sədrliyi mənə etibar olunan bu birlik, sözün həqiqi mənasında, naşirlərin birliyini təmin edə, heç kimi incitmədən, maksimum həssas şəkildə bütün problemlərə sinə gərə bildi. Bu gündən belə bunu yaşatmaq, inkişaf etdirmək, böyütmək var. Gəncə sərgisi bitdi, amma yollar bitmədi, bitməyəcək də. Bir anlıq düşünürəm ki, indi Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, Məmmədağa Şahtaxtinskinin, Həsən bəy Zərdabinin, Firudin bəy Köçərlinin, Əli bəy Hüseynzadənin ruhu şaddır, çünki bir zamanlar onların min zillətlə formalaşdırdığı maarifçilik əmin əllərdədir. Güclü dövlətimiz, bir olmağı bacaran millətimiz, fərd olaraq millət üçün fədakarcasına çalışan ziyalılarımız var!

Cənab Ali Baş Komandan: “Biz birlikdə güclüyük!” – deməklə zəfəri daddırdı. Biz isə bu ənənəyə sadiq qalmalı, millətimizin intellektual gəncliyinin

formalaşması üçün birliyi daha da gücləndirməli, hər bir evi kitabla qovuşdurmalıyıq!

İndi də bu şövqlə düşünürəm:

"Görəsən, silsilə sərgilərimizin növbəti dayanacağı hara olsun: Naxçıvan, Lənkəran, Şəki, yoxsa Quba?

Naşirlərin I Formunu harada və nə vaxt keçirək?

Azərbaycan ədəbiyyatını beynəlxalq arenaya necə və hansı yollarla çıxaraq?

ANAİB "I Bakı Kitab Sərgisi"ni nə vaxt keçirək?

Nəşriyyat sahəsində çalışanların əmək yarmarkasını hansı formatda edək?

Qarabağda açılacaq ilk kitabxana hansı bölgəmizdə olacaq və buna necə dəstək göstərə bilərik?"

Bəli, arzular çox, qayğılar ondan da çox! Bütün müqəddəs ideyalar kitabla gəlib, kitabla inkişaf edib! Bizə isə bunun fərqində olmaq və dəyərini bilmək qalır!

# OXUMAQ TƏHLÜKƏLİDİR!

Oxumaq yaxşı şeydir. Bəlkə də, yüz il öncə oxumaq çox önəmli idi. Nə oxumağından asılı olmayaraq, sadəcə, oxu! Əlində kitab olan, nəsə oxuyan adam çox hörmətli, sayğılı və gərəkli adam hesab edilirdi. İndi isə elə deyil. Əlində kitab olmasa da, oxumaq olar. Texnologiya elə inkişaf edib ki, oxumadan da oxumaq olur; dinləmək, baxmaq yolu ilə bu gün istənilən informasiyanı əldə edə bilirik. Onun üçün də "oxumaq" deyəndə kağız, yaxud elektron kitab oxumağı da, mətni dinləməyi də, videoya baxmağı da nəzərdə tuturuq.

Bəzən oxumağın özü təhlükəli amilə çevrilir. Çünki indi, demək olar, hamı oxuya bilir. Amma "Nə oxuyur, necə oxuyur, nə üçün oxuyur?" sualı adamı narahat edir. Əvvəllər oxuyan az olduğu üçün yaxşı şeylər yazılır, çap edilir, ustadlar, xoşniyyətlilər, bəşəriyyətin xeyrini düşünənlər min bir əziyyətlə yazırdı. İndi isə hamı oxuduğu üçün hər kəs yaza, düşüncə sata bilir. Və şər, kütbeyin qüvvələr də hamının oxuya bilməyindən yararlanıb onlara təsir etmək üçün xeyir və ağıllı qüvvələrdən daha

çox yaza, yazdıqlarını daha çox yaymağı bacarırlar. Bu zaman ortaya belə sual çıxır: "Oxumaq yenə vacib və faydalı işdirmi?! Əlbəttə, artıq yüz il, heç əlli il öncəki qədər vacib deyil oxumaq; indi ən vacibi nəyi və nə üçün oxumaqdır. Birincisi, ona görə ki hər yazılan müqəddəs, hər yazılan faydalı deyil və həmişə oxumaqla uğur qazanmaq olmur. Çünki yüz il qabaqkından fərqli olaraq indi hamı oxuya bilir. Və sadəcə oxumaq, bilgi sahibi olmaqla uğur qazanmaq arasındakı fərq çoxdur.

İkincisi, həmişə və hər əlinə keçəni oxumaqla vaxt itkisinə yol verir, zamanımızı xərcləyirik. Bəzi şeylər var ki, oxumağa gərək yoxdur. İstədiyin zaman, istədiyin an onu əldə etmə imkanı varsa, beynimizi niyə zibilliyə çevirək?! Lazım olanda açıb oxuya biləcəyimiz bilgidirsə... Əvvəlki dövr deyil ki, bir informasiyanı əldə etmək üçün çoxmərtəbəli, tozlu kitabxanalara gedib min bir əziyyət çəkəsən. İndi açırsan telefonu, axtarırsan ki, məsələn, fobiya nədir? Milyardlarla informasiyanın içindən tapıb çıxarır, lap istəsən, sənin üçün səsləndirir də.

Bəzi şeylər var ki, oxumaq təhlükəlidir, oxumasan, daha yaxşıdır. Necə ki yeyilməli, yeyilməməli şeylər var, eləcə də oxunmalı və oxunmamalı şeylər mövcuddur. Bəzi informasiyalar çox toksikdir, oxuyan kimi, dilini vuran kimi ya zəhərlənirsən, ya yoluxursan. Həm də artıq yanaşma dəyişib, uşağı oxuyan (oxuyan, baxan, dinləyən anlamında yenə) görəndə ağlımızdan ilk keçən budur: "Görəsən, nə oxuyur?" Bu sual varsa, deməli, oxumaq həm

də təhlükədir. Bir var təmiz mühitdə oxuyasan, bir də var zibillikdə. Təmiz mühitdə əksəriyyəti faydalı olduğu kimi zibillikdə eşələnib oxumaq əksərən zərərlidir, xarabdır, vaxtı keçmişdir, tullantıdır.

İndiki oxuyanlar bir növ marafonçulara bənzəyirlər. Marafona qoşulub qaçmaqla uğura çatmaq nə qədər çətindirsə, oxuyub uğur qazanmaq da bir o qədər müşküldür. Buradan oxu marafonuna qoşulmamalı olduğumuz nəticəsi çıxır? Qətiyyən yox! Deyərdim ki, kütlənin marafonuna qoşulub faydasız olduğunu bilə-bilə qaçmaqdansa, təbiətin qoynunda qulaqlıq taxıb gəzişmək, dincəlmək daha faydalıdır. Oxumaq da elə. “Hamı oxuyur, mən də oxuyum”, – deməkdənsə, “Lazım olanı seçib oxuyum”, – demək günümüzün ən böyük uğurudur.

Məna o qədər dəyişib ki, “Beşikdən qəbir evinə qədər oxu”, “Oxumaq, oxumaq, yenə də oxumaq...” – kimi aforizmlər də dəyərini, anlamını itirib. İndi artıq “Lazımlı şeyi oxu” deyimi əvvəlki iki ifadəni daha açıq izah edir, daha lazımlı səviyyəyə çatdırır. İndi həmişə oxumaq, hər şeyi oxumaq fanatizmə, xəstəliyə, boş vaxt itkisinə gətirib çıxarır. Ona görə də günün tələbi oxumağı öyrənməkdənsə, anlamağı öyrənməkdir.

İndi çox oxuyan yox, yaxşı anlayan, dərk edən uğurun qapısına daha tez çatır.

Bu gün oxumaq bizi çevrəyə alıb, hara baxırırqsa, oxuyan görürük. Bir günümüzə nəzər yetirsək, görərik ki, oxumaq bizi sarıb və üstümüzə tökülən yağış kimi çoxdur. Vatsap, feysbuk,

instaqram, demək olar, hamımızda var. Üstəgəl, radio, televizor, hər gün binaların, mağazaların qabağında gördüyümüz mətnlər... Bir sözlə, beynimizin pəncərəsi olan gözlərimiz bezib, yorulub. İstədin-istəmədin, oxuyursan.

Qaçıb qurtulmaq, gizlənmək istəyirsən oxumaqdan. Gözlərini çıxarmaq, görməmək istəyirsən. Çünki özümüzü oxu həbsxanasında hiss edirik. Axı biz azadlığı sevən məxluquq. Niyə bu qədər məcbur qalmalıyıq ki?! Niyə psixologiyamıza mənfi təsir edən, aldadan, qıcıqlandıran, yoldan çıxaran, hərisləndirən mətnləri oxumalıyıq?!

Özünüzü oxumaqdan azad edin!

Görün o zaman necə xoşbəxt, necə rahat olacaqsınız.

Anlamağa çalışın – özünüzü də, ətrafınızı da.

Dərk edəcəksiniz ki, çox oxumaq, hər şeyi oxumaq elə də yaxşı şey deyilmiş, sadəcə oxumağın köləliyi imiş. Eynən Nizami demiş, çox içiləndə dərd verən su kimi...

# KİTAB-KİTAB BÖYÜYƏK!

Kitabın, mütaliənin gücünə də, romantikasına da həmişə inanmışam. Bir məsələ var ki, biz kitabın gücündən çox romantikasına inanır, onun arxasınca gedirik. Kitabı daha çox əyləncə, vaxt keçirmək üçün oxuyur, ya da sıxıcı dərs kitabları bilib keçirik.

8 – 11 aprel tarixlərində keçirilən Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş II Uşaq Kitab Festivalı bizi kitabın romantikadan daha güclü olduğuna bir daha inandırdı. Sərgidə onlarla nəşriyyatın iştirakı da, minlərlə uşaq və yeniyetmənin, şagird və tələbənin, müəllim və valideynin festival axını da buna əsl sübutdur. Hələ təşkilatçıların, sərgi iştirakçılarının necə həvəslə festivala hazırlaşdıqlarını, oxucuları necə həvəslə qarşıladıqlarını görmək lazım idi.

"Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin (ANAİB) layihəsi olan sərgi-festivalın əsas təşkilatçıları Gənclər və İdman, Elm və Təhsil, Mədəniyyət Nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, o cümlədən ANAİB idi.

Artıq üç ildir, fəaliyyət göstərən birlik yarandığı ilk gündən kitabın, kitabçılığın inkişafına ciddi töhfə verir. Komanda olaraq bu sektorun yeni hədəflərə fokuslanmasında çalışırıq. İndiyə kimi "Bölgələrə kitabla gedək!" çağırışı altında Gəncə, Sumqayıt, Xırdalan, Lənkəran kimi şəhərlərdə yazıçılarla oxucuları görüşdürüb, bölgələrimizdə kitabı əlçatan etmişik.

Keçən ildən idarə heyətinin qərarı ilə məhz uşaqlar üçün nəzərdə tutulan spesifik layihə həyata keçiririk: ANAİB UŞAQ KİTAB FESTİVALI!

Düzü, ilk müzakirələrimizdə əksəriyyətin fikri o idi ki, onsuz da, nəşriyyatların sayı azdır, ixtisaslaşmayıblar.

Kitab sərgilərində iştirak edən oxucu sayının bu qədər az olduğu dövrdə yalnız uşaqlar üçün nəzərdə tutulan sərgi-festival uğurlu ola biləcəkmi?

Narahatlıq doğuran səbəblərin arxasında ciddi faktlar dururdu, amma layihə müəllifi, uşaq yazıçısı Fatimə Alxazın israrla: "Yaxşı olacaq, məncə, başlayaq!" – deməsi, komandanı inandırması, layihəyə start verməyimizə kifayət etdi.

Və bacardıq! Ciddi marağın olduğuna da şahid olduq. Axın-axın gələn məktəblilərin kitabla təması, festival çərçivəsindəki tədbirlərdə aktiv iştirakı bir daha göstərdi ki, bu prosesi gileylənməklə yox, əməli işlə inkişaf etdirə, uşaqlarımızda oxu bacarıqlarını formalaşdıra bilərik.

Sözsüz ki, belə sərgilərin təşkilində həm özəl sektorun, həm də dövlət qurumlarının ciddi dəstəyinə ehtiyac var.

Çox təəssüflə qeyd edim ki, keçən il müraciət etdiyimiz dövlət qurumlarından, özəl sektordan heç bir dəstək ala bilmədik. Sonda yenə birliyin üzvləri əllərini daşın altına qoyub öz imkanları hesabına o möhtəşəm tədbiri keçirə bildilər. Aldığımız nəticə, sosial aktivlik, gələn mesajlar çətinliklə ayaq üstə dayanan kitab sektorunu az da olsa, dirçəltdi.

Bu il layihənin icrasına daha planlı, daha mütəşəkkil formada, üstəlik, daha erkən başlanıldı. Dövlət qurumlarının verdiyi motivasiya nəticəsində ortaya möhtəşəm bir iş çıxdı.

Deməli, bir şeyi sidq-ürəklə istəyəndə olurmuş. Amma istəməklə yanaşı cəhd etmək də önəmlidir. Festivalın piarı "Mənim kitab daxılım" layihəsi üzərindən aparıldı. İyirmi min daxıl hazırlayıb məktəblərdə şagirdlərə payladıq. Üstəlik, bu daxıllar müasir təhsil yanaşmasına xas şəkildə, interkativ formada, naşirlərin birbaşa iştirakı ilə uşaqlara paylanıldı, sinifdə birgə quraşdırıldı. Elan olundu ki, sərgiyə qədər daxıllara pul yığıb, bu qutularla sərgiyə gəlib əlli faizə qədər endirimlə kitablar əldə etmək mümkündür. Uşaqların sevinci, həvəsi çox uğurlu nəticəyə yol açdı.

Sərgidə uşaqların o daxıllarla stendlərə yaxınlaşmasını, həvəslə pullarını saymasını görmək çox gözəl idi. Bu, uşaqlarda təkcə kitaba məhəbbət yox, önəmli bir işi bacarmaq, hesabatlılıq, özünəinam,

maliyyəni idarəetmə bacarığı formalaşdırmaq üçün vacib addım idi.

Sərginin təşkilinə dövlət qurumlarının diqqəti, dəstəyi prosesi daha da sürətləndirdi. Sərgi-festivalın açılış mərasimində iştirak edən ANAİB idarə heyətinin sədri Şəmil Sadiq, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Təhsilin İnkişafı Fondunun sədri Elnur Nəsibov və Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli öz çıxışlarında festivalın əhəmiyyətindən, gəncliyin formalaşmasında önəmli layihələrdən biri olduğunu vurğuladılar, iştirak edən uşaqlarla söhbət edib şəkillər çəkdirərək onların yaddaşında silinməz iz qoydular.

Yüksəkvəzifəli dövlət məmurunun kitabın təbliğində dəstəyinə həmişə ehtiyac var. Oxucu sayını artırmaq istəyiriksə, bu kimi addımları çoxaltmalıyıq. Təəssüf ki, on milyonluq Azərbaycanda cəmi otuz aktiv fəaliyyət göstərən nəşriyyat var. Demək olar, bizimlə eyni əhaliyə malik Avstriyada altı yüzdən çox nəşriyyat fəaliyyət göstərir. Bu o deməkdir ki, bizim oxucu sayımız az, tələbimiz minimum həddədir. Amma ümidsizliyə qapılmaq da yanlışdır. Məsələn, keçənilki sərgi-festivaldan bu günə qədər ciddi dəyişikliklər olub. Bir neçəsini sadalayım:

• Sərginin keçirildiyi məkan iki dəfə daha böyük oldu.

• Keçən il həm kitab mağazaları, həm nəşriyyatların hesabına otuz iştirakçı vardısa, bu il sadəcə nəşriyyatların iştirak etdiyi sərgiyə iyirmi dörd qurum qatıldı.

• Keçən ildən bəri altı-yeddi nəşriyyat öz alt markalarını yaradıb yeni uşaq kitabları ilə iştirak etdi.

• Ondan çox yeni nəşr məhz sərgi üçün hazırlandı və oxuculara təqdim edildi.

• Keçənilki iştirakçı sayı iyirmi min idisə, bu il əlli mindən çox oldu.

• Keçən il təxminən qırx min kitab satılmışdısa, bu il yetmiş mini ötdü.

• Keçən il tədbir iki gün davam etmişdi, bu il isə dörd.

• Keçən il sərgiyə gələn uşaqlar daha çox hədiyyə kitab almaq üçün gəlmişdilərsə, bu il öz büdcələri ilə kitab almağa, istədikləri kitabı seçməyə gəlmişdilər.

• Keçən il sərgi çərçivəsində otuza yaxın tədbir keçirilmişdi, bu il isə altmışdan çox əyləncəli, intellektual tədbir baş tutdu.

• Keçən il daha çox valideynlər uşaqları sərgiyə gətirməyə maraqlı idisə, bu il əksinə oldu.

• Bu il layihə çərçivəsində elmi-praktik konfransın da keçirilməsi prosesin tədqiqatı baxımından da çox önəmlidir ki, naşirlər fəaliyyətlərini bu sahədə qura bilsinlər.

• Ölkəmizdə ilk dəfə kitab sektorundakı qurumların özəl sərgisinə naşirlər xüsusi hazırlanmış stendlərlə çıxdılar.

Sadaladıqlarım sözügedən sahədə görülməli işin çox olduğunu göstərir. Təşəbbüs olsa, milli dəyər, müasir düşüncəyə sahib gənclik yetişdirmək, ölkəmizin gələcəyi naminə daha faydalı işlər görmək mümkündür. Bu gün yad və düşmən ünsürlərin əsirinə çevrilmiş gəncləri görməkdəyik, amma savadlı, intellektual gənclik yetişdirə bilsək, onların dünyagörüşünü öz milli maraqlarımız və bəşəri dəyərlər əsasında formalaşdırsaq, bugünkü yanlış proses davam etməz.

Dörd gün ərzində sərgiyə gələn uşaqlar yaşlarına uyğun tədbirlərə, yazarlarla görüşə, teatr tamaşalarına cəlb olundu, imza mərasimlərində iştirak etdilər.

Zahid Xəlil, Reyhan Yusifqızı, Amin Oruc, Fatimə Alxaz, Sevinc Elsevər, Solmaz Amanova, Elgüsel, Sevinc Nuruqızı kimi yerli uşaq yazıçıları ilə yanaşı Türkiyədən dəvət olunan Suat Turqut, Özge Lokmanhekim kimi ədiblər də maraqlı müzakirələr apardılar, xeyli kitab imzaladılar.

Tanınmışların nağıl saatı uşaqlarda daha çox maraq doğurdu. Xalq artisti Mənsum İbrahimov, tanınmış futbolçu Qara Qarayev, qiraətçi Xəzər Süleymanlı, yazıçı Rövşən Abdullaoğlu kimi tanınmış ictimai xadimlər uşaqlara öz üslublarında nağıl danışdılar.

Düzü, əksəriyyət sərgi ilə yarmarkanı, sərgi ilə festivalı qarışdırır. Dörd günlük tədbir təkcə sərgi, yaxud yarmarka yox, Uşaq Kitab Festivalı idi və təşkilatçılar bu addımın tam öhdəsindən gəldilər. Festivalda iki səhnə ayrılmışdı, biri Firudin bəy Köçərli, digəri Abdulla Şaiqin adını daşıyırdı. Bu özü də çox şeydən xəbər verirdi. Bu səhnələr günün bütün saatlarında dolu olurdu.

Uşaq birliklərinin özfəaliyyəti, master-klaslar, rəssamların uşaqların şarjını çəkməsi – hamısı ümumi işin tərkib hissəsi idi.

Festivalın üçüncü günü "Azərbaycanda uşaq və tədris ədəbiyyatı: reallıq və perspektivlər" adlı elmi-praktik seminar keçirildi.

Seminarda Azərbaycan uşaq, eləcə də tədris ədəbiyyatının problem və perspektivləri ilə bağlı məruzələr edildi, təkliflər dinlənildi, müzakirələr aparıldı.

ANAİB-in sədri, seminarın moderatoru Şəmil Sadiqin "Uşaq ədəbiyyatının bugünkü vəziyyəti", Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublunun "Dərslik mətnləri: oxuyub anlamaq", yazıçı Zahid Xəlilin "Uşaq ədəbiyyatında klassizm ənənələri", "Altun kitab" nəşriyyatının direktoru Rafiq İsmayılovun "Azərbaycanda uşaq kitabları beynəlxalq təcrübə kontekstində. Çap və elektron resurslar: mif və reallıq", Nizami adına Ədəbiyyat İnstitutunun Uşaq ədəbiyyatı şöbəsinin müdiri Elnarə Akimovanın "Tədris vəsaitlərində uşaq ədəbiyyatının yeri və

rolu" məruzələri seminarın ciddiliyindən xəbər verir. Bəli, bu sadaladıqlarım Azərbaycanımız üçün, zəfərin uşaqlarını yetişdirmək üçün Ümummilli lider Heydər Əliyevin: "Azərbaycanın gələcəyi gənclərin çiyinləri üzərində qurulacaq", – fikrinin reallaşması üçün böyük addım idi. Bunu həyata keçirən isə fədakar naşirlər – ANAİB komandası oldu. O komanda ki böyük ideallar arxasında yorulmadan çalışır, güclərini birləşdirir, yeri gələndə kitab tərtib edir, yeri gələndə sərginin masalarını daşıyır, yeri gələndə satıcı kimi stendin arxasında kitab satır. Əlbəttə, kitab sektorunun çatışmazlığı çoxdur və bu problemləri təkcə vətəndaş həmrəyliyi ilə həll etmək mümkün deyil. Necə ki bu layihənin həyata keçirilməsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman, Elm və Təhsil nazirlikləri ciddi dəstək verdi, kitabın arxasında durdu.

Digər dövlət qurumları da anoloji addım ata, ölkənin gələcəyinə yatırım edə bilərlər.

Kitabla böyüyən gənclik həmişə hər yerdə Azərbaycanın üzünü ağ edəcək, gücünə güc qatacaq!

# TARİXİ ROMAN MÜƏLLİFİ QONAĞIMIZDIRSA...

Təxminən iki il əvvəl dəyərli dostlarımdan olan Devrimlər ailəsi mənə Əhməd Haldun Terzioğlu haqqında danışdılar. Milli düşüncəmə bələd olan dostlarım Əhməd bəylə məni feysbukda tanış etdilər. Bir neçə dəfə yazışdıq, kitablarını əldə etdim. Əsərləri ilə tanış olduqca gördüm ki, bir türk tarixçisi kimi ədəbiyyat yaratmağı qarşısına məqsəd qoyan bu sənətkar tarixi romanlaşdıraraq gəncləri oyatmağa, milli kimlikləri ilə tanış etməyə çox böyük əmək qoyur.

Məhz bu səbəbdən daha yaxından tanışlıq, incə ruhundan süzülüb gələn əsərləri Azərbaycandakı oxuculara da təqdimi üçün əlaqələrimizi inkişaf etdirdim.

İlk oxuduğum əsəri "Həsən Sabbah" romanı oldu. Romanın axıcı dili, türkcənin itirdiyi sözlərə yenidən can verməsi, Səlcuq tarixinə, Nizamül-mülkün fəaliyyətinə fərqli yanaşmasını gördükdə yazıçının özünəməxsusluğu məni heyran etdi.

Azərbaycan oxucuları üçün də doğma olan "Tomris xan" əsərinin dilimizə uyğunlaşdırılıb nəşr edilməsini isə özümüzə vəzifə borcu bildik. Və 2016-cı ilin aprelində romanın müəllifini Azərbaycana dəvət etdik. "Oxu günü-2" layihəsi çərçivəsində ölkəmizə gələn Əhməd bəylə dostluğumuz dərinləşdi. Onun türk ruhuna sədaqəti, birmənalı sevgisi İçərişəhəri gəzdikcə tariximizə göstərdiyi diqqətdən bir daha aydın oldu. İçərişəhərdə, Qız qalasında olanda bəzən bələdçini dayandırıb Qız qalası ilə bağlı öz şərhlərini verməsi, qalanın tarixinə baxışını sərgiləməsi Əhməd bəyin adi yazıçı olmadığını mənim üçün bir daha sübut etdi.

Türkiyə ədəbiyyatşünasları bu ədib haqqında danışarkən deyirlər ki, fərqli süjet qurur, detektivlik edib oxucu ilə oynamır, o sadəcə "tarixi roman yazmağı deyil, tarixi romanlaşdırmağı" qarşısına məqsəd qoyub. Əsərlərinə diqqət etdikcə bu fikrin təsadüf olmadığını görürük.

Söhbətlərimiz həmişə tarixdən, tarixə yanaşma zamanı yol verilən yanlışlardan olurdu. Ona görə də ustad yazıçı ilə "Ustad" dərgisi üçün söhbətləşmək üçün razılaşdıq. Gecə saat üçə qədər dərdləşdik. Etiraf edim ki, birinci dəfə idi, hansısa türkiyəli dostumla söhbət zamanı özümü Türkiyə türkcəsində danışmağa borclu hiss etmirdim. Çox rahatca anladığını gözləri ilə təsdiqləyirdi. Elə bunun üçün də onunla söhbətimizdə mən azərbaycanca, Ahmet bəy türkcə danışdı. Ortaq türkcəyə gedən bir yol kimi qəbul edib dərgimizdə də bunu olduğu

kimi sizə təqdim etdik. Amma yazının türkcənin qrammatik qaydaları ilə yox, Azərbaycan dilinin qrammatik qaydaları ilə yayımlanmasının daha uyğun olacağına qərar verdik.

Müəllifin bioqrafiyası haqqında bir neçə söz deməyi də lazım bilirik:

1960-cı ildə Trabzonun Takazlı kəndində anadan olub. Bir çox idman növləri ilə məşğul olub. Bir müddət universitetin boks və taekvando komandalarının üzvü olub. Uzun illər dövlət idarələrində çalışan Əhməd Haldun Terzioğlu 2006-cı ildə şəxsi istəyi ilə təqaüdə çıxıb və özünü sadəcə yazmağa həsr edib. Əsas diqqətini türk tarixi və mifologiyası üzərində cəmləşdirən yazıçının kitabları 2004-cü ildən etibarən nəşr olunmağa başlayıb.

Siyasi romanlarında isə yaşadığı dövrü təsvir etməyi üstün tutan yazıçı bu mövzuda da obyektiv olmağa çalışır. Olanlara birtərəfli yox, obyektiv baxma səbəbi yaşananların daha yaxşı başa düşülməsini təmin etmək üçündür. Əlbəttə, öz siyasi düşüncəsi var və inandıqlarını qorumaqdan geri durmur. Zamana, yerə, insanlara və iqtidara görə dəyişməyi, hansısa komandanın azarkeşi olmaq kimi partiya tərəfdarı olmağı da rədd edir. Mühakimə etmək, müxalif çıxmaq və həmişə inandığı həqiqətləri müdafiə etmək yazıçının hədəfləri arasındadır.

2007-ci ildə "Mustafa Necati Sepetçioğlu" adına tarixi roman müsabiqəsində "Alp Ər Tonqa" adlı tarixi romanı ilə birincilik mükafatı qazanan ədibin

teatr, hekayə və məqalə müsabiqələrində də xeyli mükafatı var. Bu günə qədər qırx bir əsəri kitab kimi çap olunub.

Məşhur əsərləri arasında "Göy Tanrının uşaqları", "Oğuz xan", "Alp Ər Tonqa", "Qızılgüllərin solduğu gün" romanları yer alır.

# GƏLİN VAQİF UCATAYA NİFRƏT EDƏK!

"Türk insanı çağdaş sanata İŞİD kadar değer vermiyor". Tanınmış türkiyəli rəssam Bədri Baykan bu fikri "Sözcü" qəzetinə müsahibəsində deyib. İlk dəfə oxuyanda: "Çox sərt ifadədir", – deyib keçə bilərik. Hətta müəllifi daha sərt sözlərlə təhqir də etmək mümkündür. Amma sonrakı izahı adamın ürəyini elə sıxır ki, geniş mənzərə axtarırsan; baxıb dərindən nəfəs alasan. Sənətkar deyir ki, İŞİD sənətin dəyərini bildiyi üçün ona nifrət edir, onu məhv etməyə çalışır, amma türk insanı sənətin dəyərindən xəbərsiz olduğu üçün buna laqeyd qalır. Nə sevir, nə də məhv edir. Sadəcə, görmür və lazımsız şey kimi yanaşır, daha doğrusu, yanaşmır.

Fikir o qədər ağırdır ki...

Düzdür, bu, subyektiv münasibətdir. Amma işin içində olan insan kimi fikrin həqiqiliyini qəbul edir və ürək ağrısı ilə yanaşıram.

Bu gün bizdə də sənətin bütün sahələrinə ögey münasibət var. Sənət baxımsız, sənətkar

diqqətsizdir. Nəmişlik basmış zirzəmilərdə yatan nə qədər əsərlər var, bir bilsək...

Birini mən xatırlayım... Vaqif Ucatay adlı rəssamımız var. Onun "Əziz Şərif" portreti o qədər qiymətli əsərdir ki, Luvrda, Ermitajda sərgilənməyə layiqdir. Görürsünüz, mən də misal çəkəndə gavurun muzeyini dedim. Çünki dünyanın ən dəyərli əsərlərinin saxlandığı yerlər məhz oralardadır. Bizdə yox... Vaqif Ucatayın o əsəri isə İçərişəhərdə Qoşa qala qapısından girəndə sağdakı döngədə – bir şəxsin ona əsərlərini saxlamaq üçün verdiyi uçuq-sökük, kif basmış, onlarla əsərin üst-üstə yığıldığı on kvadratmetrlik otaqdadır. Hələ otuz ildən çoxdur, üstündə işlədiyi "Azərbaycan toyu", "Dədə Qorqud" kimi onlarla qiymətli əsəri, o tərəf-bu tərəfə dartılmaqdan məhv olub getməkdə olan sənət nümunələrini demirəm.

Vaqif müəllim xasiyyətcə bir az çətin adamdır. Hətta məndən bu gün də incikdir. Elə mən də ondan. Amma sənətkardır və işinin ustasıdır. Bu yaxınlarda onu ziyarət edib soyuq münasibətlərimizi istiləşdirmək arzusu ilə emalatxanasına getdim.

Vaqif müəllim yox idi...

Həmin emalatxana isə çörək bişirilən təndir kimi fəaliyyət göstərirdi...

İçərişəhərdə... Qoşa qala qapısından girən kimi...

Bütün xarici qonaqlarımızı apardığımız bu tarixi məkanda sənətimizi qarnımızla dəyişdik... Dəyişmək məcburiyyətində idik.

Çünki sənət qarın doyurmur.

O yerin sahibi də, yəqin, ailəsini dolandırmaq üçün belə edib... Amma bir gecəyə on minlərlə manat xərcləməyi bacaran heç bir iş adamı (əslində, bu "iş adamı" ifadəsinin özündə bir ironiya var. "Başıma iş gəlib", "işbaz" deyimlərindəki mənalara baxanda heç də işgüzar anlam vermədiyini görürük. Bu "iş adamı" ifadəsindəki mənanı "işbaz" sözündəki məna ilə eyniləşdirsək, dediyimin həqiqət olduğunun fərqinə vararıq) bu kimi portretlərə qiymət vermir, verə bilmir. Halbuki mental dəyərlərini bəyənmədiyimiz Qərb işbazları bu cür əsərləri çox baha qiymətə alıb başlarının üstündən asırlar ki, cəmiyyətdə ziyalı kimi qəbul edilsinlər.

Bu məsələ bir az da xislətimizdə olan amillə bağlıdır. Məsələn, beş dostla bir yerdə yemək yeyirik, hesabdan sonra bir beş-on manat da ofisianta bəxşiş veririk. Amma gedirik pomidor almağa, satıcı yetmiş qəpik deyirsə, əlli qəpiyə almağa çalışırıq. Sənətə də elə bu cür yanaşırıq.

Vaqif müəllimlə bir ilə yaxın eyni layihə üzərində işlədiyimə görə az-çox onu tanıyıram. Kiminsə ona yazığının gəlməsinə çox əsəbiləşir. Amma əminəm ki, sənətinin məhv edilməsinə baxıb yazığı gələnlərə əsəbiləşməz.

Kazimir Maleviçin "Qara kvadrat" (versiyalardan birinə görə Maleviç bu əsəri futurist rəssamların "0.10" sərgisində salonun boş qalan yerini doldurmaq üçün çəkib. Kətan üzərində yağlı boya ilə 79,6*79,5 sm ölçüdə işlənib. Hazırda Moskva

Tretyakov Dövlət Qalereyasında saxlanılır) adlı əsərinə heyran olan dünya insanı ilə bizim insanı müqayisə etməyi belə ağlımdan keçirmək istəmirəm.

Bu böyük sənətkarın 1988-ci ildə başlayıb 2000-ci ildə tamamladığı "Əziz Şərif" portreti hər dəfə yadıma düşəndə yuxum qaçır. O qədər mükəmməl işlənmiş əsərdir ki, saatlarla qarşısında durub baxsan, hərdən gözün seçmədiyi yerləri lupa ilə incələsən, yenə yorulmazsan. Yeni "ağıllı" telefonlarda bir funksiya var: çəkdiyin şəklin üstünə klikləyəndə çəkilmə anını video kimi görürsən. Mən də bu rəsmə baxanda sanki o videonu görürəm.

Vaqif müəllimin "lent.az"a verdiyi müsahibəsində bu əsərin çəkildiyi dövr haqqında fikirləri prosesi daha yaxşı ifadə edir:

*"1987-ci ildə – akademiyanı bitirəndə istədim, oradan Moskvaya gedib görüşəm, portretini işləyəm. Amma alınmadı. Axsayan tərəfim həmişə pul olub. Haradasa əlli rubl lazım idi. Olmadı. Dedim, eybi yox, qayıdım Bakıya, bir sifariş tapım, ilk qazancımla gedərəm. Elə də oldu, ilk işimdən min manat əldə etdim. Evdəkilərə vermədim ki, Moskvada bir alimimiz ölür, gedirəm onu çəkməyə. Ömrünün son iyirmi gününə çatdım... Qəribə saqqalı vardı; azərbaycanlıdan daha çox uzaq şərqlilərə oxşayırdı. Ziyalı adam idi, başa düşdü ki, onun siması məni tutmadı. Dedi: "Oğul, düz gəlmisən?" Sonradan soruşdum ki, niyə bu cür saqqal saxlamısınız? Dedi: "Daha üzümün o biri hissələrində tük*

*çıxmır" (Gülür). Deməli, gözünə döndüyüm iki dəfə evlənib, ikisində də erməni ilə... Bəs qədər eskiz çəkdim, hətta gördüm, saatbasaat məndən uzaqlaşıb ölümə doğru gedir. Ona görə fotoqraf çağırıb, yetmiş rublluq da foto çəkdirdim – əllərini, barmaqlarını – bir-bir. Artıq bilirdim ki, bu əsəri qayıdandan sonra işləyəcəyəm. Əsər on iki ilə başa gəldi. Birinci sərgimdə vardı. Heç kim maraqlanmadı ki, belə bir adam var, ya yox. Ən azından uğurlu portretdir.*

*... Əvvəl inanmadı ki, məni heç kim göndərməyib, sonradan inandı. Ancaq onu deyirdi ki: "Kaş yoldaşımın bir az canı sulu olaydı. Bir yaxşı pirojkilər bişirərdi ki..." Deyirdim: "Əziz müəllim, siz narahat olmayın". Üzrxahlıq eləyirdim ki, onu incidirəm. O da səbirlə otururdu, taqətsiz idi, yerindən qalxmaq üçün hər dəfə üç-dörd cəhd edirdi. Bir gün ona istirahət verdim ki, dincəlsin. Səhəri günü getməzdən əvvəl zəng elədim, görüm özünü necə hiss edir, xidmətçi dedi ki: "Əziz müəllim artıq yoxdur..."*

*... Bir gün dördüncü dəfə idi, eyni eskizə qayıdırdım. Soruşdu ki, "Vaqif, evlisən?" Dedim: "Yox". Dedi: "Elə evlənməsən, yaxşıdır. Dördüncü dəfədir, eyni eskizə qayıdırsan. Axı nə görmüsən bu qoca Əziz Şərifdə?" Dedim: "Şərif müəllim, sizi də, məni də yetirən təbiət doxsan dörd il gecə-gündüz çalışıb ki, sizi bu gözəlliyə, bu simaya salsın, siz də, heç olmasa, imkan verin, mən dörd seans işləyim". Gülüb əllərini qaldırdı: "Ağıllı oğlansan, nə qədər istəyirsən, işlə". Bütün o müddəti bircə kəlmə rus sözü işlətdi. O da "xolodelnik". Ana dilimizdə tərtəmiz danışırdı".*

Bu gün Vaqif Ucataya heç bir beynəlxalq titul verilmir, heç bir yerdə anılmır. Çünki o, Papanın yox, Dədə Qorqudun rəsmini çəkir. Çünki o, millidir, ona görə də millət tərəfindən qiymətləndirilmir. Yad bir ideologiyanın daşıyıcısı olsa, xarici qüvvələr tərəfindən seviləcək, bizə bəh-bəhlə təqdim olunacaq, biz də ağzıaçıq şəkildə onu baş tacımız edəcəkdik.

Vaqif Ucatay timsalında sənətkarların yaratdığı sənət nümunələri vecsizliyimiz üzündən itib-batır. Bədri Baykanın sözünə haqq verərək deyirəm ki, Vaqif Ucatayı sevib dəyər vermirik, gəlin, heç olmasa, ona nifrət edək. Qapısına gedib daşlayaq, əsərlərini cırıb yandıraq, məhv edək ki, heç olmasa, sənətkar öz varlığının və yaratdıqlarının görüldüyünü bilsin. Bəlkə, onda stimul alar, yenidən yaradar, ona nifrət edənlərlə mübarizə aparar. Amma bu cür laqeyd qalmağımız o cür çılğın, üsyankar ruha sahib adama yaraşmır.

P.S. *Vaqif Ucatayla tələbə yoldaşı olmuş Sakit Məmmədov kimi dünyaca çox tanınmış rəssamımız var və ona dünyada böyük dəyər verilir. İncəsənət sahəsində qazandığı böyük uğurlarının tanınmasının əlaməti olaraq Vatikan Zadəgan Heraldika Akademiyasının qraf titulunu daşıyır.*

*Sakit Məmmədov Roma Papası II İohann Pavelin portretini çəkib və özünə hədiyyə edib. Bununla yanaşı Böyük Britaniya Kraliçası II Elizabetin doxsan illik yubileyi qeyd olunanda Sakit Məmmədov "Cıdır düzü" əsərini Vindzor qəsrində kraliçaya təqdim edib.*

*Bu nümunəni ona görə çəkdim ki, bizim sənətkar yetişdirmək kimi dərdimiz yoxdur; Tanrı bu millətə sənət ruhunu sevə-sevə bəxş edib. Amma təəssüf ki, həmin Tanrı bizi sənəti dəyərləndirmə qabiliyyətindən ya məhrum qoyub, ya da başımıza gələnlər bu hissi bizə yadırğadıb.*

# QORQUD ATANIN PIÇILTISI

Qırx say... O boyda dövr gəlib keçdi.

Və budur, "USTAD"ın yaşı tamamdır. Dədə Qorqud zamanı olsa, ən yaxşı halda adqoyma mərasimi indilərə rast gəlməli idi. Axı əməllər adı doğrultmalıdır. Belə olmasa, şəxs adının böyüklüyü, yaxud kiçikliyi altında əzab-əziyyət çəkməli olur. Az halda insan öz adına yaraşır. Bu məqamda düşünürəm ki, əslində, qoyulmuş bütün adlar öz sehrini sahibinin üzərinə salır, adın yükünü daşımağa vadar edir. Bəli, vadar edir. Ad xarakterə uyğun gəlsə, bu zaman vəhdət baş verər; onu da daşımaq kimi hansısa dərd yaranmaz.

Biz də dərgimizin adını Qorqud Atanın pıçıltısı ilə "USTAD" qoymuşduq. Dərginin birinci sayında da bu adı qorumağa, ucaltmağa çalışan şagird olacağımızı vurğulamışdıq; düşünürəm, əməl edə bilmişik.

Bir baş redaktor kimi sizə hesabat vermək boynumun borcudur. Mən hesabatımızı, siz isə dəyəri verin. Çünki biz dağın ətəyində olduğumuz üçün

onun böyüklüyünü, yaxud kiçikliyini siz müəyyən edə bilərsiniz, əziz oxucular!

1. Bu dövr ərzində kimlərlə yola çıxmışdıqsa, indi də həmin komanda ilə davam edirik və sıralarımız günü-gündən genişlənir. Bir "USTAD" birliyi təmin etməlidir; onu da etdi.

2. Bir atımlıq barıt olmadıq, nizamlı inkişaf yolu ilə addımladıq. "USTAD" yol göstərər; onu da etdi.

3. İntriqa, dəstəbazlıq, şüarçılıq əleyhinə olacağımızı elan etmişdik və "Ustad" buna sadiq qaldı.

4. Ədəbiyyat və Mədəniyyətə xidmət etməli, maarifçiliyi bayraq etmişdik; bayrağı endirmədik.

5. Ustad-şagird münasibətlərini hər addımda qoruduq.

6. Millət və dövlət sevgimizdən sapmadıq.

7. Nəşr keyfiyyətinə daim sadiq qaldıq.

8. Reallığı romantikamıza qurban vermədik, reallığa çevirdik.

9. Vəzifəlinin, pullunun ədəbiyyatı olmadıq.

10. "Kim olursan, ol, gəl", – demədik, "Milləti, vətəni, insanı sevirsənsə, gəl", – söylədik!

Bunlar bizim prinsipimiz oldu və əməl etmək üçün çalışdıq. Niyyətimiz yanlış olmadığı üçün əməlimizdə yarana biləcək qüsurları da oxucumuzun anlayışla qarşılayacağına inandıq.

Artıq qırxı aşmışıq. Və bu prinsipləri qoruyacağımıza əminik.

Baş redaktor kimi çox yorucu olmamaq arzusu ilə...

# TEATRIMIZIN DİRİLİŞİ

Bu yaxınlarda Azərbaycan Dövlət "YUĞ" Teatrında əziz dostum, dəyərli yazıçı İlqar Fəhminin mütəfəkkir şair İmadəddin Nəsiminin altı yüz əlli illiyinə həsr edilmiş "Mənəm mən..." mistik-psixoloji dramına baxdıq...

Əsər də, quruluş da, aktyorlar da möhtəşəm idi...

Mənim üçün Hötenin "Faust"una, Bayronun "Qabil"inə bərabər əsərdir. Çünki dramda Nəsiminin ruhundakı İnsanla göylərin savaşını gördük.

Mənim üçün Nəsimi, Hüseyn Cavid, Muğanna sırasına İlqar Fəhmi də qoşuldu... Çünki Nəsiminin İnsan konsepsiyası, İnsan ruhundakı sirlər, İnsanın təbiətindəki enerji partlamasını seyr etdik. Nəsiminin timsalında ədibin özünün də göyləşmək dərdini, üsyanını duyduq.

Mənə görə, Cavidin "İblis"inə bərabər əsərdir. Tamaşada Nəsiminin bir aşiq, bir cahan xilaskarı olduğunu görüb şəriət qaydaları ilə mübarizəsinin, haqqa gedən yolda daxili təlatümlər yaşamasının şahidi olduq.

Mənim üçün Muğannanın "Cəhənnəm"inə bərabər əsərdir. Cəhənnəmdə eşqin olmamasıdır onu cəhənnəm edən – eşqsiz, sevgisiz hər yerin cəhənnəm olduğu qənaətinə gəlirik...

Mənim üçün Joze Saramaqonun "İsanın İncili"nə bərabər əsərdir.

İntellektual tamaşaçı üçün cənnət həzzidir. Bəli, əsər məhz intellektual tamaşaçı üçündür, çünki Nəsimiyə bələd olmayanlar, insan və Tanrı düşüncələri ilə çırpınmayanlar bu əsəri anlamaz, darıxarlar. Bu cür informasiya dolu əsərə baxmaq üçün mifologiyadan tutmuş günümüzün dini proseslərinə qədər bələd olmaq tələb edilir.

Tamaşaya baxsanız, Hüseyn Cavidin Arifi, Şeyx Sənanı ilə Cəlil Məmmədquluzadənin Şeyx Nəsrullahını bir səhnədə görəcəksiniz.

Adama elə gəlir ki, Şeyx Sənanın müəllimi Şeyx Kəbirlə tamaşadakı Nəsiminin müəllimi Şeyx Əzəmi qarşılaşdırmağı qarşısına məqsəd qoyub dramaturq. Şeyx Kəbirin müdrikliyi ilə Şeyx Əzəmin – Şeyx Nəsrullahın fərqini göstərmək istəyib bizə...

Realizmlə romantikanın sevişməsini və nifrətini görəcəksiniz...

Hələ komediyanın acı yumorunu demirəm...

Tamaşaya baxanda "Meyvələri üstündə qurumuş ağaclar sizi ağladacaq..." Sədalarına çırpınacaqsınız, Cəhənnəmdə eşqin olmadığını anlayacaq, dişlərin, dodaqların dili necə zindanda saxladığını görəcəksiniz.

Nəsiminin içindəki insan qatları ilə tanış olacaqsınız.

Cəhalət pərdəsi necə olur, öyrənəcəksiniz.

Nəsiminin daxilindəki ziddiyyətin şahidi olacaqsınız.

Nöqtənin gücünə vaqif olacaqsınız.

Hərflərin sadəcə işarə olmadığını anlayacaqsınız.

İnsanın necə Allah olduğunu dərk edəcəksiniz.

Tanrının mələklərə insana baş əydirməsinin niyəsinin sualı ilə dönəcəksiniz.

Tamaşanın quruluşçu rejissoru Mehriban Ələkbərzadənin özünəməxsus mistikası ilə – sadə bir qara ipəklə əsərə necə dinamiklik gətirdiyini ifadə etmək çətindir. Düzdür, tamaşanın ortasında düşündüm ki, qara yox, ağ parça olsa, daha fərqli görünərdi. Amma sonra fikrimdən daşındım, çünki qara cəhaləti ifadə edirdi; axı Nəsimini də Cəhalət məhv etdi...

Aktyorlar isə sözün əsl mənasında, obrazlarını yaşayırdılar. Gərgin dinamizmlə davam edən tamaşa boyu bir an da olsun, dayanmadılar.

Tamaşa bir daha göstərdi ki, Azərbaycan mədəniyyəti ölməyib, yaşayır. Son illər oynanılan əsərlərin əksəriyyəti klassik əsərlərdir, aktyorlar da bir vaxtlar oynamış aktyorları haradasa təkrarlayırlar. Amma bu əsərlə gördük ki, yazıçı da, rejissor da, aktyor da yeni nəslin nümayəndəsidir və şedevr yarada biliblər.

Teatrımız dirilir, canlanır...

"Yuğ" Teatrının öz ruhu var, hərdən mənə teatrımızın ilk günlərini xatırladır bura. Çünki kasıb,

kiçik və darısqal məkandır. Ona görə də bu teatrda olanda elə bilirəm, ilk tamaşamız oynanılacaq indilərdə. Cəfər Cabbarlı min bir əzabla tamaşa hazırlayıb. Hüseyn Cavid, Cəlil Məmmədquluzadə həyəcanla əsərinin necə oynanılacağını gözləyir, qorxa-qorxa gələn tamaşaçılar sakitcə dişlərini sıxıb nə baş verəcəyinin intizarındadırlar...

Həm əsərin mistik, fəlsəfi ağırlığı, həm quruluşun dinamizmi, həm aktyorların həyəcanı, həm müəllifin arxada oturub tamaşa ilə birgə tamaşaçının mimikalarını izləməsi, həm də məkanın kasıblıqdan doğan doğmalığı ruhumuza qida oldu.

# MİLLƏT KİMİ ADAM

Azərbaycan ədəbiyyatı min illərdir, müxtəlif söz ustaları ilə birgə yol gəlir. Bizə məlum olan ilk inancımız tenqriçilikdir. Sonradan şamanizmlə birgə addımlayıb söz sahibləri. Lap sonralarsa xristianlıq və islam dini ilə tanış olub. Əlbəttə, hər inancın, dinin ədəbiyyata ciddi təsiri olub. Türklər islamla tanışlıqdan sonra onu öz törələrinə uyğun yaşamağa başlayıb, hər dəfə şüuraltında gizlənən türk törəsini islamla çulğalaşdırıb, onu zənginləşdirib. Bütün xalqlar belədir, qəbul etdiyi dini öz ənənəsi ilə yaşayıb. Fars da, ərəb də özü kimi yaşayır dinini, eləcə də türklər. Orta əsrlərdə irfan sahibləri dini milli ruhla təqdim etməyə cəhd göstərsələr də, təəssüf ki, sona çatdıra bilməyiblər. Yunus Əmrənin, İmadəddin Nəsiminin, Fəzlullah Nəiminin, Şah İsmayıl Xətainin, Hacı Vəli Bektaşinin bu istiqamətdə gördüyü işlər bir yerdə qırıldı, davamı gəlmədi. Halbuki dinə yeni rəng qatıb milliləşdirmək, o cür yaşatmaq niyyətində idilər. Xətainin qızılbaşlıq inancından sonra XX əsrdə bu arzu Hüseyn Caviddə cücərdi. Onun da kökünü sovet hökuməti kəsdi.

"Tanrının sözünü şairlər çatdırar" inancı insanın düşüncəsində həmişə var və olacaq da, yəqin. Hüseyn Cavid, Almas Yıldırım, Əli bəy Hüseynzadə ilə bitən milli şeir bir də əsrin sonlarında Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürklə başladı. Ümumtürk şeirinin parlaq nümayəndəsi olan Xəlil Rza Ulutürkdən sonra Azərbaycan ədəbiyyatında bu günə qədər həmin missiyanı öz çiynində daşıyan şəxs Rüstəm Behrudidir. Bu mənada Rüstəm Behrudi müstəqillik dövrü Azərbaycan ədəbiyyatının Hüseyn Nihal Atsızı oldu. Mirəli Seyidov deyirdi ki: "Türk mifik düşüncə tərzi, Turan ideyası və türk millətçiliyi XX əsrin sonlarında Rüstəm Behrudinin şeirləri ilə yenidən həyat qazandı".

Akademik İsa Həbibbəyli yazır: "Rüstəm Behrudinin 1989-cu ildə yazılmış "Salam, dar ağacı" şeiri müstəqillik ərəfəsi Azərbaycan vətəndaşlıq poeziyasının möhtəşəm proloqu idi. Bu, xalqın milli azadlıq təşnəsi haqqında istedadla və cəsarətlə yazılmış kəskin poetik nümunədir". Bəli, daha çox "Salam dar ağacı" şeiri ilə könülləri fəth edən milli düşüncə şairi Rüstəm Behrudi zaman-zaman həm publisistikası, həm də Dədə Qorqudun ruhunu daşıyan söz-sovu ilə qırx ilə yaxındır, yorulmadan söz dağına külüng çalır. Yeri gələndə sözü ən mahir dəri ustası kimi aşılıyır, ən mahir dəmirçi kimi döyüb-döyüb parıldadır, yeri də gələndə dağ çayında qumdan qızıl alırmış kimi ələyib-ələyib altunu tapır.

Bu günlərdə şairin altmış illiyidir. Neçə illərdir, şeiri ilə, özü ilə yaxından tanış olsam da, nəsə

yazmağa cəhd eləməmişəm. Çünki söz deyənin kim olduğunu dəqiq bilmədən, onu tanımadan sözünü də sevə bilmirəm. Nadan da, arif də eyni sözü deyə bilər, amma niyyətləri fərqli olar. "Arifin sözü özü qədər arif olar", – deyirlər. Bu baxımdan Rüstəm bəylə yaxından və dərindən tanış olmağa ehtiyac vardı. Və tez-tez oxucularından: "Niyə Rüstəm Behrudinin şeirləri satışda yoxdur?" – sualına cavab olaraq altmış illik yubileyi üçün şeirlər kitabının çap olunması zərurətini bildirdim və işə başladıq. Bunun üçün də ara-sıra görüşür, kitabdan başqa hər şeydən danışırdıq. Və uzun danışıqlardan sonra Rüstəm Behrudinin şeirlər kitabının çapına nail oldum. Kitabı çapa hazırlayanda tez-tez görüşməli olur, milli narahatlığımızı bölüşürdük. Bu, şairi tanımağa mənə çox kömək etdi. Şeirlərindən və şəxsindən yaranmış təəssüratlarımı kağızla bölüşməyə də imkan yaratdı.

Bir gün Məmməd Arazdan soruşurlar ki, Rüstəm Behrudi sizin üçün kimdir? Cavab belə olur: "Vətən, vətən, vətən!" Mənə görə isə: "Vətən, vətən, vətən!" yox (bizim indi başa düşdüyümüz anlamda), "Millət, millət, millət!" olmalıdır. Baxın bəri başdan deyim, söz həm də sirdir, bilirsiniz. Müəlliflər sözdə ariflər üçün sirr gizlədir. Ona görə də mənim "Millət adam" ifadəmi pafos kimi qəbul edib əsəbiləşməyin. Bir insana "millət" demək onu çox böyük şəkildə şişirmək demək deyil, mənə görə. Ona: "Zərrəsinə qədər sahib olduğu millətin özüsən, millət də sənsən!" – deməkdir. Rüstəm Behrudi də zər-

rəsinə qədər bu millətin özüdür. Fars əxlaqından kirlənməmiş, ərəb təfəkkürü ilə zəhərlənməmiş, rus siyasətinə yuvarlanmamış türk. O türk ki hələ o zamanlar başıqapazlı olmağa öyrəşməmiş, gözüqıpıq qorxaq insan roluna girməmişdi. "Desəm, öldürərlər, deməsəm, ölləm", – tipli ikili yola düşünmədən, daşınmadan üçüncü yolu tapıb, deyib və yaşamağı bacaran türk!

Özbəöz türk... Çılğınlığı ilə, etirazçılığı ilə, səbirsizliyi ilə, cəhənnəmə laqeyd münasibəti ilə, "mən"i-ni Tanrı ilə müqayisə edə biləcək qədər cəsarətə sahib olması ilə, qadına, kişiyə olan münasibəti ilə, özünü sevməsi ilə, özgüvəni ilə millətimin özüdür ki, var. Bu gün Rüstəm Behrudini yaxından tanıyanlar bilirlər ki, o, söhbət edəndə elə bil Behrud kəndindən bir addım da kənara çıxmayıb. Hərdən: "Şəmil, hın-n-n", – dediyi anda ağlıma gələn ilk fikir "Behrud kəndindən bir addım da kənara çıxmaması"dır, amma "hın-n!" nidasından sonra:

*Tanrıdan gələn bir səsəm,*
*Gəldim rüzgarlartək əsəm.*
*Öləcəksiz, mən ölməsəm,*
*Öldürün məni, öldürün!*

– sətirlərini eşidəndə fikrim alt-üst olur. Düşünürəm ki, insanlar sadəcə yeri gəzib-dolaşa, bəxti gətirənlər isə qalaktikamızdakı başqa planetini görə bilər, amma öz kəndindən kənara çıxmamış kimi sadə görünən bu insan Tanrını görüb gəldiyinə

iddialıdır. Behrud kəndində olmamışam, elə bilirəm, uca dağların görünməz bir yerində gizlənib. Necə ki bir zamanlar türklər Ərgənəkondan çıxıb dünyaya yeni sistem gətirməyə nail oldu, sanki Rüstəm Behrudinin də kəndi min illərdir, tarixin heç bir iyrəncliyini, fırtınasını görmədən öz ruhunda Tanrının insana verdiyi genetikası ilə (o heç bir eroziyaya uğramayıb) yaşayan obadır.

Digər tərəfdən, Rüstəm Behrudinin misralarının arealı sərhədləri bəlli olan torpaq parçasından daha böyükdür. "Vətən" deyiləndə torpaq nəzərdə tutulursa, "millət" deyiləndə insan nəzərdə tutulur. Vətən sadəcə yer kürəsi ola bilər ən böyük anlamda. İnsan isə yeri, göyü, xeyri, şəri, Allahı, iblisi özündə birləşdirən mükəmməl ifadədir. Allahda təkcə tanrılıq, iblisdə də iblislik varsa, insanda bunların ikisi də var.

*Daha qulam büsbütün*
*İçimdəki sevdama,*
*Mən sevda yolçusuyam,*
*Mənimki məndən keçib.*
*Mən sənin olmamışam,*
*Vətən, heç vaxt, sən demə,*
*Sənə dəyən zərbələr*
*Adlayıb məndən keçib.*

Rüstəm Behrudinin insan sevdası öz millətinə olan sevgi ilə tərənnüm olunur. Turan, türk milləti sevdasını bu cür izah edir əziz dostum: "Sibirdə

ovçu bir yakutla ucsuz-bucaqsız çöldə heyvan bəsləyən bir qazax, Urumçi yaxınlığındakı kənddə bir əkinçi ilə istanbullu bir tüccar, bir hun savaşçısı ilə VIII əsrdə Monqolustandakı bir karvançı, XV əsrdə Azərbaycanda olan bir sufi, hürifi ilə XVI əsrdə Avropada savaşan bir osmanlı paşası, çağdaş altaylardakı bir şamanla kommunist şair Nazim Hikmət arasındakı bağın adı nədir, görəsən? İki min ildən çox zaman içində qopub tükənməyən bu bağın şaman dualarına bürüdüyüm bircə adı var – Turan".

Çox qəribədir, Rüstəm Behrudini Qazi Bürhanəddinə bənzədirəm. "Yataqda ölən erkək deyil", – deyən şair adamlarla savaşıb yorulanda sözlərə qılınc çəkir, onlarla döyüşür. Sabir Rüstəmxanlı şair haqqında haqlı olaraq deyir: "Sən şeirə döyüş kimi baxmısan, evdarlıq kimi yox!"

Rüstəm Behrudinin ruhundakı döyüşkənlik Qazidən Nəsimiyə keçən döyüşkənlikdir ki, Xətai ikisini də paralel aparmağı bacarmışdı bir müddət. Rüstəm Behrudinin misraları isə can almasa da, bəzən elə ağır yara vurur ki, qılıncla söz yarasının birgə endirdiyi zərbənin ağrısını verir:

*Allah, dahimi də yad qadın doğub,*
*Müqəddəs dilimin ruhun qırıbdı.*

* * *

*Bu nə cür məmləkətdi,*
*Bəndəsi haqq istəmir.*
*Torpaq da bizdən bezib,*
*Vətən olmaq istəmir.*

Əziz müəllimim akademik Tofiq Hacıyevin bu mövzudakı fikri daha maraqlıdır: "R.Behrudinin şair səsində, poeziya nəfəsində bu günümüz üçün çox gərəkli olan iki aydın çalar var; bu iki çalar – türklük və nəsimiçilik – oxucunun duyğularını, zehnini iki qol kimi qucaqlayır".

Məqaləni yazanda düşünürdüm ki, Rüstəm Behrudi haqqında qələmə alınan və yaxud "Rüstəm Behrudinin özü haqqında bilmədikləri" kitabının sonunda verim, adını da "Son söz" qoyum, amma həm şeirlər kitabını, həm də haqqında yazılanları oxuduqca fikrimdən daşındım. Akademiklər İsa Həbibbəyli, Tofiq Hacıyev və Nizami Cəfərovun, professor Mirəli Seyidovun, xalq şairləri Xəlil Rza Ulutürk və Sabir Rüstəmxanlının fikirlərini yekunlaşdırma məsuliyyəti çox ağır gəldi. Üstəlik də, bu məqalənin sonluğu... Ona görə məqaləni ulu şair Xəlil Rzanın təvazökarlıqla dilə gətirdiyi beytlə bitirmək qərarına gəldim:

*Oxudum kitabını, hər misran qana batmış inci, dürr.*
*Bir söz çıxdı dilimdən: "Rüstəm məndən güclüdür".*

# SERTİFİKASİYAMI, PEDAQOJİ KADRLARIN PERFORMANS DƏYƏRLƏNDİRİLMƏSİMİ?

Hər müəssisə, yaxud təşkilat işçilərin peşəkarlıq səviyyəsinin müasir dövrün tələbləri ilə uyğunlaşmasının təminatı üçün müxtəlif təlim-treninqlər, görüşlər, konfranslar, peşə turları həyata keçirir. Görülən tədbirlərin effektivliyini yoxlamaq üçün kadrların bilik və bacarıqlarının ölçülməsi məqsədilə imtahanlar təşkil edir. Texnologiyalar əsrində hər bir qurum mütəxəssislərinin peşəkarlıq səviyyəsinin müasir tələblərə cavab verməsinin təmini üçün bu prosesin təşkilinə səy göstərir.

Cəmiyyətin aparıcı sahəsi olan təhsil sistemi və onun kadrları inkişafın barometri sayıla bilər. Təhsil sistemindəkilərin peşəkarlıq səviyyəsi digər sahə mütəxəssislərinin də analoji səviyyəsinin təminatçısıdır. Bu baxımdan onların peşəkarlıq səviyyəsi daim nəzarətdə saxlanılmalı, elmi-metodiki

bacarıqlarının zamanla uyğunlaşdırılması təmin edilməli və bu bacarıqlar müntəzəm ölçülməlidir. Pedaqoji prosesə "çörək ağacı" kimi yanlış yanaşmadan uzaqlaşmaq təkcə müasir dövrün deyil, bütün tarixin tələbidir. İşin ciddiyyətini əsaslandırmaq üçün xeyli arqument gətirməyə ehtiyac yoxdur. Ömürboyu təhsil pedaqoji kadrların hər gün baş verən yeniliklərlə tanışlığını təmin edir.

Bu təminatın səviyyəsi isə müxtəlif üsullarla ölçülə bilər. Bu barədə bir az sonra qeydlərimiz olacaq, indi isə təhsilimizin bu günü və gəldiyimiz yol barədə söz açaq.

Azərbaycan müstəqillik qazandığı ilk dövrlərdə təhsil sistemində əsaslı dəyişiklik üçün onun əsasını təşkil edən yeni Təhsil Qanunu qəbul olundu, ali məktəblərə qəbul sistemində inqilabi dəyişiklik aparıldı.

Sonrakı dövrlərdə də müəyyən islahatlar keçirilir, lakin bu islahatlarda sistemsizlik özünü göstərirdi. Təhsilin müxtəlif səviyyələri – orta təhsillə ali təhsil arasında eyni zamanda islahat aparılmaması bir çox hallarda uyğunsuzluq yaradırdı.

Son dövrlərdə aparılan islahatlar bir çox hallarda tənqidlə qarşılansa da, prosesə ümidlə baxıram. Bu ümid prosesin davamlı və sistemli keçəcəyinə ümidlə şərtlənir. Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanları, məktəb idarəetməsinin əsas simaları olan direktor və müavinlərinin müsabiqə yolu ilə təyini, təhsilin müxtəlif sahələri üzrə təlim-treninqlərin təşkili, müxtəlif mövzularda aparılan müzakirələr,

Elm və Təhsil Nazirliyi rəhbərliyinin cəmiyyətə açıq olması, təhsil idarələrinin struktur dəyişikliyi də bu ümidi artırır.

MİQ imtahanlarının keçirilməsi təhsilverənlərin keyfiyyətinin müəyyənləşdirilməsinə xidmət edirdisə, sertifikasiya imtahanları – bu istiqamətdə artıq ilk addımlar atılır – təhsilverənlərin peşəkarlıq səviyyəsinin inkişaf dinamikasını izləməyə xidmət göstərəcək. İlkin məlumatlara görə sertifikasiyanın test mərhələsində təhsilverənlərə təqdim olunan iki istiqamətdə suallar onların ixtisas bilikləri ilə yanaşı müasir təlim metodları, üsulları, fəal-interaktiv təlim texnologiyaları, interaktiv dərsin mərhələləri, ona qoyulan tələblər, kurikulumun mahiyyəti, məzmunu, innovativ pedaqoji fəaliyyətin xüsusiyyətləri mövzularını və s. əhatə edir.

İmtahanın ilkin mərhələsində aparılan müşahidələrdən çıxan nəticə belədir ki, imtahanqabağı aparılan qaralama kampaniyası iflasa məhkumdur.

İmtahandan yüksək bal toplayanların özünəinamı, digərlərinin də hazırlaşma mərhələsində əldə etdikləri bilik və bacarıqlardan yaranan öyrənmə həvəsi əsassız giley-güzarı kölgədə qoyacaq. Digər tərəfdən, öz bacarığına inanan müəllim daim üzərində işləməklə inkişafını, əməyinin daha yüksək əməkhaqqı ilə dəyərləndirilməsini təmin edəcək. Bu isə müəllimin əməyini stimullaşdırmaqla yanaşı digər təhsilverənlər üçün nümunə olmaqla təhsilin keyfiyyətinin yüksəlməsinə yol açacaq.

Düşünürəm ki, imtahan nəticəsində yaranan müəllim özünəinamı gələcəyin azad və müstəqil müəllimini formalaşdıracaq. Azad düşüncəli müəllimin yetişdirdiyi vətəndaş da azad olacaq.

"Bu baxımdan sertifikasiya imtahanı haqqında qərar hədəfə köklənmiş, uzun proses tələb edən qərardır. Lakin bu imtahan sadəcə biliyin ölçülməsi ilə kifayətlənməli deyil, daha genişmiqyaslı olmalıdır", – düşüncəsindəyəm. Çünki bu günün müəllimi sadəcə biliklə sinifdə lider ola bilməz. Digər tərəfdən, müəllimlik üçün bilikdən daha vacib dəyərlər var: nitq, ünsiyyət bacarığı, davranış, psixoloji vəziyyət, emosional zəka və s.

Bəzən faktoloji biliyi üst səviyyədə olmayan müəllimlər həm sevilir, həm də ciddi hörmət qazanır. Onun digər bacarıqları biliyinin natamamlığını ört-basdır edə bilir. Çünki orta məktəbin vəzifəsi təkcə universitetlərə tələbə yetişdirmək deyil. Bu bütün təhsil sənədlərində ifadə edilir. Bu prosesdə müəllimin dəyərləndirilməsi zamanı sadəcə elmi biliklər yox, digər faktorlar da nəzərə alınmalıdır. Çünki bu gün cəmiyyətə bilikli, eyni zamanda, vicdanlı, ədalətli, mərhəmətli, çevik zəkalı, tərbiyəli insanların qazandırılması daha vacibdir. Buna görə də sertifikasiya imtahanlarının keçirilməsi üçün uzun müddətdir, üzərində işlədiyim və "Hədəf Konsepti"-nin tərkib hissəsi kimi artıq sınaqdan çıxardığımız sistemi təklif edirəm. Bu sistemin adını Pedaqoji Kadrların Performans Dəyərləndirilməsi (PKPD) qoymuşuq. Bu sistemdən düzgün istifadə edilsə, bir

müəllimi kompleks şəkildə dəyərləndirmək və ona haqqı olanı vermək imkanımız yaranar.

Pedaqoji heyətin dəyərləndirilməsi aşağıdakı meyarlar üzrə ümumi 100 ballıq şkala ilə qiymətləndirilir. Bura aiddir:

pedaqoji işçinin:

- balabilgə dəyərləndirilməsi – 30 bal
- özünüqiymətləndirməsi – 10 bal
- rəhbərlik qiymətləndirməsi – 10 bal
- müəllimin peşəkar inkişaf portfeli – 50 bal

1. Şagird dəyərləndirilməsi – 30 bal

1.1. Şagirdin fənni mənimsəməsi – 15 bal

İllik orta qiymətlərə əsasən şagirdlərin biliyinin mənimsəmə faizi əsas götürülür. Belə ki, bir müəllimin iki sinfi, hərəsində də on beş şagirdi varsa, sinfin fənn üzrə orta balı 15 bala nisbətdə müəyyənləşdirilir. Məsələn, sinfin orta mənimsəmə balı 100 ballıq şkalada 50-dirsə, deməli, müəllimə bu parametr üzrə 7,5 bal yazılacaq.

Burada müəllimin öyrətmə bacarıqlarını, işinə olan məsuliyyətini dəyərləndirək.

| s/s | Ad, soyad, ata adı | BİQ (İxtisas üzrə nəticə) |
|---|---|---|
| 1 | Məhərrəmli Zamin | 100 bal |
| 2 | Əsgərli Ayişə | 50 bal |
| 3 | Məmmədli Nuridə | 100 bal |
| 4 | Məmmədli Selcan | 50 bal |
| 5 | İsmayıllı Aybikə | 100 bal |
| | Ortalama | 80 bal |

$$X = \frac{S_1 + S_2 + S_3 + S_4 + S_5 + S.......S(N)}{S(n)}$$

15 --------- 100

Y ---------80

$$X = \frac{S_1 + S_2 + S_3 + S_4 + S_5}{5} = \frac{100 + 50 + 100 + 50 + 100}{5}$$

$$X = 80 \text{ bal} \qquad Y = \frac{15 * 80}{100} = 12 \text{ bal}$$

1.2. Şagird sorğusuna əsasən – 15 bal

Birinci yarımilin sonunda şagirdlərlə onlayn anonim sorğu keçirilir; onlar müəllimləri 100 ballıq şkala ilə qiymətləndirir, buradan çıxan orta nəticə 15 bala nisbətdə müəyyənləşir. Bu bizə imkan verir ki, müəllimin şagirdlərə münasibətini, davranışını, sevgi ilə yanaşmasını ölçək.

| s/s | Meyarlar | 100 bal üzərindən |
|---|---|---|
| 1 | Savadlılığı | 10 bal |
| 2 | Yumor hissi | 40 bal |
| 3 | Sinfi idarəetməsi | 70 bal |
| 4 | İnkişafıma təsiri | 50 bal |
| | Ortalama | 28 bal |

$$X = \frac{S_1 + S_2 + S_3 + S_4}{4} = \frac{10 + 40 + 70 + 50}{4}$$

X = 28 bal

15 --------- 100

Y ---------28

$$Y = \frac{28 * 15}{100} = 4,2 \text{ bal}$$

2. İşçinin özünü qiymətləndirmə bacarığı – 10 bal

Hər bir təhsilverən özünü qiymətləndirməyi bacarmalı, özünə hesabat verməlidir.

Özünü düzgün qiymətləndirməyi bacaranlar heç vaxt ədalətsiz ola bilməz.

Bu qiymətləndirmə ilə müəllimi özünü ölçməyə, özünə kənardan baxmağa sövq edirik. Bu zaman o öz problemlərini anlayıb üzərində işləməyə məcbur olur. Özünüdərk təhsilin əsas təməllərindəndir.

Meyarlar:

2.1. Nizam-intizam qaydalarına riayətetmə bacarığı

2.2. Komanda ilə iş bacarığı

2.3. Şagirdlə ünsiyyət bacarığı

2.4. Fərdi inkişaf bacarığı

3. Rəhbərlik tərəfindən (Direktor, tədris işləri üzrə direktor müavini, tərbiyə işləri üzrə direktor müavini, kafedra müdiri və b.) müəllimin qiymətləndirilməsi – 10 bal

Meyarlar:

3.1. Nizam-intizam qaydalarına riayətetmə bacarığı

3.2. Komanda ilə iş bacarığı

3.3. Şagirdlə ünsiyyət bacarığı

3.4. Fərdi inkişaf bacarığı

Bu qiymətləndirmə ilə müəllimin kollektivçilik, ünsiyyət, komanda bacarıqlarını ölçmüş oluruq. Məktəb bir cəmiyyətdir. Müəllimin həmkarları ilə münasibətinin yaxşı olması, valideynlərlə ünsiyyət bacarığı, məktəbin ictimai həyatındakı aktivliyi onun əsas dəyərlərindəndir. Bir insan nə qədər yaxşı mütəxəssis olur olsun, komanda ilə işləmə bacarığı yoxdursa, deməli, görülən işin keyfiyyəti də yüksək ola bilməz.

4. Akkreditasiya – 50 bal

4.1. Attestasiya imtahanı – 30 bal

Burada il sonunda müəllimin ixtisas biliyi ölçülür. Bu bizə imkan verir ki, müəllim həmişə öz ixtisasını oxumaq və özünü inkişaf etdirmək qabiliyyətinə malik olsun: daim öyrənən, yeniliyə açıq, tələblərə cavab verən.

Digər məsələ ixtisas biliyi ilə yanaşı öncədən müəyyən olunmuş pedaqoji vəsaitlər tövsiyə etməklə həmin vəsaitlərdən də suallar salırıq. Beləcə, müəllimi özünüinkişafa sövq edir, onu təkmilləşdiririk.

4.2. Portfel – 20 bal

4.2.1. Təhsil pilləsi üzrə qiymətləndirmə (maks. 3 bal)

4.2.2. İşə davamiyyəti (HR) (maks. 5 bal)

4.2.3. Beynəlxalq və ölkədaxili təlimlərdən sertifikatı, elmi-metodiki nəşrlərdə məqalə müəllifliyi, təlimlərdə və konfranslarda çıxışı (maks. 4 bal)

4.2.4. Olimpiada və digər fənn müsabiqələrində şagirdlərinin nəticəsi (maks. 4 bal)

4.2.5. Məktəbdə təşkil etdiyi tədbir, həyata keçirdiyi layihələr, dövlət və digər təşkilatlarda həyata keçirdiyi, yaxud iştirak etdiyi qrant layihələr (maks. 4 bal)

Portfel məktəbin direktoru və kadrlar şöbəsi tərəfindən müəllimin illik fəaliyyəti əsasında yaradılır. Bu zaman müəllimin nizam-intizamı, pedaqoji bacarıqları, elmi-metodiki fəaliyyəti, təşkilati işləri və s. ölçür, onu düzgün qiymətləndiririk.

PKPD hesablanma nümunə cədvəli:

| Ad və soyad | Vəzifə | Balabilgə dəyərləndirilməsi | | Özünü dəyərləndirmə | Rəhbərliyin dəyərləndirilməsi | Akreditasiya | | Nəticə |
|---|---|---|---|---|---|---|---|---|
| | | BFM | BSN | | | İmtahan | Portfolio | |
| **Ayxan Turan** | Azərbaycan dili müəllimi | 10 | 11 | 7 | 6 | 25 | 8 | 67 |
| **Elçin Həsənli** | Biologiya müəllimi | 15 | 15 | 10 | 10 | 30 | 10 | 90 |

Attestasiya komissiyası pedaqoji işçinin attestasiyasının nəticəsi kimi aşağıdakı qərarı verir:

- tutduğu vəzifəyə uyğundur: 30 – 100 bal;
- tutduğu vəzifəyə uyğun deyil: 0 – 29 bal.

Gördüyünüz kimi 4 əsas istiqamətdə aparılan qiymətləndirmə müəllimin il ərzindəki fəaliyyətini əhatə etməklə yanaşı həm ixtisas biliyi, həm də fəaliyyətini dəyərləndirir. Bu, imkan verir ki, müəllim ilboyu ayaq üstə, bütün fəaliyyəti yüksək səviyyədə olsun. İl sonu iki-üç aylıq hazırlıq və əzbərçiliklə üstə çıxmasın, bir müəllim olaraq kompleks müəllimlik bacarığı ilə fərqlənsin. Digər tərəfdən də obyektivlik təmin edilsin. Ona həm həmkarları, həm şagirdləri, həm də özü qiymət verir, üstəlik, ixtisas biliklərini müəyyənləşdirmiş olur.

1. Pedaqoji Kadrların Performans Dəyərləndirilməsinin nəticələri yekunlaşandan sonra müəllimlərin topladıqları bala görə yeni tədris ili üçün təhsilverənlərin stimullaşdırıcı prosesi başlayır. Bu zaman ballara əsasən müəllimlər aşağıdakı standartlara görə bölünür:

1.1. Tələblərə tam cavab verən (90 – 100 bal)

Bu vəzifə öhdəlikləri müstəsna qaydada və səmərəli şəkildə icra edilir. Mütəmadi olaraq qarşıya qoyulan tələblər çoxaldılır. Göstərilən təşəbbüskarlıq işin keyfiyyətinin artırılmasına müsbət təsir göstərir. Bu vəzifə funksiyasının icra keyfiyyəti ən yüksək səviyyədədir. Bu vəzifə funksiyasının icrası digər işçilər üçün nümunədir. Bu vəzifə funksiyası üzrə digər işçilərə inzibati, metodiki rəhbərlik edə bilər.

1.2. Tələblərə cavab verən (80 – 89 bal)

Bu vəzifə funksiyası yüksək keyfiyyətlə icra edilməsə də, tələblərə cavab verir. Bir çox halda işin icrasında gözləntilər artırılaraq müəyyənləşdirilmiş tələblərə tam cavab verilir. Vəzifə funksiyalarını icra edərkən zəruri bilik və bacarıqlar nümayiş olunur.

1.3. Tələblərə, əsasən, cavab verən (60 – 79)

Bu vəzifə funksiyası tələb edilən səviyyədə icra olunur. İnkişafı vəzifə funksiyalarının icrasının səmərəliliyini daha da artıra bilər. Bilik və bacarıqları vəzifə funksiyalarının icrası üçün kifayətdir.

1.4. İnkişaf etdirilməsi zəruri olan (50 – 59)

Müəyyən hallarda bu vəzifə funksiyasının tələblərə uyğun şəkildə icrasında çətinlik yaranır. İşin tələblərə uyğun icrası üçün inkişafa ehtiyac var. Bu vəzifə funksiyasının icrası üçün bilik və bacarıqları zəruri səviyyədən aşağıdır. Əhəmiyyətli dərəcədə inkişafa ehtiyac var, növbəti ildə fəaliyyət tam nəzarətə götürülməklə şans vermək olar.

1.5. İnkişafı aşağı olan (30 – 49)

Bir çox hallarda bu vəzifə funksiyasının icrası mümkün olmur, yaxud bu vəzifə funksiyasının icrası gözlənilən tələblərdən çox aşağı keyfiyyətdə alınır. Bu vəzifə funksiyasının tələblərə uyğun şəkildə icrası üçün lazımi bilik və bacarıqları yoxdur. Əhəmiyyətli dərəcədə inkişafa ehtiyac var. Növəbəti ildə yalnız şərtli müqavilə ilə əməkdaşlıq etmək olar.

1.6. İnkişafı çox aşağı olan (0 – 29)

Tələbləri qətiyyən ödəmir. Dəfələrlə istiqamətləndirilsə də, nəticə çıxarmır. Bilik və bacarıqları

bu funksiyanın icrası üçün həddən artıq aşağıdır. Pedaqoji vəzifəyə yararlı deyil, yeni tədris ilindən müqaviləsi ləğv oluna, yaxud təcrübəçi kimi fəaliyyətinə davam edə bilər.

Sözsüz ki, bu, layihənin ilkin fomrası, yaxud bir hissəsidir. Üzərində işləyib müfəssəl formaya salmaq mümkündür. Xüsusi komissiya yaradıb bu prosesə indidən start versək, həyata keçməsi ən azı üç il çəkər. Onun üçün də vaxt itirmədən başlayıb təhsilimizin inkişafına dəstək göstərək. Təhsil mütəxəssisi kimi Elm və Təhsil Nazirliyi ilə bu mövzuda əməkdaşlıq çərçivəsində bütün gücümü sərf etməyə hazıram.

# SERTİFİKASİYA SUALLARI STANDARTLARA UYĞUN DEYİL VƏ YA ONLAR MÜƏLLİMLİYƏ NECƏ QƏBUL OLUNUBLAR?

Yenə sertifikasiya, yenə söz-söhbət, yenə müəllimlərin rəğbətini qazanmaq üçün populist fikirlər...

Yazının başlığına çıxardığım sualı uzun illər təhsil naziri işləmiş hörmətli Misir Mərdanov verib. Açığı, hazırda bu sual hamını düşündürür. Bu müəllimləri işə kim, niyə və necə qəbul edib? Gəlin kimin necə və niyə qəbul etməsini bir kənara qoyaq, amma bu müəllimlər on-on beş ildir, necə işləyiblər, nə tədris ediblər? Niyə öz üzərlərində işləməyiblər, keçən dəfə sertifikasiya imtahanından kəsiləndən sonra niyə normal şəkildə hazırlaşmayıblar?

"Elm və Təhsil Nazirliyinin yaydığı məlumata görə, iyunun 8-də keçirilən təhsilverənlər üçün təkrar sertifikatlaşdırma imtahanında iştirak edən 7296 müəllimdən 3909-u test imtahanı mərhələsinin müvafiq keçid balını toplamayıb. Qeyd olunub

ki, onlardan 3424 nəfəri ibtidai sinif, 485-i isə Azərbaycan dili və ədəbiyyat müəllimi olub".

Nəzər alaq ki, bu müəllimlərə bir il güzəşt verilmişdi, çünki keçən il keçid balını keçməmişdilər.

Hörmətli Misir müəllimin sualına cavabla başlayaq. Bəli, yəqin ki, bu nəticə göstərənlərin əksəriyyəti məhz Misir müəllimin nazir olduğu dövrdə universiteti bitirib diplom alan və işə düzələnlərdir. Məhz o adamlardır ki, əri, qayınatası, atası tərəfindən müxtəlif yollarla məktəbə baş qatmaq, evdə qalıb darıxmamaq üçün işə düzəldilib. Düzdür, məhz o dövrdə hərə bir yolla işə düzəlirdi, istedadlılar da, istedadsızlar da. O istedadlılar öz üzərlərində işlədilər, inkişaf etdilər, digərləri isə, elə doğrudan da, baş qatdılar, vaxt keçirdilər. Bunların birbaşa günahkarı keçmiş nazirdirmi, əlbəttə, yox. Amma və lakin dolayısı ilə, yaxud birbaşa səbəbkarlardan idi və bu, danılmazdır. Məsələn, mən də Misir müəllimin dövründə universitet bitirən, məhz onun dövründə də işə düzələn müəllimlərdən idim. Mənə görə, uğurlu müəlliməm. Onda bunun da səbəbkarı Misir müəllimdir? Əlbəttə, yenə yox. Onu da nəzərə alaq ki, o dövrlər işə qəbulu nazirlik yox, yerli qurumlar, maarif müdirləri, məktəb direktorları icra edirdilər.

Amma bu gün yaşadığımız problemin səbəbi təhsilimizin sistemsiz və hədəfsiz olmasıdır. "Karvan yolda düzələr", – deyib baş alıb gedən təhsil sistemi. Məktəbi laboratoriyalara çevirən sistem. Bir türk aktyoru demişkən: "Təhsil sisteminin iki

problemi var: "təhsil" və "sistem". İkisi də problem-dir". Dünənki, bugünkü təhsilimiz də, sistemimiz də problemlidir. Müstəqillik qazanandan sonra keçən otuz üç ildə yığılıb qalan problemləri bir gündə həll etmək mümkün deyil. Və bu ağrını, acını yaşamaq məcburiyyətindəyik. Bu vəziyyətin günahkarı isə sözsüz ki, uzun illər əlində imkan olan təhsil idarə edənlərdir. Niyə universitetlərimiz bu gündədir, niyə universitetləri o cür savadla bitirə biliblər, niyə o cür vəziyyətdə işə götürülüblər, niyə indiyə qədər də işləyiblər? Cəmiyyətin hər dəfə narazı olduğu təhsilin problemləri təməlindən başlamayıbmı? Əlbəttə, bu gün yaranan mənzərədə suallar yaranacaq: kimdir müqəssir? Bir onu bilirəm ki, mən deyiləm.

Düzdür, 3909 nəfərin bu ağır zamanda işsiz qalması insan olaraq adamı ağrıdır. Heç bir halda ürəkaçan mənzərə deyil. Amma 3909 nəfər müəllimi ən az iyirmi şagirdə vursaq, 78180 edir; bu da gələcəyin 78000 ailəsinin savadsız olması deməkdir. Düşünürəm ki, bir təhsil mütəxəssisi olaraq bu prosesdə nazirliyin bu addımını sadəcə dəstəkləmək və çıxış yolları göstərmək lazımdır. Çünki yaranı daşımaq olmaz, ya sağaldacaqsan, sağalda bilmirsənsə də, kəsib atacaqsan. Bu fikrim də ağırdır, bilirəm, amma məcaz kimi başa düşək.

Suallar necə imiş, imtahan hansı şəraitdə aparılıb, kim edib o imtahanı?

Suallara baxdım, bununla bağlı fikrimi aşağıda qeyd edəcəyəm. Bir neçə dəfə də sertifikasiya imtahanlarına müşahidəçi kimi dəvət olunmuşam.

Şəraitdə hansısa problem olduğunu görmürəm. Amma kimin o imtahanı etməsi, sualları hansı prinsiplərə əsasən hazırlaması məni də maraqlandırır. Gələk sualın birinci hissəsinə. Mətnə yerləşdirəcəyim bir sualla, linkdən isə bütün suallarla tanış ola bilərsiniz. Mənə görə, o suallara cavab verməyən müəllimi heç bir halda müəllim kimi məktəbə buraxmaq olmaz. Çünki sualların hamısının cavabı 3 – 4-cü sinif dərsliklərində var; orta və asan səviyyəlidir. Halbuki müəllimə bu cür sual verməzlər. O, universitet bitirmiş mütəxəssisdir, yeddi-səkkiz yaşlı uşaq yox. Ortabab bir sinfə bu sualları yazdırmaqla durumun nə qədər faciəvi olduğunu görmüş olarıq. Düzdür, tez-tez qınaq obyektinə çevrilən müəllim bu sualların paylaşılmasını, təbliğ edilməsini özünə sığışdırmır, çünki "Niyə həmişə biz?" sualı onu narahat edir. "Məgər cəmiyyətin başqa problemi yoxdur ki, hər dəfə müəllim şişə taxılıb qızardılır?" – deyə etiraz edir. Bəlkə də, haqlıdır. Amma Elm və Təhsil Nazirliyi də haqlıdır ki, suallara baxmayan və sadəcə populist çıxışlarla haqsız tənqid edildiyini gördüyü üçün sualları cəmiyyətə açıqlayıb; hətta statistikası ilə birgə. Məncə, bunda da problem yoxdur, bir növ, şəffaflıqdır və təşəkkür düşür.

İbtidai sinif Azərbaycan dili fənnindən bir sualı sizinlə bölüşürəm:

1. Hansı sözdə incə sait uzun tələffüz olunur?

Yanlış cavablandırma və ya boş qoyma: 51 % – 1868 nəfər

A) məktəbli
B) gündəlik
C) maraqlı
D) xüsusi
E) ecazkar

Bu sualdan da görünür ki, imtahan verənlərin əlli bir faizi suala düzgün cavab verməyib. Mən cavabı yazmıram, yazını oxuyanlar tapsın, özü-nü yoxlasın, bu suala cavab verə bilməyən şəxsin müəllim işləməsini isə özü dəyərləndirsin. Sualları bir-bir izah etmək fikrində deyiləm, amma suallar yetərincə sadədir; bunu da neçə illər müəllim işlə-miş şəxsin yaza bilməsi mümkün idi. Azərbaycan dilində vəziyyət belədirsə, siz riyaziyyatın halına düşünün...

Suallarla tanış olmaq istəyənlər üçün linki də paylaşıram:

Ibtidai-sinif-08.06.2024_Azərbaycan_dili.pdf

Amma mən burada sualları hazırlayan qu-rumun və ya şəxslərin işini heç bir halda yüksək qiymətləndirə bilmərəm. Ona görə yox ki, suallar

asandır, ona görə ki suallar heç bir halda günün şərtlərinə cavab vermir və müasir standartlara uyğun deyil. Sualların, demək olar, 99 %-i dil bilgisi, nəzəriyyə üzərində qurulub. Elm və Təhsil Nazirliyinin "Müəllimlərin işə qəbulu müsabiqəsinin qiymətləndirmə çərçivəsi" sənədində qoyduğu tələblər gözlənilməyib. Belə ki, həmin sənəddə qeyd edilir ki, sual bölgüsü aşağıdakı kimi olmalıdır: oxu 8, yazı 2, dil qaydaları 10. Hanı bizim on ildən çox danışdığımız təfəkkür məktəbi, hanı bizim çevik zəkalı uşaqlar yetişdirmək arzumuz, hanı bizim vətəndaş yetişdirmək sevdamız? Sait və samiti, isim və sifəti əzbərləməklə insan yetişdirmək olarmı? Qətiyyən yox. Hanı müəllimlərə verilən təlimlərə uyğun suallar? Bilirəm, kimsə deyəcək ki, tapşırıqlar mətnlər üzərində və ya məntiqi verilsə idi, nəticə daha da bərbad olardı. O işin bu işə heç bir dəxli yoxdur. Axı Azərbaycan dilinin dörd məzmun xətti var: oxuyub-anlama, dinləyib-anlama, yazı qaydaları və dil qaydaları. Bu vacib məzmun xətlərindən ilk ikisi harda qaldı? Niyə onları ölçən suallar tərtib edilməyib?

Bu sualların tərtib edilməsi onu göstərir ki, bu işi həyata keçirən qurum elm və təhsil nazirinin mətbuata etdiyi çıxışları dinləmir, heç fikirləri ilə də tanış deyil. Axı əlimizdə olan dərsliklər və onların metodik vəsaitləri bunu tələb etmir. Biz müəllimə deyirik, sinifdə başqa şey keç, mən sənə başqa suallar verəcəyəm. O zaman müəllim niyə özü hazırlaşdığı istiqamətdə dərs keçməsin ki? Bu suallar sanki

onu ifadə edir ki, biz dilçi yetişdirmək istəyirik, insan yox. Bütün suallar dilçilik üzərində qurulub və ən yaxşı halda müəllimin dil qaydalarını yoxlaya bilər. PISA-da uzun illərdir, sonuncu yerdə olmağımızın səbəbi bu deyilmi? Çox təəssüf ki, dərslik siyasətinə cavab verməyən dil qaydalarına aid suallar üzərində aparılıb sertifikasiya. 25 sualdan cəmi 2-si Elm və Təhsil Nazirliyinin apardığı siyasətə uyğundur. Çıxışlarından birində Emin müəllim demişdi ki, əksəriyyət oxuyub-anlamağı bacarmır. Əmin olun, bu suallara cavab verən müəllimlər də oxuyub-anlama bilməyən əzbərçi nəsil yetişdirəcək.

Kurikulum layihəsi on beş ildir, həyata keçirilir və təfəkküryönümlü məktəbə keçirik deyə-deyə dilimizdə tük bitdi. Təfəkküryönümlü məktəbə keçiddə isə müəllimin də təfəkküryönümlü olması və dərslərə də praktik yanaşması vacib amillərdəndir.

Çox təəssüf edirəm ki, məhz nazirin kütləyə qarşı cəsarətli duruş göstərib nələrisə dəyişmək istəyinə yenə yerlərdəki kadrlar “oxuyub-anlama” bacarığı nümayiş etdirmir.

Belə ki, mənə görə, sertifikasiya təhsilin vazkeçilməzlərindən biridir, hətta olmazsa, olmazıdır. Niyə? Çünki sertifikasiya həm təhsilin keyfiyyətini ölçür, həm müəllimlərin öz üzərində işləməsini təşviq edir, həm də müəllimlərin haqqı olan maaşlara təsir edən məsələlərdəndir. Bu baxımdan, Elm və Təhsil Nazirliyinin neçə illərdir, həyata keçirdiyi sertifikasiya prosesini alqışlayıram. Ona da ümid edirəm ki, yaxın illərdə sertifikasiyada yeni

mərhələyə keçid edəcəyik, müəllimin yalnız bilik yox, pedaqoji, metodoloji və yaradıcı bacarıqlarını, psixoloji durumunu, məktəbdəki performansını da qiymətləndirmənin tərkib hissəsinə daxil edib daha obyektiv dəyərləndirmə aparacağıq.

Sertifikasiya imtahanının ilkin mərhələsində aparılan müşahidələrdən çıxan nəticə belədir ki, imtahanqabağı və sonrası aparılan qaralama kampaniyası iflasa məhkumdur. İmtahandan yüksək bal toplayanların özünəinamı, digərlərinin də hazırlaşma mərhələsində əldə etdikləri bilik və bacarıqlardan yaranan öyrənmə həvəsi əsassız giley-güzarı kölgədə qoyacaq. Digər tərəfdən öz bacarığına inanan müəllim daim öz üzərində işləməklə inkişafını, əməyinin daha yüksək əməkhaqqı ilə dəyərləndirilməsini təmin edəcək. Bu isə müəllimin əməyini stimullaşdırmaqla yanaşı digər təhsilverənlər üçün nümunə olmaqla təhsilin keyfiyyətinin yüksəlməsinə şərait yaradacaq. Düşünürəm ki, imtahan nəticəsində yaranan müəllim özünəgüvəni gələcəyin azad və müstəqil müəllimini formalaşdırır. Azad düşüncəli müəllimin yetişdirdiyi vətəndaş da azad olacaq. Bu baxımdan sertifikasiya imtahanı haqqında qərar hədəfə köklənmiş, uzun proses tələb edən qərardır. Lakin fikirləşirəm ki, bu imtahan sadəcə biliyin ölçülməsi ilə kifayətlənməli deyil, daha genişmiqyaslı olmalıdır. Çünki bu günün müəllimi sadəcə biliklə sinifdə lider ola bilməz. Digər tərəfdən müəllimlik üçün bilikdən daha vacib dəyərlər var: nitq, ünsiyyət bacarığı, davranış, psixoloji durum, emosional zəka və s.

Bəzən faktoloji biliyi üst səviyyədə olmayan müəllimlər olur; həm sevilirlər, həm də ciddi hörmət sahibidirlər. Digər bacarıqları biliklərinin natamamlığını gizləyə bilir. Çünki orta məktəbin vəzifəsi təkcə universitetlərə tələbə yetişdirmək deyil. Bu bütün təhsil sənədlərində ifadə edilir. Ona görə müəllimin dəyərləndirilməsi sadəcə elmi biliklərlə yox, digər sahələrlə də aparılmalıdır. Çünki bu gün cəmiyyətə bilikli, eyni zamanda, vicdanlı, ədalətli, mərhəmətli, çevik zəkalı, tərbiyəli insanların yetişdirilməsi daha vacibdir. Buna görə də sertifikasiya imtahanlarının keçirilməsi üçün uzun müddətdir, üzərində işlədiyim və Hədəf Konseptinin tərkib hissəsi olduğu üçün artıq sınaqdan çıxardığımız sistemi təklif edirəm. Bu sistemin adını PKPD – Pedaqoji Kadrların Performans Dəyərləndirilməsi qoymuşuq. Düzgün işlədilsə, bir müəllimin bütün tərəflərini dəyərləndirmək və haqqı olanı vermək imkanına sahib olarıq.

Pedaqoji heyətin dəyərləndirilməsi aşağıdakı meyarlar üzrə ümumi 100 ballıq şkala ilə qiymətləndirilir. Bura aiddir:

Pedaqoji işçinin:

- balabilgə dəyərləndirilməsi – 30 bal;
- özünüqiymətləndirməsi – 10 bal;
- rəhbərlik qiymətləndirməsi – 10 bal;
- müəllimin peşəkar inkişaf portfoliosu – 50 bal.

Bununla bağlı təklifimlə ətraflı tanış olmaq istəyənlər "Azərbaycan müəllimi" qəzetindəki (https://muallim.edu.az/news.php?id=25898) yazımı oxuya bilərlər.

# REPETİTORLUQ TƏHSİLİMİZİ NİYƏ AĞUŞUNA ALIB?

Hazırda repetitorluq mövzusu təhsilimizdə ən çox müzakirə edilən məsələlərdəndir. Həmişə də sual o qədər sərt qoyulur ki, hansısa həllə nail olmaq mümkün olmur. Əslində, repetitorluq deyəndə cəmiyyətdə ən çox 9, 10, 11-ci siniflərin universitetlərə məktəbdənkənar hazırlıq prosesi assosiasiya olunur.

Etiraf edək ki, cəmiyyət bunu normal qəbul edib, uyğunlaşıb, belə də olmalı imiş kimi düşünür. Lakin məktəbdənkənar dərslərin nəinki 9, 10, 11-ci siniflərdə, hətta məktəbəqədər hazırlığa qədər enməsi cəmiyyətimizdə məktəbdənkənar repetitor məktəblərinin ciddi şəkildə fəaliyyət göstərməsinə gətirib çıxarır. Repetitorlara böyük hörmət, təşəkkür borcu hiss edən cəmiyyətimiz çox maraqlıdır ki, repetitorluğu təhsilin üz qarası da adlandırır. Yəni məhz repetitorluq məktəblərimizin səviyyəsinin ən aşağı olduğunu göstərir, amma sağ olsun repetitorlar, onlar olmasalar, təhsilimiz məhv olardı, on-

ların sayəsində bu gün uşaqlar universitetlərə qəbul edilir kimi fikirlər də deyir. Bu mövzuda çox yazmaq olar, amma düşünürəm ki, repetitorluğun yaranma və genişlənmə səbəblərini, həmçinin qarşısının qismən də olsa, necə alınmalı olduğundan yazım.

Repetitorluğun yaranma səbəbləri:

1. Test tipli tapşırıqlarla ölçmə-dəyərləndirmə mexanizmi qurulandan sonra abituriyentlər xüsusi hazırlıqlara yön aldı, yəni 1992-ci ildən. Niyəsi odur ki, təhsilin məzmunu, dərsliklər, tapşırıqlar, tamam başqa formatda, sonda yoxlama başqa formatda oldu. Yəni sovet dövrünün təfəkkür məktəbini oxuyan şagirdlər birdən-birə yaddaş məktəbinin tələbləri ilə imtahan edildilər. Məktəbdə keçirilən dərslər və öyrədilən metodlarla qəbul imtahanına düşən sual formatları fərqli oldu; bütün müəllimlər bu prosesə ayaq uydura bilmədi. Məsələn, mən 1994-cü ildə universitetə hazırlaşırdım; tanıdığım xeyli yaxşı müəllim yeni sistemi bəyənmir, qəbul etmir, bunun bir gün dəyişəcəyini deyir və bu tip testlərlə məşğul olmurdu. Yenə öz dərslərini klassik metodla keçirdi və şagirdləri universitetdə uğur əldə edə bilmirdilər. Onun üçün də bu tələbə cavab verən xüsusi müəllimlər formalaşmağa başladı. Təəssüf ki, bu proses məktəbdən kənarda gedirdi. Sanki məktəbə heç bir dəxli yox idi. Birinci növbədə, məhz bu amil repetitorluğun təhsilin ayrıca qolu kimi formalaşmasına gətirib çıxardı.

Hə, burada qətiyyən yanlış anlamayın ki, testlə qəbul imtahanının əleyhinəyəm. Çünki çürümüş

sovet qəbul imtahanı ancaq və ancaq bu yolla yenilənə bilərdi; yeniləndi də. Lakin məktəblər və tədris bu yeniliklərdən geri qaldı. Uzun illərdir, ədalətli, şəffaf qəbul sisteminin şahidiyik. Amma müəyyən dərmanlar kimi repetitorluğun bir tərəfdən faydası olsa da, zərərli tərəfləri var.

2. Repetitorluğun inkişaf etməsinin daha bir əsas səbəbi heç zaman qəbul prosesini aparan qurum tərəfindən qəbul edilməyən proqram və test nümunələrinin məktəb proqramından fərqli olması idi. İş o yerə gəlib çatdı ki, testlərin çətinliyindən, yeni tələblərə cavab verməməyindən şikayətlənən müəllim və şagirdləri razı salmaq üçün DİM (ovaxtkı TQDK) test kitabları, hazırlıq vəsaitləri çap etməyə başladı. Biz müəllimlər də dərslikləri kənara qoyub TQDK-nın hazırladığı vəsaitləri oxutmağa, tapşırıq modelləri işlətməyə başladıq. Bu da həqiqətdir ki, TQDK-nın bu cür inkişaf prosesi, yeni modellər təqdim etməsi qarşısında Təhsil Nazirliyi (indiki Elm və Təhsil Nazirliyi – red.) çox geridə qaldı. Yəni dərsliyində bir dənə də olsun, sxem, test nümunəsi görməyən şagird məktəbdə keçdikləri faydasız olduğundan üzünü TQDK-nın işığına tutdu. Bu prosesdə isə bir az gözüaçıq, üzərində işləməyi bacaran müəllimlər önə çıxmağa başladılar; TQDK-nın proqramlarını izlədilər, test nümunələrindən məzmuna qayıtdılar, yeni test texnologiyaları öyrəndilər və qarşılığında ödənişli dərslər verməyə başladılar. Burada əlavə gəlirin daha çox olduğunu görən müəllimlər məktəblərdən uzaqlaşdılar.

3. Üçüncü səbəb isə bir az başqa idi. Bir müddət keçdi, bu dəfə nazirlik yeni sistem – bu gün "kurikulum" adlandırdığımız formanı tətbiq etməyə başladı, kurikuluma görə şagird 11-ci sinifdə bütün fənlərdən buraxılış imtahanı verməli idi. 2006-cı ildən birinci siniflərdə başlanan kurikulumu bir-iki il sonra nazirlik tələm-tələsik bütün məktəblərə tətbiq etdi ki, bütün fənlərdən hamı imtahana girəcək. Düşünün, indiyə qədər sadəcə ixtisas qrupu üzrə imtahana hazırlaşan, digər fənlərin qiyməti də bu fənlərə nisbətən yazılan şagird birdən-birə düşdü yeddi-səkkiz fənnin qaynar qazanına. Qoyma-haqoyma, repetitorluq bir də burada qızışdı, yolunu tapanlar tapdı, tapmayanlar yenə üz tutdular biçarə repetitorların üstünə ki, elə et, heç olmasa, övladım bir-iki sual yazsın. Beləcə, bir partiyada belə qızışdıq repetitorluq hazırlıqlarına. O zaman nazirlik bu addımı atmaqla bir növ TQDK-nın əlindəki təhsil rıçaqını almağa çalışır, özünü sübut etmək istəyirdi. Amma sonda necə oldusa, buraxılış imtahanı da keçdi TQDK-nın balansına.

4. Dördüncü məsələ isə kurikulumdan doğdu. Məktəb əl-ayağa düşdü; testlər, nümunələr, iş dəftərləri və s. çap edildi, şagirdlərə test formaları öyrədildi və beləcə, təhsili idarə edən Təhsil Nazirliyi ilə TQDK bir balaca yaxınlaşdılar. Birdən-birə yeddi yüz bal toplayan şagird sayı pik həddə çatdı, ballar yüksəldi. Məktəb TQDK-nın sirrini çözməyə yaxın idi, əzbərləyib testləri yazmağa nə vardı ki, hələ çıxdaş-filan da olduğu halda. Burada yeddi

yüz bal toplayan şagirdlərin beş-altı illik statistikasına diqqət yetirək:

On beş ildən sonra ilk dəfə 2007-ci ildə qəbul imtahanında üç nəfər şagird maksimum – yeddi yüz bal toplayıb. Gördüyünüz kimi, düz on beş il sonra.

2008-ci ildə altı, 2009-cu ildə iki, 2010-cu ildə yeddi, 2011-ci ildə dörd, 2012-ci ildə beş, 2013-cü ildə altı, 2014-cü ildə doqquz, 2015-ci ildə on beş, 2016-cı ildə on, 2017-ci ildə on beş, 2018-ci ildə iyirmi doqquz abituriyent 700 bal toplaya bilib.

2019-cu ildən sonra isə birdən-birə bu yüksək bal toplayan şagirdlər Qmızı Kitablıq oldu – bu günə qədər bir-iki nəfər... Gördüyünüz kimi, statistika da dediklərimi faktla sübut edir.

Elə yenicə məktəblilər DİM-in qəbul formatını çözür, ona yetişirdilər ki, gözünə döndüyüm qurum yenə öz fərqini qoydu ortaya və bu dəfə də başladı təfəkkür məktəbi formatında nazirliyin təqdim etdiyi kurikulumun tələblərinə cavab verən nümunələr hazırlamağa, mətn, situasiya, açıq, qapalı və s. tipli fərqli testlərlə şagirdləri ölçüb dəyərləndirməyə. Yenə də burada bir zamanlar kurikulumu bəyənməyən repetitorlar fərqləndilər. Biznes belədir, ya yeniliklə ayaqlaşacaqsan, ya da iflas edəcəksən. Repetitor yazıq nə etsin ki, böyük qurum təhlükəni görüb sükanı çevirənəcən vaxt keçəcək, ona görə də qapıdan, pəncərədən düşüb arxasınca gələnləri də daha asan yolla ünvana çatdırır. Məgər müəllimlik də bu deyilmi? DİM-in inkişaf prosesini qətiy-

yən sual altına almaq istəmirəm. Təkcə yeddi yüz bal toplayanların statistikasına baxsaq, aydın olar ki, aşağı bal həddində də keçid balları yüksəlib. Bu bir növ təhsili inkişafa məcbur edən amil olsa da, milli təhsil sistemini ciddi şəkildə sual altına salır. Axı niyə keçid balı 150 olsun, qoy elə 300 olsun, 700 bal toplayanların da sayı çox olsun. Uzaqbaşı beş-on nəfər kasıb balası Prezident təqaüdündən faydalanacaq, məgər təqaüdü elə onlar üçün ayırmayıblar? Qoy Elm və Təhsil Nazirliyi də hesabatlarında desin ki, ölkədə təhsilin səviyyəsi yüksəlib. Bu kimi və niyə narahat edir, iyirmi ildir, çözə bilmirəm. Bu həm də onu göstərir ki, xaricə tələbə axını başlayır, attestatla xarici univerisitetlərə qəbul genişlənir. Bu, ölkədən ciddi maliyyə axını, özəl universitetlərimizin iflasına gətirib çıxarmırmı?

5. Digər səbəbi isə valideynlərimiz yaradır. Universitetə girmək, tələbə olmaq peşə, sənət işindən daha çox dəb işinə çevrilib. Ona görə də hamı övladının universitetə girməsini istəyir. Beləcə, valideynlərin xarakterindən, cibindən asılı olaraq 1-ci sinifdən 11-ci sinifə qədər hazırlıqlara üz tutulur. Sözsüz ki, burada işbazlar da peyda olmamış deyil.

Bir-birinin bəhsinə girən valideynlər, müəllim arayışına çıxdılar, bu məktəbin şagirdləri başqa məktəbin, başqa məktəbin şagirdləri bu məktəbin müəllimlərinin yanına hazırlıqlara gəldilər. Uşaq dedi ki, məktəbdə dərs keçmirlər, valideyn də inandı və çarələr axtarmağa başladı. Quru da yandı

yaşın oduna, dərs keçmək istəyən, keçən müəllimlər də, beləcə, yuxarı siniflərdə dərslərini qura bilmədilər, ağızlarını açan kimi "Müəllim, onsuz da, hazırlıqda keçəcəyik. Müəllim evə tapşırıq çox verib, icazə verin, biz onları işləyək, çatdıraq", – deyə şagirdlərin hayqırtısı başladı. Bəziləri vicdandan, bəziləri isə tənbəllikdən razı oldular. Beləcə, bu gün gəldiyimiz nəticə 10 – 11-ci siniflərdə nazirliyin verdiyi proqram, çap etdiyi vəsaitlər boşuna və lazımsız oldu, uşaqlar hazırlıq yükündən əziyyət çəkdikləri üçün müəyyən yollarla məktəbdən yayınmağa başladılar, bu da məktəb prosesini pozan ən əsas amillərdən birinə çevrildi.

Düzdür, Elm və Təhsil Nazirliyi son bir neçə ildə bu məsələyə xüsusi diqqət ayırır, uşaqların məktəbdən yayınma hallarının qarşısını almağa çalışır. Direktorlar bu mövzuda ciddi tənqid edilir, vəziyyət nəzarətə götürülür. Amma bu, sadəcə, çətin durumda olan günü qurtarmağa çalışmaqdan başqa şey deyil.

6. Ən vacib elmi məsələ isə odur ki, nə şagirdin, nə də müəllimin qəbul imtahanına düşəcək suallara cavab vermək üçün biliyi məktəbdə mənimsəməyə və mənimsətməyə yetir. Çünki hələ də on iki illik təhsil sisteminə keçməmişik, dərsliklərimiz də son sinifə qədər yeni mövzularla zəngindir. Ona görə 11-ci sinifdə oxuyan şagird həm məktəbin həmin günə olan dərsinə hazırlaşmalıdır, həm də 5-ci sinifdən başlanan hazırlıqlara. Müəllim də öz dərsini qoyub keçsə aşağı siniflərə, bu dəfə də proqramdan

geri qalacaq, tədris prosesini pozacaq. Buna görə məktəbdən birbaşa universitetə qəbul imtahanına hazır olmaq mümkündür. Olsun ki bir neçə şagird özü hazırlaşaraq qəbul olur, bu o demək deyil ki, hazırlaşmır. O da hazırlaşır, sadəcə bir az zəkidir və özü hazırlaşır. Yəni beş fəndən (bəzi qruplarda altı) beş sinfi götürsək, iyirmi beş kitab edir, bunun da iyirmi beş test toplusunu götür, cəmi əlli kitab. Əllini də vursaq, heç olmasa, üç yüz səhifəyə, edir on beş min səhifə, yəni şagird yüz iyirmi suala cavab vermək üçün on beş min səhifəlik materialı əzbərləməlidir. Digər tərəfdən hər dəfə fərqli, müasir, tapıntı sual tipləri... Çünki rəqabət var və kim az, yaxud zəif oxusa, aşağı qiymət alacaq. Məhz buna görə şagirdlər belə sürətli, çevik oxuma, anlama, texniki yollarla daha tez öyrədən müəllimlərə ehtiyac duyur və repetitorluq batan şagirdin əlindən yapışıb qalır. Tədris ən yüksək səviyyədə də qurulsa, məktəb bu işin öhdəsindən gələ bilməz.

Əvvəlki hissədə qeyd etdiyimiz kimi, repetitorluğun bu cür vüsət almasının real və qeyri-real səbəbləri var. Bunun aradan qaldırılması üçün ciddi təhsil islahatlarına start verilməli, Elm və Təhsil Nazirliyi ilə DİM ciddi şəkildə birgə işləməyə başlamalı, rəqib yox, eyni qurum kimi fəaliyyət göstərməlidir. Burada daha çox iş Elm və Təhsil Nazirliyinə düşür. Necə ki kütlənin qarşısına sinə gərib açıq və şəffaf işlər görür. Öz iradəsini ortaya qoyur, burada da elə olmalıdır. Bu fikrə gəlməyimin səbəbləri var, aşağıda qeyd edəcəyəm. Çünki sifarişçi Elm və

Təhsil Nazirliyidir, ona görə də tədris prosesini pozacaq addımların atılmasına qəti etiraz etməli, bu prosesi dayandırmalıdır.

Repetitorluğun belə geniş vüsət almaması üçün atılmalı vacib addımlar var. Düzdür, heç bir halda əmin olmaq olmaz ki, bu proses kökündən kəsiləcək, amma ən azından el qınağından qurtulmaq, xalqın istəklərinə qismən də olsa, nail olmaq mümkündür. Tez-tez səsləndirdiyimiz məsələ odur ki, hər ölkədə repetitorluq var və qarşısını süni yolla almaq mümkün deyil. Amma xeyli zərbə vurmaq, zəifltəmək, yavaş-yavaş aradan qaldırmaq olar.

Bunlar hansı addımlardır?

1. Birinci addım kimi fənn kurikulumlarına və onlar əsasında hazırlanan dərsliklərə, dərs saatlarına baxılmalıdır. 10 – 11-ci siniflərdə, sadəcə, universitetə hazırlıq proqramı olsa, dərsliklər 9-cu sinifdə əsas kursu bitirsə, xeyli irəliləyiş olar. Çünki məhz o siniflərdə müəllimlər yeni dərsi yox, DİM qəbul proqramına uyğun aşağı siniflərdən təkrara başlayar, öhdəsinə düşən saatları hazırlığa sərf edərlər.

2. İkinci əsas məsələ odur ki, 10 – 11-ci siniflər lap kursların proqramına oxşar qruplar üzrə müəyyənləşdirilsə, 9-cu sinifdən təmayül siniflərin işini düzgün qura bilsək, 10 – 11-ci sinifdə dərs keçən müəllimlər, direktorlar düzgün dərs bölgüsü aparsa, nəticəsi qəbulda yaxşı olan müəllimlərin maaşı ciddi şəkildə fərqlənsə, məhz dövlətin ayırdığı büdcə ilə repetitorluq sistemini elə məktəbin öz imkanları hesabına həll etmiş olarıq. Çox da çətin proses

deyil, bir müəllimin haqqı olan maaşı qismən təmin etsək, məsələ həllini tapar. Hamımız yaxşı bilirik, yaxşı repetitorlar məktəbdə işləməkdən boyun qaçırır, bir-iki sinfi də ona görə götürür ki, uşaq yığa bilsin. Bunun mətbəxini bilən adam kimi sizi əmin edirəm. Hə, sözsüz ki, ixtisas quruplarına görə dərs saatlarına da baxılmalıdır ki, ən azından bir fənnə dörd-altı saat arasında saat düşsün. Onsuz da, bu gün 9-cu sinifdən başlayaraq heç bir məktəb attestata yazılan qeyri-ixtisas fənn qiymətlərini obyektiv yazmır, uşağın ixtisas qrupunda göstərdiyi performansa görə müəyyənləşdirir. Bir-iki istisna varsa da, bu nümunə aid edilə bilməz. 9-cu sinifdən peşə məktəblərinə göndərilmə bir növ məcburi olmalı, onsuz da, əksər hallarda uşaq sıxlığından əziyyət çəkən məktəblərin işi yüngülləşdirilməlidir.

3. Buraxılış və qəbul imtahanlarının vaxtı ciddi şəkildə müzakirə olunmalı, ən tez iyundan başlanmalıdır. Bildiyimiz kimi, son illər marta qədər gəlib çıxan bu imtahanlar şagirdlərin hazırlıq imkanlarını ciddi şəkildə əlindən alır. Az-az özü, məktəbin köməyi ilə hazırlaşan uşaqlar var idisə, artıq yoxdur, əmin olun. Çünki beş-altı aya on beş min səhifəlik materialı oxuyub əzbərləmək mümkün deyil, xüsusi tipli suallarla məşq etmək şagirdlik deyil, onu çeynəyib şagirdin ağzına qoyacaq müəllimlərə hökmən ehtiyac var. Elə buna görə də şagirdlər və valideynlər narahat olurlar. İmtahanların əvvəldə verilməsi şagirdlərin məhz müəyyən mövzuları oxumamasına gətirib çıxarır, xeyli mövzu qalır.

Məhz buna görə deyirəm ki, imtahanların önə çəkilməsi heç bir halda Elm və Təhsil Nazirliyinin iradəsi ola bilməz!

4. 10 – 11-ci siniflər üzrə hazırlanan dərsliklər DİM-in birbaşa nəzarəti ilə olmalı, məhz proqrama uyğun hazırlanmalıdır ki, şagird dövlətin verdiyi ödənişsiz kitabları qoyub DİM-in, yaxud digər müəlliflərin kitablarına üz tutmasın. Axı bizə nə lazımdır? Azərbaycanlı gəncin hazırlaşıb, yaxşı bal toplayıb, universitetlərə girib savadlı kadr olmasını istəmirik? Əminəm ki, hər iki qurum bunu istəyir, o zaman səmimi olub, eqomuzu kənara qoyub bu prosesi birləşdirməliyik. İstər elm və təhsil naziri, istərsə də DİM sədri həmişə ictimaiyyətə açıq olub, brifinqlər keçirib, suallara cəsarətlə cavab veriblər. Nə olar ki, bir dəfə də ikisi bir yerdə, mütəxəsislərin iştirakı ilə bu mövzunun müzakirəsini təşkil etsinlər. Əminəm ki, daha yaxşı yollar tapılacaq. Kitabları dövlət sifarişi ilə edək əvvəlki kimi, DİM də publik hüquqi şəxs olaraq test toplularını satışa çıxarsın, bundan sadə nə ola bilər ki?! Qəbul proqramı və test modelləri hər iki qurumun birgə imzası ilə hər ilin avqustunda – dərs bölgüsü elan edilən zaman cəmiyyətə təqdim edilsin. Halbuki ən yaxşı halda DİM bunu yanvar ayında elan edir.

5. Son məsələ isə... DİM sual tiplərinə yeni yanaşma sərgiləsin, əzələ nümayişi etdirməklə "təhsilin vəziyyəti ağırdır" prinsipi sərgiləməkdən uzaqlaşsın. Bu nə ölkəmizə, nə də valideynlərimizə stresdən, əsəbdən başqa heç nə vermir. Özəl təhsil

sektorunu hər il baltalayır, bir neçə reytinqli universitetdən başqa qalanlarına 150-200 bal aralığında qəbul gedir. Onlar da özlərini əzilmiş, ən zəif uşaqlara sahib kimi hiss edirlər. Şagirdlərimizin isə burada aldığı travma onlarla gəzir. Gəncliyin ən gözəl anlarında həyatı yarış atı kimi keçirmək sonradan onları məhvə aparır. Artıq çoxdan sınaqdan çıxıb: aşağı bal toplayan uşaqlar sonradan daha uğurlu insanlara çevrilirlər. Maraqlı olardı ki, indiyə qədərki 700 bal toplayan abituriyentlərin harada və necə işləməsi ilə bağlı yaxşı tədqiqat aparılsın və nəticələr ictimaiyyətə açıqlansın. O uşaqlar həmin nəticələri əldə etmək üçün ömürlərini çürüdürlər. Bu milləti sevir və gələcəyini qurmaq istəyiriksə, ona güvən verməli, özünü doğrultması üçün şərait yaratmalıyıq. Bunun isə yolları çox sadədir: istək, iradə və cəhd!

Sadaladığım problemlərin kökündən həlli on iki illik təhsilə keçid, vahid təhsil konsepti, təhsildən nə gözlədiyimizi, hədəflərimizi açıq şəkildə ifadə etmək, ali məktəblərimizin təhsil keyfiyyətini yüksəltmək və etibarlı təhsil sistemi qurmaqdan keçir.

# TƏHSİL GÜZƏŞTİ, MOTİVASİYANI, İNAMI SEVİR, STRESİ YOX!

Ali məktəblərə qəbul imtahanları iki mərhələdə aparılır. Birinci mərhələ həm də orta təhsil pilləsini bitirən şagirdlər üçün buraxılış imtahanıdır. Buraxılış imtahanlarında Azərbaycan dili, rizayiyyat, ingilis dili, qəbul imtahanlarının ikinci mərhələsi olan, el arasında hələ də "qrup imtahanları" adlandırılan blok imtahanlarında isə istiqamətlər üzrə fənn imtahanları keçirilir.

Maraqlıdır ki, birinci mərhələdə Azərbaycan dilindən imtahan verən şagirdlər ikinci mərhələ imtahanlarında III blokda təkrar Azərbaycan dili, I və II blokda isə riyaziyyat fənnindən imtahan verirlər.

Bu heç bir halda qəbul edilə bilən və məntiqli deyil. Rəsmilər niyəsini belə izah edirlər ki, abituriyentin seçəcəyi ixtasasa görə blokda eyni fəndən ona görə imtahan verilir ki, bilik daha dərin şəkildə ölçülsün. Bu fikir özü də yanlışdır. Daha dərin şəkildə dedikdə daha çətin suallar nəzərdə tutulur.

III blok şagirdlərinin ikinci mərhələdə verdiyi Azərbaycan dili fənni sadəcə Filologiya fakültəsində faydalı ola bilər, o da olsa. Üçüncü blokda tarix, ibtidai sinif, sosial iş və s. kimi fakültələrdə bu fəndən sadəcə qrammatika üzərindən aparılan ikinci imtahanın əlavə yükdən başqa nəticəsi yoxdur.

Heç Filologiya fakültəsinə qəbul olmaq istəyənlər üçün də lazım deyil. Eyni prinsipi birinci və ikinci blokda riyaziyyata da aid edə bilərik. Sadəcə Riyaziyyat və İnformatika fakültələri üçün qismən faydalı olan ikinci eyni fəndən – riyaziyyatdan imtahan qida sənayesi, kimya mühəndisi, coğrafiya müəllimləri üçün gərəkli deyil.

Qəbul imthanlarına universitetə buraxılış imtahanı kimi baxmamalıyıq. Şagirdlər məktəbi bitirib universitetə ona görə qəbul olurlar ki, seçdikləri ixtisası daha yaxşı mənimsəsinlər, mütəxəssis olsunlar. Amma abituriyentdən soruşulan bilik mütəxəssisdən soruşulan bilik səviyyəsindədir və bu, böyük yanlışdır. Axı orta məktəb buraxılışını niyə bu qədər çətinləşdirməliyik?

Məhz bu cür yanaşma repetitorluğun genişlənməsinə, dərinləşməsinə rəvac verir. Bu isə valideynlərin incikliyinə, təhsildən, dövlətdən narazı qalmasına gətirib çıxarır; bunu isə heç bir məmur istəməməlidir. Təhsildən narazı kütlə qəbul prosesinin ağırlığından daha şiddətli narazı zümrəyə çevirir. Çünki yaradılan çətin qəbul prosesi birbaşa valideynin büdcəsi hesabına başa gəlir. Bu da məktəblərin nüfuzuna xeyli xələl gətirir.

Soyuq başla düşünəndə görmək olar ki, bir fəndən iki dəfə imtahan götürmək heç nəyə fayda vermir. Mürəkkəblikdən başqa heç nəyə yaramayan bu sistem dəyişilməlidir. Nə olar ki, o üç fəndən götürülən buraxılış imtahanına elə qəbul imtahanı kimi yanaşılsa? Axı gənclik yazıqdır, valideynlər çətinlik çəkir, dövlət büdcəsindən əlavə xərclər yaranır.

Dediklərimin hər biri üçün hər iki qurumla müzakirəyə də, debata da hazıram. Kimsə məni inandırsın ki, ikiqat sorğu-sual filoloq olmaq istəyən gəncin gələcək peşə fəaliyyətinə fayda verir. Hələ digər ixtisas sahiblərini demirəm...

Təhsil güzəşti, motivasiyanı, inamı sevir, özünəgüvənin məhv edilməsini, stresi yox!

# MÜƏLLİMLƏRİN İŞƏ QƏBULU İMTAHANLARINDA NƏ BAŞ VERİR?!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyi – red.) bu il keçirdiyi Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanları barəsində çox ciddi mübahisələr, tənqidlər və təəssüf hissi ilə də qeyd edim ki, bəzən təhqirlərlə rastlaşırıq. Bunların səbəbi isə keçirilən imtahanların səviyyəsi, məzmunu ilə bağlıdır.

Düzdür, bu mövzuda hər il müəyyən narazılıqlar səslənsə də, builki imtahanlar xüsusi aqressiya ilə yadda qaldı. Bu cür etirazların olması və bundan sonra da olacağı təbiidir. Amma məhz bu il kampaniya xarakteri alması ilk baxışdan diqqət cəlb edir. Niyə belə oldu, bunu yaradan səbəblər nədir və vəziyyətdən çıxmaq üçün nə etmək lazımdır? Aşağıda xüsusi bəndlərlə öz subyektiv münasibətimi bildirmək qərarına gəldim:

1. Ümumilikdə MİQ imtahanlarının təşkili birmənalı olaraq Azərbaycan müəllimində özünəinam

formalaşdırdı. Müəllimlərin hansısa direktordan, təhsil idarəsi müdirindən, rüşvətdən, day-daydan asılılığını darmadağın etdi və müəllimlər öz haqlarını tələb etmək gücünü qazandılar. Çünki artıq müəllim bilir ki, onu kimsə işə minnətlə qəbul etmir, buna özü nail olur; öz bilik və bacarığı sayəsində! İstədiyi zaman MİQ-ə girib məktəbini dəyişə bilir. Bu, möhtəşəmdir: AZAD MÜƏLLİM! Ona görə məhz "Azad müəllim" deyirəm ki, o kiminsə qarşısında gözükölgəli deyil və bu azadlıq müəllimin ruhuna da çökür. Ölkəmizin gələcəyi isə sərbəst düşüncəli, azad ruhlu, haqqı uğrunda döyüşə bilən gənclik yetişdirməkdən asılıdır; müəllim bunu yalnız ruh yüksəkliyi ilə yarada bilər.

2. MİQ imtahanı sübut etdi ki, diplom hələ bilikli, bacarıqlı olmaq deyil. Bu da onu göstərir ki, universitetlərimizin təhsili nəinki özəl sektorun, heç dövlətin də tələblərinə cavab vermir! Sistemə yenidən baxılmalı, hər şey yenidən formalaşdırılmalıdır! Pedaqoji fakültə məzunları məktəbdə dərs keçəcək səviyyədə olmalıdır! MİQ imtahanı, eyni zamanda, göstərdi ki, hələ də ali məktəblərin vahid ali konsepti yoxdur. MİQ imtahanının səviyyəsi ilə Dövlət İmtahan Mərkəzi (DİM) abituriyent imtahanının sual bazası, məzmunu, çətinlik dərəcəsi bir-birindən fərqlənmir. O zaman sual yaranır, müəllim də abituriyent, yəni 11-ci sinif səviyyəsində imtahan olunacaqsa, dörd-altı illik ali məktəb təhsilinə nə gərək var?

3. MİQ imtahanı sübut etdi ki, müəllim olmaq üçün sadəcə konkret kitablardan konkret bilgiləri öyrənmək bəs deyil. Əslində, bunu bilirik, amma arada dünyagörüşə yönəlmiş sualların olması bunu müəllim namizədə bir daha üstüörtülü şəkildə ifadə edir. Bu prosesdə həm də məntiq və dünyagörüşü vacibdir; bunu sadəcə universitetlər vermir, insan öz üzərində çalışmaqla da əldə edir. Düşündürücü, məntiqi suallara müəllimlər tərəfindən verilən reaksiyaya, üzbəüz müsahibələrə diqqət etsəniz, vəziyyətdən hali olarsınız. 60 bal toplayan bir müəllimin müsahibə zamanı verilən suallara cavabı bəzən, necə deyərlər, faciəvi olur!

4. MİQ imtahanı göstərdi ki, on beş ildə tələb edilən təfəkküryönümlü məktəbə keçid formalaşmayıb, hələ də ənənəvi təhsilin qalıqları hökm sürür. Keçilən dərsin keyfiyyətinin ölçülməsi zamanı təqdim edilən KSQ, BSQ kimi suallar necə ki, yaddaşyönümlüdür, eləcə də MİQ sualları da bundan qaça bilməyib. Hələ də əzbərçiliyə yönəlmiş tapşırıqlardan istifadə edilir; bu da Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyi – red.) təbliğ və müdafiə etdiyi prinsiplərə tamamilə ziddir! Düşünürəm ki, müəllim olmaq istəyən şəxslər hökmən qabiliyyət formatlı müsahibədən keçməlidir. Səsi, görüntüsü, davranışı, psixoloji vəziyyəti, milliliyi, bəşəriliyi və s. ölçülməlidir.

5. MİQ imtahanı göstərdi ki, Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyi – red.) niyyəti saf olsa da, əməlində çatışmazlıqlar var. Bəli, problem

mövcuddur və bu, nazir səviyyəsində diqqətdə saxlanılır. Nazir, müavinlər, aidiyyəti qurum rəhbərləri prosesi izləyir, hətta sosial şəbəkələrdə münasibət bildirir, izah verirlər. İşinin sahibi olmaqdır bu, yanlışı ilə, düzü ilə sahiblənməkdir işinə! Sosial şəbəkələrdəki rəylərdə bu tip müzakirələrə rast gəlirik; məmurların bu münasibəti bizim üçün yenilikdir. Bir məmur, rektor səmimi şəkildə öz fikirlərini müəllimlərlə bölüşür, müzakirələrə girişir. Misal kimi təhsil nazirini (indiki Elm və Təhsil naziri – red.) və Təhsil İnstitutunun direktorunu göstərmək olar. Buna indiyə qədər heç bir qurumda rast gəlməmişik. Ümid edirəm, bu aktivlik gələcəkdə nəticə çıxarılmasına, yaxşı işlərin görülməsinə vəsilə olacaq!

6. MİQ imtahanı sübut etdi ki, köhnə formatı arzulayan tənbəl və savadsız müəllimlər də az deyil; "day-day"la məktəblərə yol tapıb, beləcə, zəhmətə düçar olmaqdan yayınmaq istəyir, bacarıqlı və bilikli olanların qabağını kəsir. İndi düşünün, bu seçimlərdən "döyüşlə" keçən müəllimlərin yetirmələri gələcəkdə necə azad, necə sərbəst düşüncəli olacaq... Ona görə də bəzi müəllimliyə namizədlər yaranmış situasiyadan istifadə məqsədilə aqressiv münasibət sərgiləyir.

7. MİQ imtahanı sübut etdi ki, Təhsil Nazirliyi (indiki Elm və Təhsil Nazirliyi – red.) ali məktəblərlə razılaşdırmaq şərti ilə hər ilin əvvəlində əhatəli bir ədəbiyyat siyahısı təqdim etməli və sual nümunələri açıqlamalıdır. Bəli, bu zaman müəllimlərin işi daha da ağırlaşacaq, çünki indi ixtisas sualları sırf orta

məktəb proqramına köklənibsə, o zaman areal genişlənəcək, oxunmalı material çoxalacaq. Faydalı tərəfi isə o olacaq ki, ali məktəblər tədrisi düzgün qurmağa çalışacaq, tələbələr də bu normalar əsasında tələblərə uyğun müəllim kimi yetişəcəklər. Ən əsası müəllim hansı ədəbiyyatdan və necə istifadə edildiyini biləcək, cavabı qeyri-müəyyən suallar yaranmayacaq. Bu gün müəllimlər pedaqogikanı, məktəbdarlığı, kurikulumu, psixologiyanı və s. haradan oxuyacağını bilmir. Eyni zamanda, heç bir təhsil proqramında olmayan məntiq suallarından necə istifadə ediləcəyi, bu sualların hansı proqram əsasında hazırlanacağı bəyan olunmalıdır.

8. MİQ göstərdi ki, Təhsil Nazirliyi (indiki Elm və Təhsil Nazirliyi – red.) yanında İctimai Şura bu məsələdə ciddi mövqe nümayiş etdirmədi, sanki hələ də tərəfini seçmək tərəddüdü yaşayır. Müəllimlər də belə bir şuranın ya varlığından xəbərsizdir, ya da xəbərləri var, etibarları yox. Amma ictimai şuranın vəzifəsini nazir özü boynuna götürdü və müəllimlərə suallar ünvanlayıb həlli yolu axtardı. Halbuki son zamanlar nazirliklərin dəb halını alan ictimai şuralarının ilkidir bizim şura və heyətdə işinin öhdəsindən gələ biləcək kifayət qədər mütəxəssis var. Arzu edərdim ki, yaranmış vəziyyətə ciddi münasibət bildirilsin, obyektiv yanaşma sərgiləsin. O da maraqlıdır ki, müəllimlər bu mövzuda ictimai şuraya müraciət edibmi?

9. MİQ imtahanı göstərdi ki, hüquqi dövlətin vətəndaşları olan müəllimlər hələ də öz

problemlərini hüquq müstəvisində həll etməyi bilmir, öyrənmir və bu hüquqlarından yararlanmırlar. Sosial şəbəkələrdə ora-bura rəy, status yazmaqla tənqiddən və təhqirdən istifadə etməklə özünü qaragüruhçu kimi aparan bəzi məsləkdaşlarım, haqlıdırlarsa və buna əmindirlərsə, niyə hansısa rəsmi müraciət etməsinlər?!. Məsələn, görmədik ki, bir, yaxud bir neçə müəllim haqlı olduqlarını düşündükləri halda hansısa məhkəməyə müraciət etsin, nazirliyə yazılı və əsaslandırılmış etiraz bildirsin. Mən görmədim, əminəm ki, siz də eləcə. Yalnız məişət səviyyəsində etirazla yadda qaldılar. Bunun da bir neçə səbəbi ola bilər:

- Müəllim daxilən etirazının haqlı olmadığını bilir və öz bacarığına güvənmir.
- Məhkəmə sisteminə etbar etmir.
- Hüquqlarını necə və harda müdafiə edəcəyini bilmir.
- Təşkilatlana bilmir.

10. Ən xoşagəlməz hal isə odur ki, bu yaxınlarda nazirlik istifadə olunmuş sualların izahını yaydı və bu sualların izahını verən müəllimlər yerli-yersiz tənqid edildilər. Müəllim dostlarım inciməsinlər, bu, kütlə psixologiyasıdır, axı həmin yoldaşlar da bizdən, sizdən biridir, hətta bir neçə il öncə MİQ-dən keçən müəllimlərdir. Haqlı olduğun halda haqsız vəziyyətə düşməyə nə gərək vardı ki...

11. Sualların çətinliyindən yersiz şikayətlənən müəllimlərimiz də oldu. Hamı bilməlidir ki, hər sual nə qədər də meyarlar əsasında hazırlansa, yenə subyektivdir. Kimin üçünsə çətin hesab edilən sual

kimin üçünsə çox asandır. Ona görə də bu şəffaf prosesi şübhə altına salmağa lüzum yoxdur. Neçə-neçə müəllim bu prosesdən üzüağ çıxıb və iş qazanıb. Bəli, qüsurlar var və həmişə də olacaq da. Lakin hər məsələnin təhəri var və biz müəllim olaraq tənqiddən heç zaman yayınmamalıyıq. Ən azından bizim peşənin imicinə yaddır.

Müəllimliyə namizədlər tərəfindən tez-tez səslənən digər fikir: "Əlimizdə diplom ola-ola niyə imtahana girməliyik?" – yanaşmasıdır. Düşünürəm ki, bu, yanlış düşüncədir. Axı biz kapitalizm dövründə yaşayırıq. Kim istəsə, nə qədər adam istəsə, yerli və xarici universitetlərdə təhsil ala bilər. Bu o demək deyil ki, hər universiteti bitirən şəxs müəllim kimi birbaşa işə başlamalıdır. Bu, mümkün deyil, heç düz də deyil. Nazirliyin də belə öhdəliyi yoxdur. Axı hamımız yaxşı bilirik ki, universiteti bitirən şəxslər hamısı müəllimliyə layiqdir və uyğun təhsili alıb. Belə çıxır ki, bütün ixtisaslar üzrə universiteti bitirən şəxslər işlə təmin edilməlidir. Bu hansı sahədə var ki, müəllimlikdə də olsun. Tələb-təklif məsələsi var; tələbə cavab verən kadrlar isə həmişə, hər zaman öz yerini tapıb və tapır da. Şəxsən mən təhsil sahəsindəki iş adamı kimi uzun illərdir, kadr tapmaqda əziyyət çəkirəm. Yaxşı kadrlar isə öz şərtlərini irəli sürüb istədiyi maaşı, vəzifəni ala bilirlər. Hə, deyə bilərik ki, universitet keyfiyyətli təhsil vermir, tələblərə uyğun deyil, bu, başqa məsələ. Əlbəttə, bu da birbaşa Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyi – red.) səlahiyyətindədir.

Düşünürəm ki, nazirlik mövqeyindən geri addım atmamalı, amma irad və təklifləri də dəyərləndirərək uyğun format tapmalı və prosesi davam etdirməlidir. Sadəcə eyni fənn müəllimlərini iki ayrı sual formatı ilə imtahan etməməlidir. İstənilən halda burada ədalət prinsipi pozulacaq və bunu DİM-in də iki dəfə ard-arda keçirdiyi imtahanda görmüşdük. Suallar metal deyil ki, onu qızıl tərəzisində ölçəsən. Nə qədər obyektiv yanaşsan belə, aralarında ya fərq olacaq, ya da elə yozacağıq.

Sualların hazırlanması zamanı isə Azərbaycanda yaxşı olmayan bir ənənə var: əzələ nümayişi. Bunu uzun illərdir, DİM suallarında görürük. Sanki sualı tərtib edən şəxsin vəzifəsi odur ki, necə yazım, cavab verə bilməsinlər? Nə qədər az adam doğru cavabı tapırsa, deməli, bir o qədər yaxşı sualdır. Bu isə özlüyündə yanlış yanaşmadır. Biz bu cür müsabiqələrlə ən yaxşısını seçmək arzusundayıq, ona görə də çətin suallar da hökmən olmalıdır, amma o demək deyil ki, suallar yorucu, vaxt aparan, incə faktoloji olmalıdır. Bunlar da nəzərə alınsa, təkmilləşdirilsə, çox yaxşı nəticələr əldə edəcəyik.

Bir daha imtahana məntiqli və əsaslandırılmış şəkildə etiraz edən müəllim dostlarıma və bu prosesi yetərincə səbirli, açıq, demokratik və anlayışla qarşıladığı üçün cənab nazir Emin müəllimə və Təhsil İnstitutunun (keçmiş – red.) direktoru Rüfət müəllimə təşəkkür edirəm.

# RUS BÖLMƏLƏRİNDƏ AZƏRBAYCAN DİLİNİN SAATI ARTIRILMALIDIR

Azərbaycan istər coğrafi məkan olaraq, istər xalqın dünyagörüşündə, istərsə də dövlət idarəetməsində həmişə dünyada gedən innovativ proseslərə, yeniliklərə açıq davranış sərgiləyib. Bu yüz illərdir, belədir və indi də bunu yaşamaqdayıq.

Ölkəmizdə din, irq və dil mövzusunda həmişə tolerantlıq hökm sürüb və bu gün də davam etməkdədir. Digər xalqlar Azərbaycanda rahatca yaşayır, öz dillərində danışır, müxtəlif dini inanclara iman gətirirlər.

Ölkəmiz demokratik və hüquqi dövlətdir. Burada beynəlxalq şirkətlərin minlərlə nümayəndəsi işləyir və yaşayır. Ona görə də "Təhsil haqqında" qanunda qeyd edilir ki: "Vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, yaxud müvafiq icra hakimiy-

yəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşmaya uyğun olaraq təhsil müəssisələrində tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər". (I fəsil | 07.02.2019)

Bu da ölkəmizdə müxtəlif dillərdə tədris aparan məktəblərin olmasına şərait yaradır. Bu gün türk, rus, ingilis, fransız, alman və s. kimi dillərdə və həmin ölkələrin proqramları ilə fəaliyyət göstərən məktəblər, bölmələr var. Burada çoxluq müvafiq olaraq rus, ingilis, türk dilindəki məktəblər arasında paylanır.

Etiraf edək ki, ingilis dili dünya dilidir və bundan qaçmaq mümkün deyil. Qazaxıstan kimi şərq ölkəsi belə tədrisin üç dildə – qazax, rus, ingilis dillərində təşkili üzərində çalışır. Çünki ingilis dilində oxumaq üçün material kifayət qədərdir və bu dil dünyaya çıxışı daha da rahatlaşdırır.

Türkiyə qardaş ölkədir; respublikamızda yaşayan minlərlə Türkiyə vətəndaşı var. Son 20-30 ildə övladlarımız ali təhsil almaq üçün daha çox Türkiyə universitetlərinə üz tutur. Təhsil baxımından bizdən öndədirlər və bu dildə tədrisin olması vacibdir; buna da etiraz etməyə haqqımız yoxdur.

Rusiya qonşu ölkədir, supergücdür. Elm-texnologiya baxımından da geri qalmır. Tale elə gətirib ki, uzun illər birgə, bir bayraq altında yaşamışıq. Buna görə də ölkəmizdə həm rus xalqından, həm də azərbaycanlı ailələrdən olan yetərincə rusdilli var. Beləliklə, rus bölməsinin də olması labüddür.

Bu yazıda toxunmaq istədiyim mətləb Azərbaycanda olan xaricidilli məktəblərin problemi deyil, bunun bizim qanunlara cavab verib-verməməyindən, bizim dilə və mədəniyyətimizə vurduğu zərbədəndir. Narahatlıq doğuran ən əsas məqam odur ki, şagirdlərimiz bu məktəblərdə təhsil alarkən öz dilimizi unudur və yad təfəkkürdə böyüyür.

2019-cu ildə qəbul edilən "Təhsil haqqında" qanunun birinci fəslinin "Tədris dili" maddəsində deyilir ki, Azərbaycan Respublikasının təhsil müəssisələrində tədris dili dövlət dili – Azərbaycan dilidir.

... Digər dillərdə tədris aparılan ümumi təhsil müəssisələrində Azərbaycan dili, ədəbiyyatı, tarixi və coğrafiyası tədris olunmalıdır.

Qanun müzakirə olunanda da demişdim, indi də deyirəm ki, sonuncu bəndə hökmən: "Tədrisi digər dillərdə aparılan ümumi təhsil müəssisələrində Azərbaycan dili, ədəbiyyatı, tarixi və coğrafiyası Azərbaycan dilində tədris olunmalıdır", – cümləsi əlavə edilməli idi. Lakin Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyi – red.) indi də haqqı və gücü var ki, tədris planlarını təsdiqləyəndə bunu nəzərə alsın.

"Kurikulumu ləğv edək, yoxsa yox?" dilemması qarşısında qaldığımız bir dövrdə diqqəti başqa yönə çəkmək qəsdim yoxdur. Yeni kurikuluma çağdaş təhsilin fəlsəfəsi kimi yanaşdığımdan qəbul edənlərdənəm. Amma bəzi fənn kurikulumlarına, tədris planına (bu da kurikulumun tərkib hissəsidir) təkliflərim var.

Birinci təklif: "Təhsil haqqında" qanuna istinadla digər bölmələrdə təhsil verən məktəblərin qarşısına şərt qoyulmalıdır ki, Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi hökmən Azərbaycan dilində tədris olunsun. Bunun nəticəsində azərbaycanlı uşaqlar digər dildə təhsil alarkən öz dillərinə yad olmayacaq, öyrənəcək, dilimizin imkanlarına bələd şəkildə, azərbaycanlı təfəkkürü ilə böyüyüb bəşəri insan olacaqlar. Hazırda başqa dillərdə təhsil verən məktəblərin heç birində Azərbaycan dilindən başqa adını çəkdiyim digər fənlər dövlət dilində tədris edilmir. Bəzi xarici məktəblərdə isə heç Azərbaycan dili də keçilmir. Hətta Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyi – red.) rus bölmələri üçün təsdiq etdiyi dərsliklər də elə rus dilindədir. Bu proses Sovet İttifaqı dağılandan sonra belə davam edir və təəssüf ki, bu gün də eyni formada qalıb. Axı niyə bir azərbaycanlı uşaq Azərbaycan ədəbiyyatını və tarixini başqa dildə öyrənməlidir? Ədəbiyyat bədii mətnlərdən öyrənilir. Niyə bir azərbaycanlı uşaq o mətnləri öz dilində, orijinaldan oxumamalıdır? Axı dili mənimsəməyin, incəliklərini bilməyin yeganə və əsas yolu mətnlərdir. Təklifim budur ki, yeni tədris ili üçün keçiriləcək pedaqoji iclaslarda bu məsələ müzakirəyə qoyularaq uyğun yol tapılsın.

Azərbaycan müstəqil dövlətdir və cənab Prezident tərəfindən də həmişə vurğulanır ki, öz mədəniyyətimizə, dilimizə sahib çıxmalı, onu qorumalıyıq.

Məsələnin həlli o qədər də çətin deyil. Azərbaycan bölmələrində istifadə edilən tarix və ədəbiyyat dərslikləri üzərində kiçik dəyişiklik etməklə rus bölmələrində istifadə edilə bilər.

İkinci təklif: Bildiyiniz kimi hazırda Azərbaycanda rus bölməsinə ciddi maraq var. Bu, maraqdan daha çox kütləvi axındır, desək, yanılmarıq. Əlbəttə, bu, valideynlərin öz işi, öz seçimidir. Amma sözügedən axının qarşısını rəsmi şəkildə ala bilməsək də, öz milli maraqlarımızı da əldən verməməliyik. Uzun illərdir (iyirmi beş-otuz il), rəsmi tədris planında rus bölmələrində Azərbaycan dilinə cəmi iki saat ayrılır. Yəni həftədə iki qırx beş dəqiqə. İyirmi illik təhsil təcrübəm onu göstərir ki, bu iki saat gərəksiz dərs kimi tədris edilir. Dərs saatı az olduğundan şagirdlər bu fənnə qeyri-ciddi yanaşırlar; müəllimlər də problemin qarşısını almaqda acizdirlər. Digər tərəfdən, iki saata dil öyrətmək mümkün deyil. Nəzərə alsaq ki, rus bölmələrində təhsil alan bəzi şagirdlər ana dilində bir kəlmə də bilmirlər, deməli, vəziyyət daha acınacaqlıdır.

Nəticədə isə öz ana dilini bilməyən minlərlə gənc Azərbaycan dövlətinin ayırdığı maliyyə ilə təhsilə yiyələnir.

Zənnimcə, yeni tədris planı hazırlanan zaman iki saat bütün siniflər üzrə minimum altı saata qədər qaldırılmalı və buna əməl edilməsi üçün həmin məktəblərə nəzarət artırılmalıdır. Bəlkə də, bu, qısa zamanda mümkün deyil. Çünki tədris proqramı dəyişsə, problemli dərslik məsələsi ortaya çıxacaq.

Amma bunu ilkin mərhələdə Azərbaycan bölməsində istifadə olunan dərsliklərlə həll etmək mümkündür.

Sonrakı mərhələdə Azərbaycan dili və ədəbiyyat üçün vahid dərslik hazırlamaq olar.

Qeyd etdiyim problemlərin ikisi də otuz ildir, davam edir və çox təəssüf ki, demək olar, heç kimi narahat etmir. Əminəm ki, bu yanlış istiqaməti dəyişmək mümkündür.

Bu bizim milli borcumuzdur. Azərbaycan dövlətinin çörəyini yeyən hər kəs bunun qədrini bilməli və ölkəyə olan borcunu qaytarmalıdır.

# SİNQAPUR TƏHSİLİ – GÖYDƏLƏNLƏR VƏ YERDƏLƏNLƏR

Sinqapur təhsili son dövrlər dünya təhsil sistemində tez-tez adı çəkilən uğurlu modellərdəndir. Həm mətbuat, həm də təhsil adamları ağızdolusu bu sistemin uğurundan danışır, təriflər yağdırırlar. Bir müddət əvvəl Finlandiya modeli dəbdə idi. Bu təkcə bizim ölkədə belə deyildi. Bütün dünyada təhsilə yanaşma eyni idi. Sanki kənar bir əl yaxşıca reklam aparırdı. Sözsüz ki, haqlı səbəblər vardı. Çünki beynəlxalq PISA qiymətləndirməsinin nəticələrinə əsasən fin təhsili ard-arda uğurlar əldə edirdi. Eləcə də Sinqapur modelində (Sinqapurlu uşaqlar İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) yetmiş beş ölkədə həyata keçirdiyi riyaziyyat, elm və oxuyub-anlama sahələrindəki fəaliyyəti ölçən PISA imtahanlarında son illər ilk sıralarda yer alırlar) bunu görürük. Bundan başqa Sinqapur məktəbliləri riyaziyyat, kimya, fizika fənləri ilə bağlı beynəlxalq olimpiadalarda da çoxlu uğurlar qazanırlar. İstənilən halda cəlbedici görünür və

inkişafda olan ölkələr buna xüsusi maraq göstərir. Yəqin, çoxları düşünür ki, Böyük Britaniya, Fransa, Almaniya kimi dövlətlərin təhsili bəyəm uğursuz modeldir? O dövlətləri elm, texnologiya, iqtisadiyyat, siyasət, xalqların güzəranı və demokratiyada uğursuz hesab etmək olarmı? Sözsüz ki, yox. Bəs niyə onlar haqqında belə reklam getmir, əlli ilin dövlətinin təhsili niyə belə diqqət çəkir? Bəlkə, onların reklama ehtiyacı yoxdur? Bu suala yazının sonunda cavab tapacaqsınız. Tapmasanız da, öz düşüncəmi deyəcəyəm.

Gəldiyimiz nəticələrə əsasən deyim ki, başgicəlləndirən uğurun əsas səbəbi Sinqapurun bunu məhz son əlli ildə əldə etməsidir. Əlli illik uğurun belə gözqamaşdıran olması məhz ölkənin yaranmasından, köklü təhsil sistemləri ilə rəqabətdə geri qalmamasından qaynaqlanır.

Bu qeyd etdiklərimi bilmək, öyrənmək, araşdırmaq üçün Sinqapura yol aldım. Doğrudan da, heç bir təbii resursu olmayan bir ölkənin bu qədər zəngin olması adamı həm təəccübləndirir, həm də düşündürür. Qarışıq millətlərdən, dinlərdən ibarət insanları olan ekzotik ölkədir. Nəhəng göydələnlər və yerdələnlər (Sinqapurda binaların çoxu göyə ucaldığı qədər yerin altına da uzanır) göz qamaşdırır. Nəqliyyat sistemi problemsiz, qanunların işləkliyi mükəmməl, yüksək səviyyəli təmizlik, zəngin turizm potensiallı, son texnoloji yeniliklərə açıq ölkə düşünün... Vətəndaşları yaxşı təhsil alır, maariflənir, dövlət isə birmənalı şəkildə xalqa xidmət edir. Biz

şərq ölkələrində bunu görəndə təəccüblənirik. Əslində, bu, təbiidir. Çünki bir tərəfində İndoneziya, bir tərəfində Malaziya var. Amma bu uğura hələ də çata bilməyiblər. Bəs görəsən, belə bir şəhər-dövlətin avantajı nədir?

Təhsili ilə yaxından tanış olmaq üçün beş günümü məhz buna ayırdım; məktəbləri gəzdim, tanınmış təhsil mütəxəssisləri ilə görüşdüm, müzakirələr apardım və gəldiyim müəyyən qənaətləri sizinlə bölüşmək istədim. Əlbəttə, faktlara öz münasibətimi də əlavə etmək şərti ilə.

Səfər çərçivəsində Sinqapur Təhsil Şəbəkəsinin direktoru Maykl Klim, Astor Beynəlxalq Məktəbinin təsisçisi Yelena Hollovey, SIS və İlham məktəblərinin təsisçisi və sədri Jaspal Sidhu, Birləşmiş Millətlər Təşkilatının Qlobal Saziş Şəbəkəsi və Davamlı İnkişaf Məqsədləri qabaqcıllarından Verappan Svaminatan, Cənub-Şərqi Asiyanın Birləşmiş Dünya Kollecinin rəhbəri Nik Alçin, Kanberra orta məktəbinin baş müəllimi Qəzali Abdul Vahab, keçmiş MOE Kurikulumun Planlaşdırılması və İnkişafı Proqramının rəhbəri, indi HeyHi şirkətinin baş direktoru Yui Mey Liu ilə məktəblər üçün qiymətləndirmə və öyrənmə platforması mövzusunda silsilə görüşlər keçirib müzakirələr apardım və bu yazı məhz o görüşlərdən çıxan ümumi nəticədir.

Sinqapur təhsil sistemini araşdırmaq üçün yola çıxanda özüm üçün apardığım qeydlər bunlar idi:

1. Məktəbin kurikulumun qarşısına qoyduğu hədəf, əsasən, nədir? Bəs ümumiyyətlə, Sinqapur

təhsil sistemi orta məktəbi bitirən şagirddən nə gözləyir?

2. Müəllimlərin performans dəyərləndirilməsi, akkreditasiyası necə aparılır? Bir müəllim Sinqapurda necə işə düzəlir və onun illik performansı hansı sistemlə tənzimlənir?

3. Sinqapur təhsil sistemində şagird qiymətləndirilməsi necə aparılır? Daha çox hansı məqamlara üstünlük verilir? İmtahanlar neçənci sinifdən, ildə neçə dəfə aparılır? Bunu məktəb özü kurasiya edir, yoxsa Təhsil Nazirliyi?

4. Şagirdlərin həftəlik dərs yükü siniflər üzrə neçə saatdır?

5. Bir müəllimin dərs yükü maksimum neçə saat olur? Maaşlar dərs yükünə görə hesablanır, yoxsa sabit ştat maaşı var?

6. Ev tapşırığı məsələsi Sinqapurda necədir? Dərsi məktəbdə öyrədə bilirlərmi?

7. Universitetlərə hazırlıq prosesi necədir? Bunu məktəb özü həll edə bilir, yoxsa hazırlıq kursları, yaxud xüsusi repetitor şəbəkəsi var?

8. Sinqapur təhsilində istedad əsas amildir, yoxsa çalışqanlıq?

Bir təhsilin uğurlu olması üçün ilk növbədə kurikulum sistemi mükəmməl olmalıdır. Sinqapur kurikulumu İngiltərə kurikulumu əsasında hazırlanıb. Demək olar, Kembric kurikulumu əsasında tədris edilir. İmtahanlar da elə məhz Kembric formatında, yaxud elə Kembric imtahanları ilə həyata keçirilir.

Riyaziyyat kurikulumlarında Yaponiya və Çin kurikulumları əsas baza kimi götürülüb.

Yui Mey Liunun dediyinə görə, təhsilin uğurlu olması üçün üç əsas faktor var:

*"1. Pedaqogika*

*2. Kurikulum*

*3. Qiymətləndirmə*

*Üçü də eyni anda dəyişir, eyni anda hərəkət edir deyə qabağa gedə bilirlər. Təhsil Nazirliyinin gözləntisi odur ki, sadəcə bir hissə dəyişməsin. Məsələn, təkcə kurikulumu dəyişib qalanlarını olduğu kimi saxlasalar, alınmaz. Digər ölkələrdə bu üç faktor bir-birindən ayrı şəkildə hərəkət etdiyi üçün çox əziyyət çəkirlər. İkisi yerində qalıb biri inkişaf edirsə, çox qabağa gedə bilmirlər".*

Təhsil müddəti on iki ildir; altı il ibtidai, dörd-beş il orta, iki il yuxarı siniflər. İbtidai sinifdən sonra şagirdlər istedadlarına, öyrənmə bacarıqlarına görə üç yerə bölünməklə tədrisə cəlb olunurlar: normal siniflər, ekpress siniflər, xüsusi istedadlı siniflər. Bizim başa düşdüyümüz kimi şagirdlər təmayüllərə görə yox, dərketmə bacarıqlarına görə qruplaşdırılırlar. Bu çox ağır PSLE sistemi ilə tənzimlənir.

Məncə, bu cür qruplaşdırma gələcəkdə ciddi fəsadlar verəcək və insanlar təbəqələrə bölünəcək. Axı onlar cəmiyyətə atıldıqda da bu cür – istedada görə fərqli yaşam tərzlərinə sahib olmayacaqlar.

Kastalara bölünən həyat standartları təsiri yaradır. Sözsüz ki, bu, birbaşa nəticəyönümlü təhsildir və sanki reytinqlərə fokuslanır. Seçilmişlərlə xüsusi iş kimi...

Yuxarı siniflər isə iki yerə bölünür: "politexnik" adlandırılan birinci – normal qrup, "A səviyyəsi"

dedikləri – istedadlılar qrupu. Politexnik qruplarda oxuyan şagirdlər peşə öyrənir (Eyni zamanda, universitetlərə də hazırlaşa bilərlər), istəsələr, universitetə hazırlaşırlar. Amma A səviyyəli sinifləri birbaşa universitetə qəbula hazırlaşırlar.

Təhsil, əsasən, STEAM yönümlüdür: riyaziyyat, fizika, kimya, biologiya kimi fənlərə xüsusi yer verilir və bacarıq əsasında öyrənmə üsulundan istifadə olunur.

Son zamanlar tədrisə tətbiq etmək istədikləri sistem IB təhsilidir. Ona görə də müəyyən pilot sinifləri var və yuxarıda qeyd etdiyimiz xüsusi istedadlı siniflər buna istiqamətlənmiş addımdır. Dövlət məktəblərində təhsil alan şagirdlərin təxminən on faizi IB imtahanlarına girir.

Bir sözlə, yuxarıda qeyd etdiyim, əsaslı və köklü təhsili olan Britaniya modeli üzərində iş aparılır və öz dəyərlərini də buna qata bilirlər. Dövlət əzbərçiliyi yox, öyrənməyi – "Düşünən məktəblər, öyrənən millət" adlı siyasəti qəbul edib. Şüarı da "Daha çox öyrət, daha çox öyrən"dir. Sosial sahibkarlıq bacarıqlarının formalaşmasına daha çox üstünlük verilir. Etiraf edirlər ki, hər iki bacarıq hələ də problemdir. Nə qədər elmi-texniki sahədə inkişaf etsələr də, bu sahədə geridə qalırlar və sinqapurlu gənclər öz komfort zonalarından çıxanda çətinliklərlə üzləşirlər.

İbtidai və orta məktəb siniflərində təhsil ödənişsizdir. Amma bağça və ali məktəblər ödənişlidir. İzahı da budur ki, ödəniş məhz ona görə qoyulub

ki, insanlar dəyərini anlasınlar. Axı "Ucuz ətin şorbası olmaz" atalar sözü məhz şərqə məxsusdur.

Yui Mey Liu bu barədə deyir:

*"Uşaqların yükü, əlbəttə, getdikcə daha da çətinləşir. Əsas üç imtahan var: on iki, on altı və on səkkiz yaşlarda verilən imtahanlar. Bu imtahanlar uşaqlar üçün daha çətin olur. Biz, əslində, kurikulumda olan yükləmələri 1999-cu ildən azaltmağa başlamışıq. 2001-ci ildə kurikulumda öyrədilənlərin iyirmi faizində dəyişiklik aparıb azaltmışıq. Beş-altı il sonra yenə on faiz azaltma etmişik. Əslində, bu çoxdan başlayan prosesdir, amma materiallar hələ də çətindir. Azaltma ona görə işə yaramır ki, bir tərəfdən azaldılırsa, bir tərəfdən də başqa dəyərlər, bacarıqlar əlavə olunur. Ona görə də materialların yükü, demək olar, dəyişmir".*

Sinqapurda özəl, yaxud dövlət məktəbi anlayışı yoxdur. Sadəcə publik – dövlət məktəbi və beynəlxalq məktəb var. Dövlət sinqapurluların beynəlxalq məktəblərə getməsinə maraqlı deyil. Bunu heç bir halda təşviq etmir; müəyyən yollarla qarşısını alır. Çünki Sinqapur dövləti təhsili ödənişsiz etdiyi üçün istəyir ki, şagirdlər qlobal dəyərlərlə yox, sırf milli dəyərlərlə böyüsün. Üstəlik, xalq da təhsildən narazı deyil. Siniflər otuz-qırx nəfər şagirddən təşkil olunsa da, tədris normaldır, valideynləri qane edir. Həftəlik dərs saatları otuz saatdan başlayır. Yuxarı siniflərdə bu, qırx saata qədər qalxa bilir.

Bəs yemək? Uşaqlar məktəbdə qalsalar da, yeməyi dövlət vermir. Amma bütün məktəb

yeməkxanalarına dövlətin ciddi nəzarəti var və qiymətlər minumumdur.

Maraqlı məqamlardan biri də odur ki, pandemiyadan sonra həftədə bir gün şagirdlər evdə qalır, sadəcə verilən tapşırıqları edir, öz üzərlərində işləyirlər. Amma həmin gün müəllimlər işə gəlir və təlim keçirlər.

Çox maraqlıdır ki, Sinqapur təhsilində "tyuşin" dedikləri əlavə hazırlıq sistemi çox məşhurdur. Məktəbdən sonra, demək olar, əksər şagirdlər universitetə qəbul olmaq üçün bu hazırlıqlara gedirlər. Ağızdolusu danışılan təhsil sistemində əlavə hazırlıqların olması oradakı təhsil mütəxəssislərini də narahat edir. Deyilənə görə, əlavə hazırlıqlarda milyardlarla pul vəsaiti dövr edir. Çünki uşaqların gələcək həyatını istiqamətləndirən, onu idarə edən altı əsas imtahan var və bu da həmin hazırlıqların yaranmasına səbəb olur.

Bütün hazırlıqlar rəsmidir. Vergidən yayınma halları yoxdur, ola da bilməz. Çünki dövlətin güzəştli vergi şərtləri var və kiçik sahibkarlıq üçün çox cüzi vergi təyin edilir. Ona görə də kimsə saxtakarlığa cəhd etmir. İki min dollara qədər gəliri olan vətəndaş vergidən azaddır. Gəlir çoxaldıqca vergilər də artır. Bu səbəbdən bir müəllim evində hazırlıq keçsə də, ödənişi rəsmi şəkildə alır. Əks təqdirdə çox ciddi cərimələr tətbiq olunur.

Soruşuram ki, bu qədər məşhur olan Sinqapur təhsil sistemi yaxşıdırsa, məktəblər lazımi tədrisi verə bilirsə, onda valideynlər niyə məktəbdən son-

ra hazırlıq kurslarına bu qədər çox üz tutur, milyonlarla pul xərcləyirlər? Təhsil yüksək səviyyədədirsə, buna nə ehtiyac var?

*"Valideynlərin gözləntilərinin bircə səbəbi var: ayrıca müəllim sektoru yaradılsın. Kifayət qədər yaxşı təhsil sistemimiz var, sadəcə, valideynlər bununla kifayətlənmək istəmirlər. Nə üçün? Çünki Sinqapur balaca ölkədir. Çox şeyi özümüz istehsal edə bilmirik, yeməkdən tutmuş bir çox fərqli məhsula qədər. Əlimizdə olan yeganə resurs insan olduğu üçün hamı bu mentalitetə öyrəşib ki, mümkün qədər uşağı yükləsinlər. Məktəbdə öyrənirsə, yaxşı təhsil var. Amma yaxşı təhsil yox, daha da yaxşı təhsil axtarırlar. Ona görə də uşaqları əlavə hazırlığa məcbur edirlər".*

Soruşuram ki, nazirlik qiymətləndirmə sistemində müəyyən yüngülləşdirmə aparırsa, niyə hər ay kursların sınaq imtahanlarına on minlərlə uşaq girir?

*"Bəli, dövlət bir zamanlar pulsuz olan sınaqları ləğv edir, kurslar isə valideynlərin tələbi ilə ödənişli keçirir".*

Beynəlxalq məktəblərin qurucusu olan Jaspal Sidhu deyir:

*"Sinqapurla bağlı qəbul etmədiyim mövzulardan biri də budur. Dünyanın ən qabaqcıl ölkələrindən biriyik, amma əlavə müəllim yanına getməyin bir milyonluq dəyəri var. Bu ondan qaynaqlanır ki, Sinqapurda altı əsas imtahan var. Həmin imtahanlar, sözün əsl mənasında, gələcəyinizi necə*

*qurmağınızı, hansı peşəni seçməyinizi təyin edir; hansı universitetə gedəcəksiniz və s. Asiya mentalitetindən qaynaqlanan təzyiq var: "Mən ən qabaqda olmalıyam, ən birinci olmalıyam". Beləcə, uşaqların çiyninə çox məsuliyyət düşür. Nəinki şagirdlər, hətta valideynlər, valideynlərin valideynləri belə övladlarını öyrətmək üçün hazırlıqlara gedirlər. Demək olar, həyatın bütün sahələrində əlavə hazırlıq sistemi var".*

Soruşuram ki, müəllimlərin performans dəyərləndirilməsi, akkreditasiyası necə aparılır? Bir müəllim Sinqapurda necə işə düzəlir və onun illik performansı hansı sistemlə tənzimlənir?

Şimal Baharı İbtidai Məktəbi Məsləhət Şurasının sədri Doktor Davidin cavabı belədir:

*"Pedaqogika fakültəsini bitirən şəxs müəllim olmaq istəyirsə, Təhsil Nazirliyinin siyasətini həyata keçirən institutda hökmən iki il təhsil almalıdır. İki il sonra imtahan verib sertifikat alan şəxs müəllim işləyə bilər. Universiteti nə vaxt bitirməsindən asılı olmayaraq bu imtahanı verməlidirlər. Bu təhsil ödənişlidir, amma müəllimlər ödəniş etmirlər. O şərtlə ki iki illik müəllimlik bacarıqları ilə bu imtahanı uğurla başa vursunlar. İmtahandan keçməsələr, həmin xərcləri müəllim ödəyir. Sonrakı illərdə isə müəllimlər hər il müəyyən kurslara cəlb edilirlər. İlin əvvəlində qarşısına qoyduqları hədəfləri yerinə yetirirlər. Bunun nəticəsində yüksələ də bilərlər, işdən çıxarıla da. İşdən çıxarmaq direktorun səlahiyyətindədir. Direktor müəllimi işə götürə də bilər, çıxara da".*

Məhz burada ağıla gələn ilk sual budur: “Bəs direktorun obyektivliyinə dövlət əmindir?”

Doktor David düşünmədən təsdiqləyir:

*“Çünki onlar da xüsusi bacarıqlarına görə seçilir, neçə təlimə qatılırlar”.*

Yenə təkrarladım: “Dövlət bir nəfərin qərarına necə güvənə bilər? Bəlkə, rüşvət aldı...”

Çarəsiz qalan doktor David dedi:

*“Qorxurlar, ala bilməzlər”.*

Hətta bir hekayə də danışdı ki, havalar isti imiş, aşağı vəzifəli işçilərdən biri həmişə onlara su alıb verirmiş. Bu bir neçə dəfə təkrarlanıb və dövlət qurumuna bu barədə məlumat çatan kimi o da, suyu alıb içənlər də işdən çıxarılıblar. Ona görə də rüşvət almağa qorxurlar.

Müəllimlərin maaşı çoxdur və heç kim bu peşəni atıb getmək istəmir. Bizim valyuta ilə maaşlar səkkiz – on beş min manat arasında dəyişir.

Müəllim ilk dəfə işə başlayanda üç istiqamətdə inkişaf proqramını seçə bilər:

1. Məktəb menecerliyi
2. Pedaqogika – müəllimlik
3. Təhsil mütəxəssisi

Ona görə də hər birinin inkişaf istiqaməti fərqlidir. Ən çətin olanı da məktəb menecerliyidir. Çünki bu ən yaxşısıdır.

Qazali Abdul Vahab deyir:

*“Maaşlar Sinqapurda təxminən səkkiz – on beş min arası dəyişir. Müəllimliyi də elə buna görə atmırlar – kifayət qədər yaxşı maaş alırlar.*

*Sinqapurda müəllimləri belə motivasiya edirlər. Baxa bilərsiniz ki, Avstraliya, Britaniyada müəllim çatışmazlığı yaşanır. Çünki müəllimlərin maaşı azdır. Sinqapurda elə bir problem heç vaxt yaşanmır. Eyni zamanda, sinfin performansından asılı olaraq müəllim bonuslar ala bilir. Eyni müəllim öz sinfini nə qədər yaxşı öyrədirsə, maaşı da bir o qədər yüksək olur".*

Görüşü təşkil edən şirkətə öncədən demişdik ki, daha çox dövlət məktəbləri və Təhsil Nazirliyi ilə çalışan pedaqoqlarla görüş maraqlıdır. Amma məlum oldu ki, dövlət məktəbləri bu müraciətlərə isti baxmır və hər şey nazirlikdən idarə edilir. Hətta hansısa dövlət məktəbində çalışan müəllim belə bu cür görüşlərə maraqlı deyil. Bir növ rəhbərlikdən qorxur ki, bu məsələ qarşılığında nəsə aldığı düşünülər. İcazə almaq isə böyük müşküldür. Buna baxmayaraq görüşlərimiz daha çox təqaüddə olan mütəxəssislər və dövlətdə çalışıb sonradan beynəlxalq məktəblərə keçən şəxslər vasitəsilə oldu.

Sinqapurda dərslikləri valideynlər alır. Alternativ dərsliklər var və məktəbin qərarına görə dərslik seçilir. Amma əlavə xeyli dərslik var; bu da əlavə hazırlıqların aktivliyinin nəticəsidir.

Sinqapur təhsil sisteminin ən uğurlu tərəfi çevik olmasıdır. Yeniliklərə tez və operativ cavab verirlər. Texnologiyadan daha çox istifadə edilir. Texnologiya deyəndə daha çox "ağıllı" lövhələri nəzərdə tuturuq, amma onlarda belə lövhələrdən çox az istifadə edilir, adi ağ lövhələrdir. Əvəzində bütün

şagirdlərin notbuku var. Onun da dəyərinin yarısını dövlət ödəyir. Səbəb isə budur ki, on il əvvəl dəbə minən bu lövhələrin əlavə resursları olmadığı üçün müəllimlər istifadəyə maraqlı deyillər. Çoxlu internet resursları yaradılır; Sinqapur təhsili sistemində hətta "ChatGPT" də istifadə edilir.

Yui Mey Liu deyir:

*"Son illərdə buna daha çox önəm veririk. XX əsr bacarıqlarını – sosial-emosional zəkanı daha çox öyrətməyə çalışırıq. Səbəb də elə texnologiyadır. Sosial-emosional zəkanı kurikulum üzərində tətbiq etməyə çalışırıq ki, uşaqlar daha məsuliyyətli olsunlar.*

Çalışdım ki, bu yazıda məhz bizim ölkə təhsili üçün maraqlı məqamları qabardıb müqayisə imkanı yaradım. Amma elə görünməsin ki, dünya təhsilində önəmli yerdə olan ölkənin təhsilini bəyənmədim, yaxud bu istiqamətdə mesaj verməyə çalışdım. Sadəcə istədim ki, uzaqdan çox parıltılı görünən nəsnəyə daxildən baxaq və aydın görə bilək.

Bu gün Sinqapur təhsil sistemi öz ölkəsi üçün birmənalı şəkildə uğurludur. Bu uğurun əsas səbəbi isə düzgün kadr seçimi, yaxşı kadra lap yaxşı maaş verməк, texnoloji yeniliklərə açıq olmaq, kadr potensialı üzərində daim və formallıqdan uzaq iş aparmaq, birmənalı şəkildə rüşvət alıb-verməmək, müəllimi dövlət tərəfindən daim qoruyub-dəstəkləmək, öz prinsiplərini uzun illər öncədən müəyyənləşdirmək, düzgün aparmaqdır.

Kurikulum varsa, effektivdirsə, vicdanlı müəllim varsa və qanunlar doğru-dürüst işləyirsə, istənilən sistemdə uğurlu olmaq mümkündür. Düzdür, görünən odur ki, Siqapur təhsil sistemi daha çox nəticəyönümlü və yaddaş üzərində qurulub, amma digər sahələr o qədər yaxşı inkişaf edib, yaddaş əsaslı təhsil narahatlıq yaratmır.

# AZƏRBAYCAN REPETİTORLARI SİNQAPUR REPETİTORLARINDAN ZƏİFDİR...

Sinqapura səfərim məhz təhsilyönümlüdür. Bura final mərhələsi Sinqapurda keçirilən SEAMO riyaziyyat olimpiadası üçün gəlmişəm.

Əməkdaşlıq etdiyimiz bu olimpiadaya dünyanın 27 ölkəsindən 500-dən çox şagird qatılmışdı. Ölkəmizdən isə 7 nəfər şagird gətirmişdik. İlk dəfə iştirak etdiyimizi nəzərə alsaq, uşaqların sayı, tutduğumuz yerlər normal idi.

Bürünc medallı qalibləri bu gün yola saldım və köməkçimin öncədən planlaşdırdığı görüşlərə başladım. Qarşıdakı dörd günün birinci hissəsində müəyyən mütəxəssislərlə müzakirələr aparacaq, məktəbləri gəzəcək, günortadan sonra da imkan daxilində turist olacağam. İlk günüm pis başlamadı. Sinqapur Təhsil Şəbəkəsinin direktoru Maykl Klemlə görüşdük.

O, təhsil şirkətləri ilə görüşümüzü planlaşdıran şirkətin rəhbəri və çox maraqlı insandır. Əslən də almandır. Amma iyirmi ildən çoxdur, Asiyada, on beş ildir, Sinqapurda yaşayır. Dediyinə görə, Sinqapur kurikulumunun, təhsil menecerliyi sisteminin qurulmasında xidmətləri olub. İlk görüşümüzdə sualım bu oldu: "Niyə Sinqapur və onun təhsil sistemi bu qədər populyardır? Axı Böyük Britaniya, Fransa, Almaniya kimi köklü təhsili olan və kifayət qədər uğurlu dövlətlər var. Səbəb nədir?" Gülüb: "İndidən fikrinizi qarışdırmayım, gəlin məktəbləri gəzin, münasibətimi sonda bildirərəm. İndi desəm, istiqamətləndirmiş olaram". Cavab aydın idi. Əslində, sualın cavabını da təxminən bilirdim. Sanki məqsədim cavabıma təsdiq almaq idi, formalaşmış fikrimə dəstək axtarırdım.

Bir az tanışlıqdan, oradan-buradan danışandan sonra Astor Beynəlxalq Məktəbinin qurucusu Yelena Holloveylə görüşə yollandıq. Kiçik ibtidai məktəb idi. Məktəbin adı əvvəl Razum imiş. Məktəb Rusiya – Ukrayna söhbətinə görə "Z" hərfinin badına gedib və təcili dəyişiblər. Biznesdir, nə etmək olar? Lazım gələndə millilik qurban verilməsə, ayaq üstə durmaq olmaz.

Gələk məktəbə... Çox sadə, geniş imkanlara malik olmayan, özəl məktəbdir. Yəni xüsusi yüksək texnologiya və resursla təmin edilmiş məkan deyil. Axı elə bilirik, xaricdə hər şey bizdəkindən yaxşıdır. Elə bu düşüncə ilə yola çıxsaq, xəyallar suya düşmüş olar. Yelena xanım gülərüz olsa da, bizə

Allahın suyunu da vermədi. Onun üçün apardığım suveniri elə hörmətsizcə aldı ki, verdiyimə peşman oldum. Mən də sancmaq üçün guya unutmuş kimi: "Ukraynalı idiniz, ya rus?" – soruşdum. Bir balaca təəccüblənərək: "Əlbəttə, rus", – dedi. Mən də öz ürəyimdə tutduğum mənada: "Aydındır", – dedim. Açığı, məktəb və bu qurucu xanımla görüşümüz o qədər ürəyimcə olmadı. Adam sovet təhsilini görməyib, qurucu olub. Yəni çox gənc idi...

Çox uzatmadan öyrəndiyim bəzi məsələləri bölüşüm:

- Sinqapurluların özəl məktəblərə getməsinə Sinqapur dövləti yaxşı baxmır və buna şərait yaratmır. Beynəlxalq məktəb kurikulumlarının elə dövlət məktəblərində tədrisini istəyir. Məsələn, dövlət məktəbləri rahatlıqla Kembric məktəbi kimi fəaliyyət göstərə bilər.

Sual etdim ki, bir valideyn kimi niyə sizin məktəbi niyə seçim? Dedi ki: "Bizim siniflərdə iyirmi şagird olur və..." Sonrası o qədər də maraqlı olmadı. Bu mövzu bizim cəmiyyətdə də son vaxtlar müzakirə edilən məsələ idi. Sinqapur dövlət məktəblərində bir sinifdə otuz-qırx şagird ola bilir. Hətta bəzən daha çox. Elə buna görə də ağlıma gələn ikinci sual bu oldu: "Necə olur ki, hər sinifdə bu qədər şagirdlə Sinqapur PISA qiymətləndirməsində ön sıralarda olur?"

Maykl söhbətə müdaxilə etdi:

*"Bəli, səhər demək istədiyim elə bu idi. O nəticələrin hamısı dərsdən sonrakı hazırlıqların*

*hesabınadır. Məktəbdən sonra ciddi şəkildə repetitor hazırlığı aparılır. Bir səbəb odursa, digəri də valideynlərin təhsilə ciddi önəm verməsidir".*

Barmağımı dişlədim. Sirr açıldı. Deməli, Sinqapur təhsilinə uduzmağımızın əsas səbəbi repetitorların nəticəsidir...

"Müəllimlərin performansını necə qiymətləndirirsiniz, il sonunda onların vəzifələrindəki, maaşlarındakı irəliləyişi necə müəyyənləşdirirsiniz?" – sualıma çox sadə cavab aldım:

*"Müəllim ilin əvvəlində görəcəyi işlərlə bağlı hədəflərini yazıb bizə təqdim edir. Razılaşırıqsa, onun hədəflərinə çatıb-çatmadığını müşahidə edir və qiymətləndirmə aparırıq".*

Əslində, bu, məncə, Sinqapur modeli deyil. Amma təcrübə olsun deyə qeyd edirəm. Zənnimcə, çox maraqlı yanaşmadır.

"Müəllimin dərs yükü necə olur?" – sualıma da qeyri-adi cavab almadım. Dedilər ki, iş saatı 08:00-dan 16:00-a qədərdir. O saatlarda nə qədər istəsək, dərs verə bilirik. Düşündüm ki, ya Yelena xanım MDB təfəkkürünü bura gətirib, ya da elə belə olmalıdır...

Məktəbdə oxuyan bütün şagirdlər başqa-başqa millətlərdən, dövlətlərdəndir. Elə müəllimlər də. Əsas məsələ, burada sinfi necə idarə etməkdir. Hər millətin özünəməxsus mədəniyyəti, dünyagörüşü, mətbəxi var. Müxtəlif ailələrdən gələn uşaq-

ların adaptasiyasında əziyyət çəkirik. Bunlar necə edir, ilahi?! Xanım məni anladı. Çox çətin olduğunu dedi:

*“Düşünün, hindli inək yemir, müsəlman donuz, xristian isə hər ikisini yeyir”.*

Nə qədər mənalı cavabdır, ilahi... Fikrə daldım, gecənin yuxusuzluğu da bir az təsir edirdi... Qəfil: “Başqa sualınız varmı?” – soruşdu. “Bir stəkan su olsa, yaxşı olar”, – dedim. Haradansa birtəhər tapıb adama bir stəkan su içdik.

Dərslikdən istifadə etmirlər, hər şey məktəbdə tədris olunur, ev tapşırığı yoxdur. Uşaqların daha çox oynamasına, idmanla məşğul olmasına, dərnəklərə getməsinə üstünlük verirlər. İllik ödəniş 13:00-a qədər təxminən iyirmi min, birdən sonra qalanlara isə iyirmi beş min manatdır. 08:30-da başlayan dərsin ilk otuz dəqiqəsi idmanla, oyunlarla, necə deyərlər, tullanıb-düşməklə başlayır. Açığı, səhər-səhər bu tullanıb-düşmək söhbəti xoşuma gəldi. Bəlkə də, tətbiq edərik.

Sağollaşıb ayrıldıq və Maykla sabahın planını qurmaq üçün bir çay içdik. Adam heç cəhd də eləmədi ki, çayı özü alsın. Bunu yaza-yaza düşünürəm ki, bizimki də qarındır. İncidiyim məsələlərə bax, sən allah. Çayın pulunu ödəmədilər, yaxud çay təklif etmədilər. Sonra da gileylənirəm ki, bizim valideynlər il ərzində on şikayət etsələr, onun doqquzu yeməklə bağlıdır, təhsillə yox. Deməli, harada və

hansı səviyyədə olursan ol, milli təfəkkür səninlədir, mental yanaşman çiynindədir.

İlk təəssürat olaraq deyim ki, yerli əhali çox gülərüz, mehriban, səmimidir. Vay gəlmələrin halına!

Günortadan sonra Sinqapur Elm Mərkəzinə getdik. Səhərki qarşılanmadan sonra hədiyyə götürmədim və yenə peşman oldum. Elm Mərkəzinin direktoru bizi qarşılayıb elə şirin-şirin: "Mister Şamil," – deyirdi ki, əliboş getdiyimə görə utandım. Özü də, heyətlə qarşıladı. Kiçik bir görüş keçirdik, sonra özü mərkəzi gəzdirdi. Gün maraqlı keçdi. Hazırda burada saat 03:34-dür. Dedim, qeydlərimi yazım ki, sabahla qarışmasın, ola bilsin, sonrakı yazılarda buradakılarla üst-üstə düşməyən fikirlər oldu. Əmin olun, günahkarı mən yox, Yelena xanımdır...

*Sinqapur | Aşngri-la*

# MÜƏLLİMLƏR RESTORANDAKI ŞEF KİMİDİRLƏR...

*Hədəf Şirkətlər Qrupunun qurucu direktoru Şəmil Sadiqin Sinqapura səfəri zamanı SIS (Sinqapur Mədəniyyətlərarası Məktəbinin) və Inspirasi Schools K-12 məktəb şəbəkəsinin qurucusu Jaspal Sidhu ilə müsahibəsi*

Sinqapur Mədəniyyətlərarası Məktəbinin (SIS) təsisçisi və direktoru Jaspal Sidhu otuz ildir, İndoneziyada yaşayan, əvvəllər Açehdən Kalimantana qədər dağ-mədən sektorunda mühəndis işləyən sinqapurludur. Atası insanlara daha çox təsir edə biləcəyi yerdə işləməli olduğunu düşündüyü üçün mədənçilik işindən imtina edib. Beləcə, Jaspal başa düşüb ki, ona uğur gətirən keyfiyyətli təhsildir. Elə buna görə də təhlükəsizlik işçisi olan atası övladlarının ən keyfiyyətli təhsil almasına çalışıb:

• inşaat və struktur mühəndisliyi dərəcəsi, NUS və MBA (fərqlənmə) – Böyük Britaniya;

• İndoneziyada tikinti və mədən sektorunda on beş il;

• təhsildə böyük birləşmə və satınalma təcrübəsi;

• Beynəlxalq Maliyyə Əməkdaşlığı (Dünya Bankı Qrupu) və Şəxsi Sərmayə Fondu ilə strateji tərəfdaşlıqda SIS Məktəblər Qrupunun təsisçisi və sədri;

• beynəlxalq konfranslarda müntəzəm məruzəçi; IFC (Dünya Bankı) San Fransisko və Keyptaunda Təhsil Konfransı, İndoneziya İqtisadi Forumu – Sinqapur;

• İndoneziyada Sinqapur Ticarət Palatasının qurucu üzvü;

• İndoneziyada fəaliyyət və sərmayə qoymağın incəlikləri üzrə icraçı direktorların, diplomatların, investorların və fond menecerlərinin müntəzəm təlimçisi.

Dünya Bankı (IFC) və Özəl Kapital Fondu (Private Equity) ilə əməkdaşlıq edən SIS hazırda Şərqi Asiyada və digər regionlarda genişlənmə mərhələsindədir. İndoneziya, Malaziya, Hindistan və Çin kimi ölkələrdə filialları var.

– Sizin məktəblərin kurikulumu hansı ölkə kurikulumları əsasında hazırlanıb?

– Bizim sistemə əsasən uşaqlara fundamental biliklərin verilməsinə aşağı yaşlardan başlanılır. Əsas təməl ibtidai sinifdə qoyulur. Təməl güclüdürsə, yuxarı siniflərdə təhsili davam etdirmək daha rahat olur. Bu sistemi İndoneziyadan götürmüşük.

Orada mühəndis kimi işləyirdim və həmin müddətdə anlamışdım ki, yaxşı təhsilə ehtiyacımız var.

**– Sinqapurda hansı təhsil sistemi əsas götürülür?**

– Əvvəla, Sinqapurda bağça və ibtidai sinif təhsili əsas götürülür. Sonra qiymətlərinə görə ya IB, ya da Kembric təhsili alır. Yəqin, sizin üçün bu sual maraqlı olar. Sinqapur inkişaf etmiş ölkədir və bu ölkədəki sistem başqa ölkələrdə tətbiq olunsa, çətinlik yarada bilər. Buna görə də həmin ölkənin bu sistemə nə qədər uyğun olduğunu nəzərə almaq lazımdır.

**– Sinqapur təhsil sistemi həm PISA reytinqinə, həm də olimpiadalardakı uğuruna görə dünyada çox məşhurdur. Hansısa ölkə Sinqapur təhsil modelini götürsə, sizcə, uğurlu ola bilərmi? Məsələn, Azərbaycan.**

– İndoneziya dünyanın ən böyük müsəlman ölkələrindəndir. Ora mentalitet və ölkə strukturu baxımından Sinqapurdan tamamilə fərqlidir. Hər ölkənin öz dövlət requlyasiyası var və biz həmin Sinqapur sistemini təkrar təbliğ edə bilmirik, yerli struktura uyğunlaşdırırıq. Məsələn, hansısa fənni öyrədəndə yerli problemlər, yerli mentalitet nədirsə, ona uyğun tədris aparırıq. Beləcə, dövlət bunu bəyənir və razı qalır. Təhsil sistemində ancaq bu şəkildə inteqrasiya mümkündür.

**– Sizdə müəllimlərin işə qəbulu, onların attestasiyası necə aparılır?**

– Biz sistemi quranda birinci qiymətin insanlara xitab etməsinə çalışdıq. Maaş münasib olmalı idi ki, xalq razı qalsın. Eyni zamanda, az maaşla yaxşı müəllim tapmaq asan deyil. Birinci "Delout" şirkətinə müraciət etdik ki, sistem qurmaqda, əsaslanacağımız faktorları müəyyənləşdirməkdə bizə kömək etsinlər. Nəhayət, səkkiz əsas faktor müəyyənləşdirdik. Həmin materialı sizə də göndərə bilərik. Birinci yerdə insanın davranış forması dayanır. Biz müəllimlərimizi onun əsasında seçirik. Davranış forması, mentaliteti bizə uyğundursa, qəbul edə bilərik. Amma uyğun deyilsə, qəbul olunmur. Həmin səkkiz faktordan ən əsası insan olmaqdır. Buna görə insani dəyərlər əsas götürülür.

**– Həmin məqaləni oxumuşam. Yanaşmamız çox yaxındır. Davranış mədəniyyəti yüksək insan çox yaxşı müəllim ola bilər.**

– İndiki uşaqlar elədirlər ki, sərt, ya da danlayan müəllim istəmirlər.

**– Dedik ki, bu gün bütün nəticələrinə görə Sinqapur təhsil sistemi dünyada məşhurdur. Halbuki Böyük Britaniya, Fransa və Almaniyanın köklü təhsil sistemləri olub. Sizcə, birdən-birə Sinqapurun bu qədər irəli çıxması təbiidirmi? Bu inkişaf nə ilə bağlıdır?**

– Sinqapur dünyada birinci ölkədir ki, təhsilə belə çox maliyyə ayırıb. Büdcəyə baxsanız, bunu bir daha görərsiniz. Əlaqələrim çox geniş olduğu

üçün dövlətdə hansısa yenilik olanda dərhal bilir və sistemdə tətbiq edirəm. Sinqapur kurikulumu daim dəyişir: araşdırmalar aparılır, yenilənir, heç vaxt eyni qalmır. Dediyim birici faktordur. İkincisi isə ümumilikdə məktəb sistemidir. Bu, müəllimlərin uşaqların biliklərini necə dəyərləndirməsindən, onlara hansısa hədiyyənin verilib-verilməməsindən, ehtiyac varsa, əlavə kömək göstərilməsindən, yaxud nə qədər dəqiq, aydın sistemin olmasından, rüşvətin və s. olub-olmamasından asılıdır. Kurikulumu əsas tutub belə sistem yaratmaq mümkündür.

**– Hazırda Sinqapurda dövlət təhsili çox güclüdür. Eyni zamanda, burada çox güclü hazırlıq sistemi var. Məktəbdən sonra valideynlərin xərcləri hesabına uşaqlar hazırlıq kursuna gedirlər. Bugünkü uğurlu təhsil sistemində hazırlıq kurslarının, repetitorların payı nə qədərdir?**

– Ən yaxşı suallardan biri ola bilər. Bu, Sinqapurla bağlı ən nifrət etdiyim mövzulardandır. Öz məktəbimdə uşaqların əlavə müəllim yanına getməyə ehtiyacları olmamağına çalışıram. Uşaq əlavə müəllim yanına getməyə ehtiyac duyursa, deməli, oxuduğu məktəb bərbaddır.

**– Məktəbinizdəki uşaqlar əlavə hazırlığa getmirlərsə, deməli, bütün ehtiyaclarını qarşılaya bilirsiniz?**

– Məktəblərim Sinqapurdan kənarda yerləşir. Bizdə Sinqapurdakı kimi çətin imtahanlar yoxdur. Əvvəla, uşaqlarımızı imtahan təzyiqi ilə yükləmirik. Ona görə də bağçadan XI – XII siniflərə kimi rahat

deyə bilirik ki, bu uşaqların nəyi isə öyrənməyə vaxtı var. İdman, əlavə fəaliyyətlər və s. üçün imkan yaratmağa çalışırıq. Birinci faktor odur ki, imtahan stresi amilini aradan qaldırırıq. İkinci növbədə, eşidəndə ki, hansısa şagird əlavə müəllim hazırlığına gedir, çox məyus oluram. Uşaqlar başqa müəllim yanına getməsinlər deyə müəllimlərimə uşaqlarla məşğul olmaq üçün əlavə pul ödəməyi üstün tuturam. Nə etsək də, belə sistem formalaşıb. Müəllimlər məktəbdənkənar hazırlıq keçirlər. Bunu isə tamamilə aradan qaldırmaq mümkün deyil. Sadəcə çalışırıq ki, müəllimlərimizə əlavə pul ödəyək, bu sistemi özümüz quraq. Elə şagirdlərim var ki, ildə cəmi dörd min dollar ödəyirlər. Amma Böyük Britaniyadakı çox məşhur universitetlərə gedə bilərlər. Bir də bu reallıq var ki, valideynlərin əksəriyyəti işləyirlər və evdə uşaqların qayğısına qalan olmur. Ona görə də şagirdlərin neçənci sinifdə oxumasından asılı olmayaraq bağça rolunu oynayacaq, məktəbdənkənar fəaliyyət göstərə biləcəkləri yer axtarırlar. Onu da deyim ki, mükəmməl məktəb yaratmağa çalışmıram. Bu, aşağı büdcə ilə mümkün deyil. Ola bilsin, məktəbdə idman zalı, üzgüçülük hovuzu və s. olsun. Amma bu məktəbi daha bahalı edir. Beləcə, həmin məktəbdə təhsil alacaq şagirdlərin sayı azalır. Məqsəd odur ki, bəzi şeyləri qurban verməklə məktəbimizə daha çox şagird yönləndirə bilək. İnkişaf etmiş ölkələrdə bu daha yaxşı tənzimlənir. Məqsəd çox şagirdin cəlb olunmasıdır, nəinki az şagirdlə mükəmməl məktəb yaratmaq.

– Təhsildə daha çox nəyə üstünlük verirsiniz, yaddaş məktəbinə, yoxsa təfəkkür məktəbinə?

– Mən, əslində, sadəcə akademik nəticələrə fokuslanılmasını sevmirəm. Şagirdlərin təhsil səviyyəsini ölçməyimiz üçün dörd əsas faktor rol oynayır. Bunlara ilin əvvəlindən sonuna kimi nəzərət edirik. Birincisi, şagirdin nə dərəcədə cəhd etməsidir. Ola bilər ki, şagirdin qabiliyyəti nisbətən azdır. Bu şagirdi qiymətləndirən zaman onun cəhdləri nəzərə alınır. Nəticəsindən asılı olmayaraq bunu qeyd edirik. İkincisi, onun analitik düşünmə qabiliyyətidir, nələrisə analiz və s. Üçüncüsü, yoldaşları ilə münasibəti, komanda ilə işləmə bacarığı. Dördüncüsü, sahibkarlıq düşüncəsi, yeniliklərə açıq olmağıdır. Bunlar daha vacibdir, nəinki akademik göstəricilər.

– Həm öz məktəbinizdə, həm də Sinqapurda ev tapşırığı məsələsinə necə baxırsınız? Ev tapşırığı çoxdurmu? Yoxsa məktəbdə dərsi öyrənib hazır gedə bilirlərmi?

– Sinqapurda son illərdə dəyişiklik aparılıb. Əvvəllər çox təzyiq olurdu uşaqlara, material daha çox idi. Artıq bu dəyişilib. Çalışıram ki, məktəbimdə də uşaqlar evdə tapşırıq etməsinlər. Əksəriyyətini məktəbdə bitirsinlər, çox az hissəsi evə qalsın. İstəyirəm, uşaqların dostları, ailəsi ilə keçirməyə çox vaxtları olsun. Evə tapşırıq verilsə, valideynlərlə birgə edilməlidir. Elə planlaşdırılır ki, evə çox material qalmasın.

– Qiymətləndirmə ilə bağlı soruşmaq istəyirəm. Hazırda dünya təhsilində müxtəlif yanaşmalar var. Bəzi klassik təhsil sistemlərində imtahan prosesi ağırdır. Şagirdlər daim imtahandan keçməlidirlər. Amma Finlandiya təhsili göstərdi ki, imtahan çox az olsa, uşaqlar daha çox uğur qazana bilərlər. Bu fikrə necə baxırsınız? Məktəbinizdə imtahan məsələsi necədir? Yaşdan asılı olaraq hansı formatda imtahanlar keçirilir?

– İmtahanda daha çox nəyi soruşduğumuza fokuslanırıq. Məktəbimdə hər il 3, 6, 9, 12-ci aylarda dörd imtahan olur. İkisi asan, ikisi çətin. 6, 12-ci aylarda keçirilən imtahanlar daha çətin olur. İmtahanda şagirddən beş vur üçün on beşə bərabər olmasını yox, on beşi necə aldığını soruşuruq. Şagirdə fərqli konteks yaradırıq ki, problemə baxıb hansı biliyin lazım olduğunu özü müəyyənləşdirsin. İmtahanın səviyyəsindən, sayından daha vacib nəyin soruşulduğudır. Şagirdlər öyrəndiyi biliyi birbaşa tətbiq edirlər. Müxtəlif ölkələrin imtahan vərəqlərinə baxanda görürəm ki, Sinqapurdakı uşaqlar öyrəndikləri biliyi real həyatda birbaşa tətbiq edə bilirlər. Amma İndoneziyada bunu bacarmırlar. Problem də oradadır. Bilik elə formada öyrədilməlidir ki, birbaşa informasiya, onu necə tətbiq etmək lazım olduğu soruşulsun. Deməli, ya onu soruşmurlar, ya da öyrətmirlər. Sinqapurda isə bunu yaxşı bacarırlar.

– Məktəbləriniz yalnız İndoneziyadadır, yoxsa necə?

– İndoneziya, Hindistan və Çində var. Qazaxıstanda da yaratmaq istəyirdik, amma dövlət strukturundakı dəyişikliklərə görə məktəb quracağımız şəxsin ərazisi əlindən alındı. Buna görə də qaldı.

– Pedaqogikada məktəb, valideyn, şagird anlayışları əsasdır. Buna üçbucaq deyirlər. Amma fikrimcə, bu, üçbucaq yox, dairə olmalıdır. Çünki üçbucağın kəsişmə nöqtələri var. Amma düşünürəm ki, bu, dairə olmalıdır: dairədəkilər əl-ələ yapışıblar. Dairənin üç tərəfi ola bilər – məktəb, şagird, müəllim. Qurduğunuz məktəblərdə valideynin təhsilə müdaxiləsi nə qədərdir?

– Fikirlərinizlə razıyam. Valideynlərin əksəriyyəti deyir ki, pul verirsə, uşağı öyrədim, onu işə qatmayım. Çünki başqa işləri var. Bu, qlobal problemdir. Biz də öhdəsindən gələ bilməmişik. Amma razıyam ki, valideynlər uşağın təhsili ilə daha yaxından maraqlanmalıdırlar. Valideynlərin təhsil səviyyəsi də müxtəlifdir. Ola bilsin, uşağın düşüncələri və aldığı təhsil tamam fərqli olsun, nəinki valideynin dəstəyi.

– Bizdə deyirlər: "Əti sənin, sümüyü mənim". Yaxşı, bəs bir müəllimə həftəlik neçə saat dərs verirlər?

– Heç bir halda müəllimləri yükləmirik. Çünki müəllim restorandakı baş aşpaz kimidir; restoranı tərk etsə, obyekt bağlanar, iş günü bitər. Müqavilə bağlayırıq. Müəllimlər göstərilən vaxta kimi işləyə bilirlər. Çalışırıq ki, texnologiyalar vasitəsilə

müəllimlərə qiymətləndirmədə, tapşırıqların yoxlanılmasında kömək edək. Mümkün qədər texnologiyaya üstünlük veririk.

– Həftəlik dərs saatı maksimum nə qədərdir?

– Bu, ölkədən-ölkəyə dəyişir. Müəllimlər məktəbə 07:30-da gəlir, 15:00-da gedirlər. Amma bu, müəllimin məktəbdəki ümumi iş vaxtıdır. Sinifdə dərs keçdiyi müddət isə müəllim və fəndən asılıdır. Bununla bağlı sizə məlumat göndərə bilərəm. Açığı, özüm də dəqiq bilmirəm, hansı müəllim neçə saat işləyir.

– Bizdə aktual məsələlərdən biri də şagird çantasının ağırlığıdır. Aşağı siniflərdə uşaqların kitabları çoxdur. Sizdə bu mövzuda vəziyyət necədir?

– Biz, əsasən, Sinqapur kurikulumu üçün Sinqapur dərsliklərindən istifadə edirik. Materiallar onlayn olur, ona görə də uşaqların həmişə kitab gətirməyinə ehtiyac qalmır. Məktəbdə kitabları, əşyaları qoymağa yerlər var. Ona görə də kitabları şkafda saxlayıb lazım olduqca istifadə edirlər. Ən çox kitabxanadan istifadə edirlər. Bu da kağız israfının qarşısını alır. Düzdür, valideynlərin çoxu deyirlər ki, pul verilirsə, kitab olmalıdır. Amma çalışırıq, uşaqlar əlavə yük daşımasınlar, kitablar ya məktəbdə olsun, ya da onlayn.

– Sinqapur təhsil sistemi başqa ölkələrdə istifadə edilir. Hansı ölkədə bu daha uğurlu və ya uğursuzdur? Yaxud olurmu ki, bu cəhd hansısa ölkədə alınmır?

– Əslində, qurduğumuz məktəblərdə bu sistem yaxşı alınıb. Ona görə də sözügedən sistemi ölkələr özü istəyir; nəyisə məcbur qəbul etdirməyə çalışmıram. Özləri bu sistemin tətbiqində maraqlıdırlar. Çünki uğurlu olur. Bu, əsasən, ilk illərə aiddir. Çünki kurikulumu sonradan dəyişirik. Məktəbim var ki, illiyi iki min dollardır. Məktəbim də var ki, on beş min dollardır. Amma sistem və təhsil proqramı eynidir. Bu, ölkəyə və insanların vəziyyətinə görə dəyişir

– Sizin üçün uğurlu məktəb nədir?

– Bir sözlə ifadə etsəm, bu, şəffaflıq olar. Hətta şəffaflıq və empatiya bir yerdə olsa, daha uğurlu alınar. Məktəblərin uğurlu fəaliyyətində üç faktor önəmlidir: proqram, insanlar və infrastruktur. Məncə, əksər ölkələrdə məktəblər infrastruktur cəhətdən çox zəifdir. İnsanlar bununla bağlı, belə deyək, binanın öyrətmə qabiliyyəti haqqında çox düşünmürlər. Günortadan sonra məktəb kurs kimi fəaliyyət göstərir. Kimsə ingilis dili öyrənmək istəyir və s. Bundan yaxşı qazanmışam. Üstəlik, infrastrukturu elə qurmaq lazımdır ki, əlavə idman zalı, üzgüçülük hovuzu və s. məktəbin içərisində tikilməsin, kənarda – ictimaiyyətə açıq yerdə təşkil edilsin ki, kənar şəxslərin istifadəsi mümkün olsun.

Rəhbərlik etdiyim on beş təhsil müəssisəsi var. Adətən yaxşı direktor tapanda yeni şöbə aça bilirəm.

– Ümumiyyətlə, bir məktəbin açılması üçün direktorun önəmi nə qədərdir?

– Direktorları seçəndə şəffaflıq çox önəmlidir. Onların məndən heç bir asılılıqları yoxdur. İlin sonunda çoxlu suallar verirəm: şagirdlərin müəllimlər, valideynlərin məktəb, şagird və müəllimlərin direktor haqqındakı fikirlərini öyrənirəm. Bu cavabları sonda direktor və işçilərimə göstərirəm; vəziyyəti – nəyin yaxşı, nəyin pis olduğunu müzakirə edirik. Bu, anonim baş verir. Ona görə də müəllimlər menecment haqqında fikirlərini birbaşa mənə deyə bilirlər. Direktorlarım maliyyə işləri haqqında məlumatlı olurlar. Ona görə də hər şey şəffaf olur. Eyni sualı mən də sizə vermək istərdim.

– Bu sorğunu qısa müddət əvvəl bitirdik. Həm valideynlər arasında pedaqoji və rəhbər heyət, həm şagirdlər arasında müəllimləri, həm də müəllimlər arasında məktəb rəhbərliyi haqqında anonim sorğu keçirdik. İkisi hazırdır, sizə göstərə bilərəm. Bir sualı və nəticəni sizə göstərim: "Siz Hədəf STEAM Liseyində işləməkdən məmnunsunuzmu?" "Məmnun deyiləm" cavabı verən cəmi bir nəfərdir.

– Həmişə bizdə də bir nəfər olur. Maaşla bağlı narazılıq yaranır.

– Məsələn, belə bir sual qoymuşduq: "Aldığınız maaş əməyinizin qarşılığını ödəyirmi?" Nəticədə qırx bir nəfər uyğun olduğunu, doqquz nəfər narazı olduğunu demişdi.

– Məktəblərim müxtəlif yerlərdə olsa da, daim işləyirlər və direktorlar hər iki aydan bir görüşürlər.

Məktəblərin uşaqları bir-biri ilə müxtəlif proyektlərdə əməkdaşlıq edirlər. Bu isə insanlarda təkcə yerli şeylər öyrənməyə fokuslanmamaq, beynəlxalq mühit və sistemin parçası olmaq hissi yaradır.

– Maraqlı söhbət üçün təşəkkür edirik!

*P.S. Əslində, Sinqapurda görüşmək istədiyim şəxslər daha çox Sinqapur təhsili ilə bağlı geniş məlumat sahibi olan mütəxəssislər idi. Amma görüşləri təşkil edən Maykl Klim dedi ki, məni maraqlı bir insanla – Sinqapur təhsili əsasında beynəlxalq məktəblər quran Jaspal Sidhu ilə tanış edəcək. Maraqlı gəldi və görüşdük. Bakıda bu söhbəti oxuduqca ilk ağlıma gələn bu oldu ki, deyəsən, özüm-özümə suallar verib cavablar almışam. Çox qəribədir, Jaspal Sidhu ilə söhbət göstərdi ki, dünyanın harasında olursan ol, təhsilin problemi eyni olaraq qalır.*

# VALİDEYNLƏR BÖYÜK PROBLEM OLSALAR DA, YEGANƏ PROBLEM DEYİLLƏR!

*UWC SEA Dover Kampusunnun direktoru Nik Alçin 1995-ci ildən bəri hərtərəfli, dəyərlərə əsaslanan məktəblərdə, həmçinin UWCSEA Dover-də Bilik və Riyaziyyat Nəzəriyyəsini, sonra isə İsveçrədəki Beynəlxalq Cenevrə Məktəbində müəllim işləyib. Böyük Britaniyanın Sevenoaks Məktəbində IB direktoru və Keniyanın Mombasa şəhərindəki Ağa Xan Akademiyasında tədqiqatlar dekanı vəzifələrində işlədikdən sonra 2012-ci ildə UWCSEA Şərq Liseyini yaradan komandaya rəhbərlik etmək üçün Sinqapura qayıdıb. O, 2022-ci ilin avqustunda kollecin rəhbəri vəzifəsini tutub.*

*Qlobal miqyasda Bilik Nəzəriyyəsi üzrə keçmiş IB Baş Qiymətləndiricisi və IB İmtahan Şurasının keçmiş sədr müavini, dərslik müəllifi, IB imtahançısı, seminar rəhbəri və məsləhətçidir.*

*Onun Kembricdəki Fitzvilyam Kollecində təbiət elmləri üzrə bakalavr dərəcəsi, Volfson, Kembric və Mançester kolleclərində Mühəndislik və Təhsil üzrə aspirantura sertifikatları və Açıq Universitetdə Təhsil Liderliyi üzrə magistr dərəcəsi var.*

*Nik Alçinlə Hədəf Şirkətlər Qrupunun qurucu direktoru Şəmil Sadiqin təhsillə bağlı müzakirəsini təqdim edirik:*

– Cənab Alçin, UWC məktəblərinin yaranma ideyası necə ortaya çıxdı?

– Bizim məktəbin qurucusu Kurt Hahn 1866-cı ildə Almaniyada yəhudi ailəsində doğulub. İkinci Dünya müharibəsində isə faşistlər tərəfindən əsir alınıb.

1955-ci ildə Parisdə NATO Müdafiə Kollecində səfərdə olarkan onun diqqətini maraqlı məqam çəkir: qısa müddət əvvəl bir-birilərini öldürən, müharibə edən hərbçilər indi üz-üzə oturub əməkdaşlıq qurur, dostluq nümayiş etdirirdilər. Bu hadisə ona UWC məktəbləri açmaq üçün ilham qaynağı olur və məktəb 1962-ci ildə təsis edilir. Beləcə, 1962-ci ildə Böyük Britaniyanın Uels şəhərində yerləşən UWC Atlantic (Atlantik Kolleci) ilk tələbələrini qəbul edir. İlk UWC məktəbi müxtəlif millətlərin nümayəndəsi olan gənclərin birgə təhsil nəticəsində potensial münaqişələrin qarşısını almağa hesablanmış anlaşma qura biləcəkləri ideyası üzərində qurulub. Hazırda UWC-nin 18 ölkədə beynəlxalq məktəbi var.

Hahn bir sıra məktəb və təhsil təşkilatlarının yaradılmasında rol oynayıb.

Təhsillə bağlı fikirlərini daim inkişaf etdirir; tez-tez sülhə aparan yol kimi təhsilin gücündən, eləcə də cəmiyyətdəki “mərhəmətin tənəzzülü”nü aradan qaldırmaq ehtiyacından danışırdı.

Sinqapur Beynəlxalq UWC Məktəbi 1970-ci ildə təsis edilib. Əvvəl yalnız yuxarı siniflər vardı, yəni nisbətən yuxarı yaşdakı uşaqlara təhsil verilirdi. İnkşaf etdikcə dövlət qurumları istədilər ki, birinci sinifdən son sinfə kimi şagirdlərin qəbulu aparılsın.

Sinqapur dövlətinin bizim məktəbə dəstəyinin xüsusi səbəbləri var: dövlət xarici vətəndaşların Sinqapur iqtisadiyyatını inkişaf etdirmələrində maraqlıdır. Üstəlik onların övladlarının da təhsil almağa ehtiyacları var. Ona görə də bizim məktəb məhz Sinqapur dövlətinin maraqlarına xidmət edir.

Hazırda bu məktəbdə altı mindən çox şagird təhsil alır: dünyada bu tipdə olan ən böyük məktəbdir.

Burada yüzdən çox millətin nümayəndəsi cəmləşib. Əksəriyyəti gəlmə xalqların uşaqlarıdır. Amma istisnalar da var; bir neçə sinqapurlu da burada təhsil ala bilir. Amma normalda icazə verilmir; dövlət sinqapurluların belə beynəlxalq məktəbdə təhsil almasında maraqlı deyil. Məktəbimizin təkcə inzibati heyəti üç yüz nəfərdən ibarətdir: hamısı da elmi işlə məşğul olan tədqiqatçılardır.

– Bəs pedaqoji heyətin sayı nə qədərdir?

– Dəqiq rəqəmə baxmaq lazımdır, amma təxminən beş yüz altmış nəfər müəllim var. On şagirdə bir müəllim düşür.

Məktəbin iki kampusu var: hər ikisi eyni böyüklükdədir. Əsasən, beş faktor üzrə uşaqlara dərs verməyə çalışırlar. Hər şagirdi müxtəlif yönlü yetişdirməyə çalışırıq. Əsas istiqamətlər akademik və sosial qabiliyyətlərdir. Uşaqlar bu tələblərin hamısına cavab verməlidirlər.

Bağçadan səkkizinci sinfə kimi məktəbimizin öz kurikulum sistemi var, amma səkkiz, doqquz və onuncu siniflərdə Britaniya kurikulumu əsasında tədris verilir. Bu da bizi qane etmir. Çalışırıq, dəyişək, öz kurikulumumuzu hazırlayaq.

– Sinqapur təhsil modelinin sizə təsiri necədir?

– Gəlib ziyarət eləsəniz, birbaşa Sinqapur sistemini görə bilməzsiniz. Biz daha çox beynəlxalq məktəbik deyə digər məktəblərimiz daxil olmaqla özümüzün ayrıca yaratdığımız kurikulum sistemi var, yəni fərqlidir.

– Sizə görə, Sinqapur təhsil modelinin uğurlu və uğursuz tərəfləri hansılardır?

– Mən öz düşüncələrimi də deyərəm, amma Makkenzinin bununla bağlı yaxşı hesabatı var. Analiz aparılıb. Çox yaxşı təhsil sistemi olan ölkələr daha zəif sistemi olanlarla müqayisə edilib. Çox detallı analizdir. Məsələn, yaxşı məktəbdən mükəmməl məktəbə doğru getmək üçün atmalı olduğunuz addımlar xeyli fərqlidir. Pisdən yaxşıya doğru, ortababdan yaxşıya doğru... Ona görə də ümumi fikir formalaşdırmaq üçün sözügedən hesabat mənim düşüncələrimdən daha əsaslı yanaşma ortaya qoyar.

Sinqapur xalqı və mentaliteti burada çox böyük rol oynayır. Sinqapur əlli illik tarixi olan ölkədir. Məsələn, qırx-əlli yaşlı, bu mentalitetdə böyümüş bir müəllimi götürək: elə dərs keçir ki, uşaqların hamısı nəticəyönümlü olsun. Onlar da əllərindən gələni edirlər ki, uğur qazansınlar. Hətta o qədər ki mental çətinlik yaşayırlar, qırılma nöqtəsinə gəlib çıxırlar. Bu tipdə təhsil sistemi ancaq o ölkədə işləyə bilər ki, uşaqlar bu mentalitetdə böyüsünlər. Özlərini mental olaraq yoracaq qədər nəticəyönümlü hərəkət etsinlər. Sistemin işləmə prinsipi insanlardan, insanların mentalitetindən asılıdır.

**– Sinqapur təhsil sistemi dünyada birdən-birə niyə bu qədər populyarlaşdı? Köklü, müxtəlif modellər, neçə illərin ənənəvi yanaşması var. Hazırda isə Sinqapur sistemini bütün təhsil müəssələrinə nümunə göstərirlər.**

– Təkcə Sinqapur təhsil sistemini deməzdim. Sinqapur, ümumiyyətlə, bir çox şeyə görə dünyada tanınır: infrastruktur və s. Bu məşhurluq sadəcə təhsil sistemindən yox, Sinqapurun özündən qaynaqlanır. Sinqapur məhşur ölkədir. Bunun da səbəbi çox balaca olmasıdır.

İki müsəlman ölkəsi – İndoneziya ilə Malaziya arasında qalmışdı. Bir növ ölüm-qalım məsələsi idi. İki yol vardı: ya əllərindən gələni edəcək, çox çalışacaqdılar ki, yaşaya bilsinlər, ya da hansısa ölkənin tərkibində məhv olub gedəcəkdilər. Ona görə də birdən-birə sıfırdan mental səviyyədə çox yaxşı sistem yarandı.

İnsanlar sıfırdan belə bir ölkə yaradıblar və çox sürətlə inkişaf ediblər deyə Sinqapurun əziyyət çəkdiyi nöqtələrdən biri də innovasiyadır. Bu cür sürətli inkişaf innovasiyanı öldürür. Qısa zamanda çox yaxşı yerə gəlib çıxıblar, indi də əziyyət çəkirlər ki, növbəti mərhələ nədir? Mənim də bu proses, təhsil sistemi ilə bağlı bəzi kitablarım var. Təhsilsiz, sıfır biliyi olan insanları birdən-birə çox rəqabətcil şəxslərə çevirə biliblər. Üstəlik bunu qısa zamanda ediblər deyə indi çətinlik çəkdikləri nöqtələrdən biri daha çox inkişaf etməklə bağlıdır.

Əslində, hamı bir nəfər kimi sistemin mükəmməl olduğunu demir, bu mövzuda debatlar gedir. İşin içinə girəndə fərqli yanaşmalar mövcuddur. Təhsil naziri istəyərdi ki, tamam fərqli formada olsun, məcbur qaldığı məsələlər var. Bu da sistemi tamam fərqli şəkildə yaradır. Son illərdə köklü dəyişikliklər aparılır. Məsələn, daha aşağı siniflərdə bəzi imtahanların aradan qaldırılması və s. Çox çətin sistemdir. Valideynlər bu sistemdə böyüyüblər, necə əziyyət çəkiblər. Uşaqlarının bir növ daha az nəticəyönümlü olmasını istəyirlər, çalışırlar ki, daha az qiymətləndirmə aparılsın.

Məsələn, Təhsil Nazirliyinin, uşaqların, müəllimlərin sistemdən xoşu gələ bilər, amma valideynlər narahat olursa, bu, böyük rol oynayır. Deyirlər ki, nazir postlarına kimlərin seçilməsinə siyasi mühitdə qərar veririk. Biz valideynlər bunda iştirak edirik. Bizim düşüncələrimiz çox önəmlidir. Ona görə də çox qarşıdurma olur: valideynlər fərqli sistem arzulayırlar, real vəziyyətin dəyişməsini istəyirlər.

– Müəllimlərin işə qəbulu hansı əsaslarla aparılır?

– Müəllimlərin işə götürülməsi prosesində, məsələn, İngiltərədəki yanaşma ilə buradakı arasında çox böyük fərq var. İngiltərədə kadrın hazırlıq prosesi daha uzun gedir: təhsil alır və s. Amma tələb təklifdən aşağıdır. Sinqapurda məhz neçə müəllimə ehtiyac varsa, o qədərinin təhsil almasına icazə verilir. Burada müəllim olmaq hədsiz çətindir. Çünki maaş o qədər də yuxarı deyil. Amma çox təhlükəsiz və həmişə ehtiyac duyulan peşədir. Ona görə də prestijli iş saymaq olar. Müəllimləri işə götürəndən sonra karyeralarının inkşafına çalışırıq və bu, çətin prosesdir. Bu səbəbdən bir çoxu yolun əvvəlində müəllim olmaq fikrindən daşınır. Amma müəllimlik yenə də prestijli sahə sayılır.

– Maraqlı məqama gəlib çatdıq, ümumiyyətlə, cənab Nik qiymətləndirmə sisteminə baxışını bilmək istəyərdim. Çünki bizdə həm ənənəvi imtahanlar var, həm də modern qiymətləndirmə. Müasir yanaşmada aşağı siniflərdə imtahan olmasına qarşıyıq. İstəyirik, uşaqlar azad, rahat böyüsünlər. Ümumiyyətlə, Sinqapur qiymətləndirməsi, bu metoda yanaşma və UWC məktəblərindəki vəziyyət necədir?

– Buradakı qiymətləndirmə ilə bağlı düşünürəm ki, qurulan sistemin yaratdığı nəticələr arasında iki milyardlıq əlavə müəllim biznesi var. Şagirdləri çox yükləyirlər, uşağın oxuduğu sinifdən qabaqda olmağına, növbəti sinfin materiallarını oxumağına

çalışırlar. Valideynlər istəyirlər ki, uşaqları hamıdan qabaqda olsun. Sistem yaxşı düşünülüb, amma sonradan nəticələri ona gətirib çıxarıb ki, "hamıdan qabaqda olum" yanaşması əlavə yükləmə yaradır.

– Əlavə hazırlıqlar ibtidai siniflərdə də tətbiq olunur, yoxsa yalnız yuxarı siniflərdə?

– Sinqapurda təkcə uşaqlar yox, valideynlər üçün də kurslar var: uşaqlarını öyrətməklə bağlı. Hətta valideynlərin valideynləri üçün də nəzərdə tutulanlar mövcuddur: nəvələrini öyrədə bilsinlər. Aşağı siniflərdə ən çox inglis dili və riyaziyyatın tədrisinə diqqət ayrılır. Bu özü də xüsusi yanaşmadır. Təkcə uşaqlara aid deyil. Bütün yaş kateqoriyasındakı şəxslər üçün nəzərdə tutulur ki, uşaqlarına dəstək ola bilsinlər.

– Kurikulum qiymətləndirməsi necədir? İbtidai siniflərdə ildə neçə dəfə qiymətləndirmə aparılır?

– İbtidai siniflərdə, ümumiyyətlə, imtahan yoxdur. 9-cu sinfə kimi, demək olar, imtahan götürülmür. Amma şagirdləri 9-cu sinfin sonunda ciddi bir imtahan gözləyir. 10-cu sinifdə də eyni şəkildə. 11 – 12-ci siniflərdə böyük bir maşstabda EB imtahanları var. Geniş bir zalda təşkil olunur. Ümumilikdə isə il ərzində cürbəcür testlər olur; müəllimdən müəllimə dəyişə bilər. Məsələn, müəllim deyər ki, filan mövzunu keçmişik, gəlin indi də bununla bağlı tapşırıqlar, testlər həll edək. Belə qiymətləndirmələr çox olur, amma dediyim kimi 9-cu sinfə kimi köklü imtahan təşkil edilmir.

– Bəs şagirdin akademik inkşafı necə müşahidə edilir? Valideynlərə bununla bağlı necə hesabat verilir ki, uşağınız oxuyur, ya yox. Ümumiyyətlə, təhsildəki vəziyyəti nə yerdədir?

– Ümumilikdə, müəllimlərin şagird haqqındakı fikirlərinə etibar edirik. İl ərzində fərqli formada yoxlamalar olur: təqdimatdan tutmuş adi ABCD testlərinə kimi. Bunların əsasında tədris ili müddətində valideynlərə məlumat veririk ki, uşaqların vəziyyəti necədir. Daha il sonunda demirik ki, nəticə bu olub. Həm öyrənmə bacarığını, həm də bilik səviyyəsini test edib davamlı şəkildə valideynlərə məlumat veririk.

– Sizcə, eyni sistem dövlət məktəblərində olsa, nə baş verərdi?

– Düşünürəm ki, çox böyük inkişaf olar, eyni zamanda, böyük mənfi nəticələrə gətirib çıxarardı. Bu sistemi qurmaq üçün, az qala, əlli il çalışmışıq. İllərlə bu sistemlə razılaşmayan valideynlərlə müzakirələr, təkrar-təkrar izahlar nəticəsində bu pilləyə gəlib çıxa bilmişik. Burada da Sinqapur sisteminin nəticəsini görmək istəyən valideynlər var. Birinci, ən yaxşı, ən qabaqcıl kimdir və s. bilmək istəyirlər. Amma bunu siyahı kimi təqdim etmirik. Bu sistemlə razılaşmayanlar çoxdur. Ona görə də bizdəkindən fərqli sistemdə, mentalitetdə böyümüş uşaqlar üçün sözügedən yanaşma çox çətin olar, mənfi nəticələrə gətirib çıxarardı.

Məsələn, mən valideynlərin baxış bucağından yanaşdım. Valideynlər böyük problem olsalar da,

yeganə problem deyillər. Bizdəki sistemi Sinqapur məktəblərinə tətbiq etməyə çalışsaq, on beş yaşlı uşaqlar çaşıb qalacaq, nə istədiklərini bilməyəcəklər. Çünki bu vaxta kimi məqsədləri "Bu testi keçim, o test qurtardı, başqa testi keçim" və s. olub. Fokuslandıqları nöqtələr fərqlidir. Müəllimlər bilməyəcəklər, onları nə formada test eləsinlər, hansı formada öyrətsinlər. Heç Təhsil Nazirliyi də bilməyəcək ki, bu uşaqların nəticələrini necə dəyərləndirsin. Ona görə də bu, bir gündə aparılacaq dəyişiklik deyil. Məncə, nə vaxtsa mövcud sistem də bu mərhələyə gəlib çıxacaq.

Sinqapur hər şeyi otuz il qabaqcadan planlaşdırır. Otuz il sonra harada olacaq, bilir. Bu şəkildə planlaşdırıb deyə son illərdə xüsusi dəyişikliklər baş verib. Havayı addım atılmır, birdən-birə ortaya çıxmış kimi görünmür. Digər məktəblərdə də tanışlarım var. Görürsən ki, məqsədli, planlaşdırılmış şəkildə yanaşır, nələrdənsə imtina edir, nələrisə dəyişir...

Sinqapur yavaş-yavaş dəyişmək istəyir. Məsələn, ölkədəki bizim kimi, yaxud başqa məktəblərə baxır; balaca güllər, fidanlar yetişən kimi: "Bax, orada gül yetişib, sistemi yaxşı işləyir. Gəlin bu gülü başqa yerdə də əkək", – deyir. Yavaş-yavaş, region-region çoxaldır, sonra da ölkə səviyyəsinə gətirib çıxarırlar. Bu, əslində, çox yaxşıdır. Mark Zukerberqin bir sözü var: "Nəyisə qırmaq istəyirsənsə, sürətli get". Yəni təhsili birdən-birə dəyişdirə bilməzsən, proses yavaş-yavaş getməlidir. Nə vaxtsa bu səviyyəyə gəlib çıxacaqlar – indi mümkün deyil.

– Həm Təhsil Nazirliyinin kurikulum sistemi üzrə məsləhətçi olmuşam, həm dövlət məktəbində işləmişəm. Hədəf konsepti əsasında lisey qurmuşam. Yeddi-səkkiz il əvvəl liseyin qurulma prosesinə başlayanda siz dediyiniz kimi qiymətləndirmə və ev tapşırığına qarşı çıxdıq. Bütün stereotipləri sındırmağa çalışdıq. Beləcə, liseyimiz fəaliyyətə başladı. Bu mövzuda ciddi çətinliklə qarşılaşırıq. Evə tapşırıq və kitab vermirik deyə hamı narahat olur ki, uşaq evə tapşırıq, kitab gətirmir. Valideynlər soruşurlar ki, niyə qiymətləndirmə aparılmır? Düzdür, inandıra bilmişik, amma hələ də zaman-zaman bu problemlə qarşılaşırıq. Məcbur olub ildə iki dəfə imtahan salmalı olduq. Çünki bayaq dediyim kimi valideynlərdən asılıyıq və onlar tərəfindən ciddi təzyiqlərə məruz qalırıq.

– Bu problemlə biz də qarşılaşırıq. Valideynlərə başqa məktəblərdən nümunə gətirməklə etiraz edirik. Göstəririk ki, bu yanaşma başqa məktəblərdə işə yarayır. Tədqiqat işlərindən çıxarışlar gətiririk ki, səbəbi anlasınlar. Müəllimlərimiz də arxamızda durur. Beləcə, inamla deyirik ki, bizim məktəbi bəyənmirsinizsə, istədiyiniz formada tədris verən başqa məktəblər var. Siz də bu şəkildə – yavaş-yavaş valideynlərin etimadını qazanmağa çalışmalısınız. Hətta o səviyyədə ki asılı olsanız belə, özünüzü elə apara bilərsiniz ki, istəməyən başqa məktəbə gedə bilər. Necə ki Sinqapur sistemi birdən-birə dəyişmir, siz də eləcə – bir gün içində dəyişməli deyilsiniz. Qeyd etdiyiniz kimi, yerli təhsil sistemindən

daha fərqli yanaşma ortaya qoymusunuz. Bunu yavaş-yavaş dəyişə bilərsiniz. Məsələn, bir neçə məktəb varsa, birində dəyişikliyə getmək mümkündür: prosesin gedişini izlmək üçün. Məktəbi tam əhatə etməyə də bilər, müəyyən hissəsi, departamenti, fənni olsun... Beləcə, yavaş-yavaş valideynlərin reaksiyasını öyrənə bilərsiniz.

Mən də bir valideyn kimi uşağımı bu sistemdə oxutmuşam. İndi çox yaxşı bir universitetdə təhsil alır. Onun qiymətləri ilə maraqlanmırdım; bilirdim ki, yaxşı olacaq, harasa qəbul olacaq, amma özümə də elə gəlirdi, qızımın qiymətləri zəifdir. Düşünürdüm ki, əslində, daha savadlıdır. Bunu valideyn rakursundan özüm də başa düşürəm, amma direktor kimi də valideynlərə yavaş-yavaş başa salıram.

– Tamamilə haqlısınız. Problemin yalnız Sinqapurda olduğunu düşünmürəm. Bizdə Dövlət İmtahan Mərkəzi, qəbul imtahanı prosesi var, sanki insanlar hər şeyi atıb yalnız ona köklənir. O imtahan da çox çətin olduğu üçün valideyndə narahatlıq yaradır ki, birdən uşağım universitetə qəbul olmaz. Hamının uşağının universitetə qəbul olmasını istəməyi bütövlükdə Şərqin problemidir. Azərbaycanın və Şərqin. Qızımla oğlum da öz liseyimizi bitirib və sizinlə eyni düşüncədəyəm: əsas odur, nəticə uğurludur.

– Bizdə də buna oxşardır, sonda IB imtahanı verirlər və s. Məsələ belədir ki, imtahanı dəyişə bilməzsən, uşaqlar bu vacib imtahanı verməlidirlər.

Siz isə hər il imtahan-imtahan uşağı əsas imtahan üçün hazırlaya bilərsiniz, ya da elə bu sistemdə. Biri işləyir, biri işləmir deyə yox, yəni əminsinizsə ki, təhsil sisteminiz uşaqları, həqiqətən, o imtahana hazırlayır, onda problem olmayacaq. Sisteminizə etibar edirsinizsə, onu yavaş-yavaş başqalarına da ötürə bilərsiniz.

– Müəllimin keyfiyyətinin ölçülməsi bizim üçün çox maraqlıdır. Tədris ilinin sonunda bir müəllimin işi nə yerdədir, inkişaf hansı mərhələdədir, necə öyrənmək olar? Ümumiyyətlə, müəllimi necə qiymətləndirmək lazımdır?

– İki ildən bir müəllimləri yoxlayırıq. Üstəlik çox informativ yanaşmadır. Çünki onları hansısa testdən keçirmirik, ya da kimsə gedib dərslərdə oturub yoxlamır ki, necə dərs keçirlər və s. Arada belə dərslərə girənlər olur, amma onların məqsədi müəllimin necə dərs keçdiyini yoxlamaq deyil, başqa şeydir. Çox şəffaf sistem qurulub. Müəllimdə, yaxud sinifdə problem varsa, qısa müddət ərzində qulağımıza gəlib çatacaq. Müəllimlərin xüsusi qiymətləndirilməsinin bizə çox xeyri dəyəcək, nəinki daha yüngül sistemin olması. Müəllimlər mühitin toksik olmadığını hiss edəndə dərs keçmək üçün daha yüksək motivasiyaları olur, nəinki belə düşünəndə: "Buna baxın, hər dərsimizə nəzarət edirlər..."

– Yəni iki ildən bir hansısa akkretidasiya, bacarıqları yoxlamaq üçün yazılı imtahan olmur?

– Yox, hansısa test formasında imtahan təşkil edilmir.

**– Bu məqamda müəllim arxayınlıqla bu prosesə qatıla bilər?**

– Çox xoşbəxtik ki, burada müəllim olmaq istəyənlər hədsiz çoxdur. Bir vakansiya üçün iki yüzdən çox müraciət olur. Ona görə arxayınıq; müəllimlər özləri də bilirlər ki, bu işi istəyən nə qədər şəxs var.

Əlbəttə, razıyam ki, belə yüngül sistem müəllimlərdə müəyyən qədər arxayınlıq yarada, inkişafdan qalmalarına səbəb ola bilər. Belə olanda bu kimi əməkdaşları işdən azad edərik. Amma ümumlikdə, müəllimlər özləri də başa düşürlər ki, burada işləmək üçün necə intizamlı, çalışqan olmaq lazımdır. Müəllim var ki, direktor vəzifəsinə kimi gedib çıxır. Ümumilikdə isə elə formalaşmayıblar ki, onları yoxlayan sistemin olmadığını görüb işdən yayınsınlar.

**– Ümumiyyətlə, valideynlər, cəmiyyət bu təhsildən, məktəbdən nə gözləyir? Nə gözləməlidirlər? Çünki adətən, uşaqlar məktəbdə xoşbəxt olmurlar, yaxud bəzən məktəbdə həyatı öyrədə bilmirik. Məktəb bizə nə verməlidir?**

– Bir valideyn kimi özümün də yanaşmam odur ki, uşaqlar məktəbə gəlməyə həvəslidirlərsə, burada yaxşı vaxt keçirirlərsə, deməli, qalan hər şey həll olunacaq. Məsələn, bəzən şənbə günü də işə gəlirəm və məktəbdə iki yüz-üç yüz nəfər şagirdin əlavə dərs, dərnəklərlə məşğul olduqlarını görürəm. Bir də baxıram ki, bir qrup şagird bağçada oynayır. Yaxınlaşıb soruşuram ki, nə əcəb gəlmisiniz,

niyə buradasınız? Cavab verirlər ki, sadəcə burada olmağı sevirlər, məktəbdə olmaq onlara xoşdur. Mənim üçün önəmli olan budur, bu nəticə... Deməli, nə vaxtsa digər şeylər də düzələcək. Təbii ki, təkcə akademik cəhətə fokuslansaq, uşaqlar xoşbəxt olmayacaq, kimsə riyaziyyatı riyaziyyat olduğuna görə sevməyəcək. Bir növ toyuq-yumurta məsələsində olduğu kimidir; bir-birindən ayrılmır. Lazımlı öyrədilməli şeylər orada olacaq, amma maraq yoxdursa, həmin lazımlı şeylər də olmayacaq, təkcə maraq varsa və lazımlı şeylər öyrədilmirsə, bu da düzgün deyil – yəni ikisi paralel olmalıdır.

**– Beynəlxalq məktəb olaraq Sinqapurun adından beynəlxalq PISA qiymətləndirməsində iştirak edirsinizmi? Finlandiya və Koreya təhsil modelləri tam fərqlidir, amma son iyirmi ildəki qiymətləndirmədə hər ikisi ilk beşlikdə olur. Buna necə baxırsınız?**

– Həmin qiymətləndirmədə iştirak etsək də, bizim üçün çox maraqlı deyil. Məsələn, valideynlərə heç göstərmirəm, o sistemlə nəticələrimiz necə olub. Hər il göstərilir ki, Sinqapur sistemi hansı yerdədir, dünya sistemi hansı. Bizim sistemimiz ən yuxarıda olur. Bu qiymətləndirmə ona görə yaxşıdır ki, bir növ idarə heyətinin motivasiyası olur.

Bizim çox şanslı olduğumuzun da fərqindəyəm: Sinqapur kimi ölkədəyik. Şagirdlər, hətta valideynlər özləri də çox çalışqan olduqları üçün bizim uşaqların da genində çalışqanlıq yatır. Ona görə də bilirəm ki, bu sistemi hər yerdə, hər ölkədə yaratmaq olmaz.

Koreya sistemini bəyənmirəm, çünki onların yaratdığı sistem uşaqları intihara aparır, ona görə də nə etsələr də, işə yaramır. Bəlkə də, məqsəd yaxşıdır, amma sistemlərini bəyənmirəm. Finlandiyada isə fərqli millətdən olan uşaqlar çox deyil. Yəni hamının mentaliteti eyni yöndədir. Əslində, son illər göstəriciləri də aşağı düşür. Amma bu onları maraqlandırmır, öyrətməyə çalışdıqları şey başqadır.

– Maraqlı söhbət və ayırdığınız vaxt üçün təşəkkür edirik! Üstəlik sizi Azərbaycanda görmək arzusudayıq!

*Sinqapur*

# İÇİNDƏKİLƏR


İLHAM ƏLİYEV VƏ ORTAQ TÜRK DİLİ .................................... 7

YEDDİ TÜRK DÖVLƏTİNİN BEŞLİK MESAJI ............................ 22

NAĞILLAR DİYARI TÜRKMƏNİSTAN .................................... 32

BU MİLLƏTİ BÖLÜCÜLÜYƏ SƏSLƏMƏYİN! ......................... 49

MİLLİ BREND QORXUSU ....................................................... 63

KİRVƏLİK ƏNƏNƏSİNİN NƏ TÜRKLƏRƏ,
NƏ DƏ İSLAMA AİDİYYƏTİ VAR... ........................................ 66

DETEKTİV ROMAN VƏ CİDDİ ƏDƏBİYYAT ANLAYIŞLARI .... 78

DETEKTİV JANRI: REALLIQLAR VƏ PERSPEKTİVLƏR ............. 92

ÜÇ GÜNLÜK ƏDƏBİYYAT, YOXSA BÖYÜK BAŞLANĞIC? .... 104

“KİTAB YÜKLÜ EŞŞƏK” ROMANI KİMİNDİR? ......................... 114

BÖLGƏLƏRƏ KİTABLA GƏLİRİK! ........................................ 123

OXUMAQ TƏHLÜKƏLİDİR! .................................................. 131

KİTAB-KİTAB BÖYÜYƏK! ...................................................... 135

TARİXİ ROMAN MÜƏLLİFİ QONAĞIMIZDIRSA... ................ 143

GƏLİN VAQİF UCATAYA NİFRƏT EDƏK! ............................... 147

QORQUD ATANIN PIÇILTISI ............................................... 154

TEATRIMIZIN DİRİLİŞİ .......................................................... 156

MİLLƏT KİMİ ADAM ........................................................... 160
SERTİFİKASİYAMI, PEDAQOJİ KADRLARIN
PERFORMANS DƏYƏRLƏNDİRİLMƏSİMİ? ......................... 167
SERTİFİKASİYA SUALLARI STANDARTLARA UYĞUN DEYİL VƏ
YA ONLAR MÜƏLLİMLİYƏ NECƏ QƏBUL OLUNUBLAR? ... 179
REPETİTORLUQ TƏHSİLİMİZİ NİYƏ AĞUŞUNA ALIB? ........ 188
TƏHSİL GÜZƏŞTİ, MOTİVASİYANI,
İNAMI SEVİR, STRESİ YOX! ................................................ 200
MÜƏLLİMLƏRİN İŞƏ QƏBULU İMTAHANLARINDA
NƏ BAŞ VERİR?! ................................................................ 203
RUS BÖLMƏLƏRİNDƏ AZƏRBAYCAN DİLİNİN SAATI
ARTIRILMALIDIR ................................................................. 211
SİNQAPUR TƏHSİLİ –
GÖYDƏLƏNLƏR VƏ YERDƏLƏNLƏR ................................. 217
AZƏRBAYCAN REPETİTORLARI
SİNQAPUR REPETİTORLARINDAN ZƏİFDİR... .................... 231
MÜƏLLİMLƏR RESTORANDAKI ŞEF KİMİDİRLƏR... ........... 237
VALİDEYNLƏR BÖYÜK PROBLEM OLSALAR DA,
YEGANƏ PROBLEM DEYİLLƏR! ......................................... 250

Çapa imzalanıb: 22.08.2024
Formatı: 1/8 Ofset çapı
Həcmi: 33.5
Sifariş № 1341

NƏŞRİYYATI

Tel: (+99477) 330 01 34
www.xannesrleri.az